www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 iyul 2014-cü il Cümə № 170 (5879) Qiyməti 40 qəpik

**Xəbər**

## Azərbaycan konsulunun adı maşın nömrəsi qalmaqalında

yazısı səh.2-də

**Gündəm**



### Olası müharibədə Naxçıvan cəbhəsi əsas rol oynayacaq

Ermənilərlə müharibədə Naxçıvan cəbhəsinin əhəmiyyəti barədə Elçibəy iqtidarı və Türk Silahlı Qüvvələri ortaq rəyə və plana malik olublar; təsbitlər indi də aktualdır və hazırlıqlar gedir

yazısı səh.5-də

### Xalqın və İlham Əliyevin Tovuzdakı düşmənləri

yazısı səh.4-də

### Moskva Azərbaycana qorxulu sürpriz edə bilər

yazısı səh.6-də

### Putin Azərbaycanı Ermənistandan öncə Avrasiya İttifaqına qoşmaq istəyir

Tanınmış politoloq İrəvanın qapıda saxlanmasının şok sirrini açdı

yazısı səh.7-də

### "Minval" qəzetinin ilk sayı bu gün satışda olacaq

yazısı səh.3-də

### "Akkord"da şok korrupsiya faktları...

Şirkətin bir departamentində 20 milyon manata yaxın yeyinti aşkarlanıb

yazısı səh.13-də

### Prezidentlərin növbəti görüşü Parisdə baş tuta bilər

Politoloqlar Qarabağ danışıqları üçün yeni perspektivlər açıldığını deyir

yazısı səh.11-də

### BP yalan danışır, yoxsa ARDNŞ?

yazısı səh.13-də

### Braziliyanın rəngi bu gecə sarala bilər

yazısı səh.15-də

**Ramazan ayının 6-cı günü**

İftar 21.30 İmsaq (azan) 4.46 (QMİ-nin cədvəli)

6-cı günün duası: "İlahi, məni bu gün Sənin sözündən çıxıb, günah etməklə xar və zəlil etmə! Qəzəb şallaqları ilə məni vurma! Məni bu gün qəzəbinə səbəb olan günahlardan Öz minnət və qüdrətinlə uzaqlaşdır! Ey, arzu edənlərin son Arzusu!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Liviya və Suriya fəlakətlərindən sonra 3-cü batış qapıda!

# OLİQARXLARIMIZIN İRAQDAKI BİZNESİ TƏHLÜKƏDƏ - ÖZƏL XƏBƏR

Bəylər Əyyubovun patronajlığı altında olan iş adamları İraq Kürdüstanının hotel və kazino biznesinə, tikinti sektoruna böyük paralar yatırıblar; İraq hökuməti İŞİD-i zərərsizləşdirə bilməsə, azərbaycanlı oliqarxların pulları bata bilər

yazısı səh.7-də



## Həbsdəki vitse-admiral mafiya babası çıxdı - himayəçilərinin siyahısı

**Bəxtiyar Məmmədov:** "Təlim karterini Səfər Əbiyevin istirahət yaxtasına çevirdi"; "Şahin Sultanovu himayə edən məmurlar cəzalandırılsın!"

yazısı səh.10-da



### Prezident səfirləri Bakıya çağırdı

yazısı səh.2-də



*İqbal Ağazadə:*

### "Hərənin öz "İhtiyarı" var"

yazısı səh. 8 və 9-da



### "Yeni Müsavat" Hacıbala Abutalıbovu məhkəməyə verir

yazısı səh.3-də

## Prezident səfirləri Bakıya çağırdı



**Yaxın günlərdə prezident İlham Əliyevin iştirakı ilə Azərbaycanın xarici ölkələrdəki səfirləri ilə geniş toplantısı keçiriləcək . Bu barədə diplomatik mənbələrdən modern.az saytına məlumat verilib. Məlumata görə, diplomatik korpusun toplantısında Azərbaycan üçün mühüm olan məsələlər ətrafında fikir mübadiləsi aparılacaq və müvafiq tapşırıqlar veriləcək.**

Qeyd edək ki, Azərbaycan dövlət başçısının ötən illərdə diplomatlarımızla bir neçə dəfə belə görüşləri olub.

Xarici İşlər Nazirliyi Azərbaycanın xarici ölkələrdə fəaliyyət göstərən səfirlərinin Bakıya çağırılması ilə bağlı xəbərə münasibət bildirib.

Nazirliyin mətbuat xidmətinin rəhbəri Elman Abdullayev azvision.az-a açıqlamasında bu barədə rəsmi qərarın qəbul edilmədiyini diqqətə çatdırıb.

"Bu məsələ ilə bağlı bizə çoxlu sayda müraciətlər daxil olur. Qeyd edim ki, bu barədə hər hansı qərar qəbul olunmayıb. Əgər qərar qəbul edilsə, biz bu haqda məlumat verəcəyik".

## Maaşlarını ala bilməyən fəhlələr "Yeni Müsavat"a üz tutdular

**Quba və Qusar sakinləri Feyruz Şirəliyev və Ziyadxan İbrahimov "Yeni Müsavat"a şikayət məktubu ilə müraciət edib. Şikayətçilər qeyd edirlər ki, 8-ci kilometr bazarı yaxınlığında, "LOTOS" ticarət mərkəzi ilə üzbəüz tikintidə fəhlə işləyirlər. Onların sözlərinə görə, ay yarımdır ki, əmək haqlarını ala bilmirlər. Tikinti rəhbərinin F.Şirəliyevə 330, Z.İbrahimova 340 manat borcu var. Fəhlələr qeyd edirlər ki, Nizami Rayon Polis İdarəsinin 24-cü polis bölməsinə də şikayət ediblər. Polisdən onlara məhkəməyə müraciət etmələri məsləhət görülüb. Fəhlələr bildirdilər ki, onlar ay yarımdır işsizdirlər, kirayə borcunu belə ödəyə bilmirlər:**

"Artıq ay yarımdır ki, bu tikintidə işləyirik. Bu müddət ərzində olan maaşımızı vermirlər. Fəhləyik, ailəmiz var, dolanışıq çox çətindir. Özümüz də kirayədə yaşayırıq. Kirayə haqqını belə verə bilmirik. Bu qədər haqsızlıq olmaz axı. İşləmişik, pulumuzu versinlər də. Fəhləyik deyə, bizi işlədib, pulumuzu verməmək nə deməkdir. Biz sizin qəzet vasitəsilə həmin tikinti rəhbərinə səslənirik ki, pulumuzu versinlər. Çox çətin vəziyyətdəyik".

Onlar iş icraçıları Altay və Əziz adlı şəxslərə maaşla bağlı müraciət etsələr də, heç bir reaksiya gəlmədiyini deyirlər.

Şikayətçilərin dedikləri ilə bağlı Altay müəllimlə əlaqə saxladıq. O bildirdi ki, təkcə bu fəhlələr yox, ümumiyyətlə, bu tikintidə işləyən işçilər bir aydır ki, maaş ala bilmirlər. Onun sözlərinə görə, baş ofisdən əmək haqları göndəriləcək və bu həftə ərzində fəhlələrin maaşı veriləcək.

❑ NƏRGİZ

## ABŞ səfirliyi müstəqillik tədbiri keçirdi

**ABŞ-ın Azərbaycandakı səfirliyi öz ölkəsinin müstəqillik günü ilə bağlı tədbir keçirib. Etatist.com-un məlumatına görə, tədbirlə əlaqədar səfirlikdə təhlükəsizlik tədbirləri gücləndirilib. Səfirliyin qarşısında əli silahlı mühafizəçilərin və polis qüvvələrinin sayı artırılıb.**

Azadlıq prospektinin səfirliyin qarşısında olan hissəsində avtomobillərin saxlanılmasına imkan verilməyib. Tədbirdə yüksək vəzifəli dövlət məmurları və müxalifət liderləri də iştirak edib. ABŞ öz müstəqilliyini 1776-cı ildə iyulun 4-də elan edib.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

## Sabir Rüstəmxanlının oğluna vəzifə verildi



**Nəqliyyat Nazirliyi "Azəryolservis" ASC-də yeni təyinat olub. Lent.az xəbər verir ki, nəqliyyat naziri Ziya Məmmədovun imzaladığı əmrə əsasən, Cəmil Rüstəmxanlı "Azəryolservis"də beynəlxalq əlaqələr idarəsində qrup rəhbəri təyin edilib. O, bu vəzifəyə bir müddət öncə təyin olunub.**

Qeyd edək ki, Cəmil Rüstəmxanlı millət vəkili, xalq şairi Sabir Rüstəmxanlının oğlu, nəqliyyat naziri Z. Məmmədovun qardaşı İldırım Məmmədovun kürəkənidir.

"Əvvəla, Cəmil "Azəryolservis" ASC-də işləyir, bunun nəqliyyat naziri Ziya Məmmədova nə aidiyyəti? Digər tərəfdən, Cəmil bir neçə ildir ki, o idarədə çalışır və hazırda bir neçə xarici dil bilməsi, mütəxəssis olması və xaricdə təhsil alması nəzərə alınaraq, qrup rəhbərliyi ona həvalə edilib".

Bunu axar.az-a millət vəkili Sabir Rüstəmxanlı oğlu Cəmil Rüstəmxanlının "Azəryolservis"də beynəlxalq əlaqələr idarəsində qrup rəhbəri təyin edilməsi barədə xəbərə münasibət bildirərkən deyib. Millət vəkilinin sözlərinə görə, bunu hansısa vəzifə və ya qohumluq əlaqəsi ilə bağlamaq ayıbdır:

"Mənim oğlumdur deyə, işsiz qalmalıdır? Onsuz da qohum-əqrəbada xeyli gəncimiz işsizdir. Məgər bizim övladlarımız bu ölkədə yaşamır? Onlardan hansısa birinin iş alması vəzifə kimi niyə bu qədər hallandırılır?"

## Ömürlüklərin cəzasını müddətli həbslə əvəz etmək olar

**Millət vəkili İqbal Ağazadə bir müddət əvvəl vaxtilə ölüm hökmünün ləğvi nəticəsində ömürlük həbsə məruz qalanların cəzasının yüngülləşdirilməsi təklifi ilə çıxış edib. Onun fikrincə, vaxtilə ölüm hökmü alanların hər birinə yeni məhkəmələr qurulmalıdır. Bu məsələyə münasibət bildirən Əfv Komissiyasının üzvü, deputat Azay Quliyev «Media forum» saytına deyib ki, öncə Cinayət Məcəlləsində ömürlük həbsə alternativ cəza növləri əksini tapmalıdır:**

«Vətəndaşın öz hüquqlarını qorumaq üçün aşağı məhkəmə instansiyasından tutmuş Ali Məhkəməyə, Ali Məhkəmənin Plenumuna, o cümlədən Konstitusiya Məhkəməsi və Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etmək hüququ var. Kim hesab edirsə ki, ona verilən cəza törətdiyi cinayətə adekvat deyil, daha ağırdır, buna görə məhkəmələrə müraciət etməli, məsələ məhkəmə qaydasında həllini tapmalıdır. Ancaq Cinayət Məcəlləsində 30, 40, 50 il cəza növü əksini tapsa, hakimin ömürlük əvəzinə adekvat variantlardan istifadə imkanı yaranar. Ömürlük məhbuslar mövzusu Milli Məclisin Dövlət quruculuğu və hüquq siyasəti komitəsində müzakirə edilən zaman alternativ cəza ilə bağlı təkliflər səsləndirmişəm. Avropada, Amerikada bu cür sistem tətbiq edilir. Bizdə də ömürlük həbsi müddətli həbs cəzası ilə əvəz etmək olar".

**Deputat Siyavuş Novruzov isə deyib ki, ömürlük məhbusların işinin asan həll yolları var:** «Həmin şəxslər Əfv Komissiyasına və məhkəmələrə müraciət etməlidir. Dünya təcrübəsində var: həbsdə olduğu müddətdə davranışında və digər fəaliyyətində qanun pozuntusu olmayan şəxsin ömürlük həbs cəzası müddətli cəza ilə əvəz edilir. Vaxtilə ölüm hökmü almış ömürlüklər də yuxarı məhkəmə instansiyalarına müraciət etməlidir. Həbs müddətini nizamlı formada çəkən şəxslərə əfv verilməsi də mümkündür».





## "Ailəmin gözlərinə baxa bilmirəm - ölmək istəyirəm" - Bakı fəhləsi

### Keşlə Yük Stansiyasının fəhlələri fəryad edir; burada məmur özbaşınalığı meydan sulayır; işçilər aksiyaya hazırlaşırlar

**Keşlə Yük Stansiyasının fəhlələri rəhbərliklə bağlı şikayətlərini yuxarı orqanlara çatdırmaq üçün "Yeni Müsavat"dan kömək istəyiblər. Onlar bildiriblər ki, Yük Stansiyasının fəhlələri olmalarına baxmayaraq, rəhbərlik kənar şəxslərdən rüşvət alaraq, işə başqa insanları cəlb edir. Nəticədə onlar işsiz vəziyyətdə qalıblar. Fəhlələr onu da bildiriblər ki, yaxın günlərdə bununla bağlı aksiya keçirəcəklər.**

**Keşlə Yük Stansiyasının işçisi Mirzəməmmədov Zaman Nəsir oğlu** problemlərinin həll olunmayacağı təqdirdə, ölkə vətəndaşlığından imtina edəcəklərini bildirdi: "Bununla bağlı dəfələrlə aidiyyəti orqanlara şikayət etsəm də, məhəl qoyan olmayıb. Özüm ali təhsilliyəm. Uzun müddət Rusiyada yaşamışam. İşsizlik probleminə görə Rusiya səfirliyinə getdim. Azərbaycan polisləri mənə qarşı özbaşınalıq edərək, çölə atdılar. Qanunlarımızı kobudcasına pozurlar. Bu işlərin başında duran Keşlə Yük Stansiyasının rəhbəri Maarif müəllim, köməkçiləri Camal, Zaman, stansiyada işləyən polislər Asif və Sənandır. İnanıram ki, bu qanunsuzluqlar öz ədalətli həllini tapacaq. Maarif müəllim mənə açıqca "get kimə şikayət edirsən et, Azərbaycanda qanun bizik", dedi. Ölkəmizdə yaşamaq hüququmuzdur. Ölkə rəhbərliyinin hər bir vətəndaşın haqqını qorumaq vəzifə borcudur. Prezidentimizin Əmək müqaviləsi haqqında sərəncamı var. Bu sərəncamı, Maarif kimiləri başda olmaqla, pozurlar. Cənab prezident, xahiş edirəm ki, bizə kömək olun. Aylıq 50 manat kirayə haqqını belə verə bilmirəm. Rəhbərlikdən tələb edirik, qanunsuz əməllərindən əl çəksin. Əks təqdirdə, stansiyanın qarşısında aksiya keçirəcəyik. Problemlərimiz yenə həll yolunu tapmasa, Azərbaycan vətəndaşlığından imtina etmək məcburiyyətində qalacağıq və imtina edəcəyik".

**Yük Stansiyasının fəhləsi Əmanov Rəşad Xeyrulla oğlu ailəli olduğunu və onları dolandıra bilmədiyinə görə intihar etmək dərəcəsinə gəldiyini söylədi:** "Keşlə Yük Stansiyasında acınacaqlı vəziyyətdir. Oranın qeydiyyatında olsaq da, bizə iş verilmir. Hər kəs öz adamını gətirib, işə qoyur. Maklerlər hər ay ora 300-400 manat rüşvət verib, öz adamlarını gətirib işə qoyurlar. Biz isə acımızdan ölürük. Ailəliyəm, iki övladım var. Ailəmi atamın evinə qoyub, guya ki, pul qazanmağa gəlmişəm. Burda da iş yoxdur. Sizdən xahiş edirik ki, şikayətlərimizi yuxarı orqanlara çatdırmaqda bizə kömək edəsiniz. Yuxarı orqanlar korrupsiyanın, rüşvətin olmadığını deyirlər. Amma biz rüşvətə görə iş tapmırıq. Prezidentimizə müraciət edib, xahiş edirəm ki, bizə kömək olsun. Ailəmin acından ölməsinə göz yummasın. 14 ildir ki, orada işləyirəm. Boşaltdığımız vaqonun qiyməti 600 manatdır. Amma bizə 150 manat verirlər. Bu pul isə 8 nəfər arasında bölüşdürülür. Xahiş edib, yalvarıram ki, bizə hər kəs kömək etsin. Ailəmin gözlərinə baxa bilmirəm. Belə həyat olmaz. Artıq ölüm mənim üçün adi olub. Elə bir həddə gəlmişəm ki, özümü öldürmək istəyirəm".

**Fərzəliyev Turqut Rəfail oğlu 4 aydır ki, Bakıda olduğunu, bu aylar ərzində cəmi 4 dəfə stansiyada ona iş tapşırıldığını diqqətimizə çatdırdı:** "4 aydır ki, Bakıdayam. Cəmi 4 dəfə işləmişəm. İnsan deməyə söz tapa bilmir. Gəldiyim gündən şəxsiyyət vəsiqəmi aldılar. İndi özümə də qaytarmırlar. Nə də işləməyə imkan vermirlər. Açıq-aşkar adımıza gələn iş kartlarını əlimizdən alıb, vermirlər. Bilmirik ki, nə qədər maaşımız var. Qəzetiniz vasitəsilə prezidentimizdən xahiş edirəm ki, bizə kömək etsin. Bu qədər ədalətsizlik olmaz. Axı biz də insanıq".

Sonda şikayətçilər Keşlə Yük Stansiyasının fəhlələrinin şəxsiyyət vəsiqələri, iş kartlarının alındığını və geri qaytarılmadığını bildirdilər.

❑ Cavanşir ABBASLI

## Leyla Əliyeva Moskvada iftar verdi

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın adından Moskvada dindarlar üçün iftar süfrəsi açılıb.**

"Qafqazinfo" xəbər verir ki, artıq beşinci dəfədir ki, Leyla Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyi Rusiya Müftilər Şurası tərəfindən Moskva hökumətinin dəstəyi ilə təşkil edilən nadir "Ramazan çadırı" xeyriyyəçilik və mədəni-maarif layihəsində fəal iştirak edir. Gecəyə Azərbaycan diasporunun nümayəndələri, müxtəlif millətlərdən olan və oruc tutan insanlar toplaşıb.

Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin əməkdaşı Ayan Həsənova «AzərTAc»a bildirib ki, ənənəyə görə, müqəddəs Ramazan ayında bir gün Leyla Əliyevanın adından dindarlar üçün iftar süfrəsi açılır.

## Azərbaycan konsulunun adı maşın nömrəsi qalmaqalında

**Latviya mətbuatında belə bir xəbər yayılmışdı ki, Azərbaycanın konsulu özünün şəxsi avtomobilinə diplomatik nümayəndəliyə məxsus dövlət nömrə nişanını bağlayaraq diplomat adına yaraşmayan hərəkətlərə yol verib.**

Öz növbəsində Azərbaycan mətbuatı da N.Sadıqovun Azərbaycana çağırıldığı və onunla həm Xarici İşlər, həm də Milli Təhlükəsizlik nazirliklərində "profilaktik söhbət" aparıldığı barədə xəbərlər yaydı.

Xəbərə görə, Bakıda aparılan bu söhbətlərdən sonra N.Sadıqov diplomatik nömrə nişanını özünün 80 min dollarlıq "Porsche Cayenne" markalı maşınından açıb.

Virtualaz.org saytı bu qalmaqalla bağlı Latviyadakı mənbələrindən yeni məlumatlar alıb. Qaynaqlarımız azərbaycanlı diplomatın bu cür yolverilməz addımı barədəki xəbərləri təsdiqləyiblər.

Riqadakı mənbələrimiz bildiriblər ki, Azərbaycanın konsulunun diplomat adına yaraşmayan bu hərəkətləri, onun diplomatik etiket qaydalarını kobud şəkildə pozması Latviya Daxili İşlər Nazirliyinin və yerli xüsusi xidmət orqanlarının diqqətini dərhal cəlb edib. Nəticədə faktla bağlı məlumat bu ölkənin yerli aparıcı nəşrlərinin səhifələrinə düşüb.

Azərbaycan Xarici İşlər Nazirliyi mətbuat xidmətinin rəhbəri Elman Abdullayev virtualaz.org saytına açıqlamasında bildirib ki, nazirlik bu məsələni araşdırmaqla məşğuldur. XİN sözçüsü konsulla bağlı qalmaqalın yarandığını bununla dolayısı ilə təsdiqləyib.

Xatırladaq ki, Nicat Sadıqov orta çəkili oliqarxlardan biri hesab edilən və uzun müddət Ağdam Rayon İcra Hakimiyyətinin başçısı işləyən Nizami Sadıqovun oğludur. Konsulla bağlı xəbərlər yayılandan sonra ölkə mətbuatında Nizami Sadıqovun Bakıdakı "İzmir" restoranını 8 milyon manata satmaq istəməsi ilə bağlı xəbərlər yayılmışdı. Restoranın satılıb-satılmadığı haqqında əlavə məlumat yoxdur.

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014

# Günün içindən



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!




## "Minval" qəzetinin ilk sayı bu gün satışda olacaq

**Rus dilində yayın yapan minval.az saytı həftədə bir dəfə olmaqla, qəzet şəklində yayına çıxarılacaq. "Minval" qəzetinin ilk sayı bu gündən - iyulun 4-dən etibarən Bakı şəhərinin köşklərində olacaq.**

Bu barədə musavat.com-a minval.az saytının və yeni rusdilli "Minval" qəzetinin təsisçisi Rauf Arifoğlu məlumat verib.

O deyib ki, bu addımı ancaq iqtisadi maraqlara görə atırlar: "Minval.az saytı kifayət qədər oxucusu olan ciddi bir yayın orqanıdır. Sayt Azərbaycandan kənarda da tanınır. Lakin mənim təsisçi, İlkin Qəmbərin baş redaktor olması səbəbindən sayta reklam cəlb edə bilmirik. Əslində müxalifətçi olmayan bir saytı bizə görə müxalifətçi qismində qəbul edib, reklam verməkdən çəkinirlər. Bu səbəbdən də sayt rentabelli deyil.

Biz düşündük, rusdilli məkana aid qəzet bazarını öyrəndik və qərara gəldik ki, özümüzü yoxlamaq üçün yaxşı imkanlar var. Minval.az saytının kollektivi qısa zaman ərzində qəzetin yayım konseptini, maketini, səhifələrin təyinatını hazırladı. Bir neçə sınaq sayı da buraxdıq. İndi biz inanırıq ki, rusdilli vətəndaşlar üçün maraqlı qəzet buraxa biləcəyik. Həm də iddiamız var ki, bir neçə min nüsxə qəzet satıb, az da olsa, maddi fayda əldə edəcəyik ".

R.Arifoğlu dedi ki, qəzet MİNVAL adlanacaq, onu eyni adlı saytın kollektivi çıxaracaq.

Bir daha xatırladırıq ki, rusdilli oxucular üçün nəzərdə tutulan "Minval" qəzetinin ilk nömrəsi bu gün - 4 iyulda satışda olacaq.

❑ **Musavat.com**

## "Yeni Müsavat" Hacıbala Abutalıbovu məhkəməyə verir

### Meriyanın Fərahim İlqaroğlu aksiyasına əsassız olaraq icazə verməməsi ilə bağlı məhkəmə çəkişməsi başlanır; jurnalistə sui-qəsd edənlərin istintaqdan yayındırılmasına etiraz olaraq keçiriləcək aksiya isə gələn həftəyə keçirildi

**"Yeni Müsavat" qəzeti Bakı Şəhər İcra Hakimiyyətini (BŞİH) və mer Hacıbala Abutalıbovu məhkəməyə verməyə hazırlaşır. Buna səbəb qəzetin və musavat.com kollektivinin jurnalist Fərahim İlqaroğlunun döyülməsi və cinayətkarların istintaqdan yayındırılmasına etiraz olaraq keçirəcəyi aksiyaya BŞİH-in icazə verməməsidir.**

Məlum olduğu kimi, meriya və H.Abutalıbova qanuna müvafiq qaydada müraciət olunmuşdu. Məktub-müraciətdə qeyd edilirdi ki, müxbirimizin həyatına sui-qəsdi təşkil edən Aynar Məmmədov nəqliyyat naziri olan əmisi Ziya Məmmədov tərəfindən himayə olunur, istintaqdan qorunur.

Ona görə də deputat qardaşı Elton Məmmədovun oğlunu xilas etmək üçün istintaqa təzyiq göstərən Ziya Məmmədovun rəhbəri olduğu Nəqliyyat Nazirliyi qarşısında piket keçirməyə imkan yaradılsın.

***

Ancaq mer Hacıbala Abutalıbov və BŞİH Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Zaur Ramazanovun imzası ilə "Yeni Müsavat"ın məktubuna cavabda bildirilib ki, müraciətiniz "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun tələbinə cavab vermir. Məktubda qeyd edilib ki, qeyd etdiyiniz məsələ ilə bağlı aksiya keçirmək deyil, aidiyyəti orqanlara müraciət etməlisiniz: "Həmçinin qeyd edirik ki, müraciətinizdə qaldırılan məsələlərə baxılmaq üçün məktubunuz tərəfimizdən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinə və Nəqliyyat Nazirliyinə göndərilmişdir. Qeyd olunanları nəzərə alaraq, 04 iyul 2014-cü il tarixdə Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi qarşısında piketin keçirilməsi məqsədəuyğun hesab edilmir".



***

Bu cavaba görə də "Yeni Müsavat" Abutalıbovu və meriyanı məhkəməyə verməyi qərara alıb. Qəzetin baş redaktoru Rauf Arifoğlu qeyd etdi ki, hüquqşünaslarla məsləhətləşmə aparılıb və sənədlərin hazırlanıb məhkəməyə göndərilməsi prosesinə başlanıb.

**Baş redaktorun sözlərinə görə, kollektivlə məsləhətləşmədən sonra paralel olaraq aksiya ilə bağlı yenidən BŞİH-ə müraciət olunması qərarı verilib:** "Meriya heç bir əsas gətirmədən piket keçirməyə icazə vermədi. Buna görə də məhkəməyə müraciət etmək üçün sənədlər hazırlanır.

Eyni zamanda Nəqliyyat Nazirliyinin yaxınlığında aksiya keçirmək üçün növbəti ərizə ilə Abutalıbova müraciət etmək qərarı verilib. İyulun 4-də keçirəcəyimiz aksiya gələn həftəyə keçirildi. Kollektivin mövqeyi budur ki, aksiyalara çıxılacaq, Məmmədovlara məxsus müxtəlif yerlərdə, o cümlədən onların yaşadıqları yerlərin qarşısında aksiya keçiriləcək".

***

Yada salaq ki, aksiyada "Jurnalistə sui-qəsd edən Məmmədovlar klanı, Allahdan qorxun!", "Ziya Məmmədov, cinayətkar Aynarın yox, jurnalist Fərahimin "əmisi" ol!", "Jurnalistə sui-qəsd edənləri qoruyanlara ar olsun!", "Jurnalistlərə qarşı cinayətlərin üstü açılsın!", "Deputatın cani oğlu traktorçunun jurnalist oğlunu döydürdüsə, cavab verməlidir!" şüarları səsləndiriləcək. Piketdə 50 nəfərin iştirakı planlaşdırılır.

Qeyd edək ki, F.İlqaroğlu aprelin 25-də yaşadığı binanın qarşısında döyülüb. Onu döyən Feyruz Termişi həbs edilsə də, bu əmri verən kikboksinq üzrə idmançı Tural Bayramov cəmi 20 sutkalıq inzibati həbslə canını qurtarıb.

T.Bayramov istintaqa çağırılmayıb, ifadəsi alınmayıb. T.Bayramovun ifadəsi isə bütün tərəflərin açılmasına kifayətdir. Çünki bu hadisənin sifarişini Aynar Məmmədovdan alacağı gün kimi aydındır və bunu istintaqda etiraf etməlidir.

❑ **E.SALAMOĞLU**

## İrəvan yeni Qarabağ savaşında maraqlıdırmı?



**Azər RƏŞİDOĞLU**

**Rusiya Cənubi Qafqazda yeni savaş ssenariləri hazırlayır. Bu barədə dəfələrlə xəbərdarlıq etmişik. Vəziyyətin təhlili onu deməyə əsas verir ki, Qarabağda da yeni savaş alovlana bilər. Artıq belə ehtimalların reallaşa biləcəyi səsləri İrəvanda da eşidilməyə başlanıb.**

Ermənistanın keçmiş xarici işlər naziri Aleksandr Arzumanyan Qarabağ məsələsi ətrafındakı son durumu şərh edərkən bildirib ki, İrəvan və Bakını müharibəyə cəlb eləməyə çalışırlar. "Lakin mən düşünmürəm ki, Ermənistan hərbi əməliyyatların bərpasında maraqlıdır. Ancaq hansısa qüvvələr və oyunçular bizi müharibəyə cəlb eləmək istəyir. Bu isə olduqca təhlükəli nəticələrə gətirə bilər", - deyə o vurğulayıb. Arzumanyan "naməlum qüvvə və oyunçu"nun kimliyini də açıqlayıb: "20-22 illik atəşkəs dövründə Rusiyanı daim o maraqlandırıb ki, regiona özünün sülhməramlı qüvvələrini yeritsin. Bizim Rusiya ilə 200 illik münasibətlərimizin təcrübəsi göstərir ki, hansısa məqamda Rusiya özünün geosiyasi problemlərinin həlli naminə bizə bir qəpiklik də dəyər verməz. Heç şübhə etmirəm, Moskva Qarabağın taleyini Azərbaycanın Avrasiya Birliyinə qoşulması ilə bağlı Bakı ilə müzakirə eləməyə hazırdır. Bizim dövlətçiliyimiz təhlükə altındadır, biz uduzuruq".

İrəvanda da yeni savaşın yarada biləcəyi anlayan az deyil. Ermənistanın beynəlxalq layihələrdən kənarda qaldığını mötədil erməni siyasətçiləri dərk edir. Yeni savaş İrəvanın vəziyyətini daha da qəlizləşdirə bilər. Hərbi ritorikanın pərdəarxasını anlayan siyasətçilər Bakıda olduğu kimi, İrəvanda da az deyil.

Əvvəla, növbəti dəfə vurğulamaq yerinə düşər ki, nə Bakı, nə İrəvan irimiqyaslı əməliyyatlara başlaya bilməz. Bu addımı atan tərəf zorla sülhə vadar edilə bilər.

Burada söhbət daha çox ictimai rəyə hesablanmış "savaş oyunları"nda gedə bilər. İstər rəsmi Bakı, istərsə də İrəvan üçün lokal müharibədə kiçik qələbə son dərəcədə mühümdür. Bununla onlar öz rəqiblərinə sarsıdıcı zərbələr vura bilərlər.

Burada ən qorxulu tendensiya ondan ibarətdir ki, lokal müharibənin savaş iştirakçıları üçün bir tələyə çevriləcəyi istisna deyil. Arzumanyanın da etiraf etdiyi kimi, Bakı və İrəvan Kreml tərəfindən müharibəyə sövq edilir. Müharibə isə Qərbin maraqlarına cavab vermir. Ən azı enerjidaşıyıcılarının təhlükəsizliyi baxımından Qərb buna razı ola bilməz. Heç Rusiyanın özü də irimiqyaslı savaşda deyil, lokal müharibədə maraqlıdır. Tərəflərə təzyiqini saxlaya bilməkdən ötrü Moskvaya status kvonun saxlanılması daha önəmlidir. Odur ki, irimiqyaslı hərbi əməliyyatlardan söhbət gedə bilməz.

Düzdür, rəsmi Bakı bütün cəbhə boyunca müharibəyə başlamağa şirnikləndirilə bilər. Son vaxtlar Qazax - Tovuz bölgəsində, habelə, Naxçıvanda hərbi mövqelərimizin gücləndirilməsi yeni savaş effekti yaradır.

Bir tərəfdən də, ictimai rəyə işğal olunmuş 3 rayonun qaytarıla biləcəyi təlqin edilir. Erməni cəmiyyətinə guya Rusiyanın ermənilərin arxasından qaçdığı fikri aşılanır. Bütün bunların bir hiylə olduğunu anlamaq üçün heç də fəza zəkasına malik olmaq lazım deyil.

Yeni savaş yeni ərazi itkisi ehtimalı deməkdir. Eyni zamanda düşünülməmiş savaş ölkənin müstəqilliyinə də təhdiddir. Yaranmış vəziyyətdə Rusiyadan uzaq durmaq daha məqbul varianta bənzəyir. Yuxarıda da qeyd etdiyimiz kimi, İrəvanın özündə də Moskvanın əsarətində olmaqdan bezibilər. Bu baxımdan, hər iki ölkə Moskvanın deyil, məhz Ankaranın vasitəçiliyində maraqlıdırlar.

Ankara isə bölgədə öz mövqelərini gücləndirməkdədir. "Sürix protokolları"nın imzalanmasından sonra Ankara Dağlıq Qarabağ münaqişəsinin dünya ictimaiyyətinin diqqət mərkəzinə çıxarılmasına nail ola bildi.

Yaxın gələcəkdə rəsmi İrəvan Kremlə deyil, Ankaraya yönəlik siyasət yeridərsə, bu addım Qarabağ probleminə əhəmiyyətli təsir edə bilər. Ermənistan indiyə qədər Qarabağ danışıqlarında ona görə güzəştə getmirdi ki, bunun qarşısını Rusiya alırdı. Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşması imkan yarada bilər ki, Ankara gələcəkdə İrəvanda nüfuz dairəsi formalaşdırsın. Qarabağ danışıqlarında irəliləyiş fürsəti yarananda isə Ermənistan Rusiyanın diktəsi ilə deyil, daha sərbəst qərar verə bilər.

Hazırda bölgədə hökm sürən "nə sülh, nə savaş" kimi pat vəziyyətindən çıxılması və yeni siyasi situasiyanın yaranması üçün sərhədlərin açılması böyük risk olmaqla yanaşı, münaqişənin "ölü nöqtə"dən tərpənməsi deməkdir.

## "Azərbaycan və Əhli Beyt irsi" kitabı çap olunub

### Topluda müxtəlif istqamətlərdə Azərbaycan dini həyatında Peyğəmbər (s.ə.s) ailəsinə münasibətlə bağlı məqalələr yer alıb

**İyulun 3-də Dini Araşdırmalar Mərkəzində "Azərbaycan və Əhli Beyt irsi" adlı kitabın elmi - ictimai müzakirəsi təşkil olunub. Dini Araşdırmalar Mərkəzində keçirilən tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşları, BDU İlahiyyat fakültəsinin müəllimləri, bir sıra dini icma rəhbərləri və din xadimləri, ictimaiyyət nümayəndələri iştirak edib.**

Qeyd edək ki, "Azərbaycan və Əhli Beyt irsi" kitabı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü və dəstəyi ilə nəşr olunub. Toplu halında, mütəxəssis məqalələrindən hazırlanmış kitabda Azərbaycanda Məhəmməd Peyğəmbər (s.ə.s) Əhli Beytinə aid maddi və mənəvi irs nümunələrinin araşdırılması, tanıdılması, milli kimliyimizə təsiri, milli mədəniyyət və tarixi- mizdə yeri kimi mövzularda məqalələr yer alıb.

Kitabdakı məqalə müəlliflərinin də iştirak etdiyi müzakirələrdə çıxış edən alim və tədqiqatçılar, ictimai fəallar kitabın Azərbaycanda Peyğəmbər Əhli Beyti irsinin araşdırılması istiqamətində hərtərəfli və dövlət tərəfindən dəstəklənən ilk tədqiqat işi olduğunu vurğuladılar. Çıxış edən müəlliflər bildirdilər ki, bu gün Azərbaycanda ənənəvi dini və milli-mənəvi dəyərlərimizin qorunması ən aktual məsələyə çevrilib. İnsanlarımız zəngin milli-dini dəyərlərimizi kifayət qədər mənimsəsəydilər nə yadelli dini sektaların, nə İslam təriqəti adıyla müxtəlif "hizmətlərin" torlarına düşməzdilər, nə də bu gün Suriya və İraqda müsəlmanların qırğınında iştirak etməzdilər.

Kitabda Azərbaycan haqqında Peyğəmbər (s) və Əhli Beytinin hədislərində olan məlumatlar, ölkəmizdə olan imamzadə kompleksləri və onlara dövlət qayğısı, tolerantlıq mühitinin formalaşmasında əhli beyt irsinin rolu, əhli beytlə bağlı mərasimlər, irfan və təsəvvüf ədəbiyyatımızda əhli beyt, milli mətkurə və kimliyimizdə, mədəniyət və ədəbiyyatmızda əhli beyt sevgisi izləri haqda ciddi araşdırma materialları var. Məqalələrdən biri ""Əli və Nino" romanında Əhli Beyt izi" adlanır və bu əsərdəki İslam müqəddəslərinə münasibət araşdırılıb. O cümlədən Car Balakən sufi təriqəti həyatında əhli beyt, əhli-sünnə mənbələrində əhli beyt sevgisi kimi Azərbaycan tarixində və dini həyatında Peyğəmbər (s.ə.s) ailəsinə münasibəti özündə əks etdirən maraqlı araşdırmalar yer alıb. Kitabda məqalələrdən biri azərbaycanlı İslam alimlərinə, Seyid Yəhya Bakuvinin əhli beyt sevgisinə həsr olunub. O cümlədən daha bir məqalə isə İslam hədis mənbələrində Azərbaycan haqda, ölkəmizin adının keçdiyi hədislər qeyd olunub.

Qeyd edək ki, çıxışlarda vurğulandı ki, Azərbaycanda əsrlər boyu İslam məzhəbləri dinc, yanaşı yaşayıb. Şiələrlə yanaşı sünni məzhəbli insanlar Peyğəmbər Əhli Beytinə (ə) sevgi bəsləyiblər. Maraqlıdır ki, kitabın bir sıra məqalələri yerli əhli-sünnə məzhəbli ilahiyyatçılar tərəfindən yazılıb.

"Azərbaycan və Əhli Beyt irsi" kitabı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə "Elm və Təhsil" nəşriyyatında 2013-cü ildə sifariş edilib. Kitabın ön sözünün müəllifi DQİDK-nın keçmiş sədri Elşad İskəndərov, baş redaktoru BDU İlahiyyat fakültəsinin dekanı, akademik Vasim Məmmədəliyev, elmi rəycisi AMEA-nın müxbir üzvü, Əlyazmalar İnstitutunun direktoru professor Teymur Kərimlidir.

❑ **KƏNAN**

www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 iyul 2014-cü il Cümə № 170 (5879) Qiyməti 40 qəpik

## Xəbər

### Azərbaycan konsulunun adı maşın nömrəsi qalmaqalında

yazısı səh.2-də

## Gündəm



### Olası müharibədə Naxçıvan cəbhəsi əsas rol oynayacaq

Ermənilərlə müharibədə Naxçıvan cəbhəsinin əhəmiyyəti barədə Elçibəy iqtidarı və Türk Silahlı Qüvvələri ortaq rəyə və plana malik olublar; təsbitlər indi də aktualdır və hazırlıqlar gedir

yazısı səh.5-də

### Xalqın və İlham Əliyevin Tovuzdakı düşmənləri

yazısı səh.4-də

### Moskva Azərbaycana qorxulu sürpriz edə bilər

yazısı səh.6-də

### Putin Azərbaycanı Ermənistandan öncə Avrasiya İttifaqına qoşmaq istəyir

Tanınmış politoloq İrəvanın qapıda saxlanmasının şok sirrini açdı

yazısı səh.7-də

### "Minval" qəzetinin ilk sayı bu gün satışda olacaq

yazısı səh.3-də

### "Akkord"da şok korrupsiya faktları...

Şirkətin bir departamentində 20 milyon manata yaxın yeyinti aşkarlanıb

yazısı səh.13-də

### Prezidentlərin növbəti görüşü Parisdə baş tuta bilər

Politoloqlar Qarabağ danışıqları üçün yeni perspektivlər açıldığını deyir

yazısı səh.11-də

### BP yalan danışır, yoxsa ARDNŞ?

yazısı səh.13-də

### Braziliyanın rəngi bu gecə sarala bilər

yazısı səh.15-də

### Ramazan ayının 6-cı günü

İftar 21.30 İmsaq (azan) 4.46 (QMİ-nin cədvəli)

6-cı günün duası: "İlahi, məni bu gün Sənin sözündən çıxıb, günah etməklə xar və zəlil etmə! Qəzəb şallaqları ilə məni vurma! Məni bu gün qəzəbinə səbəb olan günahlardan Öz minnət və qüdrətinlə uzaqlaşdır! Ey, arzu edənlərin son Arzusu!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Liviya və Suriya fəlakətlərindən sonra 3-cü batış qapıda!

# OLİQARXLARIMIZIN İRAQDAKI BİZNESİ TƏHLÜKƏDƏ - ÖZƏL XƏBƏR

Bəylər Əyyubovun patronajlığı altında olan iş adamları İraq Kürdüstanının hotel və kazino biznesinə, tikinti sektoruna böyük paralar yatırıblar; İraq hökuməti İŞİD-i zərərsizləşdirə bilməsə, azərbaycanlı oliqarxların pulları bata bilər

yazısı səh.7-də



## Həbsdəki vitse-admiral mafiya babası çıxdı - himayəçilərinin siyahısı

**Bəxtiyar Məmmədov:** "Təlim karterini Səfər Əbiyevin istirahət yaxtasına çevirdi"; "Şahin Sultanovu himayə edən məmurlar cəzalandırılsın!"

yazısı səh.10-da



### Prezident səfirləri Bakıya çağırdı

yazısı səh.2-də



*İqbal Ağazadə:*

### "Hərənin öz "İhtiyarı" var"

yazısı səh. 8 və 9-da



### "Yeni Müsavat" Hacıbala Abutalıbovu məhkəməyə verir

yazısı səh.3-də

# Prezident səfirləri Bakıya çağırdı



**Yaxın günlərdə prezident İlham Əliyevin iştirakı ilə Azərbaycanın xarici ölkələrdəki səfirləri ilə geniş toplantısı keçiriləcək . Bu barədə diplomatik mənbələrdən modern.az saytına məlumat verilib. Məlumata görə, diplomatik korpusun toplantısında Azərbaycan üçün mühüm olan məsələlər ətrafında fikir mübadiləsi aparılacaq və müvafiq tapşırıqlar veriləcək.**

Qeyd edək ki, Azərbaycan dövlət başçısının ötən illərdə diplomatlarımızla bir neçə dəfə belə görüşləri olub.

Xarici İşlər Nazirliyi Azərbaycanın xarici ölkələrdə fəaliyyət göstərən səfirlərinin Bakıya çağırılması ilə bağlı xəbərə münasibət bildirib.

Nazirliyin mətbuat xidmətinin rəhbəri Elman Abdullayev azvision.az-a açıqlamasında bu barədə rəsmi qərarın qəbul edilmədiyini diqqətə çatdırıb.

"Bu məsələ ilə bağlı bizə çoxlu sayda müraciətlər daxil olur. Qeyd edim ki, bu barədə hər hansı qərar qəbul olunmayıb. Əgər qərar qəbul edilsə, biz bu haqda məlumat verəcəyik".

# Maaşlarını ala bilməyən fəhlələr "Yeni Müsavat"a üz tutdular

**Quba və Qusar sakinləri Feyruz Şirəliyev və Ziyadxan İbrahimov "Yeni Müsavat"a şikayət məktubu ilə müraciət edib. Şikayətçilər qeyd edirlər ki, 8-ci kilometr bazarı yaxınlığında, "LOTOS" ticarət mərkəzi ilə üzbəüz tikintidə fəhlə işləyirlər. Onların sözlərinə görə, ay yarımdır ki, əmək haqlarını ala bilmirlər. Tikinti rəhbərinin F.Şirəliyevə 330, Z.İbrahimova 340 manat borcu var. Fəhlələr qeyd edirlər ki, Nizami Rayon Polis İdarəsinin 24-cü polis bölməsinə də şikayət ediblər. Polisdən onlara məhkəməyə müraciət etmələri məsləhət görülüb. Fəhlələr bildirdilər ki, onlar ay yarımdır işsizdirlər, kirayə borcunu belə ödəyə bilmirlər:**

"Artıq ay yarımdır ki, bu tikintidə işləyirik. Bu müddət ərzində olan maaşımızı vermirlər. Fəhləyik, ailəmiz var, dolanışıq çox çətindir. Özümüz də kirayədə yaşayırıq. Kirayə haqqını belə verə bilmirik. Bu qədər haqsızlıq olmaz axı. İşləmişik, pulumuzu versinlər də. Fəhləyik deyə, bizi işlədib, pulumuzu verməmək nə deməkdir. Biz sizin qəzet vasitəsilə həmin tikinti rəhbərinə səslənirik ki, pulumuzu versinlər. Çox çətin vəziyyətdəyik".

Onlar iş icraçıları Altay və Əziz adlı şəxslərə maaşla bağlı müraciət etsələr də, heç bir reaksiya gəlmədiyini deyirlər.

Şikayətçilərin dedikləri ilə bağlı Altay müəllimlə əlaqə saxladıq. O bildirdi ki, təkcə bu fəhlələr yox, ümumiyyətlə, bu tikintidə işləyən işçilər bir aydır ki, maaş ala bilmirlər. Onun sözlərinə görə, baş ofisdən əmək haqları göndəriləcək və bu həftə ərzində fəhlələrin maaşı veriləcək.

❑ NƏRGİZ

# ABŞ səfirliyi müstəqillik tədbiri keçirdi

**ABŞ-ın Azərbaycandakı səfirliyi öz ölkəsinin müstəqillik günü ilə bağlı tədbir keçirib. Etatist.com-un məlumatına görə, tədbirlə əlaqədar səfirlikdə təhlükəsizlik tədbirləri gücləndirilib. Səfirliyin qarşısında əli silahlı mühafizəçilərin və polis qüvvələrinin sayı artırılıb.**

Azadlıq prospektinin səfirliyin qarşısında olan hissəsində avtomobillərin saxlanılmasına imkan verilməyib. Tədbirdə yüksək vəzifəli dövlət məmurları və müxalifət liderləri də iştirak edib. ABŞ öz müstəqilliyini 1776-cı ildə iyulun 4-də elan edib.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbest seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli
və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

# Sabir Rüstəmxanlının oğluna vəzifə verildi

**Nəqliyyat Nazirliyi "Azəryolservis" ASC-də yeni təyinat olub. Lent.az xəbər verir ki, nəqliyyat naziri Ziya Məmmədovun imzaladığı əmrə əsasən, Cəmil Rüstəmxanlı "Azəryolservis"də beynəlxalq əlaqələr idarəsində qrup rəhbəri təyin edilib. O, bu vəzifəyə bir müddət öncə təyin olunub.**



Qeyd edək ki, Cəmil Rüstəmxanlı millət vəkili, xalq şairi Sabir Rüstəmxanlının oğlu, nəqliyyat naziri Z. Məmmədovun qardaşı İldırım Məmmədovun kürəkənidir.

"Əvvəla, Cəmil "Azəryolservis" ASC-də işləyir, bunun nəqliyyat naziri Ziya Məmmədova nə aidiyyəti? Digər tərəfdən, Cəmil bir neçə ildir ki, o idarədə çalışır və hazırda bir neçə xarici dil bilməsi, mütəxəssis olması və xaricdə təhsil alması nəzərə alınaraq, qrup rəhbərliyi ona həvalə edilib".

Bunu axar.az-a millət vəkili Sabir Rüstəmxanlı oğlu Cəmil Rüstəmxanlının "Azəryolservis"də beynəlxalq əlaqələr idarəsində qrup rəhbəri təyin edilməsi barədə xəbərə münasibət bildirərkən deyib. Millət vəkilinin sözlərinə görə, bunu hansısa vəzifə və ya qohumluq əlaqəsi ilə bağlamaq ayıbdır:

"Mənim oğlumdur deyə, işsiz qalmalıdır? Onsuz da qohum-əqrəbada xeyli gəncimiz işsizdir. Məgər bizim övladlarımız bu ölkədə yaşamır? Onlardan hansısa birinin iş alması vəzifə kimi niyə bu qədər hallandırılır?"

# Ömürlüklərin cəzasını müddətli həbslə əvəz etmək olar

**Millət vəkili İqbal Ağazadə bir müddət əvvəl vaxtilə ölüm hökmünün ləğvi nəticəsində ömürlük həbsə məruz qalanların cəzasının yüngülləşdirilməsi təklifi ilə çıxış edib. Onun fikrincə, vaxtilə ölüm hökmü alanların hər birinə yeni məhkəmələr qurulmalıdır. Bu məsələyə münasibət bildirən Əfv Komissiyasının üzvü, deputat Azay Quliyev «Media forum» saytına deyib ki, öncə Cinayət Məcəlləsində ömürlük həbsə alternativ cəza növləri əksini tapmalıdır:**

«Vətəndaşın öz hüquqlarını qorumaq üçün aşağı məhkəmə instansiyasından tutmuş Ali Məhkəməyə, Ali Məhkəmənin Plenumuna, o cümlədən Konstitusiya Məhkəməsi və Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etmək hüququ var. Kim hesab edirsə ki, ona verilən cəza törətdiyi cinayətə adekvat deyil, daha ağırdır, buna görə məhkəmələrə müraciət etməli, məsələ məhkəmə qaydasında həllini tapmalıdır. Ancaq Cinayət Məcəlləsində 30, 40, 50 il cəza növü əksini tapsa, hakimin ömürlük əvəzinə adekvat variantlardan istifadə imkanı yaranar. Ömürlük məhbuslar mövzusu Milli Məclisin Dövlət quruculuğu və hüquq siyasəti komitəsində müzakirə edilən zaman alternativ cəza ilə bağlı təkliflər səsləndirmişəm. Avropada, Amerikada bu cür sistem tətbiq edilir. Bizdə də ömürlük həbsi müddətli həbs cəzası ilə əvəz etmək olar".

**Deputat Siyavuş Novruzov isə deyib ki, ömürlük məhbusların işinin asan həll yolları var:** «Həmin şəxslər Əfv Komissiyasına və məhkəmələrə müraciət etməlidir. Dünya təcrübəsində var: həbsdə olduğu müddətdə davranışında və digər fəaliyyətində qanun pozuntusu olmayan şəxsin ömürlük həbs cəzası müddətli cəza ilə əvəz edilir. Vaxtilə ölüm hökmü almış ömürlüklər də yuxarı məhkəmə instansiyalarına müraciət etməlidir. Həbs müddətini nizamlı formada çəkən şəxslərə əfv verilməsi də mümkündür».



# "Ailəmin gözlərinə baxa bilmirəm - ölmək istəyirəm" - Bakı fəhləsi

## Keşlə Yük Stansiyasının fəhlələri fəryad edir; burada məmur özbaşınalığı meydan sulayır; işçilər aksiyaya hazırlaşırlar

**Keşlə Yük Stansiyasının fəhlələri rəhbərliklə bağlı şikayətlərini yuxarı orqanlara çatdırmaq üçün "Yeni Müsavat"dan kömək istəyiblər. Onlar bildiriblər ki, Yük Stansiyasının fəhlələri olmalarına baxmayaraq, rəhbərlik kənar şəxslərdən rüşvət alaraq, işə başqa insanları cəlb edir. Nəticədə onlar işsiz vəziyyətdə qalıblar. Fəhlələr onu da bildiriblər ki, yaxın günlərdə bununla bağlı aksiya keçirəcəklər.**

**Keşlə Yük Stansiyasının işçisi Mirzəməmmədov Zaman Nəsir oğlu** problemlərinin həll olunmayacağı təqdirdə, ölkə vətəndaşlığından imtina edəcəklərini bildirdi: "Bununla bağlı dəfələrlə aidiyyəti orqanlara şikayət etsəm də, məhəl qoyan olmayıb. Özüm ali təhsilliyəm. Uzun müddət Rusiyada yaşamışam. İşsizlik probleminə görə Rusiya səfirliyinə getdim. Azərbaycan polisləri mənə qarşı özbaşınalıq edərək, çölə atdılar. Qanunlarımızı kobudcasına pozurlar. Bu işlərin başında duran Keşlə Yük Stansiyasının rəhbəri Maarif müəllim, köməkçiləri Camal, Zaman, stansiyada işləyən polislər Asif və Sənandır. İnanıram ki, bu qanunsuzluqlar öz ədalətli həllini tapacaq. Maarif müəllim mənə açıqca "get kimə şikayət edirsən et, Azərbaycanda qanun bizik", dedi. Ölkəmizdə yaşamaq hüququmuzdur. Ölkə rəhbərliyinin hər bir vətəndaşın haqqını qorumaq vəzifə borcudur. Prezidentimizin Əmək müqaviləsi haqqında sərəncamı var. Bu sərəncamı, Maarif kimiləri başda olmaqla, pozurlar. Cənab prezident, xahiş edirəm ki, bizə kömək olun. Aylıq 50 manat kirayə haqqını belə verə bilmirəm. Rəhbərlikdən tələb edirik, qanunsuz əməllərindən əl çəksin. Əks təqdirdə, stansiyanın qarşısında aksiya keçirəcəyik. Problemlərimiz yenə həll yolunu tapmasa, Azərbaycan vətəndaşlığından imtina etmək məcburiyyətində qalacağıq və imtina edəcəyik".

**Yük Stansiyasının fəhləsi Əmanov Rəşad Xeyrulla oğlu ailəli olduğunu və onları dolandıra bilmədiyinə görə intihar etmək dərəcəsinə gəldiyini söylədi:** "Keşlə Yük Stansiyasında acınacaqlı vəziyyətdir. Oranın qeydiyyatında olsaq da, bizə iş verilmir. Hər kəs öz adamını gətirib, işə qoyur. Maklerlər hər ay ora 300-400 manat rüşvət verib, öz adamlarını gətirib işə qoyurlar. Biz isə acımızdan ölürük. Ailəliyəm, iki övladım var. Ailəmi atamın evinə qoyub, guya ki, pul qazanmağa gəlmişəm. Burda da iş yoxdur. Sizdən xahiş edirik ki, şikayətlərimizi yuxarı orqanlara çatdırmaqda bizə kömək edəsiniz. Yuxarı orqanlar korrupsiyanın, rüşvətin olmadığını deyirlər. Amma biz rüşvətə görə iş tapmırıq. Prezidentimizə müraciət edib, xahiş edirəm ki, bizə kömək olsun. Ailəmin acından ölməsinə göz yummasın. 14 ildir ki, orada işləyirəm. Boşaltdığımız vaqonun qiyməti 600 manatdır. Amma bizə 150 manat verirlər. Bu pul isə 8 nəfər arasında bölüşdürülür. Xahiş edib, yalvarıram ki, bizə hər kəs kömək etsin. Ailəmin gözlərinə baxa bilmirəm. Belə həyat olmaz. Artıq ölüm mənim üçün adi olub. Elə bir həddə gəlmişəm ki, özümü öldürmək istəyirəm".

**Fərzəliyev Turqut Rəfail oğlu 4 aydır ki, Bakıda olduğunu, bu aylar ərzində cəmi 4 dəfə stansiyada ona iş tapşırıldığını diqqətimizə çatdırdı:** "4 aydır ki, Bakıdayam. Cəmi 4 dəfə işləmişəm. İnsan deməyə söz tapa bilmir. Gəldiyim gündən şəxsiyyət vəsiqəmi aldılar. İndi özümə də qaytarmırlar. Nə də işləməyə imkan vermirlər. Açıq-aşkar adımıza gələn iş kartlarını əlimizdən alıb, vermirlər. Bilmirik ki, nə qədər maaşımız var. Qəzetiniz vasitəsilə prezidentimizdən xahiş edirəm ki, bizə kömək etsin. Bu qədər ədalətsizlik olmaz. Axı biz də insanıq".

Sonda şikayətçilər Keşlə Yük Stansiyasının fəhlələrinin şəxsiyyət vəsiqələri, iş kartlarının alındığını və geri qaytarılmadığını bildirdilər.

❑ Cavanşir ABBASLI

# Leyla Əliyeva Moskvada iftar verdi

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın adından Moskvada dindarlar üçün iftar süfrəsi açılıb.**

"Qafqazinfo" xəbər verir ki, artıq beşinci dəfədir ki, Leyla Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyi Rusiya Müftilər Şurası tərəfindən Moskva hökumətinin dəstəyi ilə təşkil edilən nadir "Ramazan çadırı" xeyriyyəçilik və mədəni-maarif layihəsində fəal iştirak edir. Gecəyə Azərbaycan diasporunun nümayəndələri, müxtəlif millətlərdən olan və oruc tutan insanlar toplaşıb.

Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin əməkdaşı Ayan Həsənova «AzərTAc»a bildirib ki, ənənəyə görə, müqəddəs Ramazan ayında bir gün Leyla Əliyevanın adından dindarlar üçün iftar süfrəsi açılır.

# Azərbaycan konsulunun adı maşın nömrəsi qalmaqalında

**Latviya mətbuatında belə bir xəbər yayılmışdı ki, Azərbaycanın konsulu özünün şəxsi avtomobilinə diplomatik nümayəndəliyə məxsus dövlət nömrə nişanını bağlayaraq diplomat adına yaraşmayan hərəkətlərə yol verib.**

Öz növbəsində Azərbaycan mətbuatı da N.Sadıqovun Azərbaycana çağırıldığı və onunla həm Xarici İşlər, həm də Milli Təhlükəsizlik nazirliklərində "profilaktik söhbət" aparıldığı barədə xəbərlər yaydı.

Xəbərə görə, Bakıda aparılan bu söhbətlərdən sonra N.Sadıqov diplomatik nömrə nişanını özünün 80 min dollarlıq "Porsche Cayenne" markalı maşınından açıb.

Virtualaz.org saytı bu qalmaqalla bağlı Latviyadakı mənbələrindən yeni məlumatlar alıb. Qaynaqlarımız azərbaycanlı diplomatın bu cür yolverilməz addımı barədəki xəbərləri təsdiqləyiblər.

Riqadakı mənbələrimiz bildiriblər ki, Azərbaycanın konsulunun diplomat adına yaraşmayan bu hərəkətləri, onun diplomatik etiket qaydalarını kobud şəkildə pozması Latviya Daxili İşlər Nazirliyinin və yerli xüsusi xidmət orqanlarının diqqətini dərhal cəlb edib. Nəticədə faktla bağlı məlumat bu ölkənin yerli aparıcı nəşrlərinin səhifələrinə düşüb.

Azərbaycan Xarici İşlər Nazirliyi mətbuat xidmətinin rəhbəri Elman Abdullayev virtualaz.org saytına açıqlamasında bildirib ki, nazirlik bu məsələni araşdırmaqla məşğuldur. XİN sözçüsü konsulla bağlı qalmaqalın yarandığını bununla dolayısı ilə təsdiqləyib.

Xatırladaq ki, Nicat Sadıqov orta çəkili oliqarxlardan biri hesab edilən və uzun müddət Ağdam Rayon İcra Hakimiyyətinin başçısı işləyən Nizami Sadıqovun oğludur. Konsulla bağlı xəbərlər yayılandan sonra ölkə mətbuatında Nizami Sadıqovun Bakıdakı "İzmir" restoranını 8 milyon manata satmaq istəməsi ilə bağlı xəbərlər yayılmışdı. Restoranın satılıb-satılmadığı haqqında əlavə məlumat yoxdur.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**




## “Minval” qəzetinin ilk sayı bu gün satışda olacaq

**Rus dilində yayın yapan minval.az saytı həftədə bir dəfə olmaqla, qəzet şəklində yayına çıxarılacaq. “Minval” qəzetinin ilk sayı bu gündən - iyulun 4-dən etibarən Bakı şəhərinin köşklərində olacaq.**

Bu barədə musavat.com-a minval.az saytının və yeni rusdilli “Minval” qəzetinin təsisçisi Rauf Arifoğlu məlumat verib.

O deyib ki, bu addımı ancaq iqtisadi maraqlara görə atırlar: “Minval.az saytı kifayət qədər oxucusu olan ciddi bir yayın orqanıdır. Sayt Azərbaycandan kənarda da tanınır. Lakin mənim təsisçi, İlkin Qəmbərin baş redaktor olması səbəbindən sayta reklam cəlb edə bilmirik. Əslində müxalifətçi olmayan bir saytı bizə görə müxalifətçi qismində qəbul edib, reklam verməkdən çəkinirlər. Bu səbəbdən də sayt rentabelli deyil.

Biz düşündük, rusdilli məkana aid qəzet bazarını öyrəndik və qərara gəldik ki, özümüzü yoxlamaq üçün yaxşı imkanlar var. Minval.az saytının kollektivi qısa zaman ərzində qəzetin yayım konseptini, maketini, səhifələrin təyinatını hazırladı. Bir neçə sınaq sayı da buraxdıq. İndi biz inanırıq ki, rusdilli vətəndaşlar üçün maraqlı qəzet buraxa biləcəyik. Həm də iddiamız var ki, bir neçə min nüsxə qəzet satıb, az da olsa, maddi fayda əldə edəcəyik “.

R.Arifoğlu dedi ki, qəzet MİNVAL adlanacaq, onu eyni adlı saytın kollektivi çıxaracaq.

Bir daha xatırladırıq ki, rusdilli oxucular üçün nəzərdə tutulan “Minval” qəzetinin ilk nömrəsi bu gün - 4 iyulda satışda olacaq.

❑ **Musavat.com**

## “Yeni Müsavat” Hacıbala Abutalıbovu məhkəməyə verir

### Meriyanın Fərahim İlqaroğlu aksiyasına əsassız olaraq icazə verməməsi ilə bağlı məhkəmə çəkişməsi başlanır; jurnalistə sui-qəsd edənlərin istintaqdan yayındırılmasına etiraz olaraq keçiriləcək aksiya isə gələn həftəyə keçirildi

**“Yeni Müsavat” qəzeti Bakı Şəhər İcra Hakimiyyətini (BŞİH) və mer Hacıbala Abutalıbovu məhkəməyə verməyə hazırlaşır. Buna səbəb qəzetin və musavat.com kollektivinin jurnalist Fərahim İlqaroğlunun döyülməsi və cinayətkarların istintaqdan yayındırılmasına etiraz olaraq keçirəcəyi aksiyaya BŞİH-in icazə verməməsidir.**

Məlum olduğu kimi, meriya və H.Abutalıbova qanuna müvafiq qaydada müraciət olunmuşdu. Məktub-müraciətdə qeyd edilirdi ki, müxbirimizin həyatına sui-qəsdi təşkil edən Aynar Məmmədov nəqliyyat naziri olan əmisi Ziya Məmmədov tərəfindən himayə olunur, istintaqdan qorunur.

Ona görə də deputat qardaşı Elton Məmmədovun oğlunu xilas etmək üçün istintaqa təzyiq göstərən Ziya Məmmədovun rəhbəri olduğu Nəqliyyat Nazirliyi qarşısında piket keçirməyə imkan yaradılsın.

***

Ancaq mer Hacıbala Abutalıbov və BŞİH Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Zaur Ramazanovun imzası ilə “Yeni Müsavat”ın məktubuna cavabda bildirilib ki, müraciətiniz “Sərbəst toplaşmaq azadlığı haqqında” Qanunun tələbinə cavab vermir. Məktubda qeyd edilib ki, qeyd etdiyiniz məsələ ilə bağlı aksiya keçirmək deyil, aidiyyəti orqanlara müraciət etməlisiniz: “Həmçinin qeyd edirik ki, müraciətinizdə qaldırılan məsələlərə baxılmaq üçün məktubunuz tərəfimizdən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinə və Nəqliyyat Nazirliyinə göndərilmişdir. Qeyd olunanları nəzərə alaraq, 04 iyul 2014-cü il tarixdə Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi qarşısında piketin keçirilməsi məqsədəuyğun hesab edilmir”.

***

Bu cavaba görə də “Yeni Müsavat” Abutalıbovu və meriyanı məhkəməyə verməyi qərara alıb. Qəzetin baş redaktoru Rauf Arifoğlu qeyd etdi ki, hüquqşünaslarla məsləhətləşmə aparılıb və sənədlərin hazırlanıb məhkəməyə göndərilməsi prosesinə başlanıb.

**Baş redaktorun sözlərinə görə, kollektivlə məsləhətləşmədən sonra paralel olaraq aksiya ilə bağlı yenidən BŞİH-ə müraciət olunması qərarı verilib:** “Meriya heç bir əsas gətirmədən piket keçirməyə icazə vermədi. Buna görə də məhkəməyə müraciət etmək üçün sənədlər hazırlanır.

Eyni zamanda Nəqliyyat Nazirliyinin yaxınlığında aksiya keçirmək üçün növbəti ərizə ilə Abutalıbova müraciət etmək qərarı verilib. İyulun 4-də keçirəcəyimiz aksiya gələn həftəyə keçirildi. Kollektivin mövqeyi budur ki, aksiyalara çıxılacaq, Məmmədovlara məxsus müxtəlif yerlərdə, o cümlədən onların yaşadıqları yerlərin qarşısında aksiya keçiriləcək".



***

Yada salaq ki, aksiyada “Jurnalistə sui-qəsd edən Məmmədovlar klanı, Allahdan qorxun!”, “Ziya Məmmədov, cinayətkar Aynarın yox, jurnalist Fərahimin "əmisi" ol!", “Jurnalistə sui-qəsd edənləri qoruyanlara ar olsun!”, “Jurnalistlərə qarşı cinayətlərin üstü açılsın!”, “Deputatın cani oğlu traktorçunun jurnalist oğlunu döydürdüsə, cavab verməlidir!” şüarları səsləndiriləcək. Piketdə 50 nəfərin iştirakı planlaşdırılır.

Qeyd edək ki, F.İlqaroğlu aprelin 25-də yaşadığı binanın qarşısında döyülüb. Onu döyən Feyruz Termişi həbs edilsə də, bu əmri verən kikboksinq üzrə idmançı Tural Bayramov cəmi 20 sutkalıq inzibati həbslə canını qurtarıb.

T.Bayramov istintaqa çağırılmayıb, ifadəsi alınmayıb. T.Bayramovun ifadəsi işin bütün tərəflərinin açılmasına kifayətdir. Çünki bu hadisənin sifarişini Aynar Məmmədovdan alacağı gün kimi aydındır və bunu istintaqda etiraf etməlidir.

❑ **E.SALAMOĞLU**

## İrəvan yeni Qarabağ savaşında maraqlıdırmı?



**Azər RƏŞİDOĞLU**

**Rusiya Cənubi Qafqazda yeni savaş ssenariləri hazırlayır. Bu barədə dəfələrlə xəbərdarlıq etmişik. Vəziyyətin təhlili onu deməyə əsas verir ki, Qarabağda da yeni savaş alovlana bilər. Artıq belə ehtimalların reallaşa biləcəyi səsləri İrəvanda da eşidilməyə başlanıb.**

Ermənistanın keçmiş xarici işlər naziri Aleksandr Arzumanyan Qarabağ məsələsi ətrafındakı son durumu şərh edərkən bildirib ki, İrəvan və Bakını müharibəyə cəlb eləməyə çalışırlar. “Lakin mən düşünmürəm ki, Ermənistan hərbi əməliyyatların bərpasında maraqlıdır. Ancaq hansısa qüvvələr və oyunçular bizi müharibəyə cəlb eləmək istəyir. Bu isə olduqca təhlükəli nəticələrə gətirə bilər”, - deyə o vurğulayıb. Arzumanyan “naməlum qüvvə və oyunçu”nun kimliyini də açıqlayıb: “20-22 illik atəşkəs dövründə Rusiyanı daim o maraqlandırıb ki, regiona özünün sülhməramlı qüvvələrini yeritsin. Bizim Rusiya ilə 200 illik münasibətlərimizin təcrübəsi göstərir ki, hansısa məqamda Rusiya özünün geosiyasi problemlərinin həlli naminə bizə bir qəpiklik də dəyər vermir. Heç şübhə etmirəm, Moskva Qarabağın taleyini Azərbaycanın Avrasiya Birliyinə qoşulması ilə bağlı Bakı ilə müzakirə eləməyə hazırdır. Bizim dövlətçiliyimiz təhlükə altındadır, biz uduzuruq”.

İrəvanda da yeni savaşın yarada biləcəyi anlayan az deyil. Ermənistanın beynəlxalq layihələrdən kənarda qaldığını mötədil erməni siyasətçiləri dərk edir. Yeni savaş İrəvanın vəziyyətini daha da qəlizləşdirə bilər. Hərbi ritorikanın pərdəarxasını anlayan siyasətçilər Bakıda olduğu kimi, İrəvanda da az deyil.

Əvvəla, növbəti dəfə vurğulamaq yerinə düşər ki, nə Bakı, nə İrəvan irimiqyaslı əməliyyatlara başlaya bilməz. Bu addımı atan tərəf zorla sülhə vadar edilə bilər.

Burada söhbət daha çox ictimai rəyə hesablanmış “savaş oyunları”nda gedə bilər. İstər rəsmi Bakı, istərsə də İrəvan üçün lokal müharibədə kiçik qələbə son dərəcədə mühümdür. Bununla onlar öz rəqiblərinə sarsıdıcı zərbələr vura bilərlər.

Burada ən qorxulu tendensiya ondan ibarətdir ki, lokal müharibənin savaş iştirakçıları üçün bir tələyə çevriləcəyi istisna deyil. Arzumanyanın da etiraf etdiyi kimi, Bakı və İrəvan Kreml tərəfindən müharibəyə sövq edilir. Müharibə isə Qərbin maraqlarına cavab vermir. Ən azı enerjidaşıyıcılarının təhlükəsizliyi baxımından Qərb buna razı ola bilməz. Heç Rusiyanın özü də irimiqyaslı savaşda deyil, lokal müharibədə maraqlıdır. Tərəflərə təzyiqini saxlaya bilməkdən ötrü Moskvaya status kvonun saxlanılması daha önəmlidir. Odur ki, irimiqyaslı hərbi əməliyyatlardan söhbət gedə bilməz.

Düzdür, rəsmi Bakı bütün cəbhə boyunca müharibəyə başlamağa şirnikləndirilə bilər. Son vaxtlar Qazax - Tovuz bölgəsində, habelə, Naxçıvanda hərbi mövqelərimizin gücləndirilməsi yeni savaş effekti yaradır.

Bir tərəfdən də, ictimai rəyə işğal olunmuş 3 rayonun qaytarıla biləcəyi təlqin edilir. Erməni cəmiyyətinə guya Rusiyanın ermənilərin arxasından qaçdığı fikri aşılanır. Bütün bunların bir hiylə olduğunu anlamaq üçün heç də fəza zəkasına malik olmaq lazım deyil.

Yeni savaş yeni ərazi itkisi ehtimalı deməkdir. Eyni zamanda düşünülməmiş savaş ölkənin müstəqilliyinə də təhdiddir. Yaranmış vəziyyətdə Rusiyadan uzaq durmaq daha məqbul varianta bənzəyir. Yuxarıda da qeyd etdiyimiz kimi, İrəvanın özündə də Moskvanın əsarətində olmaqdan beziblər. Bu baxımdan, hər iki ölkə Moskvanın deyil, məhz Ankaranın vasitəçiliyində maraqlıdırlar.

Ankara isə bölgədə öz mövqelərini gücləndirməkdədir. “Sürix protokolları”nın imzalanmasından sonra Ankara Dağlıq Qarabağ münaqişəsinin dünya ictimaiyyətinin diqqət mərkəzinə çıxarılmasına nail ola bildi.

Yaxın gələcəkdə rəsmi İrəvan Kremlə deyil, Ankaraya yönəlik siyasət yeridərsə, bu addım Qarabağ probleminə əhəmiyyətli təsir edə bilər. Ermənistan indiyə qədər Qarabağ danışıqlarında ona görə güzəştə getmirdi ki, bunun qarşısını Rusiya alırdı. Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşması imkan yarada bilər ki, Ankara gələcəkdə İrəvanda nüfuz dairəsi formalaşdırsın. Qarabağ danışıqlarında irəliləyiş fürsəti yarananda isə Ermənistan Rusiyanın diktəsi ilə deyil, daha sərbəst qərar verə bilər.

Hazırda bölgədə hökm sürən “nə sülh, nə savaş” kimi pat vəziyyətindən çıxılması və yeni siyasi situasiyanın yaranması üçün sərhədlərin açılması böyük risk olmaqla yanaşı, münaqişənin “ölü nöqtə”dən tərpənməsi deməkdir.

## “Azərbaycan və Əhli Beyt irsi” kitabı çap olunub

### Topluda müxtəlif istqamətlərdə Azərbaycan dini həyatında Peyğəmbər (s.ə.s) ailəsinə münasibətlə bağlı məqalələr yer alıb

**İyulun 3-də Dini Araşdırmalar Mərkəzində “Azərbaycan və Əhli Beyt irsi” adlı kitabın elmi - ictimai müzakirəsi təşkil olunub. Dini Araşdırmalar Mərkəzində keçirilən tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşları, BDU İlahiyyat fakültəsinin müəllimləri, bir sıra dini icma rəhbərləri və din xadimləri, ictimaiyyət nümayəndələri iştirak edib.**

Qeyd edək ki, “Azərbaycan və Əhli Beyt irsi” kitabı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü və dəstəyi ilə nəşr olunub. Toplu halında, mütəxəssis məqalələrindən hazırlanmış kitabda Azərbaycanda Məhəmməd Peyğəmbər (s.ə.s) Əhli Beytinə aid maddi və mənəvi irs nümunələrinin araşdırılması, tanıdılması, milli kimliyimizə təsiri, milli mədəniyyət və tarixi-mizdə yeri kimi mövzularda məqalələr yer alıb.

Kitabdakı məqalə müəlliflərinin də iştirak etdiyi müzakirələrdə çıxış edən alim və tədqiqatçılar, ictimai fəallar kitabın Azərbaycanda Peyğəmbər Əhli Beyti irsinin araşdırılması istiqamətində hərtərəfli və dövlət tərəfindən dəstəklənən ilk tədqiqat işi olduğunu vurğuladılar. Çıxış edən müəlliflər bildirdilər ki, bu gün Azərbaycanda ənənəvi dini və milli-mənəvi dəyərlərimizin qorunması ən aktual məsələyə çevrilib. İnsanlarımız zəngin milli-dini dəyərlərimizi kifayət qədər mənimsəsəydilər nə yadelli dini sektaların, nə İslam təriqəti adıyla müxtəlif “hizmətlərin” torlarına düşməzdilər, nə də bu gün Suriya və İraqda müsəlmanların qırğınında iştirak etməzdilər.

Kitabda Azərbaycan haqqında Peyğəmbər (s) və Əhli Beytinin hədislərində olan məlumatlar, ölkəmizdə olan imamzadə kompleksləri və onlara dövlət qayğısı, tolerantlıq mühitinin formalaşmasında əhli beyt irsinin rolu, əhli beytlə bağlı mərasimlər, irfan və təsəvvüf ədəbiyyatımızda əhli beyt, milli mətkurə və kimliyimizdə, mədəniyyət və ədəbiyyatmızda əhli beyt sevgisi izləri haqda ciddi araşdırma materialları var. Məqalələrdən biri ““Əli və Nino” romanında Əhli Beyt izi" adlanır və bu əsərdəki İslam müqəddəslərinə münasibət araşdırılıb. O cümlədən Car Balakən sufi təriqəti həyatında əhli beyt, əhli-sünnə mənbələrində əhli beyt sevgisi kimi Azərbaycan tarixində və dini həyatında Peyğəmbər (s.ə.s) ailəsinə münasibəti özündə əks etdirən maraqlı araşdırmalar yer alıb. Kitabda məqalələrdən biri azərbaycanlı İslam alimlərinə, Seyid Yəhya Bakuvinin əhli beyt sevgisinə həsr olunub. O cümlədən daha bir məqalə isə İslam hədis mənbələrində Azərbaycan haqda, ölkəmizin adının keçdiyi hədislər qeyd olunub.

Qeyd edək ki, çıxışlarda vurğulandı ki, Azərbaycanda əsrlər boyu İslam məzhəbləri dinc, yanaşı yaşayıb. Şiələrlə yanaşı sünni məzhəbli insanlar Peyğəmbər Əhli Beytinə (ə) sevgi bəsləyiblər. Maraqlıdır ki, kitabın bir sıra məqalələri yerli əhli-sünnə məzhəbli ilahiyyatçılar tərəfindən yazılıb.

“Azərbaycan və Əhli Beyt irsi” kitabı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə “Elm və Təhsil” nəşriyyatında 2013-cü ildə sifariş edilib. Kitabın ön sözünün müəllifi DQİDK-nın keçmiş sədri Elşad İskəndərov, baş redaktoru BDU İlahiyyat fakültəsinin dekanı, akademik Vasim Məmmədəliyev, elmi rəycisi AMEA-nın müxbir üzvü, Əlyazmalar İnstitutunun direktoru professor Teymur Kərimlidir.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014

# Xalqın və İlham Əliyevin Tovuzdakı düşmənləri



## Məmurlar vətəndaşları öz dövlətindən, həmçinin prezidentdən küsdürür; dastanlardakı zalım padşahların prototipləri xalqı su ilə imtahana çəkir; rayonlardakı vəzifə sahiblərinin tamahı və allahsızlığı görünməmiş həddə çatır

**Tovuza gəlməyimizin səbəbi sırf istirahətlə bağlıydı. Doğulduğumuz rayonda, kənddə bir neçə gün dincəlib yeni enerji ilə paytaxta dönmək, işimizin üstünə qayıtmaq idi fikrimiz. İnsan anadan olduğu məmləkətdə özünü o qədər rahat və güvənli hiss edir ki... Bunu xüsusi təsvir və qeyd etməyə gərək yoxdu, məncə. Çünki hər bir insana tanış hissdir.**

Azərbaycan o ölkələrdəndir ki, onun hansı guşəsində olursa-olsun, insan özünü tam istirahətə həsr edə bilmir. Mütləq hansısa problemlə üzləşəcəksən. Kimsə qanını qaraldacaq, kobud davranacaq, hesabda səni aldatmağa çalışacaq, nə bilim, xidmət sektorundakı çatışmazlıqdan xəyal qırıqlığına uğrayıb peşman olacaqsan və s.

Öz doğma rayonunda, kəndində isə qayğılar, problemlər adamı daha çox əhatə edir. Çünki yerli insanlarla hər gün təmasda olursan, onların qayğılarını, yaşadıqları problemləri bilavasitə görürsən, yaşayırsan. Hətta uzaqdan belə doğulduğumuz rayonun problemləri adamı məşğul edir; kənddə yaşayan qohum-əqrəba ilə görüşüb-danışanda, hal-əhval tutanda onların hansı çətinliklərin içində olduğundan xəbər tutursan.

### Rusiyanın hesabına ayaqda qalanlar

Tovuz hazırda çox ciddi problemlərlə üz-üzədir. Ən böyük problem isə bütün ölkə üçün xas olan kütləvi işsizlikdir. Tovuzun kəndlərində az qala hər evdən 1-2 nəfər Rusiyaya işləməyə gedib. Bu rayonu, onun əhalisini Rusiyadan göndərilən pullar saxlayır, yoxsa insanlar üçün həyat daha çətin olardı. Əslində SSRİ dövründən belədi. Amma müstəqillikdən sonra Rusiyaya üz tutanların sayı birə on artıb.

### "Simnarxan"lar camaatı da yandırır, əkin-biçini də

Rayon üçün bir başqa problem də sudur. Daha doğrusu, susuzluq. Tovuzun elə bir kəndi yoxdur ki, əhali susuzluqdan əziyyət çəkməsin. Rusiyaya getməyib kənddə qalanlar əllərindəki, ovuclarındakı vəsaiti ümidə büküb torpağa basdırır ki, məhsul götürüb satacaq, problemlərini yoluna qoyacaq. Amma məmurların allahsızlığı, tamahı və şəxsi təsərrüfatları camaatın ümidini də yandırır, əkin-biçinini də. Halbuki təbii qaynaqlar hesabına bu problemi qismən yoluna qoymaq mümkündür. Bir az da yerli məmurlar tamahlarını qıssalar, sıravi insanlar torpaqla dolana bilərlər. Tovuzda əksər məmurun şəxsi təsərrüfatı var. Suvarma suları da əsasən o təsərrüfatlara axıdılır. Bir də rayon rəhbərliyinin doğulduğu kənd və qəsəbəyə...

### "Əjdaha Arif"in yezidliyi

Tovuzluların ən çox narazı olduqları məmurlardan biri də su idarəsinin müdiri Arif İsmayılovdur. O, "Azərsu" ASC-nin Tovuz şöbəsinə rəhbər təyin olunduqdan sonra əhalinin su problemi daha da ağırlaşıb. Tovuzun Yuxarı Öysüzlü kəndinə bir neçə il öncə içməli su xətti çəkilib. 19-cu əsrdə Öysüzlü bəylərinin qazdırdığı kəhrizdən mənbəyini götürən bu su xətti kəndi içməli su ilə təmin edir. Deyilənə görə, sonralar xətdə su azaldığından gözünə çay suyu da qatılıb. Camaat deyir ki, hətta buna da razı olublar, təki həyətlərə su gəlsin. Arif İsmayılov idarəyə müdir təyin edilənə kimi öysüzlülülər bu xətdən normal istifadə ediblər. Onun gəlişindən sonra kəndin yarısından çoxu su üzünə həsrətdi. Kənd əhalisi deyir ki, A.İsmayılov kəndin yuxarı hissəsində yaşayanlardan pul alıb onlara normadan artıq su verilməsinə şərait yaradır. Normativə görə hər evə 15-lik boru ilə su verilir, amma Arif İsmayıl rüşvət müqabilində ana xətdən 32-lik, 40-lıq və hətta 50-lik borularla su çəkilməsinə "icazə" verib. Həmin borularla evlərə çəkilən su ilə də həyətyanı sahələr suvarılır. Bundan başqa, xəttin əksər hissəsi dağılıb, su boşuna axıb gedir. Təmir üçün isə A.İsmayılov heç bir təşəbbüs göstərmir. "Azərsu"dan "Yeni Müsavat"a bildirilib ki, bununla bağlı yerli şöbə heç bir müraciət etməyib, etsə, mütləq xətt təmir olunar.

Su xəttinin balon sisteminə keçməsinə, sayğac quraşdırılmasına da A.İsmayılov mane olur, deyilənə görə. Belə olanda onun qazancı azalacaq.

### Haşiyə: İlyas İsmayılov hardadı?

Öysüzlü camaatı deputat İlyas İsmayılovdan da narazıdır. Deyirlər İ.İsmayılov deputat olduğu 10 ilə yaxın müddətdə bir dəfə də olsun kəndə ayağını basmayıb, camaatla görüş keçirməyib, problemlərlə maraqlanmayıb. Ona edilən bütün müraciətlər isə cavabsız qalır. Camaat "Yeni Müsavat" vasitəsilə İlyas İsmayılovu Öysüzlüyə dəvət edir.

### Paşayevlərin adından edilən dələduzluq

Su idarəsinin müdiri Arif İsmayılov Tovuzda şayiə buraxıb ki, onun arxasında Arif Paşayev dayanır. Bu üzdən də ona heç kim dəyib-toxuna bilməz. Paşayevlərin adından "qoruyucu jilet" kimi istifadə edən A.İsmayılov ölkənin birinci xanımı Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun da adından vaxtaşırı sui-istifadəyə yol verir. Əhalidən qanunsuz yolla pul yığanda deyir ki, bunu Heydər Əliyev Fonduna göndərəcək. Guya fonda aylıq "haqq" ödəyir Arif İsmayılov. Bəzən də deyir ki, mən Oqtay Əsədovun adamıyam. Özünü iri məmurların, nüfuzlu soyad təmsilçilərinin adamı kimi təqdim edən Arif İsmayılov təəssüf ki, xalqın adamı ola bilmir. Tamahı imkan vermir.

Onun bu fantaziyalarına inananlarla yanaşı inanmayanlar da var. İkincilər haqlı olaraq deyirlər ki, bir rayonun idarə müdirini niyə Arif Paşayev, Mehriban Əliyeva, Oqtay Əsədov müdafiə etsin?! Burada məntiq nədir?

Yeri gəlmişkən, Azərbaycanda bu cür dələduzluq geniş yayılıb. Bəzi məmurlar, iş adamları, ayrı-ayrı şəxslər şayiə yayırlar ki, guya hansısa nüfuzlu məmurun, soyad təmsilçilərinin himayəsindədirlər. Hazırda ölkə həbsxanalarında bu fırıldağa görə istintaq altında olan xeyli dələduz var.

Arif İsmayılov uzun illər Tovuzda qaz idarəsinin baş mühəndisi, sonralar isə müdiri olub. Onun su idarəsinə müdir təyin edilməsi də çox maraqlı və ziddiyyətlidir. Qaz təsərrüfatı ilə su təsərrüfatı tam başqa-başqa sahələrdi. Qaz mütəxəssisi necə su idarəsinə müdir təyin oluna bilər, bunu da yerli əhali ciddi şəkildə maraq edir. Yerli əhali deyir ki, bu adam qaz idarəsinə rəhbərlik edəndə də camaata qan uddurub. Belə bir zədəli reputasiyaya malik şəxsin yenidən vəzifəyə təyinat almasında rüşvət amilinin rol oynayıb-oynamadığı da araşdırma mövzusudur.

Deyilənə görə, Arif İsmayılovun bu davranışları, işinə məsuliyyətsiz yanaşması rayon rəhbərliyini ona qarşı bəzi addımlar atmağa vadar edib. Amma hələlik bilinməyən səbəblərdən o, vəzifədə qalmağa davam edir.

### Öysüzlü bəylərinin malikanəsi - dağılan abidə, məhv olan tarix

Yuxarı Öysüzlü təkcə su problemi ilə üz-üzə deyil. Bu kəndin insanları xırda məmurların özbaşınalığından, tamahından əziyyət çəkmir. Öysüzlünün tarixi də məmurların laqeydliyinin qurbanıdır. Bu kənddə 1885-ci ildə (19-cu əsr) tikilmiş iki tarixi bina var - Öysüzlü bəyləri Nəsib bəylə Yusif bəyin (qardaş olublar) malikanələri. Sovet hakimiyyəti illərində o malikanələrdən biri orta məktəb kimi istifadəyə verilib, digəri kənd xəstəxanası olub. 1985-ci ildə Öysüzlüdə o vaxtın standartları ilə modern məktəb binası tikilib. Elə o vaxtdan da bu tarixi bina baxımsız qalıb. Amma digər malikanə hazırda da xəstəxana kimi fəaliyyət göstərir. Onun da tarixi görünüşünə ciddi müdaxilələr olub. Hər iki tarixi abidə dövlətin qoruması altına alınmalı və təmir edilib muzey kimi istifadə edilməlidir. Mədəniyyət və Turizm Nazirliyi yəqin bu yazıdan sonra məsələyə reaksiya verəcək, bu tarixi binaların bərpası istiqamətində ciddi addımlar atacaq.

### Dörd kəndin bir yolu - yolsuzluq

Tovuzun bir neçə kilometrliyində yerləşən Xatınlı, Qaraxanlı, Cilovdarlı və Qədirli kəndləri də susuzluqdan ciddi əziyyət çəkir. Kənddən keçən su kanalı suvarmaya bəs etmir. Əhalinin təsərrüfatı göz baxa-baxa məhv olub gedir. Amma bu kəndlərin əhalisini ən çox narahat edən başqa bir problem də var: yolsuzluq. Yuxarıda adlarını çəkdiyimiz kəndlərə yol SSRİ dövründə çəkilib. Ondan sonra nə təmir edilib, nə də yenidən yol salınıb. Xatınlının girişindən rayon mərkəzinə cəmi 5-6 km-dir. Amma bu qısa yolu qət etmək üçün yarım saat vaxt lazım olur. Bu kəndlərdən ölkə miqyasında tanınan xeyli nüfuzlu və populyar şəxslər çıxıb. Amma insaf naminə onu da deyirlər ki, bu cür layihələr dövlət tərəfindən həyata keçirilməlidir. Hansısa məmurun, iş adamının dövlətin görməli olduğu işə müdaxiləsi doğru olmazdı. Deyilənə görə, Xatınlı-Qaraxanlı-Cilovdarlı-Qədirli yolunun yenidən qurulması və bərpası 2012-ci ilin dövlət büdcəsinə salınıbmış. Yerli sakinlərin sözlərinə görə, hansısa sehrli əl bu işi pozub.

### Tovuzdan milyon qazananlar tovuzlulara sahib çıxmır

Bütün rayonlara xas olan məqam Tovuz üçün də yad deyil. Məmurlar rayonların potensialından yararlanıb yaxşı para qazanırlar. Təbii resurslarından - dağından, çayından, torpağından, meşəsindən, bir sözlə, hər şeyindən istifadə edib milyonçuya çevrilirlər. Amma yerli əhali ilə yadelli işğalçı kimi davranırlar. Sadə vətəndaşa qan uddururlar. Əhaliyə kömək etmələri bir yana dursun, onların öz başlarını dolandırmasına mane olurlar. Kəndlinin suyunu kəsmək onun nəfəsini kəsmək deməkdir. Bizim məmurlar bu allahsızlığı gündəlik həyat normasına çeviriblər.

### Kiçik məmurların prezidentə yaratdıqları böyük problemlər

Hazırda ölkə prezidenti İlham Əliyevin ən böyük düşmənləri rayon icra başçıları, polis rəisləri, idarə müdirləri, bir sözlə, orta və xırda məmur korpusudur. Öz gözlərimlə şahidəm ki, bir su idarəsinin müdiri böyük bir kəndi dövlətdən və prezidentdən necə küsdürə bilir. Yaxud əslən Tovuzdan olan məhkəmə hakimi bir kəndin torpaqlarını işğal edib camaatı əkin və otlaq sahəsiz qoya bilir. Hektarlarla əkin və otlaq sahəsini 99 illik icarə adı ilə yağmalayır. Doğma kəndinin nə xeyir-şərinə yarayır, nə də bu kəndin insanlarının üzləşdiyi problemlərlə maraqlanır.










### Keçmişdəki padşahlar, bəylər xalqcanlı olub, indikilər zalım

Əfsanələrdə, dastan və nağıllarda zalım padşahların prototipləri Azərbaycana və millətə zülm etməklə məşğuldular. Feodal qafalı məmurlar xalqa su vermir, suyun qabağını kəsib insanlara əzab verir. Bundan uduzan isə xalq və dövlətdi. Prezident nazirləri rayonlara əhali ilə görüşlər keçirməyə yollayır. Amma yerlərdəki məmur kontingenti bu siyasəti də darmadağın edir. Xalqı bu acgöz və yırtıcı xislətli məmurlardan xilas etmək lazımdır. Elə hakimiyyət özü də bu məmurlardan təmizlənsə yaxşı olardı...

Keçmişdəki padşahlar, bəylər əslində çox alicənab və xalqcanlı olublar. Məsələn, Öysüzlü bəyləri 100 illər öncə bu kənddə məscid tikiblər, su çəkdiriblər, yol salıblar. İndiki məmurlar isə onların bu xeyirxah əməllərini öz xeyirlərinə istifadə edirlər. Halbuki orta məktəbdə malikanəsində oxuduğumuz bəyləri bizə zalım və ədalətsiz kimi təqdim edirdilər. Yalanla tərbiyə olunan, yalanla böyüyən cəmiyyətin axırı necə olmalıdır ki...

**Axırımız xeyir olsun.**

**❑ Azər AYXAN**
**Tovuz, Yuxarı Öysüzlü**

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014

# Olası müharibədə Naxçıvan cəbhəsi əsas rol oynayacaq

## Ermənilərlə müharibədə Naxçıvan cəbhəsinin əhəmiyyəti barədə Elçibəy iqtidarı və Türk Silahlı Qüvvələri ortaq rəyə və plana malik olublar; təsbitlər indi də aktualdır və hazırlıqlar gedir

**Bir qədər əvvəl mətbuatda Naxçıvan istiqamətində Azərbaycan ordusu və erməni qüvvələri arasında gərginliyin artması haqda məlumat yayıldı. KİV-lərdə gedən iddialara əsasən, Azərbaycan ordusu rəhbərliyinin, Türkiyə Silahlı Qüvvələrinin də qatqısı ilə, Naxçıvanda mövqeləri möhkəmləndirməsi, bir sıra hazırlıqlar görməsi Ermənistanda narahatlıq yaradıb.**

Erməni mediası iddia edir ki, Azərbaycanın bu hazırlıqları hücum xarakterlidir; müharibə ola bilər. Bu məlumatlarla paralel, belə bilgilər də yayıldı ki, Azərbaycan Silahlı Qüvvələri Qarabağ, xüsusilə də Haramıdüzü istiqamətindən müdafiə xarakterli hazırlıqlar aparır. Gələn bilgiləri "ipə" düzəndə, belə bir qənaət hasil olur ki, Azərbaycan, Türkiyənin də dəstəyi ilə, olası hərbi əməliyyatlarda Naxçıvan cəbhəsini xüsusilə möhkəmləndirir; Qarabağ cəbhəsinin də bəzi səmtlərində hücum, bəzi səmtlərində isə müdafiə xarakterli işlər aparır.

Hazırda Azərbaycan ordusunun Ermənistanı çökdürməsi üçün ən ideal müharibə meydanının Naxçıvan olduğu ilə bağlı iddialar yayılıb. Bu iddialara görə, Azərbaycan ordusu məhz Naxçıvandan hərbi əməliyyatları başlatmaqla erməniləri çaşqın vəziyyətə salmaq, qüvvəsini oraya cəlb etmək və Qarabağda sürətli qələbəyə nail olmaqla bağlı plan hazırlayıb. Naxçıvan cəbhəsinin açılması və böyüdülməsi ilə bağlı plan 22 il əvvəl də irəli sürülübmüş. Bizə çatan məlumata görə, həmin vaxt Elçibəy iqtidarı Türkiyə dövləti ilə razılaşdıraraq, Naxçıvandan əməliyyatların başlaması və Zəngəzur ərazisinə doğru Mehri koridorunun açılmasını təmin edəcək plan hazırlayıbmış.

**"Aprelin 12- də mən yenə bu məsələlərlə bağlı Tehranda oldum və prezidentin müraciətlərini İran rəhbərliyinə çatdırdım"**

### Bu planın mahiyyəti nədir və o, niyə baş tutmayıb?

**Savaş planının əsas müəlliflərindən biri, 1993-cü ildə baş nazir vəzifəsində olan Pənah Hüseyn "Yeni Müsavat"ın israrlı suallarına cavab olaraq bəzi məqamlardan danışdı. Sabiq baş nazirin sözlərinə görə, Naxçıvandan əməliyyatların başlaması üçün hələ AXC hakimiyyətindən əvvəl də təkliflər olub:** "Ümumiyyətlə, o dövrdə Qarabağ müharibəsi, Ermənistanın işğalının nəticələrinin aradan qaldırılması üçün istər hərbçilər, istərsə də siyasətçilər tərəfindən müxtəlif layihələr təklif edilib, onların müzakirələri aparılıb. Naxçıvan istiqaməti bu layihələrdə daim yer alırdı. Səbəbi də aydın idi. Bir tərəfdən Naxçıvan blokada vəziyyətində idi; ermənilərin əsas işğal hədəflərindən biri elan edilirdi və bu işğal təhdidi sadəcə bəyanatlarla müşayiət olunmurdu. 1990-cı ildən başlayaraq Naxçıvan şiddətli döyüşlərin getdiyi real müharibə cəbhələrindən biri idi. Naxçıvan blokada vəziyyətində idi və bu blokadanın aradan qaldırılmasının təbii yolu bir çoxlarına Zəngəzurun, Mehri (Meqri) dəhlizinin hərbi yolla azad olunması kimi görünürdü. İndiki terminologiyadan istifadə etsək, hesab edilirdi ki, bu bir növ humanitar əməliyyat kimi dünya tərəfindən başa düşülə bilər. Geosiyasi amillər, daha dəqiqi, Türkiyə amili bu variantı çox cəlbedici edirdi. Hesab edilirdi ki, bir halda ki, Rusiya açıq - aydın Ermənistana kömək edir; bu halda Türkiyənin Azərbaycan tərəfindən problemə müdaxiləsi Naxçıvandan başlaya bilər. Çünki SSRİ və Türkiyə arasındakı Qars müqaviləsinə görə Türkiyə Naxçıvanın təhlükəsizliyi üçün təminatçı idi. Türkiyənin müdaxilə məsələsi elə də xəyal deyildi. Hələ 92- ci ilin yazında MDB Silahlı Qüvvələrinin komandanı marşal Şapoşnikovun "Türkiyə müdaxilə etsə üçüncü dünya müharibəsi başlayacaq", - bəyanatını yada salmaq olar. Digər tərəfdən, bir sıra hərbçilər əsaslandırırdılar ki, sırf hərbi baxımdan yalnız cəbhə xəttinin genişləndirilməsi və əməliyyatların Ermənistan ərazisində keçirilməsi təcavüzkarın qüvvələrinin parçalanmasına, Qarabağdan bəzi qüvvələrin Ermənistana aparılmasına səbəb ola və nəticə etibarı ilə onları sülhə məcbur edə bilər. Siyasi dairələrdə bu cür təsəvvürlərin formalaşmasında daha çox 90- cı illərin sonunda müzakirə edilən və "Qobl planı" kimi tanınan ərazi mübadiləsi ideyasının, yeni Dağlıq Qarabağ və Meqrinin mübadiləsi məsələsinin də rolunu qeyd eləmək lazımdır. Əslində bu ideya hələ, səhv etmirəmsə, problem meydana çıxdığı ilk mərhələdə akademik A. Saxarov tərəfindən səsləndirilmişdi və hansısa formada 92-ci ildə ATƏT xətti ilə danışıqlar zamanı türk nümayəndə heyəti tərəfindən müzakirəyə çıxarılmışdı. Lakin o vaxt Azərbaycanda Qarabağın ərazi mübadiləsi predmeti ola bilməsi fikri özü xəyanət kimi qarşılandığına görə geniş yayılmamışdı. Ancaq Mehri (Meqri) məsələsi ağıllarda vardı. Bu istiqamətdə təxəyyül və təsəvvürlərin real təklif və operativ plan kimi formalaşmasına iki hadisə də mühüm təsir göstərmişdi. Birinci uğurlu Başkənd əməliyyatı idi. İkincisi, 92-ci ilin payızında ermənilərin Zəngilan istiqamətində Ermənistan ərazisindən dəmir yolu xətti boyu hücum edərək, bir neçə kilometr ərazimizə daxil olması və bir sıra yüksəklikləri ələ keçirməsinə cavab olaraq sərhədin fərqli bölgəsindən Ermənistan ərazisinə qarşı döyüş əməliyyatı keçirməsi ideyası idi. O vaxt Ali Baş Komandan Kiyevdə rəsmi səfərdə idi. Müdafiə Naziri Rəhim Qazıyev də onu müşayiət edirdi. Odur ki, Ali Sovetin sədri İsa Qəmbərlə, hərbçilərlə, o cümlədən bölgədəki Azərbaycan hərbi hissələrinin komandanı Dadaş Rzayevlə qısa müzakirə apararaq, Ermənistan ərazisinə genişmiqyaslı zərbə göstərişini mən verməli oldum. Kazimirovun bir neçə dəfə zəngindən sonra təxminən bir saat ərzində Moskvadan Rusiya baş naziri Çernomırdin mənə zəng etdi və onun vasitəsilə Ermənistan prezidenti ilə əlaqə saxlandı; elə həmin gün ermənilər Zəngilandan - tutduqları yüksəkliklərdən qoşunlarını geri çəkdilər. Əlbəttə ki, məsələ elə də sadə deyildi və açığı, bu cür təkliflər əksəriyyətə, əsassız da olmayaraq avantüra, macəra kimi görünürdü. Çünki keçmiş SSRİnin 7- ci ordusu, Ermənistanda, Rusiyanın hərbi bazası haqqında danışılan ərazidə - Gümrüdə yerləşirdi".



**Pənah Hüseyn: "Yaranmış hərbi situasiyanı dəyişmək, Naxçıvanla Azərbaycanı birləşdirən Mehri dəhlizinin açılması üçün Naxçıvandan və Zəngilan istiqamətindən hücumun təşkil olunması planlaşdırılırdı"**

**P.Hüseynin sözlərinə görə, Meğri dəhlizinin azad edilməsi məqsədilə Naxçıvan və Zəngilan istiqamətindən eyni zamanda hücum edilməsi məsələsi aktual olaraq gündəmə Kəlbəcərin işğalı zamanı gətirilib:** "Fəlakətli vəziyyət yaranmışdı və Kəlbəcərin işğalından başqa, Gəncə təhlükəyə düşmüşdü. Hətta ermənilərin rus qoşunlarının köməyi ilə Bakı-Tiflis xəttinə çıxması təhlükəsi vardı. Martın ortalarında Bakı - Ceyhan neft kəməri haqqında İstanbulda dövlətlərarası saziş imzalanmışdı və belə halda bu layihə, bütövlükdə yekunlaşmaqda olan neft müqavilələri təhlükəyə düşürdü. Odur ki, problem ətrafında o vaxta qədər olmayan dərəcədə geosiyasi canlanma və gərginlik yaranmışdı. Vəziyyətdən çıxış yolu kimi biz yuxarıda adıçəkilən planı gündəmə gətirdik. Plan barədə o vaxt Azərbaycanda olmaları gizli olmayan türk hərbi məsləhətçilərinin də məlumatı vardı. Aprelin 7- si və 8- də o vaxt Orta Asiyada səfərdə olan Türkiyə prezidenti Turqut Özalın məşhur bəyanatı səsləndi. O, belə idi: "Əgər türk diviziyaları Ermənistan sərhədində təlimlərə başlasalar və bu zaman mərmilər Ermənistana düşsə nə olar?!"

Aprelin 7- 8 də mən Ankarada oldum. Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Doğan Güreş və Qərargah heyəti , Türkiyə baş naziri və digər hökumət nümayəndələri ilə bu məsələlərin konkret müzakirəsi aparıldı. Habelə Turqut Ozalın Orta Asiya səfərini yekunlaşdırıb Bakıya gəlməsi zamanı bu məsələlər prezidentlər arasında müzakirə edildi. Bizim əsas arqumentlərimizdən biri ondan ibarət idi ki, Türkiyənin məsələyə birbaşa müdaxiləsi və bu zaman Rusiya ilə gözlənilən qarşıdurma problemin masştabını daha da genişləndirir və böyük ehtimalla, ciddi regional sarsıntı, genişmiqyaslı müharibə olmadan da məsələnin nizamlanmasına səbəb olardı. Aprelin 12- də mən yenə bu məsələlərlə bağlı Tehranda oldum və prezidentin müraciətlərini İran rəhbərliyinə çatdırdım. O vaxt Naxçıvan əməliyyatı planı hərbi baxımdan reallaşma mərhələsinə keçmədi. Bir çox səbəbləri var... Turqut Özal vəfat etdi.. Heydər Əliyev bu əməliyyata qarşı idi.

**"Rusiya baş naziri Çernomırdin mənə zəng etdi və onun vasitəsilə Ermənistan prezidenti ilə əlaqə saxlandı; elə həmin gün ermənilər Zəngilandan - tutduqları yüksəkliklərdən qoşunlarını geri çəkdilər"**

"Bütün bunlar hamı üçün gizli idi və çərçivə yalnız Azərbaycan - Türkiyə rəhbərliyi ilə məhdudlaşırdı və hər şey yalnız Türkiyədən asılı idi", - kimi düşünmək əlbəttə ki, sadəlövhlük olardı. Türkiyənin də hesablaşmalı olduğu şərtlər, güclər var ... ... Lakin izsiz də keçmədi. Hadisələrdən bir neçə il sonra Rusiya rəsmilərinin dərc etdirdiyi materiallarda Mehri (Meqri) istiqamətində hücum planı, aparılan müzakirələr haqqında Ermənistan rəhbərliyinin xəbərdar olduqları və ciddi narahatlıq keçirdikləri, Rusiyaya birbaşa müraciətləri barədə informasiyalar vardır. Azərbaycan ordusunun Kəlbəcər istiqamətində və Füzuli istiqamətində qəhrəman müqaviməti ilə yanaşı hücumların dayandırılmasında bu məsələnin də təsirini qeyd etməmək olmaz. Bunun sənədli təsdiqləri vardır. Habelə münaqişə tarixində ilk və son olaraq Türkiyənin vasitəçi kimi iştirak etdiyi yeganə dönəm də həmin dövrə aiddir. Aprelin sonundan başlayaraq ABŞ, Rusiya və Türkiyədən ibarət missiyanın, tarixə üçlü təşəbbüs kimi hazırladıqları, Kəlbəcərin və digər ərazilərin müvafiq olaraq 20 gün ərzində azad olunmasını nəzərdə tutan və iyun qiyamı ilə yarımçıq qalan proses, BMT qətnaməsinin qəbul olunması də bu təsirin nəticələrindən idi.

Əməliyyatların Naxçıvandan başlayacağı ilə bağlı xəbərlərin gündəmə gəlməsi təsadüfi ola bilməz. Lakin istənilən halda döyüş əməliyyatlarının başlayacağı halda istisna eləmirəm ki, bu, yalnız Qarabağ cəbhəsi ilə məhdudlaşdırılsın"...

❑ Kənan RÖVŞƏNOĞLU

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014



# İdentik iddia

Xalid KAZIMLI

**"Hüseyn Çelik iddia edib ki, keçirilən sosioloji sorğular göstərir ki, Rəcəb Tayyib Ərdoğan ilk turda 50 faizdən çox səs toplayacaq və qalib gələcək".**

"Əli Əhmədovun fikrincə, sosioloji sorğuların nəticələri göstərir ki, prezident İlham Əliyev seçkilərin ilk turunda seçicilərin böyük əksəriyyətinin səsini toplayaraq yenidən prezident seçiləcəkdir".

Bu iki iddia arasında yalnız bir neçə kəlməlik fərq var. Türkiyənin hakim partiyasının sözçüsü ilə Azərbaycanın hakim partiyasının təmsilçisinin ritorikası bir-birindən işlədilən sözlərin artıq-əskikliyi ilə fərqlənir, mənası isə birdir. Başqa sözlə, bir niyyət, iki söhbət.

Hər iki ritorika hazırda hakimiyyətdə olan dövlət xadiminin seçkinin **İLK TURUNDA** qalib gələcəyini iddia edir. Sadəcə, birinə seçkidə qalib gəlmək üçün 50+1 faiz səs kifayətdirsə, digərində bu 75 faizdən artıq olmalıdır.

Bizdə hələ müstəqilliyin ilk illərindən 50 faiz səs qaneedici sayılmayıb. Son 22 ildə ölkəmizdə prezident seçilən 4 şəxsin içində yalnız Əbülfəz Elçibəy 50 faizdən bir az artıq seçicinin səsiylə ali dövlət postunda oturmuşdu. Qalanların hamısının qazandığı səs faizi 75-dən çox olub. İlk turda 75 faiz. Vəssalam. Nöqtə.

Avtoritar rejimli bütün ölkələrdə belədir: hakimiyyətdə olan şəxs mütləq seçkilərin birinci turunda qalib gəlməyə məcburdur. İşi şansa buraxmaq olmaz. Kim bilir, seçki ikinci tura qalsa, nə olar, kimlər kimlərlə birləşər və qüvvələr nisbəti necə dəyişər. Ən yaxşısı məsələni ilk turda həll etməkdir - düşüncə budur.

Əlbəttə, diktatura və yarımdemokratik rejimlərdə əldə olan imkanlardan (seçkiyə hiylə qatmaqdan tutmuş inzibati resurslardan, qeyri-bərabər təbliğat üsullarından yararlanmağa qədər) istifadə etməklə 50+1 faiz səsi düzəltmək çətin deyil və günümüzdə bunu müxtəlif ölkələrdə tez-tez təbiq edirlər.

Ancaq hansı ölkədə avtoritar idarəçilik nə qədər şiddətlidirsə, diktatura nə qədər güclüdürsə, seçilən liderin "qazandığı" (daha dəqiqi, onun adına yazılan) səs faizi o qədər yüksək olur. Bu yüksək səs faizi xalqın liderə rəğbətinin göstəricisi olmalı, onun rəqiblərinə göz dağı verməlidir. Rəqiblər bilməlidirlər ki, "seçilmiş lider" onlardan fərqli olaraq, "xalqın əksəriyyətinin dəstəyi"nə malikdir və ona qalib gəlmək mümkün deyil.

Bununla müqayisədə hansısa liderin qazandığı 50+1 səs faizi sürüşkən görünür. Bu, həm o deməkdir ki, xalqın digər yarısı, 50 faizi bu liderə qarşıdır, həm də siyasi rəqiblərə "bir az artıq səy göstərsək, 1 faiz artıq səs qazanar və hər halda ona qalib gələ bilərik" ümidi yaratmağa qadirdir.

İndilikdə Türkiyədəki hakim partiyanın sözçülərinin durub Ərdoğanın qazanacağı 70-75 faiz səsdən danışmaları absurd görünə bilər. Zatən, Hüseyn Çelikin Ərdoğanın ilk turda qalib gələcəyini iddia etməsi həmin qrafadandır.

Çünki bir neçə ay öncə (martıqn 30-da) keçirilən bələdiyyə seçkiləri göstərdi ki, hakim partiyanın səsi 50 faizə çatmır. Hələ bu səs faizi də AKP-nin ayrı-ayrı nüfuzlu şəxslərinin, xalq arasında olan hörmətləri baş nazirininki ilə identik olmayan, ayrıca yüksək olan məmurların hesabınadır.

Yəni bu, o deməkdir ki, seçkidə hiyləyə əl atılmasa, inzibati resurslardan sui-istifadə edilməsə, halal seçki keçirilsə, Ərdoğan birinci turda seçilməyə bilər. Ən qəribəsi odur ki, seçkilər ikinci tura qalarsa, qüvvələr nisbəti və konsolidasiyası elə dəyişə bilər ki, Ərdoğan ikinci turda ümumiyyətlə, seçilməz.

Hüseyn Çelik və digər sözçülərin baş nazirin ilk turda qalib gələcəyini anons və iddia etməsi Türkiyənin hakim partiyasının niyyətindən xəbər verir. Ərdoğanın komandası nəyin bahasına olursa-olsun, hətta Türkiyənin demokratik imicini zərbə altına qoymaq hesabına olsa da, seçkini ilk turda udmaq istəyəcək.

Zatən, bir neçə nüfuzlu namizədin qatıldığı seçkidən birinin - əlində hakimiyyət olanın öncədən qalib elan edilməsi anti-demokratik hərəkətdir, azad seçim etməyə hazırlaşan xalqın iradəsinə təzyiqdir.

Biz bunu öz ölkəmizdə çox görmüşük. YAP-ın rəhbər şəxsləri seçkilərin nəticələrini öncədən yüzdəyüz dəqiqliklə "proqnozlaşdırmaq" ("bizimki 75 fazi səs alacaq") qabiliyyətlərinə görə fenomendirlər. İndi Türkiyənin AKP-si də YAP gedən yolu gedir.



# Moskva Azərbaycana qorxulu sürpriz edə bilər



**Zəfər Quliyev:**
"Güclənən Qərb-Rusiya qarşıdurması istər-istəməz Azərbaycanı daim seçim qarşısında qoyur"



**Siyavuş Novruzov:**
"Bu sənədin qəbulu Azərbaycanla Rusiya arasında heç bir gərginliyə səbəb ola bilməz"



**Eldar İbrahimov:**
"Bildiyimə görə, Azərbaycan Rusiya əleyhinə səsvermədə iştirak etməyib"

**"Azərbaycan son 10 gün ərzində çox ciddi bir sınaq qarşısında idi. Mən həm AŞ PA-nın, həm də ATƏT-in keçirilən toplantılarını nəzərdə tuturam". Politoloq Zəfər Quliyev ATƏT-in Parlament Assambleyasının Bakıda keçirilən toplantısı, burdakı müzakirələr və Rusiya əleyhinə qəbul olunan yekun qətnaməni şərh edərkən bunları söylədi.**

Ekspert rəsmi Bakının üzləşdiyi situasiyanı kifayət qədər ciddi sayır: "Strasburqda keçirilən AŞPA-nın sessiyasında bəlli idi ki, Azərbaycana demokratiya sahəsində ciddi təzyiqlər olacaq. Nəzərə alsaq ki, prezident özü də orda iştirak edib çıxış etmişdi və ciddi suallarla qarşılaşmışdı, Azərbaycan bu sınaqdan nisbətən uğurlu çıxdı. Çünki bütün suallara standart cavab verilmişdi ki, Azərbaycanın heç bir sahədə problemi yoxdur və öz öhdəliklərini yerinə yetirir. Lakin bundan sonra növbəti sessiya - ATƏT-in Parlament Assambleyasının sessiyası - Bakıda keçirildiyinə görə və əvvəlcədən də bəlli idi ki, burada Ukrayna məsələləri ilə bağlı Rusiyaya qarşı ciddi qətnamə qəbul oluna bilər. Bu, Azərbaycan üçün daha ciddi sınaq idi. Gözlənilirdi ki, Azərbaycan bu məsələdə hansısa formada öz mövqeyini pərdələməyə, gizlətməyə çalışacaq. Ona görə ki, BMT Baş Məclisindəki səsvermədən sonra Bakı Moskvanın çox ciddi sərt və neqativ reaksiyası ilə üzləşdi".

**Z.Quliyevin fikrincə, indiki mərhələdə yenidən açıq formada Qərbi bu məsələdə dəstəkləmək rəsmi Bakı üçün çox riskli olardı:** "Bu mənada faktiki olaraq çox uğurlu bəhanə tapıldı. Belə ki, ABŞ-ın təklif etdiyi qətnamədə əsas diqqət Ukrayna-Rusiya münasibətlərinə, Krım məsələsinə verildi. Lakin Qarabağ məsələsi, ümumiyyətlə, bu qətnamədə əksini tapmadı. Bu da Bakıya imkan verdi ki, əsas bu məsələni bəhanə gətirərək "Qarabağda da Azərbaycanın suverenliyi, ərazi bütövlüyü pozulub, bu məsələyə ikili standartlarla yanaşmaq olmaz" desin. Ona görə də Azərbaycan öz etirazını bildirdi və bu qətnaməni fəal formada dəstəkləmədi. Beləliklə, risklər nisbətən azaldı. Lakin hər halda, Bakı Bəyannaməsi qəbul olunub və tarixə düşüb. Bu bəyannamə Rusiyaya qarşı sərt mövqe əksini tapıb və sammitin yekunu kimi Bakı qrupu da yaradılıb. Bakı qrupunun əsas məqsədi isə Ukraynadakı vəziyyətə nəzarət etmək və Rusiya-Ukrayna münasibətlərindəki problemlərin və Krım məsələsinin hansısa formada həllinə nail olmaqdır. Bu, özü də istər-istəməz Bakını bu hadisələrin içərisində saxlayır, yəni kənarlaşmağa, risklərdən, təhlükələrdən tam canını qurtarmağa imkan vermir. İndiki mərhələdə bu proseslərdən kənarda durmaq rəsmi Bakı üçün çox çətin olacaq. Ona görə ki, Qərblə Rusiya arasında güclənən bu qarşıdurma istər-istəməz Bakını daim seçim qarşısında qoyur".

Xatırladaq ki, Bakının ev sahibliyi etdiyi ATƏT PA-nın sammitində anti-Rusiya qətnaməsinin qəbul edilməsinə şimal qonşumuzdan sərt təpkilərin veriləcəyi və Moskvanın sürprizlər edəcəyi barədə iddialar səslənir. Düzdür, bu, beynəlxalq tədbirdir və sammitdəki səsvermədə də Bakının ən azı bitərəf qaldığı deyilir. Lakin yenə də Rusiyanın Azərbaycanı bağışlamayacağı barədə fikirlər var. Yeri gəlmişkən, səsvermənin nəticələrinin məxfi saxlanılması da söz-söhbətə səbəb olub.

Sammitdə qəbul olunan Bakı Bəyannaməsində isə ATƏT-ə üzv dövlətlərin sərhədlərinin pozulmamasının və Helsinki Yekun Aktında əksini tapan ərazi bütövlüyü prinsiplərinə əməl edilməsinin vacibliyi vurğulanır. Göründüyü kimi, açıq mətnlə göstərilməsə də, Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanınmasına ciddi işarələr var. Ancaq bəyannamədə Ukrayna böhranına da geniş yer ayrılır və burada kifayət qədər konkret mövqe ifadə olunur.

**"ATƏT Parlament Assambleyasının Rusiyada, Azərbaycan, Gürcüstanda, Baltikyanı ölkələrdə, yaxud Ermənistanda keçirilməsinin fərqi yoxdur. Yəni bu, ATƏT-in toplantısıdır, Azərbaycanın yox. Odur ki, məkanın burda heç bir əhəmiyyəti yoxdur".**

**Bu fikirləri isə YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov bildirdi:** "Yekun qətnamə layihəsi də amerikanlar tərəfindən təqdim olunmuşdu. 5 ölkə əleyhinə, qalanlarsa lehinə olmaqla sənəd qəbul edildi. Bu sənədin qəbulu Azərbaycanla Rusiya arasında heç bir gərginliyə, yaxud münasibətlərin dəyişməsinə səbəb ola bilməz. Rusiya parlamentinin sədri iştirakçılar qarşısında çıxış edib fikirlərini bildirdi, nümayəndə heyəti orda iştirak edirdi. Onların hər biri şahidi oldular ki, hansı dövlətlər Rusiyaya qarşı bu qətnaməni qəbul edib".

**S.Novruzov qeyd etdi ki, NATO PA-nın üzvü olduğundan rəsmi Bakının yekun sənədin lehinə, yoxsa əleyhinə olması ona məlum deyil:** "Bu barədə ATƏT PA-nın üzvlərindən soruşun".

**Milli Məclisin deputatı, ATƏT PA-nın təmsilçisi Eldar İbrahimovun sözlərinə görə, toplantıda Qarabağla bağlı konkret məsələ müzakirə olunmasa da, bura gələn deputatlar Qarabağ məsələsi ilə bağlı məlumatlandırılmışdılar:** "Əgər bura gələnədək onlarda müəyyən tərəddüdlər var idisə, gələndən sonra hər şeyi burada öz gözləri ilə gördülər və mövqelərində ciddi dəyişiklik yarandı. Onlar eyni zamanda Azərbaycanda gedən inkişaf prosesinin də əyani şahidi oldular". **Qarabağ məsələsinin bu sessiyada ciddi qaldırılmamasının səbəbini açıqlayan deputat bildirib ki, bu məsələyə bir az avropasayağı yanaşıblar:** "Buna baxmayaraq, Bakıdakı sessiyada ATƏT regionundakı münaqişələr müzakirə olundu və biz də bu münaqişələr kontekstində Qarabağ problemini qaldırdıq. Amma buna baxmayaraq, ATƏT regionundakı münaqişələrə ikili standart siyasəti özünü bariz formada göstərdi".

**Eldar İbrahimov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, iqtisadiyyat komitəsinin üzvü olduğundan Rusiya əleyhinə amerikan təmsilçinin hazırladığı qətnamə layihəsinə münasibətdə Azərbaycanın hansı mövqedə olmasından dəqiq məlumatlı deyil:** "Amma bildiyimə görə, Azərbaycan Rusiya əleyhinə səsvermədə iştirak etməyib. Bakı Bəyannaməsinə isə Azərbaycan da səs verib". **E.İbrahimov Bakı ilə Moskva arasında problemlərin yaşanacağına inanmır:** "Azərbaycan və Rusiya arasında nə problem olacaq ki?"

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014

# Liviya və Suriya fəlakətlərindən sonra 3-cü batış qapıda!

**Azərbaycanın kürdəsilli oliqarxları təlaş içindədir. Onların İraq Kürdüstanına yatırdıqları sərmayə təhlükə qarşısındadır. Bu sərmayələrə regionda kütləvi terror aktları həyata keçirən İraq Şam İslam Dövləti (İŞİD) böyük təhlükə yaradıb. Bu barədə mötəbər mənbələrdən məlumat daxil olub.**




# Oliqarxlarımızın İraqdakı biznesi təhlükədə - özəl xəbər

## Bəylər Əyyubovun patronajlığı altında olan iş adamları İraq Kürdüstanının hotel və kazino biznesinə, tikinti sektoruna böyük paralar yatırıblar; İraq hökuməti İŞİD-i zərərsizləşdirə bilməsə, azərbaycanlı oliqarxların pulları bata bilər

Mənbənin məlumatına görə, kürdəsilli oliqarxlar, əsasən də prezidentin şəxsi mühafizə xidmətinin rəhbəri Bəylər Əyyubovun patronajlığı altında olan iş adamları İraq Kürdüstanının hotel və kazino biznesinə, eləcə də tikinti sektoruna böyük paralar yatırıblar: "Sərmayələrin əksəriyyəti muxtariyyətin mərkəzi sayılan Ərbilə yatırılıb. Hətta oradakı tikintilərdə çalışmağa da Azərbaycandan böyük bir heyət aparılıb. İndi yaranmış vəziyyətlə əlaqədar həmin sərmayələr təhlükə altındadır. Sərmayələrin həcmi 100 milyon dollar civarında qiymətləndirilir".

Mənbə deyib ki, hazırda Ərbildə sabitlik olsa da, İŞİD-in hədəfindən yayınacağına da təminat yoxdur. Çünki bölgədə şiələr də var. Təxmini hesablamalara görə, muxtariyyət əhalisinin 40 faizini şiələr təşkil edir. Ona görə bölgə terrorçu təşkilatın hədəflərinə daxildir. Əgər İraq hökuməti İŞİD-i zərərsizləşdirə bilməsə, onda azərbaycanlı oliqarxların sərmayə qoyduğu sektorlar darmadağın ola bilər. Hazırda həmin ərazidə digər iri layihələr də dayandırılıb və oliqarxların nümayəndələri ora ezam edilib.

Məlumat üçün deyək ki, İraq Kürdüstanı ölkənin şimalında yerləşir. Muxtariyyətə 3 vilayət - Süleymaniyyə, Ərbil və Dohuk vilayətləri daxildir. Ərazisi 38 min kvadrat kilometr olan muxtariyyətin inzibati mərkəzi Ərbil şəhəridir. Maraqlıdır ki, 1997-ci ildə aparılmış rəsmi siyahıyaalmaya əsasən bölgədə 2,8 milyon nəfər əhali yaşayıb. Cəmi 6 ildən sonra 2003-cü ildə isə bu göstərici təxminən 2 dəfə artıb - 4,6 milyon nəfər. O da maraqlıdır ki, 1997-ci ildə burada şiələr dominantlıq təşkil edib. Ancaq cəmi 6 il sonra nisbət sünni məzhəbinin xeyrinə dəyişib. Təbii ki, bu yalnız sünni məzhəbindən olanların buraya kütləvi şəkildə köçürülməsi hesabına baş verə bilərdi. Görünür, şiələrin burada azlıqda olmasında maraqlı qüvvələr var. Və bu qüvvələrin marağı azlıqda olan şiələri fiziki cəhətdən məhv etməyi qarşısına məqsəd qoyan İŞİD-in marağı ilə uzlaşır. Bu baxımdan da muxtariyyət ərazisinə İŞİD təhlükəsi mövcuddur və bu da azərbaycanlı oliqarxları təşvişə salıb.

Azərbaycandan 48 milyard dollarlıq vəsaitin çıxarılması faktı son 1 ildə dünya və ölkə mediasının gündəmindən düşmür. Ölkə oliqarxlarının qeyri-rəsmi vasitələrlə ölkədən çıxardıqları vəsaitin yatırıldığı ölkələr sırasında öffşor zonalarla yanaşı, ərəb ölkələri də var.

Liviya inqilabı zamanı Azərbaycan iqtidarında təmsil olunan məmur-oliqarxların külli miqdarda sərmayələri batmışdı. Bizim oliqarxların Liviyaya marağı və bu ölkədə biznes qurmaları 2009-cu ildən başlamışdı. Məhz həmin ildə Liviya hökuməti yaxın 10 il üçün ölkədə bütöv yaşayış məntəqələrinin salınmasından tutmuş aeroportlar, məktəblər, xəstəxanalar, hotellər və s. daxil olmaqla, həyati əhəmiyyətli obyektlərin tikintisinə 83 milyard dollara yaxın vəsait xərcləněcəyini elan etmişdi. Bu göstərilən müddət ərzində ölkədə 450 min yeni bina inşa etmək nəzərdə tutulurdu. Habelə kanalizasiya, su kəmərlərinin çəkilişi və digər irimiqyaslı infrastruktur layihələrinə milyardlar xərclənməsi planlaşdırılırdı. Bu tikinti bumu istər ərəb ölkələrindən, istərsə də Rusiya və bəzi Avropa ölkələrindən tikinti şirkətlərinin Liviyaya axınına səbəb olmuşdu. Liviyadakı tikinti bumundan faydalanmaq istəyənlər arasında azərbaycanlı oliqarxlar da yer alırdı. Ancaq Liviya inqilabı bu pulları batırdı.

Azərbaycan oliqarxlarının Suriyadakı biznesi də uğursuzluğa düçar olub. Əsasən ticarət sahəsində olan bu fəaliyyət Suriyadan Azərbaycana, eləcə də Rusiya və MDB-nin başqa ölkələrinə ticarət məhsullarının daşınması və satışını əhatə edib. Eyni zamanda bizə çatan bilgilərə görə, Hələbdə və Suriyanın bir neçə başqa şəhərlərində azərbaycanlı oliqarxların sahib olduğu digər istehsal müəssisələri mövcud olub. Hazırda Hələb şəhəri demək olar ki, xarabalığa çevrilib. Şəhərdəki sənaye müəssisələri dağıdılmış vəziyyətdədir. Azərbaycanlı oliqarxların sərmayələri batıb, bütün obyektləri isə əllərindən çıxıb. İndi oliqarxlarımız eyni aqibətlə İraqda üzləşiblər.

❑ İqtisadiyyat şöbəsi

# ATƏT-in Azərbaycan daimi nümayəndəliyi açıla bilər

## İqtidarın qarşı çıxdığı məsələni müxalifət dəstəkləyir

**Xəbər verildiyi kimi, ATƏT Parlament Assambleyasının Bakıda keçirilən 23-cü sessiyasında qəbul edilən Bəyannamənin 138-ci bəndində Azərbaycanda ATƏT-in daimi nümayəndəliyinin açılması tövsiyə edilib. ATƏT PA-da Azərbaycan nümayəndə heyətinin sədri Bahar Muradova isə buna etiraz edib. O deyib ki, ATƏT-in Azərbaycanda əlaqələndirici ofisi fəaliyyət göstərir və bu bizi qane edir.**



Arif Hacılı

Müxalifət isə ATƏT-in Azərbaycanda daimi nümayəndəliyinin açılmasının tərəfdarıdır. Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ATƏT-in Bakıda daimi nümayəndəliyi var idi. Sadəcə onun bağlanmasına ehtiyac yox idi. Bakı nümayəndəliyinin açılması məsələsinin qaldırılması müsbətdir: "ATƏT-in Varşavada yerləşən Demokratik Təsisatlar və İnsan Haqları büroları Azərbaycanda öz fəaliyyət dairələrini genişləndirməlidir. Bütövlükdə bir sıra aparıcı beynəlxalq təşkilatlar Azərbaycanla bağlı siyasətlərində ciddi yanlışlığa yol verdilər. Onlar Azərbaycanda seçki prosesinin başa çatdığını, artıq Azərbaycan hakimiyyətinin ölkədə normal siyasi proseslərə şərait yaratdığını bəyan edərək Azərbaycanda fəaliyyətlərini dayandırdılar. İstər ATƏT-in Bakı ofisinin, istər ABŞ Milli Demokratiya İnstitutunun Azərbaycan nümayəndəliyinin və digər bir neçə qurumların fəaliyyətinin faktiki olaraq dayandırılması, Soros Fondunun Azərbaycanda fəaliyyətinin dayandırılması, bir sıra digər beynəlxalq qurumların burada fəaliyyət göstərən demokratik təsisatlara dəstəkdən imtina etməsi çox yanlış qərarlar idi".

**A.Hacılı vurğuladı ki, artıq son dövrlərdə beynəlxalq birlik vaxtilə verilmiş bu qərarların yanlış olduğunu dərk edib. AŞPA yenidən Azərbaycan üzrə insan haqları komissarı təyin etmək barədə qərar qəbul edib:** "Təbii ki, təyin olunmuş şəxs heç də bu missiyanın öhdəsindən gələ biləcək şəxs olmasa da qeyd olunan qərarın yenidən qəbul olunması Azərbaycanda siyasi məhbusların olduğunu təsdiqləyən fakt kimi dəyərləndirilməlidir. Eyni zamanda ATƏT-in Bakıda daimi nümayəndəliyinin bərpa olunması məsələsinin ATƏT Parlament Assambleyasının bəyannaməsində qoyulması Azərbaycanda demokratiya, seçki məsələləri ilə bağlı problemlərin ciddiliyinin və ATƏT-in burada fəaliyyətinin zəruriliyinin etirafıdır. Hakimiyyət dairələrini də narahat edən budur".

**Hüquqşünas Erkin Qədrili isə bildirib ki, beynəlxalq təşkilatlar iki cür olur: özəl fondlardan maliyyələşdirilən "Human Rights Watch" təşkilatı kimi QHT-lər və üzvlük haqqı ödəyən dövlətlərarası qurumlar. BMT, ATƏT, Avropa Şurası kimi təşkilatlar siyasi qərarlar qəbul edir, ölkə belə quruma üzv olanda onların qəbul etdiyi qərarları yerinə yetirmək öhdəliyi götürür:** "Bəzən ola bilsin ki, həmin təşkilatın nəzdində məhkəmə sistemi olsun. Bu halda üzv ölkə bu yuridiksiyanı qəbul etməyə bilər. Məsələn, biz BMT-nin üzvüyük, üzvlük haqqı ödəyirik, amma bu qurumun Haaqa Məhkəməsinin yuridiksiyasını öz üzərimizə götürməmişik, ona görə də nə biz orda kimisə məhkəməyə veririk, nə də kimsə bizi Haaqa Məhkəməsinə verə bilər. ATƏT-ə gəlincə, bu qurumun Bakıda ofisinin layihə koordinatorluğuna dəyişməsi öz qərarı idi. Düzdür, Azərbaycan buna israr edirdi, amma yenə də qərarı ATƏT verdi. İndi, görünür, qurum yenidən ofisi bərpa etmək istəyir. Görünən odur ki, Azərbaycan hökuməti bundan narazıdır, amma qərar olsa, əməl etməyə məcbur qalacaq".

❑ E.SEYİDAĞA

# Putin Azərbaycanı Ermənistandan öncə Avrasiya İttifaqına qoşmaq istəyir

## Tanınmış politoloq Ermənistanın qapıda saxlanmasının şok sirrini açdı; Natiq Miri: "Qarabağda hansı ölkənin qoşunları olacaqsa, Qarabağ o ölkənin olacaq..."

**Ermənistanın bu ilin mayında Astanada Rusiya, Qazaxıstan və Belarus tərəfindən təsis olunan Avrasiya İqtisadi İttifaqına iyulun 2-də qoşulacağı elan edilsə də məsələ yenə reallaşmadı. Qazaxıstan xarici işlər naziri Erlan İdrisov bəyan edib ki, Ermənistanın Avrasiya İttifaqına qoşulması barədə müqavilə oktyabrda imzalana bilər. Nazir hətta oktyabrın da dəqiq tarix olmadığını dolayısı ilə ifadə edib.**

Xatırladaq ki, may ayında Ermənistanın "Putin ittifaqı", yaxud "yeni SSRİ" kimi tanınan Avrasiya İqtisadi İttifaqına iyulun 2-də qoşulacağı elan edilmişdi. Astanada Serj Sərkisyan xahiş etmişdi ki, onun ölkəsinin ittifaqa daxil olacağı tarix dəqiqləşsin və rəsmən elan edilsin. Rusiya prezidenti Vladimir Putin də Ermənistanın ittifaqa üzvlüyünün tezliklə baş verəcəyinə ümid etdiyini vurğulamışdı. Ermənistanın Avrasiya İttifaqına üzvlüyünün nəzərdə tutulan vaxtda baş tutmamasının və bu işin payıza təxirə salınmasının səbəbləri rəsmən açıqlanmayıb.



Natiq Miri

**Azərbaycan Milli Strateji Təhqiqatlar Mərkəzinin sədri Natiq Miri isə hesab edir ki, Ermənistanın Avrasiya İttifaqının qapısı ağzında saxlanılması nə Qazaxıstanın, nə də Belarusun siyasi iradəsinin nəticəsi deyil. Bu, birbaşa Rusiyanın istəyinin nəticəsi olaraq ortalığa çıxıb. Bunun isə bilavasitə Azərbaycanla bağlılığı var:** "Qazaxıstan prezidenti Nazarbayevin də Ermənistan qarşısında qoyduğu şərt əvvəlcədən Vladimir Putinlə razılaşdırılmış məsələ kimi görünürdü. Rusiyanın Ermənistanın Avrasiya İttifaqına qəbulunu gecikdirməsində çox ciddi məqsəd var. Rusiya bilir ki, Ermənistanı istənilən an bu quruma daxil etmək asandır. Ermənistan tamamilə Rusiyadan asılı vəziyyətdədir. Rusiyaya hazırda Azərbaycanın Avrasiya İttifaqına daxil olması çox lazımdır. Ona görə də Ermənistandan öncə Azərbaycanın Avrasiya İttifaqına qoşulmasına nail olmaq hədəf götürülüb. Rusiya üçün Azərbaycan daha strateji ölkədir, ona görə də Putin Azərbaycana ən müxtəlif vasitələrlə təsir etməyə çalışır. Azərbaycanın Avrasiya İttifaqına girməsi Rusiyanın gələcəkdə regionda əhəmiyyətli şəkildə güclənməsinə gətirib çıxarda bilər. Eyni zamanda digər Orta Asiya respublikalarının Avrasiya İttifaqına məmnuniyyətlə qoşulmasına rəvac verər. Putin Azərbaycanın strateji əhəmiyyətini çox gözəl anlayır. Digər tərəfdən, Putin Ukrayna itkisini də Azərbaycanla kompensasiya etmək istəyir. Ukraynanın itirildiyi məqamda Azərbaycan Putinə hava-su kimi lazımdır. İndiki şəraitdə Putin Ermənistanı ləngitməklə Azərbaycanı Avrasiya İttifaqına cəlb etmək istəyir. Avrasiya İttifaqına daxil olmamaq üçün Azərbaycanın əlində ən ciddi arqument Ermənistanla bir ittifaqda təmsil olunmağın mümkünsüzlüyüdür. Kreml Ermənistanın Avrasiya İttifaqına daxil olmasını ləngitməklə Azərbaycanın əlindən bu arqumenti almağa çalışır".

**Ekspertin qənaətincə, Kreml Azərbaycanın razılığını almaq üçün Qarabağ kartından və digər təsiredici vasitələrdən yararlanmağa səy edir. Artıq Rusiya mediasında Azərbaycan barədə heç vaxt müşahidə olunmayan dəbdəbəli, tərifli yazılar dərc olunmaqdadır. Rusiya telekanallarında da Azərbaycanla bağlı xoş verilişlər yayınlanmağa başlayıb:** "Hiss olunur ki, Azərbaycan üçün çox ciddi, incə siyasi tələ qurulur. Rusiyanın şirnikləndirici vədlərindən biri Dağlıq Qarabağ ətrafındakı işğal altında olan rayonlardan bir neçəsinin Azərbaycana qaytarılması və bölgədə sülhməramlı adı altında rus qoşunlarını yerləşdirməkdir. Bu, əslində Qarabağın birdəfəlik itirilməsi deməkdir. Bir həqiqəti anlamaq lazımdır ki, Qarabağda hansı ölkənin qoşunları olacaqsa, Qarabağ o ölkənin olacaq. Odur ki, Avrasiya İttifaqına girmək və rus qoşunlarının Qarabağda yerləşdirilməsi ölkəmizə heç nə qazandırmayacaq".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014



# Qlamur ordu

Zamin HACI
zaminhaci@mail.ru

**Sağ olsunlar, media qurumlarımız və gülməşəkər jurnalistlərimiz, ekspertlərimiz Müdafiə Nazirliyini, silahlı qüvvələrimizi, generallarımızı pop müğənnilər, baldırı açıq modelyer qızlar kimi bir şeyə çeviriblər. İndi oralardan gələn xəbərlər də "18 plyus" motivində olur, hər cümlədən "şok-şok-şok" etiketi parlayır. Halbuki tam tərsinə olmalı idi, çünki hərb uydurma sevməyən, dəqiqlik, peşəkarlıq tələb edən sahədir. Bir az da qapalı mahiyyətli sahədir.**

Fikir verin, hətta müdafiə nazirinin də geyimləri, salam verəndə əlini papağının harasına qoyması daha çox müzakirə edilməyə başlayıbdır. Yapokratlar Zakir Həsənovun timsalında çox uğurlu kadr siyasəti aparıblar, bunu etiraf edək. Qlamur general kimin ağlına gələrdi? Hətta bir gün o, İbrahim Tatlısəs kimi klip çəkdirsə, təəccüblənmərəm. Üzdən də oxşayırlar. İbrahim bəy də yeri gələndə vurub-tutan oğlan idi, neçə rəqqasəni ayağından güllələmişdi, özü ağır yara alsa belə düşmənə təslim olmamışdı.

Azərbaycan ordusu üçün son illərdə alınan hərbi sursatların, top-tüfəngin siyahısının vaxtaşırı açıqlanması da eynilə "Zaur hər gün efirdə Tolikin qarderobunda" telekanalizasiya verilişi tipindədir. 5 tank almışıq, 6 təyyarə, 7 reaktiv qurğu, bizim hərbi xərclərimiz Ermənistanın dövlət büdcəsindən zad qədər çoxdur, biz bununla şey edəcəyik... Ancaq yenə əsgərimiz öz yoldaşını vurub öldürür. Dəmir parçası ilə. Neyləyək, reaktiv qurğu ilə vurmadığına sevinəkmi?

1992-93-cü illərdə Füzulinin bir kəndində əsgər sevdiyi qızı tankla qaçırtmışdı, camaat bunu danışıb gülürdü. Bəlkə də hərbi gücümüzü o cür praktik məqsədlə, gənclərin ailə səadəti üçün yararlanmaq daha doğru yol idi. Məsələn, çox praktik bir metod təklif edə bilərəm, Sovet dövründə dolu dağıdan toplar var idi, istilik mərmisini buluda atırdılar, nəticədə buz əriyirdi. Bunun nəticəsində kənd təsərrüfatına zərər dəymirdi. İndi bizim Milli Ordunun toplarından dolu dağıtmağa istifadə eləsəydilər günaşırı "Daşkəsəni dolu vurdu, Əhəd Abıyev buzları əlinə yığıb kamera önünə keçdi" tipində xəbərlər eşitməzdik. Yanılmıramsa, "Alazan" mərmisi elə məhz bu dolu dağıtmaq məqsədi üçün istehsal edilirdi.

Yaxud SSRİ-ni lağa qoyurduq ki, tikinti üzrə hərbi qoşunlar - "stroybat" nəyə lazımdır. İndi görünür çox lazım imiş, əsasən də bizim camaat üçün. Zakir Həsənovun rəhbərliyi ilə generalları kartof yığmağa cəlb etsək dövlətimiz udmazmı? Hərbi hissələrdə pomidor, xiyar əkinləri, heyvandarlıq məhsullarının istehsalı da qat-qat faydalı olardı, əsgərlər də bekar qalıb bir-birini öldürməzdi. "Bekarçılıq bütün qəbahətlərin anasıdır" - belə müdrik fikir var.

Azərbaycan son 12 ildə 1000-dən çox raket-artilleriya sistemi alıb. Son günlərin xəbərlərindən biri də bu idi. Sitat: "Rusiyadan 18 ədəd «Msta-S» özüyeriyən haubitsası, 18 ədəd TOS-1A «Solntsepyok» ağır odatanı, 18 ədəd 2S31 «Vena» özüyeriyən haubitsası, 26 ədəd 2S9 «Nona-S» özüyeriyən artilleriyası, 18 ədəd 9A52 «Smerç» reaktiv yaylım atəş sistemi almışıq. Ukraynadan 294 ədəd müxtəlif artilleriya sistemi əldə olunub. 2002-2013-cü illərdə Bakı Ukraynadan 12 ədəd 9 «Smerç» reaktiv yaylım atəş sistemi, 85 ədəd PM-38 minaatanı, 72 ədəd MT-12 topu, 54 ədəd 2S1 «Qvozdika», 16 ədəd 2S3 «Akatsiya» özüyeriyən haubitsalar alıb. İsraildən açıqlanmayan sayda LAR-160, "Lynx Qrad", "Lynx EXTRA", Türkiyədən isə T-107, T-122 "Sakarya" və T-300 "Kasırğa" raket sistemləri alınıb" (APA).

Bu uzun sitatı verməkdə məqsədim var. Elə həmin xəbər çıxan gün mediada başqa bir başlıq da var idi: "Azərbaycan Ermənistana raket atdı". Yuxarıda yazdığım kimi, hansısa modelin sinəsi haqda xəbərə oxşayan bu uydurma xəbəri açıb oxuyanda görürdük ki, sən demə, söhbət... adi siqnal raketindən gedir. Ətrafı işıqlandırmaq üçün olan raketdən. Loru dillə desək, fişəngdən.

O üzdən, orduya "Smerç" raketi-zad almaq mənasızdır, axırda onsuz da fişəng atırıq. Lap yaxşı olar daş, "raqatka" sistemləri *(bazburudlu olsun deyə mütləq sistem də yazılmalıdır)* alaq. Sarkisyanın gözünə lazerlə işıq salaq, şar partladıb qorxudaq, tədbirdə görəndə üstünə tüpürək.

# "Hərənin öz "İhtiyarı" var"

## İqbal Ağazadə: "Güman etmirəm ki, İhsanoğlu Əlirza bəyin tərcih etdiyi namizədlərdəndir"



**Bir neçə gün öncə Ümid Partiyasının sədri İqbal Ağazadənin ABŞ iqtidarına yaxınlığı ilə tanınan Əlirza Bozqurdla görüşü haqqında xəbər vermişdik. Əldə etdiyimiz informasiyaya görə, görüş iyunun 29-da İstanbulda baş tutub. İyulun 3-də İqbal Ağazadə "Yeni Müsavat" qəzetinin qonağı oldu. Həm Azərbaycan gündəmi, həm regiondakı proseslər, həm də dünyanın bugünkü siyasi xəritəsi ilə bağlı geniş söhbət Ümid sədrinin "müthiş türk" adlandırılan Əlirza Bozqurdla görüşünün detalları haqqında suallarla başladı. Müsahibənin birinci hissəsini təqdim edirik.**

***- İqbal bəy, bugünlərdə Türkiyəyə getmişdiz. Birgünlük səfər idi, deyəsən?***

- Yarım günlük.

***- Mən müşahidə etmişəm ildə bir neçə dəfə Türkiyəyə belə qısa səfərləriniz olur. "İhtiyarlarla" görüşəmi gedirsiz?***

- Hər kəsin öz "İhtiyarı" var...

***- Sizinki kimdi?***

- Bizim də dostlar var. Regionu, Güney Qafqazı, dünya siyasətini danışa biləcəyimiz adamlar var. O adamlarla da bəzən görüşlərimiz olur. Bəzən də müxtəlif ölkələrdən gələn insanlar olur. Gedirik, görüşürük, danışırıq.

***- Bu görüşlərin sizə, partiyanıza, regiona faydası olurmu?***

- Hesab edirəm bu görüşlərin mənə də, partiyaya da faydası olur. Yəqin ki, Azərbaycana da faydası var.

***- O görüşlərlə bağlı açıq danışmaq imkanı varmı?***

- Təəssüf ki, yox.

***- Sizin bir dostunuz var. ABŞ onu "müdhiş türk" adlandırır - Əlirza Bozqurd. Onu iqtidarları quran, zamanı gələndə dağıdan biri kimi xarakterizə edirlər. Bugünlərdə biz tamamilə təsadüfən kəşf etdik ki, onunla görüşmüsüz.***

- Bəli, biz Əlirza bəylə görüşdük.

***- Türkiyənin gündəmi ilə bağlı fikirlərini öyrəndinizmi?***

- Təbii, öyrəndim.

***- Müxalifət yeni bir siyasətçi çıxarıb gündəmə - çatı aday Ekmeleddin İhsanoğlu. Əlirza Bozqurdun onunla bağlı fikirləri nədir?***

- Güman etmirəm ki, İhsanoğlu Əlirza bəyin tərcih etdiyi namizədlərdəndir.

***- Yəni iddia edildiyi kimi, İhsanoğlu Əlirza Bozqurdun adamı deyil?***

- Əlirza Bozqurdun seçimi olsaydı, ortada daha çox dini dövlətdən ayrı tutmağa çalışan bir namizəd olardı. Amma Ekmeleddin İhsanoğlunun dinə bağlılığı çox güclüdür. İhsanoğlunun istər elmi fəaliyyəti, istərsə də siyasi-ictimai fəaliyyətinin əsası İslam dini ilə, İslam dünyası ilə bağlıdır. Ona görə hesab etmirəm ki, o, Əlirza bəygilin seçimidir. Ancaq hər halda, Türkiyə cəmiyyəti üçün bu tipli informasiyalar dolaşırsa, bəlkə də bizim də bilmədiyimiz nələrsə var. Ancaq mənim baxışımla görünən budur ki, bu seçim onların deyil.

***- Vaşinqton administrasiyasına yaxın olan bir türkün AKP iqtidarı ilə münasibətləri necədir? Konkret baş nazirlə münasibətləri varmı?***

- Mən bu suallara Əlirza Bozqurdun yerinə cavab verə bilmərəm. Mənə elə gəlir, onlar Türkiyənin daha açıq, daha dünyəvi olmasını, eyni zamanda regionda demokratikləşməyə nümunə ola biləcək ölkəyə çevrilməsini istəyirlər. AKP iqtidarının bu sahədə fəaliyyətini isə yetərli saymırlar. Hər kəs Türkiyənin qanun dövləti olduğunu bilir. Ancaq Türkiyədə şərtlər bir az başqadır.

***- Sizin partiyanın AKP ilə münasibətləri necədir? Ümumiyyətlə, belə bir münasibət varmı?***

- AKP-nin üst düzeyində olan şəxslərlə, o sıradan bir sıra millət vəkilləri ilə münasibətlərimiz var. Bu, illərlə davam edən münasibətlərdi.



## "Əgər iqtidar Rusiyanın yanına gedəcəksə, xalq ayağa qalxacaq"

***- Əlirza Bozqurdun və onun çevrəsindəki insanların, mən ABŞ administrasiyasının mövqeyini dəqiq, zamanında öyrənmək imkanı olan fiqurları nəzərdə tuturam, Azərbaycana, onun siyasətinə, gələcəyinə münasibətləri necədir? İndiki iqtidarla onların ilişkiləri varmı?***

- Azərbaycan hesab edirəm ki, bu gün aşağı-yuxarı strateji anlamda Avropa coğrafiyasındadır. Bütün dəyər və siyasətinə, stratejisinə görə əyər-əskiklər var. O çatışmazlıqlar Qərbi narahat edir. İnsan haqları sahəsində, Vətəndaş cəmiyyətinin qurulması istiqamətində. Amma Azərbaycan siyasi coğrafiya olaraq Avropanın yanındadır. Bu Qərbi qane etmiş kimi görünür bugünkü mərhələdə. Yenə deyirəm, əyər-əskikliklərin düzəldilməsi istiqamətində davamlı olaraq bəyanatlar, mövqelər səslənsə də bütövlükdə Azərbaycan Qərbin yanındadır. Azərbaycan nə Orta Doğuda yer almır, nə də Rusiyanın cızdığı Avrasiya məkanında. Bu, Qərbi məmnun edir. Bu siyasəti gerçəkləşdirən Azərbaycan iqtidarıdır. Azərbaycan iqtidarının bugünkü siyasətində ümumi problemlər var. Bunu iqtidar özü də bilir, Qərb diplomatiyası da bilir, oradakı hakimiyyətlər də bilir.

***- Niyə islah eləmirlər?***

- Bəzən siyasətdə profilaktikalar olur. Mən hesab edirəm ki, Azərbaycan hakimiyyəti də bir sıra ölkələrdə, o sıradan Ukraynada, Yaxın Şərqdə baş verən hadisələrdə kimlərin önə çıxdığını, hansı şəbəkələrin işləyə biləcəyini, bütün resursları nəzərə alaraq bəzən sərt addımlar atır. İqtidar hesab edir ki, siyasi institutlar və vətəndaş cəmiyyəti institutları nə qədər zəifləsə hakimiyyətinin ömrü bir o qədər uzun olar. Bunu Qərb də zamanında Yaxın Şərqdə gerçəkləşdirib. Yaxın Şərqin bir sıra ölkələrində də bir adam sabitlik yaratmışdı, ancaq sonradan siyasi institutların olmaması ayrı-ayrı dini qrupların, məzhəb qruplarının, bəzi hallarda millətçi qrupların meydana gəlməsinə şərait yaratdı. Bu gün Azərbaycanın Avropa məkanında olması Qərbə ümid verir ki, problemlər çözüləcək.

***- Siz inamla deyirsiz, amma bir çox ekspertlər də deyir, eyni zamanda gələn informasiyalar da təsdiq edir ki, başqa tendensiyalar da var. Məsələn, Rusiya Azərbaycana basqı göstərir, hətta iddialar var ki, Rusiya ilə Azərbaycan arasında Avrasiya ittifaqı ilə bağlı gizli anlaşma da var.***

- Yanlış xəbərlərdir. Azərbaycan iqtisadiyyatının 95 faizi Qərblə birbaşa bağlıdır. Bu iqtisadiyyatın üzünü nədən Rusiyaya çevirsin?

***- Zorla, Ukraynanın durumuna salınmaqla.***

- Gəlin, bir anlıq düşünək. Rusiya heçmi fərqində deyil ki, bu hakimiyyət üzünü Avrasiya İttifaqına çevirəcəyi zaman Qəribin dəstək verə biləcəyi müxalifət Rusiyanı regionda istəməyən xalqla birlikdə Ukrayna modelini gerçəkləşdirə bilər?

***- Xalq olaraq bizə lazımdırmı Ukrayna modeli?***

- Əgər iqtidar Rusiyanın yanına gedəcəksə, xalq ayağa qalxacaq. Bu, birmənalıdır. Bunu Qərb ekspertləri də bilir, yerli ekspertlər də.

***- Kim qaldıracaq o xalqı?***

- Fərqi yoxdur kim, ya müxalifətin hansı kəsimi.

***- Deyirsiz ki, Azərbaycan iqtidarının Rusiya ilə anlaşaraq Avrasiya Birliyinə getməsi kimi bir durum yoxdur?***

- Qətiyyən. Ola bilər, Moskva ilə Bakı bəzi məsələlərdə anlaşsın. Əgər Rusiya ilə anlaşmaya əsasən Azərbaycanın ərazi bütövlüyü təmin olunacaqsa, Qarabağ, digər işğal olunan bölgələr geri qaytarılacaqsa, bu, mümkün ola bilər. Bu gün hər kəsə bəllidir ki, belə bir anlaşma mümkün deyil. Ekspertlər də bilir ki, Rusiya Azərbaycan Avrasiya Birliyinə daxil olsa belə, bunu etməyəcək. Çünki bu gələcəkdə Rusiyanın regiondan çıxması deməkdir. Mən müsahibələrimdə daha öncə də demişəm, bir də deyim, Güney Qafqaz üçün açar dövlət Azərbaycan deyil, Ermənistandır. Bunu Rusiya da bilir, Azərbaycan da bilir. Biz Avrasiyanın, Rusiyanın yanında yer alsaq, Ermənistan dərhal Qərbin yanında yer alacaq. Bunu hər kəs bilir. Dağlıq Qarabağı qaytarmasa, Azərbaycanın nə işi var Avrasiya İttifaqında? O birliyə qoşulmağın nə mənası qalır? Biz birmənalı bilirik ki, Rusiya işğal olunmuş Azərbaycan torpaqlarını qaytarmayacaq. Qaytarsa, Ermənistanı itirəcək. Azərbaycanın isə burada uzun müddət davam gətirəcəyinə inanmır. Çünki bilir ki, istənilən halda növbəti hakimiyyət dəyişikliyində Avrasiyadan çıxma prosesi sürətlənəcək. Gürcüstanı itirib, Azərbaycana güzəştə gedib Qarabağı qaytarsa, Ermənistanı itirir, Azərbaycan da növbəti mərhələdə birlikdən çıxacaq. Ona görə də burada heç bir məntiq yoxdur.

## "Qərb strateji olaraq Azərbaycan hakimiyyəti ilə anlaşa bilir"

***- Belə çıxır, siz Rusiyadan anlayış gözləyirsiz?***

- Rusiyadan anlayış gözləmirəm, ancaq hesablarını, gəlir-çıxarlarını düzgün hesablayacaqlarını gözləyirəm.

***- Ukraynada hesablaya bilmədi amma...***

- Ukraynada başqa yolu yox idi. Gedə biləcəyi ayrı bir yolu qalmamışdı Rusiyanın. Rusiya imperialist siyasət yeridir. İmperialist siyasətin də gedə biləcəyi yol buna qədərdir.

***- Niyə eyni modeli Azərbaycana tətbiq etməsin?***

- Tətbiq edərsə, Güney Qafqazı, bütövlükdə regionu itirəcək. Bu gün Rusiya Ermənistan vasitəsilə regiondadır. Bunu hər birimiz qəbul edirik. Gəlin baxaq, Ermənistanın maraqlarına zərbə vuraraq Azərbaycanla münasibətləri istiləşdirən Rusiya nələrlə qarşılaşa bilər. Avropada necə güclü erməni diasporu olduğunu bilirsiz. Fransa hər zaman açıq şəkildə bəyan edir ki, Ermənistanın yanındayıq. Fransa prezidenti Fransua Olland bir müddət öncə regiona gəldi. Ermənistanın Avrasiya Birliyində olduğunu, Azərbaycanın isə Avrasiya Birliyində olmadığını bilə-bilə İrəvanda bəyan etdi ki, Fransa hər zaman Ermənistanın yanındadır. Rusiya Ermənistandan əl götürən kimi, Qərb, konkret Fransa Ermənistana əl qoyacaq. Azərbaycanın faktiki olaraq bütün siyasi qüvvələri Rusiyanın əleyhinədir. Azərbaycan müxalifəti bu gün iqtidarın Avrasiya İttifaqına gedəcəyini gözləsə də, iqtidar qəti şəkildə bunun əleyhinədir. Bu da aydın görünür. Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxışlarının birində açıq dedi ki, Azərbaycan Avrasiya İttifaqına qoşulmayacaq. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə deyib ki, Azərbaycan onun dövlət müstəqilliyini təhdid edən heç bir birlikdə təmsil olunmayacaq. Bu gün Azərbaycanın ərazi bütövlüyünü təhdid edən tətbiq etmək istəyən Rusiyanın istəklərinə nə Belarus, nə də Qazaxıstan reaksiya verdi. Avrasiya İttifaqının özündə yekdil fikir formalaşdırmaq çox çətindir. Bütün bunlar var ikən, Rusiya da başa düşür ki, mövqelərini möhkəmləndirmək üçün bir nöqtəyə güclü təzyiq etməlidir. Ukrayna cəbhəsinə Rusiyanın ümidi çox idi. Krımın işğalı Rusiya üçün böyük kozır idi. Hesab edirdi ki, sonrakı mərhələdə şərqi Ukraynada ikihakimiyyətlilik yaradacaq, bununla da Ukraynada federallaşma başlayacaq. Ancaq bu gün o ümidlər doğrulmadı. Rusiya gündə 5 yüz milyona yaxın vəsait itirir ki, bu da ayda 15 milyard dollar deməkdir. Düzdür, Rusiyanın ehtiyat fondu 500 milyarda yaxındır. Rusiya düşünür ki, bu qışı Avropanı təhdid edə bilsə, 150-200 milyardı geri qaytara, üstəlik, siyasi prosesləri də öz xeyrinə geriyə yalnız Avrasiya Birliyidir. Mesaj açıq verilməsə də, buna işarə edilir.

## "Ukrayna məsələsinin faktiki taleyi Avrasiyanın yeni şəklini cızacaq"



***- O zaman Azərbaycan nədən Avropa istiqamətində addımlar atmır? Avropa Birliyi ilə assosiasiya sazişinin imzalanmamasını nəzərdə tuturam.***

- Azərbaycan da, Qərb də bir şeyi anlayır ki, Azərbaycan nümayişkaranə şəkildə Avropanın yanına gedərsə, Rusiyadan gələn basqıları nə Azərbaycan, nə də Qərb əngəlləyə biləcək. O cümlədən də Rusiyanın yanına gedərsə, Qərbdən gələn dəstək burada heç nəyi dəyişmək gücündə olmayacaq. Ona görə də burada bir qədər balanslı siyasət yürütməyə çalışırlar.

***- Balanslı siyasət bu hökuməti hara aparır?***

- Hələlik baş verənlər Avrasiya məkanındakı proseslərdən çox asılıdır. Ukrayna məsələsinin faktiki taleyi Avrasiyanın yeni şəklini cızacaq. Eyni zamanda Rusiyanın da yeni planlarını ortaya qoyacaq. Nə olacaq, Rusiya hara qədər gedə biləcək? Bu prosesin nə ilə sonuclanacağını gözləmədən hər hansı bir məsələ barədə şərh vermək doğru deyil. Əslinə qalsa, Rusiya da ehtiyatlı davranır. Ukrayna mallarına embarqo hərəkət etdirərək embarqoları götürə bilər. Rusiya bütün siyasətini bunun üzərində qurub. Hara qədər gedə biləcək, bunu demək çətindir. Çünki Avropa və ABŞ savaşsız, iqtisadi dillə danışıla bilən Rusiya ilə daha çox münasibət qurulmasında maraqlıdır. Rusiya hər savaşdan bütövləşmiş və toparlanmış halda çıxır. Qərb bu dəfə Rusiyaya bu şansı vermək istəmir.

***- Niyə o zaman Qərb İlham Əliyev hakimiyyətini sıxışdırır? Məsələn, ATƏT-in Bakıda keçirilən tədbirində Azərbaycanla bağlı yetərincə sərt, tikanlı, təzyiqli çıxışlar oldu. Avropa Şurasının yay sessiyasında da həmçinin. Əgər bu hakimiyyət Avropaya lazımdırsa, Azərbaycan da kəndirbaz kimi kəndirin üzərində oynamağa məcburdursa, o zaman Qərb Azərbaycana "şirə" verməlidir.***

- Mən düşünürəm ki, Qərb hakimiyyətlə yetərincə yumşaq davranır. Bu qədər problemlərin olduğu bir zamanda ortada ayrı-ayrı deputatların sərt çıxışlarından başqa nə var? ATƏT-in son qətnaməsində Azərbaycanla bağlı ciddi bir şey yoxdur. ATƏT-in Bakı ofisinin bərpası ilə bağlı məsələ, bir də Anar Məmmədliyə azadlıq tələb edilməsi Azərbaycan hakimiyyətinin ürəyincə olmaya bilər, ancaq bütövlükdə siyasi məhbus problemindən tutmuş əməkdaşlıq məsələsinə qədər heç bir ciddi basqı yoxdur. Azərbaycanın Avropa Şurasının qarşısında nə qədər öhdəlikləri var , bunların heç biri icra olunmadığı halda Azərbaycana münasibət o qədər də pis deyil. Sizcə, güzəşt nə olmaldır? İstəyirsiz ki, hər kəs bayraq qaldırıb Azərbaycan hakimiyyətinin yanında dayansın? Yox, onların dəyərləri var, o dəyərlərə uyğun da addımlar atırlar. Qərb strateji olaraq Azərbaycan hakimiyyəti ilə anlaşa bilir. Mənim gördüyüm budur.

***- Dediklərinizdən belə çıxır ki, Azərbaycanda demokratiyanın bərqərar olması, yaxud da bu iqtidarın demokratiya açılımı etməsi hələ uzaqdadır.***

- Əsla. Mən bayaq da dedim ki, Qərb bir şeydən arxayındır ki, Azərbaycan Avrasiya siyasi coğrafiyasında deyil, Yaxın Şərq coğrafiyasında deyil, Avropa coğrafiyasındadır.

***- Bu günü ilə Azərbaycan demokratik Avropanın mənzərəsini korlamırmı?***

- Qərb Belarus üzərində təcrid siyasətini tətbiq etdi. Heç bir nəticə əldə edilmədi. İndi Qərb anlayır ki, dünyanın bu qarışıq düzənində təcrid etməklə, siyasi coğrafiyadan çıxarmaqla avtoritar və avtoritarizmə meylli iqtidarları daha da gücləndirir. Ona görə də siyasətlərini dəyişərək ölkələri daha çox yanlarında saxlamağa, problemləri mərhələli şəkildə çözməyə çalışırlar.

***- Hakimiyyət də bu durumdan sui-istifadə edir.***

- Olur. Azərbaycan hakimiyyətinin sui-istifadəsi ilə bağlı xeyli faktlar var. Amma Elmar Məmmədyarov Avropa Şurası qarşısında çıxış edərək deyirsə ki, bizim demokratikləşmə ilə bağlı 2014-2016-cı illər planlarımız var, bu, hələlik müzakirəyə çıxarılmasa da altyapıda Qərblə hesablaşdıqları, razılaşdıqları deməkdir.

***- Qərbin Azərbaycanla bağlı 2015-2018 planı varmı?***

- Var, əlbəttə.

***- Qərb Azərbaycandan nə istəyir və sizin düşüncənizə görə Azərbaycan iqtidarı Qərbin tələbləri qarşısına nələrə gedə bilər?***

***(ardı gələn sayımızda)***

❑ Qələmə aldı Aygün MURADXANLI

## "Güney Qafqaz üçün açar dövlət Azərbaycan deyil, Ermənistandır"

# Türkiyədə hakimiyyət qərarını verdi...



Hüseynbala SƏLİMOV

**Bəli, bir az yubandı. Əslində bu, bir ay əvvəl olmalı idi. Mayın sonlarında hakimiyyətdəki AKP özünün prezidentliyə namizədini açıqlamalı idi. Amma o vaxt bu, baş tutmadı. Hətta əsas müxalifət partiyaları bu məsələdə hakim partiyanı qabaqladılar- onlar E.İhsanoğlunu özlərinin prezidentliyə namizədi elan etdilər.**

Hakim partiya isə yalnız bugünlərdə özünün namizədini elan etdi- bu, baş nazir R.T. Ərdoğan oldu.

İndi artıq seçkidə qeyri-müəyyənlik qalmayıb. Avqust ayında elektorat özünün istədiyi namizədi seçməlidir. Amma Ərdoğanın şansları haqqında bəzi təhlilçilər bir qədər ehtiyatla danışmağa başlayıblar. Onlar hesab edir ki, müxalifət çox uğurlu namizəd tapıb. Məsələ bundadır ki, Ekmeleddin İhsanoğlu dini dəyərlərə önəm verən elektoratın bir hissəsinin səslərini almağa qadir siyasətçi hesab edilir. Bu hadisənin xüsusən əyalətlərdə baş verəcəyi güman edilir.

Amma bizə elə gəlir ki, təhlilçilər öz nəticələri ilə tələsirlər. Rəcəp Tayyib Ərdoğanın partiyası son bələdiyyə seçkilərində möhtəşəm qələbə qazandı. Bu hadisəyə qədər müəyyən tərəddülər vardı. Amma bələdiyyə seçkisi baş nazir üçün mühüm siyasi test oldu. Seçkidən bir qədər əvvəl o, demişdi ki, partiyası bələdiyyə seçkilərini uduzarsa siyasətdən gedəcək. Amma partiya seçkini nəinki uduzmadı, hətta ciddi qələbə qazandı. Bu, isə o demək oldu ki, ortadakı söz-söhbətə baxmayaraq Rəcəb Tayyib Ərdoğanın və onun partiyasının seçici kütləsi arasında hələ çox böyük nüfuzu var.

Ekmeleddin İhsanoğlunun şanslarını hərtərəfli, ətraflı şəkildə qiymətləndirməyə çətinlik çəkirik. Amma güman edirik ki, o, indiki baş nazirlə bacarmayacaq. R.T. Ərdoğan çox ciddi rəqibdir.

Amma nə bilmək olar? Bu, seçkidir. Bəzən seçici rəğbəti olan adamı yalnız bir statusda, bir rolda görməyə üstünlük verir. Burada bir Türkiyə vətəndaşı ilə ayaqüstü söhbətimiz yada düşür. O, deyirdi ki, biz Ərdoğanı baş nazir kimi görmək istəyirik.

Amma, necə deyərlər, qatar artıq gedib. Partiyasının nizamnaməsi Rəcəb Tayyib Erdoğana bir daha baş nazir olmaq imkanı vermir. Üstəlik, baş nazir də seçimini edib, prezidentliyə namizədliyini irəli sürüb. Görünür, elektorata Rəcəp Tayyib Ərdoğanın prezident olması ilə hesablaşmaq lazım gələcək.

Burada bir məsələni də qeyd etmək lazım gəlir. Prezidentliyə real namizədlərdən biri də indiki prezident Abdullah Gül idi. Amma hələ mayda belə bir şey yazmışdıq ki, Rəcəb Tayyib Ərdoğan prezident olmaq istərsə ona bu faktla hesablaşmaq lazım gələcək. Ona görə ki, baş nazirin partiya daxilində nüfuzu daha böyükdür. Ən azı ona görə ki, bu, onun partiyasıdır və o bu partiyanı hələ heç kimə güzəştə getməyib.

Amma R.T.Ərdoğan prezidentliyə öz namizədliyini irəli sürəndən sonra gələcək siyasi koalisiya haqda söhbətlər çoxalıb. Bir çoxu indiki prezidenti Ərdoğanın gələcək kabinetində baş nazir kimi görür.

Amma Abdullah Gül buna nə deyir? İndiki prezident bir dəfə demişdi ki, o, Rəcəp Tayyib Ərdoğanın Medvedevi olmaq istəməzdi. Amma kim bilir? Vaxt keçir, siyasi planlar dəyişir. Ən azı ona görə ki, bu, siyasətdir, bir çox hallarda hakimiyyət hissi siyasətçiləri öz planlarına yenidən baxmağa sövq edir...

İndiki prezident seçkisinin müəyyən özəllikləri də var. Ötəri olsa da bu haqda da bir cümlə deməyə dəyər. Türkiyə ilk dəfədir ki, ümumi seçki yolu ilə prezident seçməyə hazırlaşır. Əvvəllər prezident parlamentdə seçilirdi. Bunu Türkiyə siyasi həyatının son yeniliklərindən biri kimi qiymətləndirmək olar.

O ki qaldı Abdulla Gülə, o da hələ siyasəti tərk edəcək dərəcədə yaşlı deyil və böyük ehtimlla növbəti siyasi tandem baş tutacaq - Abdullah Gül da Rəcəb Tayyib Ərdoğanın kabinetində yer alacaq.

Əsas odur ki, prezident seçkisi ölkənin siyasi həyatında elə də böyük dəyişikliklər vəd etmir. Artıq qeyd etdiyimiz kimi, Ekmeleddin İhsanoğlu da islami dəyərlərə önəm verən siyasətçidir. Onun xarici siyasət kursunu da təxmin etmək elə də çətinlik törətmir- böyük ehtimalla o, da islam ölkələrilə əməkdaşlığa üstünlük verəcək, çünki onun bu vaxta qədərki siyasi təcrübəsi belə deməyə əsas verir...

Amma bilmək olmaz. Elə bu səbəbdən də tələsməyək...

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014

**Hazırda həbsdə olan Hərbi Dəniz Qüvvələrinin (HDQ) vitse-admiralı Şahin Sultanovun vaxtilə həbs etdirdiyi hüquq müdafiəçisi Bəxtiyar Məmmədov “Yeni Müsavat”a müraciət edib və sensasion məlumatlar verib. Hüquq müdafiəçisi deyir ki, Ş.Sultanov büdcə pullarını mənimsəmək üçün cinayətləri təkbaşına törətməyib. Onun yüksək çinli məmurlardan ibarət korrupsioner dəstəsi olub: “Şahin Sultanov və onun korrupsioner dəstə üzvlərinin qanunazidd və cinayətkar əməllərini davamlı şəkildə ifşa etsəm də, bu günə qədər bir çox günahkar şəxslər cəzadan kənarda qalıblar.**

# Həbsdəki vitse-admiral mafiya babası çıxdı - himayəçilərinin siyahısı

## Bəxtiyar Məmmədov: “Təlim karterini Səfər Əbiyevin istirahət yaxtasına çevirdi”; “Şahin Sultanovu himayə edən məmurlar cəzalandırılsın!”



Ona görə də həmin şəxslərin diqtəsi ilə Şahin Sultanovun vəkili Adəm Məmmədov ictimaiyyətdə çaşqınlıq yaratmağa çalışır.

Mən əlimdə olan faktları açıqlayıram. Qoy Ş.Sultanovun cinayətlərini araşdıran istintaqçılar göstərdiklərimə diqqət ayırsınlar. Bilinsin ki, Şahin Sultanov niyə görə tutulub. Onun vicdanı və əlləri təmiz deyil. Bu adamın rəhbərliyi ilə illərlə HDQ-yə məxsus hərbi gəmilər vasitəsilə qaçaqmalçılıq yolu ilə yanacaq, sürtkü yağları, gəmilərə məxsus qiymətli aparatlar, rəngli metallar Türkmənistan və Qazaxıstana daşınıb".

### Rusiya Müdafiə Nazirliyindəki qohumları...

**Hüquq müdafiəçisi sensasion sayıla biləcək faktlara da toxunub:** “Qaçaqmal daşıyan hərbi gəmilər Rusiya hərbçiləri tərəfindən saxlanıb, lakin Ş.Sultanovun həyat yoldaşının Rusiya Müdafiə Nazirliyində işləyən qohumları işə qarışandan sonra gəmilər sərbəst buraxılıb!

Bundan başqa, Şahin Sultanovun təşkilatçılığı ilə HDQ-yə məxsus gəmilər vasitəsilə Qazaxıstan dövlətinin ölkəmizlə su sərhədində brakonyer dəstələrlə əlbir olaraq balıq satışından milyon manatlarla ölçülən dövlət əmlakı mənimsənilib. Sultanov bu cinayətə tabeçiliyində işləyən şəxsləri də cəlb edib. Şübhəsiz, oğurluq nərə balığından vaxtaşırı yuxarılara pay ötürülüb. Bu iş müqabilində qonorarlar verilib".

### Özlərinə villalar tikdiriblər!

**Hüquq müdafiəçisi deyir ki, Ş.Sultanov SSRİ dövründən qalan və 2012-ci ilə qədər istismar müddətləri keçmiş bütün gəmiləri doğradaraq “kod 555" ləqəbli E.Hacıyev vasitəsilə Bakı şəhərində yerləşən müxtəlif dəmir qəbulu şirkətlərinə satıb:** ”HDQ-yə məxsus istirahət mərkəzinin fəaliyyətini heç bir əsas və səbəb olmadan dayandırıb və “kod 555" ləqəbli E.Hacıyev vasitəsilə həmin müəssisənin binalarının altlarındakı torpaq sahələrini özəlləşdirməklə özününküləşdiriblər. Və həmin ərazidə taladıqları dövlət puluna özlərinə villalar tikdiriblər. Həmin villaların tikintisində isə HDQ-nin əsgər və matrosların əməyindən istifadə ediblər. Bundan başqa, HDQ-yə məxsus və Bayıl qəsəbəsində yerləşən qonaq evini qeyri-rəsmi şəkildə bp şirkətinə və Bayıl qəsəbəsində yerləşən HDQ-nin tarix muzeyini özəl göz klinikalarından birinə icarəyə verib. Mətbuatda bu haqda informasiya gedən kimi göz klinikasını dərhal binadan çıxardılar, indi həmin binada HDQ-yə məxsus bölmələr yerləşir. Məhv edilmiş HDQ tarix muzeyini isə bərpa etmək mümkün deyil".

### Hərbçi vəzifələrinə işə qəbul zamanı rüşvət toplayıb

**Hüquq müdafiəçisi Ş.Sultanovun qohumbazlığından da danışıb:** “Əmisi oğlu olan, HDQ-də manqa komandiri vəzifəsini daşıyan Elçin Sultanov vasitəsilə gizli yolla dəyəri 100 min manatla ölçülən ərzağı oğurlayaraq Bakı şəhərində yerləşən müxtəlif marketlərə paylamaqla külli miqdarda dövlət əmlakını mənimsəyiblər. Elçin Sultanov vasitəsilə HDQ-də rütbələrin, vəzifələrin verilməsini və müddətdən artıq xidmət edən (MAXE) hərbçi vəzifələrinə işə qəbul zamanı rüşvət toplayıb. E.Hacıyev vasitəsilə saxta MMC-lər açmaqla və saxta sənədləşdirmə aparmaqla pul köçürmələri yolu ilə milyon manatlarla dövlət əmlakını mənimsəyiblər. Uzun illər ərzində sayı-hesabı bilinməyən bu MMC-lərdən guya mal alınması göstərilsə də, faktiki olaraq heç bütün mal-material ya söküntüdən çıxmış material, ya da vergidən gizlədilən əmlak olub. Saxta MMC-lər isə bir neçə ay kağız üzərində fəaliyyətdə olduqdan sonra vergi orqanlarının nəzarətindən yayındırılmaq məqsədilə bağlanıb. Ş.Sultanovun cinayətkar dəstəsi uzun müddət ərzində HDQ-nin sabiq rabitə rəisi Natiq Əsgərov, sabiq MTT rəisi Cabbar Qəmbərov, bölmə rəisi Teymur Əsgərov və başqalarını komissiya üzvü təyin etməklə saxta aktlar tərtib etməklə külli miqdarda dövlət əmlakını mənimsəyiblər. Ş.Sultanov HDQ-yə aid binaların söküntüsündə əldə etdiyi 100 min manatlarla dəyəri olan tikinti materiallarını yalandan sənədləşdirmək yolu ilə guya müxtəlif şirkətlərdən yenidən alınmış material kimi aktlar tərtib etməklə dövlət əmlakını külli miqdarda mənimsəyib. Ş.Sultanov saxta aktlar tərtib etməklə sabiq rabitə rəisi Natiq Əsgərov vasitəsilə 8000 metr kabel almaq adı altında və 16.000 lampa almaq adı ilə dövlət əmlakını külli miqdarda mənimsəyib. Hərbi gəmilərin təmiri zavodunun rəisi Ə. Muradxanovla əlbir olub HDQ-yə aidiyyəti olmayan xarici şirkət gəmilərinin, Azərbaycanın müxtəlif dövlət qurumlarına məxsus gəmilərin təmirini həyata keçiriblər. Bundan qeyri-rəsmi yollarla milyon manatlarla vəsait əldə olunub. Gəmilərə aid dəyəri milyon manatlarla avadanlıqların alınması görüntüsü yaratmaqla özünün saxta MMC-lərdən alınması göstərilməklə və saxta MMC-lərə pul köçürülməsi yolu ilə rəsmiləşdirib külli miqdarda vəsait mənimsənilib. HDQ-yə məxsus emalatxanalardan milyon manatlarla dəyərində dəzgahların yerli və xarici şirkətlərə qanunsuz, qaçaqmalçılıq yolu ilə satılması ilə külli miqdarda dövlət vəsaiti mənimsənilib. Hərbi gəmilərə dəyəri milyon manatlarla ölçülən avadanlıqları xarici ölkələrdən gətirən zaman həmin avadanlıqların Müdafiə Nazirliyinin adına gəlməsini göstərməklə vergi rüsumundan yayınıblar".

### Təlim karterini Səfər Əbiyevin istirahət yaxtasına çevirdi

**B.Məmmədovun dilə gətirdiyi maraqlı məlumatlardan biri də admiralın təlim karterini istirahət yaxtasına çevirməsi ilə bağlıdır:** “Şahin Sultanov Polşa dövlətinin istehsalı olan və Azərbaycan Ali Hərbi Dənizçilik məktəbinin müdavimlərinin şturman təlim-tədris təcrübəsi praktikası üçün keçirməsi nəzərdə tutulan, dəyəri milyon manata yaxın olan katerin bütün tədris otaqlarını sökərək özü, ailəsi və sabiq müdafiə naziri Səfər Əbiyev üçün istirahət otaqlarına, qəbul otaqlarına çevirib. Bu, dövlətə külli miqdarda ziyan vurmaq deyil?!"

### Saxta möhür əldə edərək...

**Hüquq müdafiəçisi deyir ki, Ş.Sultanov HDQ-nin Hidroqrafiya xidmətinin sabiq rəisi Qasım Quliyevlə əlbirliyindən də danışıb:** “Saxta möhür əldə edərək saxta MMC-lərə pul köçürüblər. Qasım Quliyevin bu cinayətini 2013-cü ildə Müdafiə Nazirliyinin inspeksiyası aşkarlayaraq S.Əbiyevə məruzə edib. Bundan sonra sabiq nazir Q.Quliyevin təcili şəkildə ordudan tərxis edilməsinə komanda verib, hətta buna dair əmr də imzalayıb. Lakin cəmisi 1 gün sonra Ş.Sultanov böyük pullar müqabilində cinayət ortağını yenidən iş başına qaytarıb. Sabiq nazir Əbiyevin isə hansı səbəbdən öz əmrini geri oxumasına istintaq aydınlıq gətirməlidir!"

### Dövlətin hesabına pulsuz danışıblar. Özü də illərlə!

**B.Məmmədovun sözlərinə görə, həbsdəki vitse-admiral gözətçi gəmisinin üzərinə bir neçə qurğu və avadanlıqlar quraşdırmaq yolu ilə də külli miqdarda dövlət əmlakını mənimsəyib:** “Gəmilərin təmiri zavodunun direktoru Əsəd Muradxanov vasitəsilə 4-5 il bundan qabaq istismarı dayanmış gəmini fəaliyyətdə olan gəmi kimi qeydiyyatda göstərməklə həmin gəmiyə illər ərzində yanacaq və sürtkü yağlarının verilməsini yazıblar. Aydındır ki, həmin yanacaq və sürtkü yağları dənizə axıdılmayıb. Təsəvvür edin ki, HDQ-nin sabiq rabitə rəisi, ehtiyatda olan II dərəcəli kapitan Natiq Əsgərov Şahin Sultanovun birbaşa göstərişi əsasında 50 min manata yaxın dövlət puluna telefonlar alıb. Həmin telefonlardan Şahin Sultanov və ailə üzvləri, Natiq Əsgərovun özü və yaxınları istifadə ediblər. Bu adamlar bu qədər dövlət vəsaitini mənimsəyib, amma iştahaları dözməyib, üstəlik, dövlətin hesabına pulsuz danışıblar. Özü də illərlə! Şahin Sultanov HDQ-nin əsas bazasının Şıx çimərliyi ərazisində yerləşən inzibati ərazisinə köçmək adı altında yeni kazarmalarının və inzibati binaların təmiri-tikintisi ilə əlaqədar əlavə olaraq 2 milyon, İsraildən korroziya əleyhinə boya alınması adı altında 300 milyon manat dövlət vəsaiti ələ keçirib".

### Sultanovu kimlər himayə edir?

**Hüquq müdafiəçisi vitse-admiralla “Azərenerji”nin prezidenti Etibar Pirverdiyevin də münasibətlərinə toxunub:** “Pirverdiyevin himayədarlığı ilə Şahin Sultanov Bakı şəhəri, Səbail rayonu, A.Quliyev küçəsi 4a və 4b ünvanlarında yaşamış 28 hərbçi ailəsini Nazirlər Kabinetinin köçürülməyə dair Qərarı, Bakı ŞİH başçısının Sərəncamı, məhkəmənin qüvvəyə minmiş və icraya yönəldilmiş qətnaməsi olmadan, əksinə, Səbayel rayon və 1 saylı İnzibati İqtisadi Məhkəmələrin söküntünün qadağan olunması və köçürülmənin mümkün olmaması barədə qüvvədə olana qərardadı, eləcə də Bakı ŞİH tərəfindən həmin ünvanlarda söküntünün planlaşdırılmadığı haqqda rəsmi məktubu olmasına baxmayaraq, hər ailəyə təhdid altında cədvəl əsasında əlbəəl 10 min manat qanunsuz pul vəsaiti paylatdırıb, köçürülmədən imtina edən və hüquqlarını müdafiə etdiyim 2 yüksək rütbəli hərbçi ailəsini isə qanunazidd şəkildə, kobud şəkildə müdaxilə edərək, zor tətbiq etmək yolu ilə, polis qüvvələrini və icra qurumlarını da cəlb etməklə zorla mənzillərindən çıxarıb. Bu ”əməliyyat"dan Sultanov 2 milyon manat qazanıb. Etibar Pirverdiyevlə iş birliyindən irəli gələrək yeni tikilməkdə olan HDQ-nin müasir bazasında aparılan tikinti işlərində də keyfiyyətsiz tikinti materiallarından istifadə edilib. Bu yolla dövlət əmlakının milyon manatlarla mənimsənilməsi faktı vardır. Elə bu səbəbdən də qeyd etdiyim HDQ-nin yeni bazasının SQ-nin 96-cı il dönümü münasibətilə təhvil verilməməsi, açılışın qeyri-müəyyən vaxta təyin olunması sübutdur. Bütün bunlar Şahin Sultanovla Etibar Pirverdiyevin birgə planı və maddi maraqları zəminində baş verib".

### Cinayət işi başlansın!

**Hüquq müdafiəçisi müdafiə naziri Zakir Həsənova səslənib:** “Bildirirəm ki, Sultanov kimiləri Hüquq İdarəsinin rəisi Rauf Kişiyev himayə edir. Onun kimilərdən nə qədər tez qurtulsaz, ordumuz bir o qədər inkişaf edər, qanunçuluq möhkəmlənər. Cinayətkar dəstəni himayə edən adamdan qanun keşikçisi olmaz.

Əfsuslar olsun ki, sabiq müdafiə naziri Səfər Əbiyev, MN-in keçmiş inspeksiya idarəsinin rəisi Məmməd Beydullayev, HDQ-nin sabiq hüquqşünası mayor Rauf Zeynalov, MN-in hüquq idarəsinin rəisi polkovnik Rauf Kişiyev və “Azərenerji”nin prezidenti Etibar Pirverdiyev bu günə qədər cinayət məsuliyyətindən kənarda qalıblar. Bu şəxslərin cəzasızlığı həbsdə olan Şahin Sultanovun müdafiəçisi Adəm Məmmədovu şirnikləndirir. Ona verilən vədlər əsasında hərbi prokuror Xanlar Vəliyevi və müdafiə naziri Zakir Həsənovu qaralayır. Mən Hərbi Prokurorluqdan təkidlə tələb edirəm ki, bu şəxslər barəsində tutduqları cinayət əməllərinə görə cinayət işi başlansın".

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Prezidentlərin növbəti görüşü Parisdə baş tuta bilər

## Politoloqlar Qarabağ danışıqları üçün hansı perspektivlər açıldığını təhlil edirlər

**İyunun 28-dən iyulun 2-dək Bakıda ATƏT Parlament Assambleyasının (PA) 23-cü illik sessiyası çərçivəsində plenar iclaslar keçirildi. Ölkə və region üçün əhəmiyyət kəsb edən bu iclaslarda əhəmiyyətli çıxışlar, bəyanatlar, mesajlar oldu.**

İclasların birində isə ATƏT-in Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Joao Suareş mühüm mesajlar verib və ATƏT-in regionda fəaliyyətinin artırılmasının vacibliyini vurğulayıb. J.Suares bununla bağlı ATƏT sədrinin yeni planlarını açıqlamasını istəyib: "İstər Rusiyanın maraqları fonunda, istər Ukrayna məsələsinin təsiri baxımından Siz bu regionda hansı siyasəti yürüdəcəksiniz? Bunu bilmək çox vacibdir".

**Onun sualına cavab olaraq ATƏT sədri Didye Burkhalter regionla bağlı planlarını açıqlayıb:** "Bizim tələblərimizə cavab olaraq Ukrayna böhranı ilə bağlı tərəflər atacaqları addımları açıqlayacaqlar. Bundan sonra biz də addımlarımızı bildirəcəyik. Abxaziya məsələsi ilə bağlı tələb edirik ki, orada ATƏT-ə fəaliyyət göstərməsi üçün geniş imkanlar yaradılsın. Rusiya və Gürcüstan arasında dialoq olmalıdır.

Dağlıq Qarabağ münaqişəsinə gəlincə, planımız belədir: növbəti mərhələdə prezidentlər arasında yeni görüş keçirilməlidir. Yeni debatın əsasını qoymaq istəyirik. Çünki bir sıra məsələlərə aydınlıq gətirilməlidir. Hər iki prezidentlə bir neçə həftə bundan əvvəl bunları müzakirə etmişik. ATƏT vasitəçilik tədbirlərini intensiv şəkildə davam etdirmək niyyətindədir. Düşünürük ki, ATƏT-in böyük potensialı var. Sadəcə, mən Sizdən xahiş edirəm, münaqişə barədə 57 dövləti dolğun məlumatlandırasınız ki, yüksək dəstək ifadə olunsun".

**ATƏT sədri Dağlıq Qarabağ münaqişəsi ilə bağlı planları açıqladı. Suareş qeyd etdi ki, növbəti mərhələdə prezidentlər arasında yeni görüş keçirilməlidir:** "Yeni müzakirələrin əsasını qoymaq istəyirik. Çünki bir sıra məsələlərə aydınlıq gətirilməlidir.

Hər iki prezidentlə bir neçə həftə bundan əvvəl bunları müzakirə etmişik. ATƏT vasitəçilik tədbirlərini intensiv şəkildə davam etdirmək niyyətindədir. Düşünürük ki, ATƏT-in böyük potensialı var. Sadəcə, xahiş edirəm, münaqişə barədə 57 dövləti dolğun məlumatlandırasınız ki, yüksək dəstək ifadə olunsun".

***

ATƏT sədrindən bu bəyanat elə bir ərəfədə gəlib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı regionda proseslər sürətlənib. Rusiyanın Avrasiya İttifaqına qoşulacağımız halda üç rayonun qaytarılacağını vəd etməsi barədə məlumatlarla yanaşı, cəbhə xəttində atəşkəsin intensiv olaraq pozulması, atışmaların qeydə alınması məsələsi var. Belə bir mərhələdə prezidentlərin görüşünün təşkilinin mümkün olub-olmaması və belə bir görüş baş tutarsa bunun münaqişənin həllinə nə verə biləcəyi kimi suallar ortaya çıxır.

**Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin sədri Mübariz Əhmədoğlu hesab edir ki, prezidentlərin görüşü problemin tənzimlənməsində yeni keyfiyyət yarada bilər. Onun sözlərinə görə, Azərbaycan ictimaiyyəti bu keyfiyyət dəyişikliyini əldən buraxmayacaq. Ekspertin fikrincə, prezidentlər görüşü baş tutarsa orada ortaya çıxacaq dəyişikliklər Azərbaycanın xeyrinə olacaq. M.Əhmədoğlu güman edir ki, qarşıdakı günlərdə prezidentlərin görüşünün olub-olmayacağı dəqiqləşəcək:**

"Bir neçə ay əvvəl ATƏT sədri strukturlaşdırılmış danışıqlar təklif etmişdi. Yəni pərakəndə, quru danışıqlar olmasın. Ancaq Ermənistan tərəfi imitasiya ilə məşğuldur. Bu günə qədər olan mərhələ-mərhələ danışıqlar müəyyən mənada konkretlik və praktiklik deməkdir. Amma virtual məkanda danışıqlar olub. Heç bir praktiki addım atılmayıb. Çünki Ermənistan imitasiya xarakterli iş aparır. İrəvan razılıq versə, prezidentlərin görüşü yaxın zamanlarda baş tuta bilər. Əgər belə bir görüş baş tutacaqsa, bunu yaxın 10-15 gün ərzində biləcəyik. Əks halda, prezidentlərin görüşü payıza qala bilər".

**M.Əhmədoğlu deyir ki, ATƏT sədrinin bəyanatından əvvəlcə Rusiya xarici işlər nazirinin çıxışına diqqət yetirmək vacibdir:** "Sergey Lavrovun vacib bəyanatını təhlil etmək lazımdır. Rus nazir həm Bakıda, həm İrəvanda oxşar çıxışla yadda qaldı ki, status-kvo dəyişməlidir. Ancaq münaqişənin həllində dinc yolun vacibliyi terminini işlətmədi. Demədi ki, problem dinc yolla həll edilə bilər. Rusiya həm özünün təşəbbüskarlığını ortaya qoyur, həm Fransanın təşəbbüsünü dəstəkləyir, həm də dinc termininden imtina edir".

**Siyasi şərhçi üç rayonun qaytarılması təklifi ilə bağlı məlumatları isə blef sayır. Onun dediyinə görə, bu ideya heç bir sənədə söykənmir və müəyyən şəbəkənin dövriyyəyə buraxdığı məlumatlardır:**

"Azərbaycanın müxalifəti, iqtidarı, bütövlükdə cəmiyyət vahid hərəkət etməlidir. Çünki münaqişənin tənzimlənməsi üçün unikal vəziyyət yaranıb. Ancaq üç rayonun qaytarılması cəfəng söhbətdir. Hələ Metyu Brayza demişdi ki, ortaya bir sənəd qoyun ki, orda 5 rayonun qaytarılması məsələsi olsun. Elə bir sənəd yoxdur.

Yalnız yenilənmiş Madrid prinsipləri var. Bu da yeganə sənəddir ki, orada Dağlıq Qarabağ ətrafındakı rayonların qaytarılmalısı qeyd olunub. Deyilməyib ki, neçə rayon qaytarılsın. Bütün rayonların qaytarılması qeyd olunub.

Uorlikin bəyanatı da oldu ki, Laçın dəhlizi qalmalıdır, yeddi rayon qayıtmalıdır. Laçın dəhlizi də ermənilərdə qalmır, beynəlxalq idarəçiliyə verilir. Azərbaycanın Avrasiya İttifaqına girəcəyi şərti ilə üç rayonun qaytarılması fikri boş söhbətdir. Lavrov da Bakıda açıqladı ki, Rusiya Azərbaycanı bu qüruma üzv olmağa dəvət etmir.

Çünki biz müstəqil siyasət aparırıq. Rusiya da Azərbaycana bu siyasətinə görə hörmət edir. Üstəlik, İran, Şimali Qafqaz və Türkiyə siyasətində Azərbaycan Rusiya üçün mühüm rol oynayır. Rusiya Azərbaycanı o baxımdan itirmək istəmir".

***

**Siyasi analitik Qabil Hüseynlinin sözlərinə görə, prezidentlərin görüşü Rusiya və Fransanın birgə səyləri əsasında hazırlanır. Politoloqun fikrincə, bu məsələdə həlledici fiqur Rusiyadır. Q.Hüseynli hesab edir ki, prosesin dondurulmuş şəkildə saxlanmasına dəstək verən Rusiya danışıqların intensivləşməsinə diqqət yetirməyə başlayıb:**

"Söhbət danışıqların intensiv inkişaf kontekstində problemin obyektiv və beynəlxalq hüquq normalarına uyğun tənzimləməsindən gedir. Azərbaycan ərazi bütövlüyünün bərpasını istəyir. Rusiyanın isə öz arzu və tələbləri var. Prezidentlərin görüşündə isə kompromislər axtarmaqda irəliləyiş ola bilər".

**Q.Hüseynli deyir ki, görüş yeri kimi Paris seçilib:** "Vaxt konkretləşməsə də, uzaq olmayan zamanda bəzi nüanslar dəqiqləşəndən sonra belə bir görüş baş tuta bilər. Ermənistanın qeyri-konstruktiv müqaviməti qırıldıqdan və konsensus əldə olunduqdan sonra prezidentlərin Paris görüş baş tuta bilər. Bu görüşdə mühüm qərarlar qəbul edilə bilər.

Üstəlik, Rusiyaya qarşı Qərb sanksiyalarının üçüncü mərhələsində bu ölkənin iqtisadiyyatındakı geriləmə Rusiyanı postsovet məkanındakı konfliktlərə konstruktiv yanaşmağa məcbur edir. Azərbaycan kimi iqtisadi potensiala malik ölkə ilə əməkdaşlıq isə Rusiya üçün səmərəlidir. Ona görə də səy göstərir və prezidentlər səviyyəsindəki danışıqlar prosesində ciddi irəliləyişlərin əsası qoyula bilər. Bu mənada ATƏT sədrinin söylədikləri həqiqətə uyğundur".

**Q.Hüseynli bildirir ki, üç rayonun qaytarılması siyasi konyukturaya uyğun ortaya atılmış fikirdir:** "Azərbaycan ilkin mərhələdə rayonları tələb edir. Dağlıq Qarabağın status məsələsi növbəti raunda qalacaq. Üç rayon ortaya atılmış fikirdir. Sırf siyasi konyuktura xarakteri daşıyır. Bu, Azərbaycanı qane etmir".



# Bakı metrosundakı erməni terrorundan 20 il ötdü

**1994-cü il iyulun 3-də erməni terrorizmi Azərbaycana qarşı növbəti cinayətini həyata keçirib. Bakı metrosunun "28 May" və "Gənclik" stansiyaları arasında qatarda törədilən partlayış nəticəsində 13 nəfər həlak olub, 42 nəfər yaralanıb. Karabakhinfo.com-un məlumatına görə, terror aktını törətməkdə şübhəli bilinən Azərbaycan vətəndaşı Azər Aslanov Moskva şəhərində həbs olunub və Azərbaycana ekstradisiya edilib. 1998-ci ildə A.Aslanov öz ifadələrində bildirib ki o, Bakı Metropolitenində terror aktı törətmək göstərişini erməni əsirliyində olarkən, erməni yazıçısı Zori Balayandan alıb.**

Məhkəmənin hökmü ilə Azər Aslanova ömürlük həbs cəzası verilib. İstintaq nəticəsində müəyyən edilib ki, 1994-cü il yanvarın 13-də Qarabağda erməni əsirliyinə düşmüş Azər Aslanov Ermənistanda olarkən erməni xüsusi xidmət orqanları ilə əməkdaşlığa cəlb edilib. Belə ki, onu azad etmək bahanəsi ilə 16 iyun 1994-cü ildə anası Tədjibat Aslanova ermənilər tərəfindən İrəvana dəvət olunur, Azər Aslanova isə anasının girov olduğunu və onun azad olunması üçün Aslanovun Bakı Metropolitenində partlayış təşkil etməli olduğu bildirilir. Bundan sonra 3 iyul 1994-cü ildə, İrəvan-Mineralniye Vodi- Bakı marşrutu ilə A.Aslanov erməni xüsusi xidmət orqanlarının hazırladıqları saxta sənədlərlə Azərbaycana gəlir, terror aktını törədir və Ermənistana qayıdır, yalnız bundan sonra onun girovluqda saxlanan anası azad edilir və onlar Ermənistanı tərk edirlər. Terror aktının təlimatçıları, Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları, polkovnik Karen Baqdasaryan və kapitan Seyran Sarkisyan olublar. A.Aslanovun ifadələri əsasında, məhkəmənin göstərişi ilə Zori Balayana qarşı cinayət işi açılıb, 1999-cu ildə Azərbaycanın Baş Prokurorluğunun təqdimatı əsasında Z.Balayan İnterpolun xətti ilə beynəlxalq axtarışa, sonra isə MDB dövlətlərində beynəlxalq axtarışa verilib. 2001-ci ildə erməni tərəfinin müraciəti əsasında İnterpol Z.Balayanı axtarışda olan şəxslər siyahısından çıxarıb.

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014

# Ən gəlirli yay biznesləri hansılardır?

## 3 ay bu işlərlə məşğul olub, qışda "kefə baxmaq" mümkündür...

**Yay qapını bir aydır ki, döyüb. Son bir neçə günün sərinliyini nəzərə almasaq, istilər də onunla birgə. Dünya bazarında yay biznesi adlandırılan bir çox sahələr var ki, işbazlar 3-4 ay onunla məşğul olub, böyük pullar qazanırlar. Təbii, ölkələrin iqtisadi, turistik imkanlarını nəzərə alanda "ən gəlirli biznes" anlayışının təyinatı da dəyişir.**



Amma Türkiyənin bir çox cəhətlərinə görə Azərbaycana örnək olduğu - nəzərə alsaq ki, qonşudakı ən populyar biznes növləri ölkəmizə də ayaq açıb - faktını nəzərə alsaq, Türkiyə mətbuatının bu mövzuda hazırladığı araşdırma diqqət çəkir.

"Yeni Müsavat" da iyulun bu ilk günlərində yayı gəlirlə başa vurmaq istəyənlər üçün rentabelli gəliri olan iş imkanlarını təqdim edir. Ən azı, "qonşuda bişər, bizə də düşər" prinsipini nəzərə alanda bu biznes növlərinin yaşama şansı olduğu görünür... Siyahıya diqqət edək:

**Yayın istisini azaldacaq iş fürsətləri:**

**Buz satışı:** Türkiyə saytlarının yazdığına görə, yay aylarında buz satışı da artır. Xüsusən turizm bölgələrində buz satışı artır. Bu iş üçün lazım olan ilkin maliyyə məbləği 2500-10000 manat arasındadır. Gündə 100 paket buz satışından 70 manata yaxın qazanc əldə etmək mümkündür. Türkiyənin turizm bölgələrində bu yay biznesi çox gəlirlidir. Amma Azərbaycanda o qədər də inkişaf etməyib. Halbuki çimərliklərdə, turizm bölgələrində iaşə, turizm obyektləri, habelə sıradan turistlərin də faydalı müştəri olacağını nəzərdən qaçırmaq olmaz.

**Dondurma satışı:** Yayda çox sürətlə yayılan gəlir sahələrindən biri də dondurma satışıdır. Məsələn, Türkiyədə adambaşına dondurma istehlakı 2,5 litrdir. Əslində dondurma ilin dörd fəslində yeyilə biləcək bir qidadır. Ona görə də yaz aylarından etibarən bu sahəyə investisiya qoymaq gəlir deməkdir. Xırda biznes qurmaq istəyənlər bu dondurma tortundan bir pay almaq istəyirlərsə, mütləq dondurma şəbəkələrinə qoşulmalıdır. Səyyar dondurma satışı, ya da şəhərin ən sıx əhali olan yerlərində şöbə açmaq buna misaldır. Orta hesabla 15 kvadrat metr ərazidə 15 min manat investisiya ilə yay boyunca kifayət qədər ciddi gəlir əldə etmək mümkündür.

Türkiyəli mütəxəssislərin hesablamasına görə, bu iş modelində gündəlik 200 ədəd dondurma satışı nəticəsində 3 min manata yaxın gəlir əldə etmək mümkündür.

**Bizimkilərin ağlına gəlməyən (bəlkə də artıq gəlib, sadəcə biz şahid olmamışıq),** amma qonşu Türkiyədə xeyli populyar olan bir dəniz biznesi də yaxta kirayəsidir. Belə ki, hotellərdən bezən, sabit bir yerdə yay tətilini keçirmək istəməyən turistlərə alternativ tətil variantı da yaxta turlarıdır. Yəqin yay tətilini Türkiyədə keçirənlər bunun şahidi olub. Hotellərdə "yaxta tur" adı ilə günün bir neçə saatını fərqli keçirmək şansı təklif edilir. Özü ilə baş-başa qalmaq, heç tanımadığı yerləri gəzib də, tətil keçirmək istəyənlər və ya fərqlilik axtarışında olan geniş ailələr üçün həftəlik yaxta kirayələyərək tətil keçirir.

Son zamanlar yaxta sahibi olan bir çox şəxs öz yaxtasını gündəlik və ya həftəlik kirayəyə verərək, maddi gəlir əldə etmək istəyir. Yaxtalar turistlərlə yanaşı, toy, nişan, şirkət yeməkləri kimi tədbirlər üçün də kirayələnir. Yaxtaların bir günlük kirayəsi 200 avrodan başlanır. Yaxtanın ölçüsü və içindəki bəzi atributlara görə 2 min avroya qədər arta bilər. Bu səbəbdən də uyğun yay bizneslərindən biri yaxtasını kirayə vermək istəyənlərlə əlaqəyə girib, daha ucuz qiymətə yaxtanı yay boyu kirayələmək, daha sonra onu yay boyu müxtəlif tədbirlər çərçivəsində kirayələmək istəyənlərə təqdim etməkdir. Bu halda da rentabelli bir gəlir əldə etmək mümkündür.

Daha bir orijinal təklif isə kiçik qayıqların kirayəsidir. Bazar qiyməti 500-1000 manat arasında olan qayıqlar maliyyə baxımdan digər sahələrə görə daha təvazökar biznes növü sayıla bilər. Bu qayıqları "ikinci əl" bazarından da tapmaq olar.

Gəlir faizi yüksək olan bir başqa yay biznesi də yay aksessuarlarının satışıdır. Məsələn, Türkiyədə yay aksessuarlarının illik bazarı 250 milyon manatdır. Dəbə uyğun olaraq hər zaman özünü yeniləyən yay aksessuarları yaradıcıları da insanların diqqətini hər zaman çəkməyi bacarırlar. Çimərlik geyimlərindən tutmuş, çimərlik çantasına, çəkələklərə, eynəyə qədər bir çox aksessuar yayın "pendir-çörək" kimi tez-tez satılanlarındandır. Bu iş modeli üçün 30-50 kvadrat metr sahəsi olan kiçik bir "toçka" kifayətdir. Xüsusən çimərlik həndəvəri və turistik yerlərdə bu biznesin yüksək potensialı var. Bir mağaza açmaq üçün 25-50 min manat lazımdır. Amma nəzərə almaq lazımdır ki, bu sahədə aylıq 4-5 min manat gəlir var.

**Yay dəllallığı...** Zarafat deyil, yay aylarında bu işlə aktiv məşğul olub, yaxşı gəlir əldə etmək mümkündür. Bağ evlərini və ya rayondakı evlərini kirayə vermək istəyənlərlə sıx münasibət qurub, turistlərə maraqlı təkliflər vermək, həm də yaxşı qazanmaq ən gəlirli yay biznesi ola bilər. Amma bunun üçün 5-10 ev sahibi ilə əlaqə qurmaq yetərli deyil. Bəzən bütün bir qəsəbə və ya rayona bələd olmaq lazımdır.

**Türkiyədə həftəlik, günlük kirayə bazarı da geniş yayılıb.** Bu səbəbdən qonşu ölkədə yay dəllalları mövsümün ən yaxşı qazananları sayılır. Hər kirayədən 10 faiz gəlir əldə etmək isə yayı yağ-bal içində keçirmək anlamına gəlir. Bunun üçün internetdə, sosial şəbəkələrdə ciddi reklamla məşğul olmaq, eləcə də turistlərə ən uyğun təklifləri təqdim etməyi bacarmaq lazımdır.

**Bağ əşyalarının satışı ilə məşğul olmaq** - yayın gəlişi ilə bağ-bağat işləri də artır. Bu isə böyük bir potensial deməkdir. Avropanın məşhur bağça markası Gardena və Dost firmasının ortaqlığıyla qurulan Gardena - Dost firması bir çox ölkələrdə öz şöbələrini açıb. Firma bağça əlcəklərindən tutmuş qayçıya, ot biçmə maşınından, sulama sistemlərinə qədər bir çox sahədə şöbə açmaq şansı verir. Dərman, gübrə, çiçək, ağac, şitil biznesi də əslində bura aiddir və yay aylarında 20-30 faiz gəlir deməkdir.

Kiçik bir küncdə meyvə suyu satışı. Burda söhbət bizdəki kimi qazlı içkilərdən getmir. Türkiyədə, eləcə də Avropada insanlar sağlam yaşayış faktoruna çox əhəmiyyət verdiklərindən "vitamin kafelər" adı altında məkanlar fəaliyyət göstərməyə başlayıb. Səhhətinə ciddi diqqət edənlərə və meyvə suyundan vaz keçə bilməyənlərə vitamin kafelərdə hər cür seçim təqdim edilir. Müxtəlif növ meyvə suları, bitki çayları, vitamin qarışımları, yağsız, bol tərəvəzli salatlar... Bunun üçün bir aparat və kiçik bir stand yetərlidir.

**Outdoor turlar...** Bu biznes növü Azərbaycanda yavaş-yavaş yayılsa da, danışanların dediyinə görə, o qədər də uğurlu deyil. Söhbət Azərbaycanın müxtəlif bölgələrinə həyata keçirilən birgünlük turlardan gedir. Amma dağ, çay, şəlaləsi zəngin olan ölkəmizin bölgələrinə daha az məsrəfli və əyləncəli turlar təşkil etmək mümkündür. Belə ki, bu turlara velosiped turları, raftinq, təbiət gəzintisi, üzmə, paraşüt turu daxildir.

Maraqlıdır ki, bu cür turlara daha çox xarici turistlər maraq göstərirlər.

Sonda yay aylarına özəl stendlərin siyahısını da yazaq:

**- Dondurma stendi**

**- Waffle stendi**

**- Limonad və soyuq içkilər satılan stend**

**- Fast food tərzində tez hazırlanan yeyəcəklər**

**- Yay aksesuarları stendi**

**- Eynək stendi**

**- Açıq bufet səhər yeməyi ərzaqları stendi**

**- Manqal əşyaları və ya manqal kömürü satılan stend**

**- Küp buz satışı.**

Sonda... Yazının girişində də qeyd etdik ki, bu yay biznes növləri barədə material Türkiyə mənbələrindən götürülüb. Azərbaycanda biznesin şərtləri isə hamımıza məlumdur: bir çox yerə görüm-baxım şərtdir. Bu halda həmin bizneslərdən hansının gəlirli olması, yaşama şansının yüksək olması sual doğurur. Biz isə bir çox biznes növlərinin Türkiyədən Azərbaycana transfer etdiyini nəzərə alıb, sizə seçimləri yazdıq. Arzuya, cibinizə uyğun olaraq öz seçiminizi edə bilərsiz.

❑ **Sevinc TELMANQIZI**





# "Nar Mobile" gənc rəssamlara dəstək verməyə davam edir

## Mobil operatorun səyi ilə "Azerbaijan Art Festival" bir ənənəyə çevrilir




**2-30 iyul 2014-cü il tarixləri arasında "Nar Mobile" mobil operatorunun baş sponsorluğu ilə "Baku Creative Center" yaradıcılıq mərkəzi tərəfindən "Azerbaijan Art Festival - 2014" layihəsi reallaşdırılacaq. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə gerçəkləşdiriləcək layihənin açılış mərasimi 1 iyul tarixində Bakı Biznes Mərkəzində keçirilib. Mətbuat konfransında çıxış edən "Baku Creative Center" yaradıcılıq mərkəzi, "Nar Mobile" mobil operatoru və Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri bu genişmiqyaslı tədbirin əhəmiyyətindən bəhs ediblər.**

**Qeyd edək ki, "Nar Mobile" mobil operatorunun səyi nəticəsində ardıcıl olaraq ikinci il keçirilən festival çərçivəsində gənc azərbaycanlı rəssamlar tərəfindən ölkənin müxtəlif bölgələrinə səfərlər edilir, sərgi və ustad dərsləri təşkil olunur, yüksək performans nümayiş etdirilir. Xoş ənənəni davam etdirən gənc rəssamlar bu il ardıcıl olaraq Astara (2-4 iyul), Lerik (4-6 iyul), Yardımlı (6-8 iyul), Lənkəran (8-10 iyul), Bərdə (10-12 iyul), Goranboy (13-15 iyul), Gəncə (15-17 iyul), Şəmkir (17-19 iyul), Qazax (20-22 iyul) və Ağstafada (22-24 iyul) olacaq, sərgi və dərslər təşkil edəcəklər. Bu il festivalın daha interaktiv bir şəraitdə keçirilməsi gözlənilir. Belə ki, ustad dərslərdə sənətə marağı olan hər kəs yaradıcılıq prosesinin şahidi olmaqla yanaşı, həm də dərs zamanı hazırlanan kiçik sənət nümunəsini özü ilə apara biləcək. "Azerbaijan Art Festival" səfərlərinin mütəmadi olaraq təşkil edilməsi rəssamlıq sənətinin bölgələrdə təşviqi baxımından böyük önəm daşıyacaq.**

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan "Nar Mobile" 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində "Nar Mobile" daima sərfəli qiymət siyasətinə sadiq qalaraq, müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflərini təqdim etmiş və onların rəğbətini qazanmışdır. Mobil operator münasib danışıq tarifləri ilə yanaşı, müxtəlifliyi və sərfəliliyi ilə seçilən İnternet paketləri və hər zona üzrə vahid qiymət ödənilməsini nəzərdə tutan sadə rouminq təklifləri ilə abunəçilərin etimadını doğrultmuşdur. Xatırladaq ki, "Nar Mobile" mobil operatoru abunəçilərinə bölgələrdə ünsiyyəti daha sərfəli edən "Sənin 3-ün" tarifini də təklif edir. Bu tarifə qoşulan hər bir istifadəçi bölgələrdə bütün Azərbaycanla dəqiqəsi 3 qəpiyə danışmaq imkanı əldə edir.**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- Əla tələffüz və güvənlə danışmaq
- Real ingiliscə söhbətlər

BONUS English EXPLOSION dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014

# "Akkord"da şok korrupsiya faktları...

## Şirkətdə ciddi yoxlamalar başlayıb, bir departamentdə 20 milyon manata yaxın yeyinti aşkar edilib və cinayət işi açılıb

**"Akkord" şirkətində şok korrupsiya faktları barədə redaksiyamıza məlumat daxil olub. Məlumat verən mənbə bildirir ki, 2013-cü ilin oktyabrından şirkətdə işlər qismən dayanıb. Nəticədə maaşların verilməsində fasilələr yaranıb. Şirkətin baş direktoru Xəqani Quluzadə işdən çıxarılıb. Bunu isə onun xaricə təhsil almağa getməsi kimi izah ediblər. "Ancaq onun işdən çıxarılması adi məsələ deyildi, ortada ciddi məsələlər dayanırdı. Belə ki, onun adı "Akkord"da baş vermiş çoxsaylı maliyyə yeyintilərində əsas fiqur olaraq çəkilirdi.**

Şirkətin baş direktorunu işdən çıxarmaq adi məsələ deyil. Bu göstərişi "Akkord"un əsas səhmdarı sayılan İlqar Hacıyev vermişdi. İlqar Hacıyev 2010-cu ildən "Akkord"dan ayrılsa da, əsas səhmdar kimi qalırdı və Almaniyada "Akkord"un nümayəndəliyində otururdu. Onun qayıtması və şirkətdə təmizləmə aparması səbəbsiz deyildi".

Məlumatda qeyd edilir ki, Xəqani Quluzadənin "Akkord"a rəhbərlik etdiyi son üç ildə şirkət Azərbaycan Beynəlxalq Bankından yarım milyard manatdan çox kredit götürərək bölgələrdə müxtəlif layihələr başlayıb. Bildirilir ki, kreditlər Xəqani Quluzadə, onun tikinti üzrə müavini Elçin Bədəlov, su-kanalizasiya departamentinin rəhbəri Fariz Cəmili və istehsalat departamentinin direktoru Kamil Hüseynov tərəfindən mənimsənilib. Kreditlərin qaytarılması məsələsi gündəmə gələndə şirkət çətin vəziyyətə düşüb.

**"Krediti qaytarmaq lazımdır, pul isə yoxdur. Kreditin qaytarılmamasını görən Beynəlxalq Bank rəhbərliyi üz tutur bankın əsl sahiblərinə. Bunlar isə çox qüdrətli insanlardır və kim olduqlarını xatırlatmağa ehtiyac yoxdur. Məhz bu qüdrətli əlin köməyi ilə "Akkord"un əsas səhmdarı İlqar Hacıyev Almaniyadan gətirilib və ona şirkəti bu günə salmış adamları təmizləmək tapşırığı verilib"**,- deyə məlumatda qeyd edilir.

Qeyd edilir ki, yoxlamalar ilk olaraq kreditin ən çox mənimsənildiyi su-kanalizasiya və istehsalat departamentlərində başlayıb və külli miqdarda yeyinti faktları aşkarlanıb. Təsəvvür edin ki, su-kanalizasiya departamentinin təkcə Şəmkir layihəsinin anbarında 300 min manatlıq material əskikliyi aşkar edilib. Ümumilikdə isə departamentdə 20 milyon manata yaxın yeyinti aşkar edilib. Yoxlamalar təkcə "Akkord"un Audit Departamenti tərəfindən deyil, həm də kənardan dəvət olunmuş audit şirkəti tərəfindən aparılırdı".

**Məlumatda bildirilir ki, Fariz Cəmilinin "Akkord"un bu günə düşməsində "xidmətləri" çoxdur. Belə ki, onun özünün AGE adlı ayrıca şirkəti var və tunel tikintisi ilə məşğuldur. O şirkətin sifarişlərini ayrı-ayrı subpodrat şirkətlərə satıb:** "Şəmkir layihəsinin anbarında dəyəri 75 min avro olan aparatın, çəkisi tonlarla ölçülən armaturun, PVC və dəmir boruların yoxa çıxması da aparılan yoxlamalar zamanı aşkar edilib. Yeyintilərə görə cinayət işi açılıb və cinayət işi Korrupsiyaya Qarşı Mübarizə İdarəsindədir. Hazırda Su Kanalizasiya Departamentinin Sabirabad, Cəlilabad, Agstafa və Şəmkir layihələrində işçilər ixtisara salınıb. Hər layihədə 4-5 nəfər qalıb. Bir sual verən yoxdur ki, yaxşı bəs "Akkord"un öhdəsinə götürdüyü layihələri kim işləyəcək?"

**Mənbə bildirir ki, audit yoxlamalarından sonra tikinti üzrə baş direktorun müavin Elçin Bədəlov, təhqiqat departamentinin direktoru Şahin Məmmədov, su-kanalizasiya departamentinin direktoru Fariz Cəmili, infrastruktur departamentinin direktoru İlqar Budaqov, kadrlar departamentinin direktoru Səbinə Feyzova işdən çıxarılıblar:** "Ancaq indi yenə də şirkətdə kütləvi şəkildə ixtisarlar gedir. Şirkətdə ikili rəhbərlik sistemi mövcuddur. Xəqani Quluzadə gedəndən sonra şirkətə onun müavini işləmiş Göksəl Aybək rəhbərlik edir və o, ancaq öz həmvətənlərini müxtəlif vəzifələrə irəli çəkməklə məşğuldur. Şirkətin Zığ qəsəbəsində yerləşən İnfrstruktur Departamentinə Hüseyn Gümüş adlı təzə direktor gəlib və gələn gündən azərbaycanlı işçilərin 95 faizini ixtisara salıb. Hazırda bu vəziyyət davam edir və nə ilə qurtaracağı bəlli deyil".

Qarşı tərəfin də mövqeyini işıqlandırmağa hazırıq. Şirkətdən bildirildi ki, sözügedən faktlara və iddialara münasibət bildiriləcək.

**R.QURBANLI**

# "A.M.A.Y."ı "Ağ şəhər"in balansına verirlər

## Baxımsız qalan MDB-nin ən böyük ticarət mərkəzi görkəmini dəyişəcək; satıcılar: "Bizə xəbər göndəriblər ki, mağazaları bağlamayın"

**Xətai rayonunda tikilməkdə olan "Ağ şəhər" layihəsi genişləndirilir. "Yeni Müsavat"ın məlumatına görə, MDB-nin ən böyük ticarət mərkəzi olan "A.M.A.Y." bu layihəyə əlavə edilir. Belə ki, ticarət mərkəzi tam yeni görkəm alaraq hazırda tikilməkdə olan "Ağ şəhər" kompleksinə daxil ediləcək. Ötən gün ticarət mərkəzində olub, bu məsələyə aydınlıq gətirməyə çalışdıq.**





Satıcıların sözlərinə görə, ticarət mərkəzinin rəhbəri Abdulla Abdullayevin həbsindən sonra mərkəzdə əl dəyişib. Damət adlı satıcının sözlərinə görə, yeni rəhbərlik onlarla hər hansı bir görüş keçirməyib: "Ticarət mərkəzi boşalıb. "Asan xidmət", "Beynəlxalq bank" və bir neçə geyim mağazasından başqa fəaliyyətdə olan obyekt yoxdur. Yeni rəhbərliklə hər hansı bir görüşümüz olmayıb. Amma bizlərə xəbər göndəriblər ki, mağazaları bağlamayın, yer haqları ilə bağlı endirim olacaq. Mən özüm ayda 800 manat yer pulu verirəm. Amma 6 aydır 1 qəpik belə olsun ödəniş etməmişəm. Çünki alver yoxdur. Qonşuluqdakı bütün mağazalar bağlanıb. Tək-tük fəaliyyət göstərən bir-iki obyekt var. Biz də heç ayda 1-2 paltar sata bilmirik. Maaş verə bilmədiyimizə görə satıcılar da işdən çıxdı. Məcburam səhərdən axşama kimi burda oturub müştəri gözləyəm. İndi də deyirlər ki, buranı "Ağ şəhər"ə əlavə edəcəklər. Bu məqsədlə burda təmir-tikinti işləri aparılacaq".

**Satıcılarla söhbət əsnasında öyrəndik ki, vaxtilə Abdulla Abdullayevə məxsus "Birlikbank"ın balansında olan mağazalara əl qoyulub:** "Abdulla Abdullayev mağazaları girov qoyaraq bankın borclarını bağlamaq üçün pul götürmüşdü. Həmin bank bağlandı, daha sonra Abdullayev həbs olundu. Mağazalarımıza əl qoyulduğundan biz də obyektimizin pulunu alıb çıxa bilmirik. İndi bizə söz veriblər ki, ticarət mərkəzinin yeni sahibi kreditlə satılan mağazalara görə bizlərə ödəniş edəcək. Abdulla Abdullayevin burada mağaza alan 35 sahibkara 577 min manat borcu var idi".

Məlumat üçün bildirək ki, A.Abdullayev bu il aprelin 4-də həbs edilib. Onunla bağlı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

A.Abdullayevin həbsi ilə bağlı Baş Prokurorluğun mətbuat xidmətinin zamanında yaydığı məlumatda qeyd olunurdu ki, ilkin araşdırma zamanı toplanmış sübutlar əsasında Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

### "Ağ şəhər" tamamlanmaq üzrədir

Onu da qeyd edək ki, Xətai rayonunda tikilməkdə olan "Ağ şəhər" layihəsinə daxil olan nəhəng binalar kompleksinin tikintisi tamamlanmaq üzrədir.

Layihə üzrə tikinti sahəsi əvvəlcə 221 hektar olan "Ağ şəhər" layihəsi çərçivəsində yaşayış, iş, istirahət və əyləncə üçün ən yaxşı şərait təqdim edəcək şəhər tipli 10 universal kvartalın yaradılması nəzərdə tutulub. Bakının müasir mərkəzi həm də şəhər nəqliyyatının yeni şəbəkəsinin yaradılması sayəsində universal olacaq. Belə ki, "Ağ şəhər"in mərkəzi meydanına çıxışı olan metro stansiyasının inşa olunması, avtobus nəqliyyatı şəbəkəsinin inkişaf etdirilməsi nəzərdə tutulub. Bütün sahil boyu tramvay xəttinin çəkilməsi də planlaşdırılır. Su nəqliyyatından istifadə edilməsi üçün bulvar xətti boyu dəniz yolunun salınması da nəzərdə tutulub.

"Ağ şəhər" layihəsi üzərində işləmək üçün azərbaycanlı mütəxəssislərlə yanaşı mühəndis dizaynı sahəsində ixtisaslaşan "Atkins" (Böyük Britaniya), "Foster + Rartners" və "F+A Architects" kimi məşhur memarlıq şirkətləri də prosesə cəlb edilib.

**Fərahim İLQAROĞLU**
**Fotolar müəllifindir**





# BP yalan danışır, yoxsa ARDNŞ?

## BP-nin "World Statistical Energy Review 2013" hesabatında 2013-cü ildə Azərbaycanda 46,2 mln. ton neft çıxarıldığı göstərilir, ARDNŞ isə ötən il cəmi 43,5 milyon ton neft hasil edildiyini deyir; qeydiyyata alınmayan 2,7 milyon ton neftin qara bazarda satılması ilə bağlı iddialar var

**Bu yaxınlarda bp-nin "World Statistical Energy Review 2013" hesabatı açıqlanıb. Bir çox analitiklər və şirkətlər bu dərgidən mötəbər və etibarlı mənbə kimi faydalanırlar. Hesabat 1951-ci ildən dərc edilir..**

Hesabatda Azərbaycan üzrə göstəricilər bir qədər mübahisəli görünür. bp-nin məlumatına görə, 2013-cü ildə Azərbaycanda sutkada 931 min barel neft və ya ildə 46,2 mln ton neft çıxarılıb. Ötən illə müqayisədə hasilat sutkada 12 min barel və ya ildə 500 min ton artıb.

"bp-Azerbaijan"in ölkəmizdəki fəaliyyəti barədə hesabatda (13 fevral 2014-cü il) bildirilir ki, 2013-cü ildə AGÇ (Azəri-Günəşli-Cıraq yataqlarında neft hasilatı) çərçivəsində 32,2 milyon ton neft (azalma 700 min ton) çıxarılıb. "Şahdəniz"də kondensat hasilatı 2,4 milyon ton (artım artım 480 min ton) olub. Yəni maye karbohidrogen hasilatı ümumən 2013-cü ildə 220 min ton azalıb.

Azərbaycan neftinin 72 faizi AÇG-də hasil edilir. "Şahdəniz"də kondensat hasilatı nəzərə alınmaqla bp-nin Azərbaycanda neft hasilatında payı 76 faizdir.

Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi məlumatına görə, 2013-cü ildə Azərbaycanda 43 milyon 83 min 300 ton neft və kondensat hasil edilib.

Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) isə bildirir ki, şirkət ötən il ölkədə 43 milyon 483 min 900 ton neft və kondensat hasil edib. Dövlət şirkətinin hesablamalarına görə, 2013-cü ildə ölkədə neft hasilatı 94,1 min ton artıb.

Beləliklə, ARDNŞ-lə Dövlət Statistika Komitəsinin hesabatları arasına 400,6 min ton fərq yaranıb. Burada maraqlı bir detal var. Statistika Komitəsi rəsmi hesabatları aidyyəti qurumların məlumatları əsasında tərtib edir. Yəni Statistika Komitəsinin ARDNŞ-də hasilatın həcminin hansı səviyyədə olmasını müstəqil şəkildə izləmək və monitorinq aparmaq səlahiyyəti yoxdur. Ona görə də Statistika Komitəsinin hansı mənbəyə əsaslanaraq belə bir ziddiyyətli rəqəm ortaya qoyması anlaşılmır.

Ən ciddi məsələ isə bp-nin hesabatı ilə yerli statistika arasındakı kəskin fərqin yaranmasıdır. bp ötən il Azərbaycanda 46,2 milyon ton, yerli statistika isə təxminən *(ARDNŞ və Statistika Komitəsinin hesabatını ümumiləşdirsək)* 43,5 milyon ton neft çıxarıldığını deyir. Beləliklə də, bp-nin hesabatı ilə yerli hesabat arasında 2,7 milyon ton fərq yaranır. Bu təbii ki, çox ciddi fərqdir - Azərbaycanda rəsmən elan edilən həcmin 6,2 faizinin hara "buxarlanması" sual olaraq qalır.

"Turan" agentliyi bp-yə müraciət edərək bu fərqi izah etməyi xahiş edib. Ancaq aydın cavab alınmayıb. Çünki bp-Azerbaijan təmsilçiləri bu hesabatın hazırlanmasında birbaşa iştirak etməyib. Hesabat hazırlayanlar öz mənbələrinə istinad edirlər.

Burda Azərbaycan tərəfinin də təqsiri var. Son 6-7 ildə əməliyyat şirkətləri üzrə ayrıca hesabat açıqlanmır. Əks təqdirdə, şübhələr qalmazdı: kim haqlıdır - bp, yoxsa Azərbaycan? Digər tərəfdən, xaricdə bir çoxları bp-yə istinad edir.

Neft şirkətindəki mənbələrdən redaksiyamıza verilən məlumata görə, Azərbaycanda neft hasilatı ilə bağlı fərqli rəqəmlərin ortaya çıxması onu göstərir ki, "qara qızıl"ın bir hissəsi elə qara bazarda da satılır: "Çıxarılan neftin bir hissəsi rəsmi qeydiyyatdan keçmədən satılır və vergiyə cəlb edilmir. Gəlir də şirkət və dövlət büdcəsinə yox, ayrı-ayrı şəxslərin cibinə axır".

Bu ziddiyyətli məlumatlara aydınlıq gətirmək üçün ARDNŞ-in mövqeyini dərc etməyə hazırıq.

**İqtisadiyyat şöbəsi**




**Cümə söhbətləri**

# Həqiqi oruc üçün bəndəlik şərti

**Bismillahir-Rahmənir-Rahim! Mübarək Ramazan ayının günlərinin hər birinin önəmli xüsusiyyətləri və cəhətləri var. Bu, Ramazan ayının gündəlik dualarında da özünü göstərir. Ramazan ayının içində çoxlu nemətlərin, fürsət və imkanların yatdığını bildirmişdik. Qeyd etmişdik ki, bu ayda Allah-Təalanın sonsuz nemətlərindən pay apara bilmək bizim özümüzdən asılıdır. Allah bu ayda bizə xüsusi lütflər və bəxşişlər əta edib, nemətlər verib. Şübhəsiz ki, Allah-Təalanın bəndəyə ən böyük lütf və bəxşişlərindən biri də insanın tövbə edə bilməsidir ki, bu ayda Rəbbimiz buna daha çox vurğu edib. Bizim diqqətimizi bir daha bu mövzuya cəlb edib.**

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Allah-Təala insana tövbə etmək nəsib etsə, bu, artıq insanın sözün həqiqi mənasında İlahi lütfə yaxınlaşdığı deməkdir. Bu mənada Ramazan ayının beşinci gününün duasında da Allahdan məhz tövbə və istiğfar diləyirik: "Allahım, məni bu gün tövbə və istiğfar edənlərdən qərar ver. Məni dostların sayılan saleh bəndələrindən qərar ver. İlahi, öz məhəbbət və mərhəmətinlə məni bu gün Sənə yaxın olan bəndələrindən qərar ver. Ey mərhəmət edənlərin ən mərhəmətlisi!"

## Bəndəlik şərti...

Tövbə və istiğfar bizim qurtuluşumuzun, xilasımızın, bizim aqibətimiz xeyirli olub-olmamasının istiqamətvericisidir. Ağlı başında olan, düşüncəsi yerində olan, qəflətdən ayılmış bir insan öz əməllərinə, rəftar və davranışlarına baxan zaman görər ki, Allah dərgahında təqdim edə biləcəyi bir şey yoxdur. Namazı namaz deyil, orucu oruc deyil, yaşamağı yaşamaq deyil, davranışları davranış deyil, əxlaqı əxlaq deyil və s. Amma bir ümidi var. O da budur ki, Rəbbi - tövbələri qəbul edən Rəbdir. Allah Təala tövbələri qəbul edəndir. Günahları yuyub aparandır...

**Mübarək Qurani-Kərimin "Şura" surəsinin 25-ci ayəsində bu həqiqəti Rəbbimiz bizlərə özü çatdırır. Ayədə buyurulur:** "Bəndələrinin tövbəsini qəbul edən, günahları bağışlayan və sizin nə etdiyinizi bilən Odur". Rəbbimiz bizə mühüm bir bilgi verir. Allah-Təala bütün tövbəkarların tövbələrini qəbul edər. Allah-Təala tövbə halına gəlib çata bilən hər bir kəsin tövbəsini qəbul edən Allahdır. Peşman olan, səmimi qəlbdən narahat olan, Allaha tərəf yönəlmək istəyən və keçmiş günahları təkrar



etmək istəməyən hər bir kəsin tövbələrini Allah-Təala qəbul edər.

Ayədən belə anlaşılır ki, Allah-Təala öz bəndələrinin tövbələrini qəbul edəndir. Deməli, sən bəndə olsan, Onun dərgahında öz durumunu dərk etsən, bu durumdan peşman olsan, həmin günahları bir daha təkrarlamamaq üçün əzmin olsa, bir bəndə olaraq, artıq doğru yola düzəlməyə, Allaha tərəf yönəlməyə əzmin olsa, o zaman ayədə keçən "bəndələr" ibarəsinin misdaqı və nümunəsi olarsan. Çünki Rəbbimiz bizə Özünü bəndələrinin tövbələrini qəbul edən sifəti ilə tanıdır. Bizə burada düşən budur ki, gərək bəndə olaq, Allah-Təalanın razılığını əldə edək.

## "Əbdullah" olanın xoş halına

Allah-Təalaya bəndə olmaq çox mühüm məsələdir. Dünyada, yaşadığımız həyatda ən uca məqam Allaha bəndə ola bilməkdir. Allah-Təala əziz Peyğəmbərimizi (s) də bizə tanıtdıranda "əbduhu", - yəni "Onun (Allahın) bəndəsi" sifəti ilə təqdim edir. Yəni Peyğəmbər (s) Allahın bəndəsi olandan sonra, Onun Rəsuludur (s). İbadətə layiq - yalnız Allahdır, itaət olunmağa layiq - yalnız Odur, pərəstişə layiq olan - yalnız odur. Ondan başqası yoxdur. Bir kəs gerçəkdən Allahın bəndəsi olsa, "əbdullah" olsa, xoş o ada~mın halına. Bu baxımdan mübarək Ramazan ayında Allaha bəndə olmaq üçün çox gözəl fürsətlər var. Ay özünün bərəkət və rəhməti ilə gəlir və bizim üçün fürsətlər yaradır ki, Allahın bəndəsi olaq. Bütün əyri-əskiklərimizlə, çatışmazlıqlarımızla, il ərzində içimizdə toplanan bütün o şeytənətlər, iblisvarı hallarımızla imkanımız var ki, tövbə edib, təmizlənək, Allah bəndəsi olaq. Mübarək Ramazan ayının beşinci gününün duasında Allah Təala xüsusi olaraq, belə bir imkanın bu ayda yatdığını bir daha insanın diqqətinə çatdırır.

## Günahın bağışlanmasının müqəddiməsi

Qeyd etdiyimiz ayənin davamında Allah Təala özünü bizlərə günahları bağışlayan kimi təqdim edir. Buyurulur ki, Allah Təala bütün pis işləri bağışlayar. Əgər diqqət etsək, görərik ki, burada Allah-Təalanın bizim pis işlərimizi, günahlarımızı bağışlamasından söhbət gedir. Ayədə deyilmir, bəzi günahlar, deyilir ki, ümumiyyətlə günahları bağışlayar. Amma bunun üçün müqəddimə də verir - bəndə olub, tövbə etmək müqəddiməsi. İnsan bəndə olub, tövbə etsə, günahları nə qədər çox da olsa, Allah-Təala bağışlayar. Mübarək Ramazan ayının bu günündə bu nöqtə keçir. Əslində, 5-ci günün bu duası ilə biz həmin ayədə keçən günahları bağışlanmış kəslərdən olmaq istəyirik. O, hər şeyi bilir, bütün əməllərimiz bilir. Səmimi qəlbdən tövbə etdiyimizi də bilir, etmədiyimizi də. Növbətçi xarakterli tövbə etdiyimizi də bilir, həqiqi tövbəmizi də. Allahdan istəyirik ki, bizə bu inayəti etsin ki, ayədə işarə olunan bəndələrdən olaq. Belə bəndələr olan, həqiqi oruc tutanlardan olar.

## Tövbə günahların bağışlanmasına zəmin yaradır

Ayədən aydın olan bir neçə mətləb var. Biri budur ki, Allah-Təala bəndələrinin tövbələrini qəbul edəndir. Bu ayə bizə bu nəticəni çıxartmağa imkan verir. İkinci mühüm nöqtə bundan ibarətdir ki, tövbənin qəbul olunması və günahların bağışlanması yalnız Allah əlindədir. Yəni Allah-Təaladan başqa tövbə qəbul edən, günahları bağışlayan başqa bir ünvan yoxdur. Bizim aqibətimiz, axitərimiz, günahla bağlı tövbə məsələmiz yalnız Allah-Təaladan asılıdır. Bir mühüm nöqtə də budur ki, tövbə, günahların bağışlanmasına zəmin yaradır. Yəni biz tövbə diləməliyik ki, Allah-Təala bizim günahlarımızı bağışlasın.

## Allahdan qafil olduğumuz hər an - tövbəlik üçün haldır

**Əziz İslam Peyğəmbərinin (s) tövbə barəsində belə buyurduğunu nəql edirlər:** "Tövbə, keçmişdə olanların üstünü örtür". İnsanlar adətən etdikləri günahları açıq danışırlar. Bu xüsusiyyət dinimiz tərəfindən bəyənilmir. Bizdə adətən iki cür yanaşma var: ya insanlar hansısa qələtlər edib, səhvlər edib, peşman olandan sonra, tövbə edəndən sonra, keçmişlərini yada salmaq istəyirlər. Ya da bəzən deyirlər ki, biz nə etmişik ki, tövbə də edək?! Hər iki yanaşma yanlışdır. Tövbə yalnız, haqq basandan sonra etmirlər ki!... Tövbə yalnız haram içkilərdən olmur ki!... Tövbə yalnız qumar oynamağa düşmür ki!... İnsanın hər gün bir qələtləri, səhvləri olur. Allahdan qafil olduğumuz hər an - əslində, tövbəlik haldır.

## Həqiqi tövbə edən - günah etməyən kimidir

Yenə Əziz Peyğəmbərimizdən (s) buyurulur: "Günahından tövbə etmiş şəxs, günah etməmiş şəxs kimidir". Bir adam həqiqi tövbə edibsə, Allah deyən kimi olubsa, artıq heç kim onun keçmişini ona xatırlada bilməz. Çünki Allah ona tövbə etməyi nəsib etməklə hədisdə də keçdiyi kimi, onun keçmiş əməllərinin üstünü örtüb. Allah bilər, o adam bilər.

İmam Əlidən (ə) buyurulur: "Tövbə günahları təmizləyər və qəlbi yuyar". İndi o aydayıq ki, bu ayda günahlar yanaraq aradan gedir, yuyulub paklanaraq aradan gedir. İndi əsl tövbə etmək zamanıdır, əsl bağışlanmaq fürsətidir. Tövbələr bu ayın içində xüsusi nəticələr verər.

**Allahın Peyğəmbəri (s) bir başqa yerdə buyurur:** "Allahın yanında tövbə etmiş mömin kişi və mömin qadından sevimli heç nə yoxdur". Allah-Təala tövbə edəni sevir. Tövbəkar Allahın sevimlisi olur. Allahın sevimlisi olmağa çalışaq gərək.

Allah Peyğəmbərindən (s) yenə buyurulur: "Həqiqətən Allahın Öz bəndəsinin tövbə etməsindən sevinci uşağı olmayanın uşağı olduqda, bir şeyi itirənin onu tapdıqda və susuz şəxsin su tapan zaman duyduğu sevincdən çoxdur". Övladı dünyaya gəlməyən insan övladı dünyaya gələndə necə sevinir? Rəbbimiz də biz tövbə edəndə bundan qat-qat çox sevinir.

## Tövbəkarın nişanələri və günahını etiraf edən günahkar

**Əziz Peyğəmbərimiz (s) tövbə etmiş şəxsin nişanələrini verir:** "Tövbə etmiş şəxsin dörd nişanəsi var: əməli yalnız Allaha görə xalisləşdirmək, batili tərk etmək, haqqa bağlı olmaq və yaxşılığa hərislik".

**İmam Əlidən (ə) nəql edirlər:** "Öz günahını etiraf edən günahkar, öz əməli ilə öyünən itaətkardan daha yaxşıdır". Öz əməli ilə, itaəti ilə öyünən, "mən namaz qılıram", "mən oruc tuturam", "mən filan yerdə filan cür etdim" kimi iddialarla öyünən insandan, öz günahını etiraf edən günahkar daha yaxşıdır. Allah-Təala bizlərə öz günahlarımızı etiraf etmək səadətini nəsib etsin və öz əməllərimizlə öyünmək mərəzindən də bizləri xilas etsin, inşəallah.

**İmam Baqirdən (ə) nəql edirlər:** "Vallah, Allah-Təala insanlardan yalnız iki şey - nemətlərini daha da artırması üçün onlara görə şükür etmələrini və günahlarını bağışlamaq üçün günahlarını etiraf etmələrini istəyib". Allah nemət əta edib, gərək bunun şükrünü edəsən. Nemətə şükür etmək - o nemətlə şükür halında rəftar etmək deməkdir. Yəni o neməti o yerdə xərcləməlisən ki, orada sərf etməlisən ki, o cür onunla rəftar etməlisən ki, Allah o cür istəyir və onu sənə o cür işlətmək etmək üçün əta edib əslində.

## Tövbəni gecikdirmək

**Tövbəni gecikdirənlərlə bağlı İmam Əlidən (ə) belə nəql edirlər:** "Tövbə işini sabaha saxlayan şəxs, ölümün hücumu ilə böyük təhlükə qarşısındadır". İnsan hər an ölə bilər. Əcəli müəyyən etmək insanın əlində deyil ki... Biri namaz qılmır, amma deyir ki, başlayaram. Amma ölüm vəfa etmir və ölüb gedir. Biri başqa vacibatları yerinə yetirmir, deyir ki, vaxtı gələndə edərəm, amma ölüm gəlib çatır və heç nə edə bilmir. Əcəl qədər məchul olan ikinci bir şey varmı?! Nə vaxt gedəcəyini bilmirsənsə, deməli, elə indi də gedə bilərsən. Bu, həm namazı başlamayanlara aiddir, həm Allahın başqa vacibatlarını yerinə yetirməyənlərə aiddir, həm də namaz qılıb, başqa vacibatları yerinə yetirib, amma Allah dərgahında səmimi qəlblə öz münasibətini düzəltməyən, tövbə halında olmayan hər bir kəsə aiddir. Hərəyə öz dərəcəsində aiddir. Allah bizləri tövbələrini gecikdirənlər etməsin, inşəallah.

## Günahın yaxşılığa çevrilməsi

**Yekun olaraq bu mövzuda İmam Sadiqdən (ə) nəql olunan hədisə də toxunaq:** "Allah-Təala Davud Peyğəmbərə (ə) vəhy etdi: "Ey Davud, mömin bəndəm günah etsə və sonra həmin günahdan üz döndərərək, tövbə etsə və onu xatırlayan zaman Məndən həya etsə, onu bağışlayar, həmin günahı əməlləri qoruyub saxlayan mələklərin yadından çıxarar və onu yaxşılığa çevirərəm. Mənim bu işdən heç bir çəkinəcəyim yoxdur. Çünki Mən - mehribanların ən mehribanıyam"". Rəbbimiz belə bir Rəbdir. Bəndə günah iş görür, səhv edir, qələt edir, amma Allah onu günahını etraf etmək şərtilə bağışlayır. Əgər peşman olub, Allahın dərgahında günahı etiraf edirsənsə, həmin günah yadına düşəndə Allahdan həya edib utanırsansa, ilk növbədə Allah Təala səni bağışlayacaq, ikincisi, mələklərin yaddaşından siləcək, üçüncüsü, həmin günahı yaxşı əməllərə çevirər hətta. Allahdan diləyirik ki, bizə bu ayda tövbə etməyi nəsib etsin inşallah.

**Allahım, bu bağışlanma və mərhəmət ayında insan şəklinə düşməyi nəsib et.**

**Allahım, bizlərə bu ayda bağışlamağı nəsib et.**

**Allahım, bizə bu ayda gözlərimiz, dillərimiz və qulaqlarımızın oruc tutmasını nəsib et.**

**Allahım, bu ayda düşüncələrimizin, təfəkkürümüzün oruc tutmasını nəsib et.**

**Allahım, həyatımızın hər çalarında Sənin mərkəzi yer tutmağını nəsib et.**

**Allahım, bizi qəflətdən oyat.**

**Allahım, bizə bu gündə qəflətdən nicat tapmağı, sənsizlikdən uzaq düşməyi, Səninlə olmağı nəsib et.**

**Allahım, səni daim xatırlamağı bizlərə nəsib et.**

**Allahım, zikrinin şirinliyini bizə dadızdır.**

**Allahım, səhv edərkən tövbə etməyi bizlərə nəsib et,**

**Allahım, bizə səhvlərimizi xatırlayanda Səndən həya etməyi nəsib et.**

**Allahım, bizi günahlarımızı etiraf edənlərdən qərar ver.**

**Allahım, Zəmanə Sahibinin (ə.f) zühurunu təcil et və bizi onun (ə.f) zühurunu tezləşdirənlərdən qərar ver, inşəallah. Amin!**




Braziliyada keçirilən XX dünya çempionatının ən həyəcanlı mərhələsi də gəlib çatdı. 32 komandadan indi yalnız 8-i dünya kuboku uğrunda mübarizəni davam etdirir. İki günlük fasilədən sonra iyunun 4-də Bakı vaxtilə saat 21:00-da 1 /4 finalın ilk oyununda Fransa-Almaniya milliləri qarşı-qarşıya gələcəklər. İyunun 5-nə keçən gecə isə saat 01:00-da meydan sahibləri Braziliya millisi Kolumbiya ilə qarşılaşacaq. Buna Cənubi Amerika derbisi də demək olar...

**"Mundialın 1/4 finalında Fransa Almaniyaya, ev sahibləri isə Kolumbiya millisinə rəqib olacaq; bu oyunda kolumbiyalılar əstəğfürullah, İsa Məsihə belə güzəştə gedənə oxşamırlar...**




# Braziliyanın rəngi bu gecə sarala bilər

***

Fransa bu çempionatda ən stabil oyun göstərən komandadır. Qrup mərhələsində 7 xal toplayan Fransa millisi rəqib qapılarından 7 top keçirərək məhsuldar oyun nümayiş etdirib. Amma zəif Nigeriya ilə 1/8 finalda qələbəyə baxmayaraq (2:0) Didye Deşamın komandası o qədərdə inamlı təsir bağışlamadı. Elə Almaniyada Əlcəzair baryerini o qədərdə asan keçmədi.

Fransa və Almaniya yığmalarının 2013-cü ilin fevralında Sen-Denidə keçirilən son yoldaşlıq görüşündə almanlar qalib gəlsələr (2:1) də, son 25 ildə bu komandaların rəqabətində fransızların aşkar üstünlüyü var: 7 oyun, 5 qələbə, 1 heç-heçə və 1 məğlubiyyət. İndiyə kimi 25 dəfə qarşılaşan rəqiblər 3 dəfə də dünya çempionatlarında qüvvələrini sınayıblar. DÇ-1958-də 3-cü yer uğrunda oyunda 6:3 hesabıyla qalib gələn fransızlar DÇ-1982 və DÇ-1986-nın yarımfinalında isə məğlub olublar: əvvəlcə penaltilər seriyasında 4:5 (əsas və əlavə vaxt - 3:3), dörd il sonra isə 0:2.

Almaniya millisinin qapıçısı Manuel Noyer Fransa ilə oyunöncəsi fikirlərini bölüşüb. Təcrübəli qolkiper Fransanın mundialın ən sabit komandası olduğunu bildirib: "Əlcəzairlə görüşdə əlavə 30 dəqiqə oynamalı olduq. Fransanın Nigeriyanı 90 dəqiqə ərzində 2:0 hesabı ilə məğlub etdiyini düşünündə, narahat olmaya bilmirsən. Fransa dünya çempionatının ən sabit komandasıdır. Bu görüşdə meydana çıxacaq 11 futbolçumuz oyuna tam hazır olmalıdır". Fransa - Almaniya görüşünü isə argentinalı Nestor Pitan idarə edəcək.

Fikrimizcə, bu oyunda komandaların şansları bərabərdir.





***

Braziliyanın bu mundialda öz gücündən aşağı oyun nümayiş etdirdiyi barədə tənqidlərin nə dərəcədə əsaslı olduğunu ev sahiblərinin 1/8 final mərhələsində Çili ilə oyunu bir daha təsdiqlədi. 120 dəqiqəlik mübarizədə Braziliya ənənəvi olaraq qalib gəldiyi Çili millisindən üstün oyun göstərmədi. Penaltilər seriyasında da meydan sahibləri yalnız qapıçı Julio Sezarın rəqibin iki futbolçusunun zərbəsini dəf etməsi sayəsində qalib gələ bildi. Braziliya 1/4 finala "sürünə-sürənə" gəldi və bu oyunla burdan o tərəfə getmək indi daha çətindir. İş penaltilərə qalsa belə...

Braziliyalıların təcrübəli baş məşqçisi Skolarini başa düşmək olar. Onun məsuliyyəti bu çempionatda digər komandaların baş məşqçilərindən ikiqat daha ağırdır. Çili üzərində qələbənin qiymətini onun Neymara sarılaraq ağlaması da göstərdi. Bəli, Çili sıradan bir komanda deyildi. Bu, Skolarinin də etiraf etdiyi kimi "çox yaxşı futbolçulardan təşkil olunmuş, topla əla davranan komandadır". Bəs, Braziliya?

Skolari hələ ilk oyunda Xorvatiya millisinə çətin qələbədən(2:1) sonra da tənqidlərə rəğmən "səhvlərdən nəticə çıxaracaqlarını" demişdi. O, eyni sözləri Çili ilə oyundan sonra keçirilən mətbuat konfransında da dedi: "Səhvləri analiz edəcəyik..."

Çili yığması ilə 120 dəqiqəlik bərbad oyunla "Skolari hələ bütün kartları açmayıb" düşünənləri də məyus etdi. İndi birmənalı demək olar ki, Braziliyadan artığını gözləməyə dəyməz, komandanın oyunu nədirsə elə budur. Burdan o tərəfə isə...

Daniel Alveş, Tiaqo Silva, David Luiz, Marselo, Paulinyo, Oskar, Luis Qustavo, Halk, Fred və Neymar...Heyətə söz demək mümkün deyil, amma komanda... Bu komandanın adı məsələn, Haiti olsaydı, bu oyunlarla mundialın "əjdahası" adlanardı. Amma bu axı Braziliyadır. B-ra-zi-li-ya!

Braziliya millisinin həmişə bəxti ulduz oyunçu sarıdan gətirib. Pele, Sokrates, Ziko... Komandada ulduz oyunçu komandanın yarısı, canı deməkdir. Braziliyanın heyətində bu dəfə bir lider var: Neymar.

22 yaşlı bu hücumçunun Kolumbiya ilə oyuna çıxmayacağı ilə bağlı xəbərlər təsdiqlənməyib. Komandanın həkimi deyib ki, gənc hücumçu məşqlərə başlayıb və onun Çili ilə oyunda aldığı zədə ciddi deyil. Xatırladaq ki, Braziliyanın qələbəsi rəsmiləşdikdən sonra Neymar meydançada ağlamışdı. O, çətin qələbəyə çox sevindiyini, amma belində də kəskin ağrılar olduğunu demişdi. Neymarın meydanda olmaması Braziliyanın rəngini daha da "saraldardı". Bəxtləri gətirib...

Bu mundialda sensasion şəkildə çempionluq iddiasını ortaya qoyan və gözəl oyun nümayiş etdirən Kolumbiya millisi ən yaxşı sözləri haqq edir. Qrupda maksimum xal toplayan(3 oyunda 3 qələbə) və rəqib qapısından 9 top keçirərək yalnız Almaniyadan geri qalan(10) Kolumbiya millisi bu mundialda çempionluğa üç ən layiq komanda sıralamasında bu sətirlərin müəllifinin fikrincə, birincidir. Kolumbiyanın oyununda müasir futbolun tələb etdiyi hər şey var: komanda, sürət, texnika və qol!

Kolumbiyanın sıradan komanda olmadığı mundialdan əvvəl də məlum idi. FİFA-nın son reytinq cədvəlində Kolumbiya 8-ci pillədə qərarlaşıb. Braziliyadan 5 pillə aşağıda. Amma bu oyunda kolumbiyalılar əstəğfürullah, İsa Məsihə belə güzəştə gedənə oxşamırlar...Onlar bu gecə Braziliyanı mundialın medalından kənarda qoysalar qarşılarını almaq çox çətin olacaq.

Statistikaya diqqət yetirdikdə Braziliyanın aşkar üstünlüyü var. Braziliya və Kolumbiya milli komandalarının bundan əvvəlki 25 görüşündən dördü son 10 ildə baş tutub və hamısı heç-heçə yekunlaşıb, o cümlədən ilk üçü 0:0 hesabıyla. Rəqiblər sonuncu dəfə 2012-ci ilin noyabrında Nyu-Yorkda 1:1 hesablı bərabərliklə ayrılıblar. Ümumiyyətlə, Kolumbiya tarixi ərzində yalnız iki dəfə Braziliyaya qalib gəlib: 1985-ci ildə 1:0, 1991-ci ildə isə 2:0 hesabıyla. 1957-ci ildə Cənubi Amerika çempionatının final mərhələsində Braziliya kolumbiyalıların qapısında 9 cavabsız top keçirib. Bu oyunlarda ümumilikdə Braziliya Kolumbiya millisin qapısında 76 top keçirib, 25 top isə buraxıb.

Radamel Falkaonun zədə səbəbindən mundiala gələ bilməməsi Kolumbiya millisi üçün ciddi itki oldu. Amma 22 yaşlı Ceyms Rodriqes Falkaonun yoxluğunu unutdurdu.

Ceyms Rodriqes bu çempionatın son nəticəsindən asılı olmayaraq, ən yaxşı oyunçusu olmağa layiqdir. O, hazırda Kolumbiya futbolunun bəlkə də ən istedadlı oyunçusudur. Təsadüfi deyil ki, vətənində onu Kolumbiyanın yeni Valderraması da adlandırırlar. Ceyms Rodriqes mundialda oynadığı 4 qarşılaşmada 5 qol və 4 məhsuldar ötürməylə yadda qalıb. 22 yaşlı bombardir Uruqvayla oyunda 2 top vuraraq komandasının növbəti mərhələyə vəsiqəsinin təmin etdi. Rodriqesdən başqa hücum xətti Teofilo Quterres, Xuan Kuadrado, Viktor İbarbo, Xuan Kamilo Suniqa, Adrian Ramos və Karlos Bakka kimi oyunçular da var ki, onlar istənilən rəqibin qapısına yol tapa bilərlər.

Kolumbiyanın baş məşqçi Xose Pekermanı Braziliya çempionatından əvvəl müdafiə futboluna üstünlük verdiyi üçün çox tənqid edirdilər. Bu iradları komandanın mundial ərəfəsində keçirdiyi üç yoldaşlıq görüşünün 2-sində qeydə alınan heç-heçə də təsdiqləyirdi. Amma Pekerman mundiala sanki başqa komanda gətiribmiş kimi hücum taktikasını seçdi və nəticə göz qabağındadır. Yeri gəlmişkən, Kolumbiya 1/8 finalın taleyini əsas vaxtda həll edən iki komandadan biri(Fransa da Nigeriyaya əsas vaxtda qalib gəlmişdi) oldu.

Bukmeykerlər bu oyunda Braziliyanı üstün görürlər. Amma niyə? Yəqin ki əsasən Braziliyanın ev sahibi olduğu səbəbindən. Amma Kolumbiyada bu mundialda ev sahibi hesab olna bilər. Bu ölkələrin elə şəhərləri var ki, evin divarının o biri üzü ya Braziliya, ya da Kolumbiyadır...Qeyd edək ki, Braziliya - Kolumbiya matçını ispaniyalı Karlos Velasko idarə edəcək.

Mundialin taleyi üçün çox mühüm bir oyun olacaq. Cənubi Amerika derbisi.

**Bəlkə də bu gün uduzan evdə qaldı...**

**❑ Orxan ƏLİYEV**






# YENİ MÜSAVAT

## Son səhifə

N 170 (5879) 4 iyul 2014


# Cinayətkarlıqdan manikenliyə keçdi

Amerikada terrorçu qruplaşma üzvü olduğu və silah gəzdirdiyi üçün həbs edilən şəxsin şəkli polis şöbəsinin internet saytında yayımlandıqdan sonra populyarlaşıb. Ceremi Meeks adlı məhkum Los-Ancelesdəki Blaze Models adlı manikenlik şirkəti ilə 30 min dollarlıq sövdələşmə imzalayıb. İlk dəfə polis şöbəsinin rəisinin facebook profilində yayımlanan şəkil bu günə qədər 100 min nəfər tərəfindən bəyənilib, 12 min 800 nəfər tərəfindən paylaşılıb və şəklə 26 min 500 nəfər şərh yazıb. Meeks həbsxanadan çıxdıqdan sonra maniken olaraq çalı-





## Ramazanda nələr yeyilməlidir?

Türkiyəli dietoloq Əsma Birkol daha sağlam və rahat oruc tutmaq üçün nələrin edilməli olduğunu açıqlayıb. O, Ramazan ayında mədə problemləri yaşamamaq və daha rahat oruc tutmaq üçün bir sıra məsləhətlər verib: "Bir çox insanlar gecə imsaka durmadan oruc tuturlar. Amma bu orqanizm üçün bir sıra problemlər yaradır. Ramazanda onsuz da uzun olan aclıq gecə sahurda (imsak) yemək yeyilmədikdə, daha da uzanır və halsızlıq, təzyiq, hipoqlikemiya (şəkərin aşağı düşməsi) və s. kimi problemlər əmələ gətirir. Bu səbəbdən mütləq şəkildə sahurda yemək yeyilməlidir. Amma sahurda ağır yeməklərdən qaçmaq lazımdır. Gecə orqanizmdə maddələr mübadiləsi yavaş getdiyindən orqanizmin yağlanma sürəti artır və çəkinin artması baş verir. Buna görə də sahurda qızartma kimi çox yağlı və xəmirdən hazırlanmış məhsullardan istifadə etməmək məsləhətdir. Tərkibində zülal daha çox olan yumurta, süd, qatıq, pendir kimi ağartı məhsullarından ibarət səhər yeməyi yemək daha üstündür. Bu qidalar mədənin boş qalma vaxtını uzatdığı üçün aclıq hissini gecikdirir. Sahurda meyvə və tərəvəzlərdən istifadə etmək olar. İtirilmiş enerjini bərpa etmək üçün şərbətli məhsullardan istifadə etmək düzgün seçim deyil. Südlü və ya meyvəli yüngül tərkibli şirniyyatlar yeyilməlidir. Çay, kofe kimi kofein tərkibli və eləcə də, qazlı içkilərin çox qəbul edilməsi yuxusuzluq əmələ gətirir, həzm və ürək problemləri yaradır".

# Rəssamın yatağı 4 milyona satıldı

Dünyanın ən məşhur hərrac evlərindən biri daha bir qeyri-adi satışın şahidi olub. Belə ki, britaniyalı rəssamın dağınıq formada olan yatağı özünə yeni alıcı tapıb. Yığılmamış yatağın qiyməti isə nə az, nə çox - düz 2,4 milyon funt sterlinq (təqribən 4,3 milyon dollar) olub. Treysi Eminin yatağı "Christie's" hərrac evində satışa çıxarılıb. Rəssam yatağının ətrafını əsl zibilliyə çevirib. Belə ki, dağınıq formadakı yatağın ətrafında kağız, butulka, siqaret kötükləri və sairə var. Rəssamın "Mənim yatağım" adlandırdığı "əl işi" 1998-ci ildə yaradılıb. Onun sözlərinə görə, bu əsər ayrılıqdan sonrakı vəziyyəti əks etdirir. "O zaman mən çox sevdiyim bir adamla ayrılıq ərəfəsində idim. Dörd gün yataqdan çıxmamışdım".

"Mənim yatağım" ilk dəfə 2000-ci ildə satılıb. O zaman bu işə 150 min funt sterlinq qiymət qoyulmuşdu. İlkin olaraq 51 yaşlı rəssamın yatağı 650 min funt sterlinq dəyərində qiymətləndirilib. Lakin "White Cube" qalereyasının yaradıcısı olan Cey Coplinq ona iki dəfə artıq pul ödəyibmiş.





## Uyğurda oruc tutmaq qadağan edildi

Çinin Sincan Uyğur Özərk bölgəsində dövlət işçilərinin, şagirdlərin və müəllimlərin oruc tutması qadağan edilib. Uyğur bölgəsində bəzi dövlət qurumlarında da oruc qadağan edilib. Hökumət orqanları internetdə elan yayımlayaraq dövlət işçiləri, şagirdlər və tələbələrin oruc tuta, digər dini ayinlərdə iştirak edə bilməyəcəklərini açıqlayıblar. Çinin bəzi bölgələrində isə partiya üzvlərinin və gənclərin Ramazan fəaliyyətlərində iştirak etməsi qadağan edilib. Qəzetlərdə yayılan məlumatlara görə, bəzi şirkətlər xalqa gün ərzində pulsuz yeməklər verməyə başlayıblar.

Məlumat üçün bildirək ki, ölkədə son bir il ərzində 200 nəfər öldürülüb. Ölkə rəhbərliyi insanların ölümündə terror təşkilatlarını günahkar görür. Onların fikrincə, terroristlər radikal İslam partiyalarının üzvləridir. Məhz bu səbəbdən də İslamın ölkədə güclənməsinin qarşısını almağa çalışırlar.




**QOÇ** - Mübarək günlərə təsadüf edən bu təqvimdə bacardığınız qədər savab işlər görün. Ətrafınızda olanların rəğbətini qazanmaq gün ərzində başlıca vəzifənizə çevrilməlidir. Hər hansı səfər uğurlu deyil.

**BUĞA** - İxtiyarınızda olan bu gözəl təqvimdə falçı və ya cadugərlərə üz tutmaqdansa Allaha xoş gedən addımlar atın. Ulduzlar bu gün maddi irəliləyişlə bahəm, maraqlı tanışlıqlardan da xəbər verir.

**ƏKİZLƏR** - Əsas gücünüzü sevgi amilinə yönəldin. Çünki qarşı tərəflə aranızda ciddi anlaşılmazlıqlar var. Ulduzlar səmimi və mehriban olmağı tövsiyə edir. Uzaq səfərə hazırlaşmağa dəyər.

**XƏRÇƏNG** - Göy qübbəsi nahara qədər müəyyən gərginliklə üzləşəcəyinizi bildirir. Yaxşı olar ki, həmin vaxt təmkin göstərib adi işlərlə məşğul olasınız. Sonrakı ərəfə isə çox uğurludur.

**ŞİR** - Ailə-sevgi münasibətlərində olan gərginlik tədricən qaydasına düşəcək. Artıq ünsiyyətdə olduğunuz hər kəs sizi anlamağa başlayacaq. Fəaliyyət zəminində riskli və təhlükəli addım atmayın.

**QIZ** - Xarakterinizə münasib olmayan mənfi enerjili Ay 14:42-yə qədər bürcünüzdə qərar tutsa da, bu gün sizə əlavə enerji verəcək. İstənilən söhbətdə ədalət prinsiplərini qoruyun. Axşama doğru şübhəli qidalardan qaçın.

**TƏRƏZİ** - Yarımçıq işlərinizi yekunlaşdırmaq üçün daxili potensialınız artacaq. Bu istiqamətdə sizə dəstək verənlər də olacaq. Heç də hamıya şübhə ilə yanaşmayın. Şəxsi büdcənizi qoruyun.

**ƏQRƏB** - İradənizə hakim kəsilib dinə zidd hərəkətlərə yol verməyin. Bununla siz ürəyinizdə olan saf arzularınızın gerçəkləşməsini sürətləndirə bilərsiniz. Nahardan sonra səfərə çıxmaq olar.

**OXATAN** - Fəaliyyət müstəvisində çox uğurlu vaxtdır. Aldığınız hər bir təklifə müsbət yanaşın. Bütün mənbələr maddi durumunuzda irəliləyişlər olacağını göstərir. Münasibətlərə fikir verin.

**OĞLAQ** - Proqnozlara görə bu gün hava çox isti olacaq. Bu səbəbdən də günün ilk yarısını daha çox istirahətə həsr etməlisiniz. Sonrakı müddətdə isə iyul planlarınızı bir daha götür-qoy edin.

**SUTÖKƏN** - Başqalarının şəxsi işinə qarışmaq, dedi-qoduya əhəmiyyət vermək, riskli pul yatırımları etmək sizi təhlükəyə ata bilər. Ulduzlar fəaliyyətdə və ünsiyyətdə hər şeyin ürəyinizcə olacağını bildirir.

**BALIQLAR** - Yaxşı olar ki, bu gün kiməsə yalan vədlər verməyəsiniz. Günün ikinci yarısında sizə ehtiyacı olan yaxınlarınıza baş çəkməyə çalışın. Büdcənizdə artım da gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# İki sevda çəkən ingilisə unikal cəza




İngiltərədə baş verən hadisə ölkə mediasının ən önəmli mövzularından birinə çevrilib. İki qadınla eyni vaxtda görüşən kişi bir anda biabır olub. Stevan Frazer adlı kiş tərəfindən aldadıldıqlarını anlayan qadınlar ondan intiqam almağa qərar veriblər. Onlar S.Frezerin körpü üzərindən böyük bir rəsmini asıblar. Hər gün minlərlə adamın gördüyü afişada qadınların şəkilləri də yerləşdirilib. Şəkillərin üzərinə isə "hər iki sevgilin aldadıldığını bilir" deyə yazılıb. Xəyalları yıxılan qadınlar kişini biabır edərək ondan intiqamını alıblar. Məsələnin maraqlı tərəfi ondan ibarətdir ki, qadınları ortaq tərəfi yalnız sevgililərin eyni adam olması deyil. Onlar həm də ekiz qədər bir-birilərinə bənzəyirlər.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 6.350

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014

# Xalqın və İlham Əliyevin Tovuzdakı düşmənləri



## Məmurlar vətəndaşları öz dövlətindən, həmçinin prezidentdən küsdürür; dastanlardakı zalım padşahların prototipləri xalqı su ilə imtahana çəkir; rayonlardakı vəzifə sahiblərinin tamahı və allahsızlığı görünməmiş həddə çatır

**Tovuza gəlməyimizin səbəbi sırf istirahətlə bağlıydı. Doğulduğumuz rayonda, kənddə bir neçə gün dincəlib yeni enerji ilə paytaxta dönmək, işimizin üstünə qayıtmaq idi fikrimiz. İnsan anadan olduğu məmləkətdə özünü o qədər rahat və güvənli hiss edir ki... Bunu xüsusi təsvir və qeyd etməyə gərək yoxdu, məncə. Çünki hər bir insana tanış hissdir.**

Azərbaycan o ölkələrdəndir ki, onun hansı guşəsində olursa-olsun, insan özünü tam istirahətə həsr edə bilmir. Mütləq hansısa problemlə üzləşəcəksən. Kimsə qanını qaraldacaq, kobud davranacaq, hesabda səni aldatmağa çalışacaq, nə bilim, xidmət sektorundakı çatışmazlıqdan xəyal qırıqlığına uğrayıb peşman olacaqsan və s.

Öz doğma rayonunda, kəndində isə qayğılar, problemlər adamı daha çox əhatə edir. Çünki yerli insanlarla hər gün təmasda olursan, onların qayğılarını, yaşadıqları problemləri bilavasitə görürsən, yaşayırsan. Hətta uzaqdan belə doğulduğumuz rayonun problemləri adamı məşğul edir; kənddə yaşayan qohum-əqrəba ilə görüşüb-danışanda, hal-əhval tutanda onların hansı çətinliklərin içində olduğundan xəbər tutursan.

### Rusiyanın hesabına ayaqda qalanlar

Tovuz hazırda çox ciddi problemlərlə üz-üzədir. Ən böyük problem isə bütün ölkə üçün xas olan kütləvi işsizlikdir. Tovuzun kəndlərində az qala hər evdən 1-2 nəfər Rusiyaya işləməyə gedib. Bu rayonu, onun əhalisini Rusiyadan göndərilən pullar saxlayır, yoxsa insanlar üçün həyat daha çətin olardı. Əslində SSRİ dövründən belədi. Amma müstəqillikdən sonra Rusiyaya üz tutanların sayı birə on artıb.

### "Simnarxan"lar camaatı da yandırır, əkin-biçini də

Rayon üçün bir başqa problem də sudur. Daha doğrusu, susuzluq. Tovuzun elə bir kəndi yoxdur ki, əhali susuzluqdan əziyyət çəkməsin. Rusiyaya getməyib kənddə qalanlar əllərindəki, ovuclarındakı vəsaiti ümidə büküb torpağa basdırır ki, məhsul götürüb satacaq, problemlərini yoluna qoyacaq. Amma məmurların allahsızlığı, tamahı və şəxsi təsərrüfatları camaatın ümidini də yandırır, əkin-biçinini də. Halbuki təbii qaynaqlar hesabına bu problemi qismən yoluna qoymaq mümkündür. Bir az da yerli məmurlar tamahlarını qıssalar, sıravi insanlar torpaqla dolana bilərlər. Tovuzda əksər məmurun şəxsi təsərrüfatı var. Suvarma suları da əsasən o təsərrüfatlara axıdılır. Bir də rayon rəhbərliyinin doğulduğu kənd və qəsəbəyə...

### "Əjdaha Arif"in yezidliyi

Tovuzluların ən çox narazı olduqları məmurlardan biri də su idarəsinin müdiri Arif İsmayılovdur. O, "Azərsu" ASC-nin Tovuz şöbəsinə rəhbər təyin olunduqdan sonra əhalinin su problemi daha da ağırlaşıb. Tovuzun Yuxarı Öysüzlü kəndinə bir neçə il öncə içməli su xətti çəkilib. 19-cu əsrdə Öysüzlü bəylərinin qazdırdığı kəhrizdən mənbəyini götürən bu su xətti kəndi içməli su ilə təmin edir. Deyilənə görə, sonralar xətdə su azaldığından gözünə çay suyu da qatılıb. Camaat deyir ki, hətta buna da razı olublar, təki həyətlərə su gəlsin. Arif İsmayılov idarəyə müdir təyin edilənə kimi öysüzlülülər bu xətdən normal istifadə ediblər. Onun gəlişindən sonra kəndin yarısından çoxu su üzünə həsrətdi. Kənd əhalisi deyir ki, A.İsmayılov kəndin yuxarı hissəsində yaşayanlardan pul alıb onlara normadan artıq su verilməsinə şərait yaradır. Normativə görə hər evə 15-lik boru ilə su verilir, amma Arif İsmayıl rüşvət müqabilində ana xətdən 32-lik, 40-lıq və hətta 50-lik borularla su çəkilməsinə "icazə" verib. Həmin borularla evlərə çəkilən su ilə də həyətyanı sahələr suvarılır. Bundan başqa, xəttin əksər hissəsi dağılıb, su boşuna axıb gedir. Təmir üçün isə A.İsmayılov heç bir təşəbbüs göstərmir. "Azərsu"dan "Yeni Müsavat"a bildirilib ki, bununla bağlı yerli şöbə heç bir müraciət etməyib, etsə, mütləq xətt təmir olunar.

Su xəttinin balon sisteminə keçməsinə, sayğac quraşdırılmasına da A.İsmayılov mane olur, deyilənə görə. Belə olanda onun qazancı azalacaq.

### Haşiyə: İlyas İsmayılov hardadı?

Öysüzlü camaatı deputat İlyas İsmayılovdan da narazıdır. Deyirlər İ.İsmayılov deputat olduğu 10 ilə yaxın müddətdə bir dəfə də olsun kəndə ayağını basmayıb, camaatla görüş keçirməyib, problemlərlə maraqlanmayıb. Ona edilən bütün müraciətlər isə cavabsız qalır. Camaat "Yeni Müsavat" vasitəsilə İlyas İsmayılovu Öysüzlüyə dəvət edir.

### Paşayevlərin adından edilən dələduzluq

Su idarəsinin müdiri Arif İsmayılov Tovuzda şayiə buraxıb ki, onun arxasında Arif Paşayev dayanır. Bu üzdən də ona heç kim dəyib-toxuna bilməz. Paşayevlərin adından "qoruyucu jilet" kimi istifadə edən A.İsmayılov ölkənin birinci xanımı Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun da adından vaxtaşırı sui-istifadəyə yol verir. Əhalidən qanunsuz yolla pul yığanda deyir ki, bunu Heydər Əliyev Fonduna göndərəcək. Guya fonda aylıq "haqq" ödəyir Arif İsmayılov. Bəzən də deyir ki, mən Oqtay Əsədovun adamıyam. Özünü iri məmurların, nüfuzlu soyad təmsilçilərinin adamı kimi təqdim edən Arif İsmayılov təəssüf ki, xalqın adamı ola bilmir. Tamahı imkan vermir.

Onun bu fantaziyalarına inananlarla yanaşı inanmayanlar da var. İkincilər haqlı olaraq deyirlər ki, bir rayonun idarə müdirini niyə Arif Paşayev, Mehriban Əliyeva, Oqtay Əsədov müdafiə etsin?! Burada məntiq nədir?

Yeri gəlmişkən, Azərbaycanda bu cür dələduzluq geniş yayılıb. Bəzi məmurlar, iş adamları, ayrı-ayrı şəxslər şayiə yayırlar ki, guya hansısa nüfuzlu məmurun, soyad təmsilçilərinin himayəsindədirlər. Hazırda ölkə həbsxanalarında bu fırıldağa görə istintaq altında olan xeyli dələduz var.

Arif İsmayılov uzun illər Tovuzda qaz idarəsinin baş mühəndisi, sonralar isə müdiri olub. Onun su idarəsinə müdir təyin edilməsi də çox maraqlı və ziddiyyətlidir. Qaz təsərrüfatı ilə su təsərrüfatı tam başqa-başqa sahələrdi. Qaz mütəxəssisi necə su idarəsinə müdir təyin oluna bilər, bunu da yerli əhali ciddi şəkildə maraq edir. Yerli əhali deyir ki, bu adam qaz idarəsinə rəhbərlik edəndə də camaata qan uddurub. Belə bir zədəli reputasiyaya malik şəxsin yenidən vəzifəyə təyinat almasında rüşvət amilinin rol oynayıb-oynamadığı da araşdırma mövzusudur.

Deyilənə görə, Arif İsmayılovun bu davranışları, işinə məsuliyyətsiz yanaşması rayon rəhbərliyini ona qarşı bəzi addımlar atmağa vadar edib. Amma hələlik bilinməyən səbəblərdən o, vəzifədə qalmağa davam edir.

### Öysüzlü bəylərinin malikanəsi - dağılan abidə, məhv olan tarix

Yuxarı Öysüzlü təkcə su problemi ilə üz-üzə deyil. Bu kəndin insanları xırda məmurların özbaşınalığından, tamahından əziyyət çəkmir. Öysüzlünün tarixi də məmurların laqeydliyinin qurbanıdır. Bu kənddə 1885-ci ildə (19-cu əsr) tikilmiş iki tarixi bina var - Öysüzlü bəyləri Nəsib bəylə Yusif bəyin (qardaş olublar) malikanələri. Sovet hakimiyyəti illərində o malikanələrdən biri orta məktəb kimi istifadəyə verilib, digəri kənd xəstəxanası olub. 1985-ci ildə Öysüzlüdə o vaxtın standartları ilə modern məktəb binası tikilib. Elə o vaxtdan da bu tarixi bina baxımsız qalıb. Amma digər malikanə hazırda da xəstəxana kimi fəaliyyət göstərir. Onun da tarixi görünüşünə ciddi müdaxilələr olub. Hər iki tarixi abidə dövlətin qorunması altına alınmalı və təmir edilib muzey kimi istifadə edilməlidir. Mədəniyyət və Turizm Nazirliyi yəqin bu yazıdan sonra məsələyə reaksiya verəcək, bu tarixi binaların bərpası istiqamətində ciddi addımlar atacaq.

### Dörd kəndin bir yolu - yolsuzluq

Tovuzun bir neçə kilometrliyində yerləşən Xatınlı, Qaraxanlı, Cilovdarlı və Qədirli kəndləri də susuzluqdan ciddi əziyyət çəkir. Kənddən keçən su kanalı suvarmaya bəs etmir. Əhalinin təsərrüfatı göz baxa-baxa məhv olub gedir. Amma bu kəndlərin əhalisini ən çox narahat edən başqa bir problem də var: yolsuzluq. Yuxarıda adlarını çəkdiyimiz kəndlərə yol SSRİ dövründə çəkilib. Ondan sonra nə təmir edilib, nə də yenidən yol salınıb. Xatınlının girişindən rayon mərkəzinə cəmi 5-6 km-dir. Amma bu qısa yolu qət etmək üçün yarım saat vaxt lazım olur. Bu kəndlərdən ölkə miqyasında tanınan xeyli nüfuzlu və populyar şəxslər çıxıb. Amma insaf naminə onu da deyirlər ki, bu cür layihələr dövlət tərəfindən həyata keçirilməlidir. Hansısa məmurun, iş adamının dövlətin görməli olduğu işə müdaxiləsi doğru olmazdı. Deyilənə görə, Xatınlı-Qaraxanlı-Cilovdarlı-Qədirli yolunun yenidən qurulması və bərpası 2012-ci ilin dövlət büdcəsinə salınıbmış. Yerli sakinlərin sözlərinə görə, hansısa sehrli əl bu işi pozub.

### Tovuzdan milyon qazananlar tovuzlulara sahib çıxmır

Bütün rayonlara xas olan məqam Tovuz üçün də yad deyil. Məmurlar rayonların potensialından yararlanıb yaxşı para qazanırlar. Təbii resurslarından - dağından, çayından, torpağından, meşəsindən, bir sözlə, hər şeyindən istifadə edib milyonçuya çevrilirlər. Amma yerli əhali ilə yadelli işğalçı kimi davranırlar. Sadə vətəndaşa qan uddururlar. Əhaliyə kömək etmələri bir yana dursun, onların öz başlarını dolandırmasına mane olurlar. Kəndlinin suyunu kəsmək onun nəfəsini kəsmək deməkdir. Bizim məmurlar bu allahsızlığı gündəlik həyat normasına çeviriblər.

### Kiçik məmurların prezidentə yaratdıqları böyük problemlər

Hazırda ölkə prezidenti İlham Əliyevin ən böyük düşmənləri rayon icra başçıları, polis rəisləri, idarə müdirləri, bir sözlə, orta və xırda məmur korpusudur. Öz gözlərimlə şahidəm ki, bir su idarəsinin müdiri böyük bir kəndi dövlətdən və prezidentdən necə küsdürə bilir. Yaxud əslən Tovuzdan olan məhkəmə hakimi bir kəndin torpaqlarını işğal edib camaatı əkin və otlaq sahəsiz qoya bilir. Hektarlarla əkin və otlaq sahəsini 99 illik icarə adı ilə yağmalayır. Doğma kəndinin nə xeyir-şərinə yarayır, nə də bu kəndin insanlarının üzləşdiyi problemlərlə maraqlanır.










### Keçmişdəki padşahlar, bəylər xalqcanlı olub, indikilər zalım

Əfsanələrdə, dastan və nağıllarda zalım padşahların prototipləri Azərbaycana və millətə zülm etməklə məşğuldular. Feodal qafalı məmurlar xalqa su vermir, suyun qabağını kəsib insanlara əzab verir. Bundan uduzan isə xalq və dövlətdi. Prezident nazirləri rayonlara əhali ilə görüşlər keçirməyə yollayır. Amma yerlərdəki məmur kontingenti bu siyasəti də darmadağın edir. Xalqı bu acgöz və yırtıcı xislətli məmurlardan xilas etmək lazımdır. Elə hakimiyyət özü də bu məmurlardan təmizlənsə yaxşı olardı...

Keçmişdəki padşahlar, bəylər əslində çox alicənab və xalqcanlı olublar. Məsələn, Öysüzlü bəyləri 100 illər öncə bu kənddə məscid tikiblər, su çəkdiriblər, yol salıblar. İndiki məmurlar isə onların bu xeyirxah əməllərini öz xeyirlərinə istifadə edirlər. Halbuki orta məktəbdə malikanəsində oxuduğumuz bəyləri bizə zalım və ədalətsiz kimi təqdim edirdilər. Yalanla tərbiyə olunan, yalanla böyüyən cəmiyyətin axırı necə olmalıdır ki...

**Axırımız xeyir olsun.**

**❑ Azər AYXAN**
**Tovuz, Yuxarı Öysüzlü**

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014

# Olası müharibədə Naxçıvan cəbhəsi əsas rol oynayacaq

## Ermənilərlə müharibədə Naxçıvan cəbhəsinin əhəmiyyəti barədə Elçibəy iqtidarı və Türk Silahlı Qüvvələri ortaq rəyə və plana malik olublar; təsbitlər indi də aktualdır və hazırlıqlar gedir

**Bir qədər əvvəl mətbuatda Naxçıvan istiqamətində Azərbaycan ordusu və erməni qüvvələri arasında gərginliyin artması haqda məlumat yayıldı. KİV-lərdə gedən iddialara əsasən, Azərbaycan ordusu rəhbərliyinin, Türkiyə Silahlı Qüvvələrinin də qatqısı ilə, Naxçıvanda mövqeləri möhkəmləndirməsi, bir sıra hazırlıqlar görməsi Ermənistanda narahatlıq yaradıb.**

Erməni mediası iddia edir ki, Azərbaycanın bu hazırlıqları hücum xarakterlidir; müharibə ola bilər. Bu məlumatlarla paralel, belə bilgilər də yayıldı ki, Azərbaycan Silahlı Qüvvələri Qarabağ, xüsusilə də Haramıdüzü istiqamətindən müdafiə xarakterli hazırlıqlar aparır. Gələn bilgiləri "ipə" düzəndə, belə bir qənaət hasil olur ki, Azərbaycan, Türkiyənin də dəstəyi ilə, olası hərbi əməliyyatlarda Naxçıvan cəbhəsini xüsusilə möhkəmləndirir; Qarabağ cəbhəsinin də bəzi səmtlərində hücum, bəzi səmtlərində isə müdafiə xarakterli işlər aparır.

Hazırda Azərbaycan ordusunun Ermənistanı çökdürməsi üçün ən ideal müharibə meydanının Naxçıvan olduğu ilə bağlı iddialar yayılıb. Bu iddialara görə, Azərbaycan ordusu məhz Naxçıvandan hərbi əməliyyatları başlatmaqla erməniləri çaşqın vəziyyətə salmaq, qüvvəsini oraya cəlb etmək və Qarabağda sürətli qələbəyə nail olmaqla bağlı plan hazırlayıb. Naxçıvan cəbhəsinin açılması və böyüdülməsi ilə bağlı plan 22 il əvvəl də irəli sürülübmüş. Bizə çatan məlumata görə, həmin vaxt Elçibəy iqtidarı Türkiyə dövləti ilə razılaşdıraraq, Naxçıvandan əməliyyatların başlaması və Zəngəzur ərazisinə doğru Mehri koridorunun açılmasını təmin edəcək plan hazırlayıbmış.

**"Aprelin 12- də mən yenə bu məsələlərlə bağlı Tehranda oldum və prezidentin müraciətlərini İran rəhbərliyinə çatdırdım"**

### Bu planın mahiyyəti nədir və o, niyə baş tutmayıb?

**Savaş planının əsas müəlliflərindən biri, 1993-cü ildə baş nazir vəzifəsində olan Pənah Hüseyn "Yeni Müsavat"ın israrlı suallarına cavab olaraq bəzi məqamlardan danışdı. Sabiq baş nazirin sözlərinə görə, Naxçıvandan əməliyyatların başlaması üçün hələ AXC hakimiyyətindən əvvəl də təkliflər olub:** "Ümumiyyətlə, o dövrdə Qarabağ müharibəsi, Ermənistanın işğalının nəticələrinin aradan qaldırılması üçün istər hərbçilər, istərsə də siyasətçilər tərəfindən müxtəlif layihələr təklif edilib, onların müzakirələri aparılıb. Naxçıvan istiqaməti bu layihələrdə daim yer alırdı. Səbəbi də aydın idi. Bir tərəfdən Naxçıvan blokada vəziyyətində idi; ermənilərin əsas işğal hədəflərindən biri elan edilirdi və bu işğal təhdidi sadəcə bəyanatlarla müşayiət olunmurdu. 1990-cı ildən başlayaraq Naxçıvan şiddətli döyüşlərin getdiyi real müharibə cəbhələrindən biri idi. Naxçıvan blokada vəziyyətində idi və bu blokadanın aradan qaldırılmasının təbii yolu bir çoxlarına Zəngəzurun, Mehri (Meqri) dəhlizinin hərbi yolla azad olunması kimi görünürdü. İndiki terminologiyadan istifadə etsək, hesab edilirdi ki, bu bir növ humanitar əməliyyat kimi dünya tərəfindən başa düşülə bilər. Geosiyasi amillər, daha dəqiqi, Türkiyə amili bu variantı çox cəlbedici edirdi. Hesab edilirdi ki, bir halda ki, Rusiya açıq - aydın Ermənistana kömək edir; bu halda Türkiyənin Azərbaycan tərəfindən problemə müdaxiləsi Naxçıvandan başlaya bilər. Çünki SSRİ və Türkiyə arasındakı Qars müqaviləsinə görə Türkiyə Naxçıvanın təhlükəsizliyi üçün təminatçı idi. Türkiyənin müdaxilə məsələsi elə də xəyal deyildi. Hələ 92- ci ilin yazında MDB Silahlı Qüvvələrinin komandanı marşal Şapoşnikovun "Türkiyə müdaxilə etsə üçüncü dünya müharibəsi başlayacaq", - bəyanatını yada salmaq olar. Digər tərəfdən, bir sıra hərbçilər əsaslandırırdılar ki, sırf hərbi baxımdan yalnız cəbhə xəttinin genişləndirilməsi və əməliyyatların Ermənistan ərazisində keçirilməsi təcavüzkarın qüvvələrinin parçalanmasına, Qarabağdan bəzi qüvvələrin Ermənistana aparılmasına səbəb ola və nəticə etibarı ilə onları sülhə məcbur edə bilər. Siyasi dairələrdə bu cür təsəvvürlərin formalaşmasında daha çox 90- cı illərin sonunda müzakirə edilən və "Qobl planı" kimi tanınan ərazi mübadiləsi ideyasının, yeni Dağlıq Qarabağ və Meqrinin mübadiləsi məsələsinin də rolunu qeyd eləmək lazımdır. Əslində bu ideya hələ, səhv etmirəmsə, problem meydana çıxdığı ilk mərhələdə akademik A. Saxarov tərəfindən səsləndirilmişdi və hansısa formada 92-ci ildə ATƏT xətti ilə danışıqlar zamanı türk nümayəndə heyəti tərəfindən müzakirəyə çıxarılmışdı. Lakin o vaxt Azərbaycanda Qarabağın ərazi mübadiləsi predmeti ola bilməsi fikri özü xəyanət kimi qarşılandığına görə geniş yayılmamışdı. Ancaq Mehri (Meqri) məsələsi ağıllarda vardı. Bu istiqamətdə təxəyyül və təsəvvürlərin real təklif və operativ plan kimi formalaşmasına iki hadisə də mühüm təsir göstərmişdi. Birinci uğurlu Başkənd əməliyyatı idi. İkincisi, 92-ci ilin payızında ermənilərin Zəngilan istiqamətində Ermənistan ərazisindən dəmir yolu xətti boyu hücum edərək, bir neçə kilometr ərazimizə daxil olması və bir sıra yüksəklikləri ələ keçirməsinə cavab olaraq sərhədin fərqli bölgəsindən Ermənistan ərazisinə qarşı döyüş əməliyyatı keçirməsi ideyası idi. O vaxt Ali Baş Komandan Kiyevdə rəsmi səfərdə idi. Müdafiə Naziri Rəhim Qazıyev də onu müşayiət edirdi. Odur ki, Ali Sovetin sədri İsa Qəmbərlə, hərbçilərlə, o cümlədən bölgədəki Azərbaycan hərbi hissələrinin komandanı Dadaş Rzayevlə qısa müzakirə apararaq, Ermənistan ərazisinə genişmiqyaslı zərbə göstərişini mən verməli oldum. Kazimirovun bir neçə dəfə zəngindən sonra təxminən bir saat ərzində Moskvadan Rusiya baş naziri Çernomirdin mənə zəng etdi və onun vasitəsilə Ermənistan prezidenti ilə əlaqə saxlandı; elə həmin gün ermənilər Zəngilandan - tutduqları yüksəkliklərdən qoşunlarını geri çəkdilər. Əlbəttə ki, məsələ elə də sadə deyildi və açığı, bu cür təkliflər əksəriyyətə, əsassız da olmayaraq avantüra, macəra kimi görünürdü. Çünki keçmiş SSRİ-nin 7- ci ordusu, Ermənistanda, Rusiyanın hərbi bazası haqqında danışılan ərazidə - Gümrüdə yerləşirdi".



**Pənah Hüseyn: "Yaranmış hərbi situasiyanı dəyişmək, Naxçıvanla Azərbaycanı birləşdirən Mehri dəhlizinin açılması üçün Naxçıvandan və Zəngilan istiqamətindən hücumun təşkil olunması planlaşdırılırdı"**

**P.Hüseynin sözlərinə görə, Meğri dəhlizinin azad edilməsi məqsədilə Naxçıvan və Zəngilan istiqamətindən eyni zamanda hücum edilməsi məsələsi aktual olaraq gündəmə Kəlbəcərin işğalı zamanı gətirilib:** "Fəlakətli vəziyyət yaranmışdı və Kəlbəcərin işğalından başqa, Gəncə təhlükəyə düşmüşdü. Həttə Ermənilərin rus qoşunlarının köməyi ilə Bakı-Tiflis xəttinə çıxması təhlükəsi vardı. Mart ortalarında Bakı - Ceyhan neft kəməri haqqında İstanbulda dövlətlərarası saziş imzalanmışdı və belə halda bu layihə, bütövlükdə yekunlaşmaqda olan neft müqavilələri təhlükəyə düşürdü. Odur ki, problem ətrafında o vaxta qədər olmayan dərəcədə geosiyasi canlanma və gərginlik yaranmışdı. Vəziyyətdən çıxış yolu kimi biz yuxarıda adıçəkilən planı gündəmə gətirdik. Plan barədə o vaxt Azərbaycanda olmaları gizli olmayan türk hərbi məsləhətçilərinin də məlumatı vardı. Aprelin 7- si və 8- də o vaxt Orta Asiyada səfərdə olan Türkiyə prezidenti Turqut Özalın məşhur bəyanatı səsləndi. O, belə idi: "Əgər türk diviziyaları Ermənistan sərhədində təlimlərə başlasalar və bu zaman mərmilər Ermənistana düşsə nə olar?!"

**"Rusiya baş naziri Çernomirdin mənə zəng etdi və onun vasitəsilə Ermənistan prezidenti ilə əlaqə saxlandı; elə həmin gün ermənilər Zəngilandan - tutduqları yüksəkliklərdən qoşunlarını geri çəkdilər"**

Aprelin 7- 8 də mən Ankarada oldum. Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Doğan Güreş və Qərargah heyəti , Türkiyə baş naziri və digər hökumət nümayəndələri ilə bu məsələlərin konkret müzakirəsi aparıldı. Habelə Turqut Ozalın Orta Asiya səfərini yekunlaşdırıb Bakıya gəlməsi zamanı bu məsələlər prezidentlər arasında müzakirə edildi. Bizim əsas arqumentlərimizdən biri ondan ibarət idi ki, Türkiyənin məsələyə birbaşa müdaxiləsi və bu zaman Rusiya ilə gözlənilən qarşıdurma problemin masştabını daha da genişləndirir və böyük ehtimalla, ciddi regional sarsıntı, genişmiqyaslı müharibə olmadan da məsələnin nizamlanmasına səbəb olardı. Aprelin 12- də mən yenə bu məsələlərlə bağlı Tehranda oldum və prezidentin müraciətlərini İran rəhbərliyinə çatdırdım. O vaxt Naxçıvan əməliyyatı planı hərbi baxımdan reallaşma mərhələsinə keçmədi. Bir çox səbəbləri var... Turqut Özal vəfat etdi.. Heydər Əliyev bu əməliyyata qarşı idi.

"Bütün bunlar hamı üçün gizli idi və çərçivə yalnız Azərbaycan - Türkiyə rəhbərliyi ilə məhdudlaşırdı və hər şey yalnız Türkiyədən asılı idi", - kimi düşünmək əlbəttə ki, sadəlövhlük olardı. Türkiyənin də hesablaşmalı olduğu şərtlər, güclər var ... ... Lakin izsiz də keçmədi. Hadisələrdən bir neçə il sonra Rusiya rəsmilərinin dərc etdirdiyi materiallarda Mehri (Meqri) istiqamətində hücum planı, aparılan müzakirələr haqqında Ermənistan rəhbərliyinin xəbərdar olduqları və ciddi narahatlıq keçirdikləri, Rusiyaya birbaşa müraciətləri barədə informasiyalar vardır. Azərbaycan ordusunun Kəlbəcər istiqamətində və Füzuli istiqamətində qəhrəman müqaviməti ilə yanaşı hücumların dayandırılmasında bu məsələnin də təsirini qeyd etməmək olmaz. Bunun sənədli təsdiqləri vardır. Habelə münaqişə tarixində ilk və son olaraq Türkiyənin vasitəçi kimi iştirak etdiyi yeganə dönəm də həmin dövrə aiddir. Aprelin sonundan başlayaraq ABŞ, Rusiya və Türkiyədən ibarət missiyanın, tarixə üçlü təşəbbüs kimi hazırladıqları, Kəlbəcərin və digər ərazilərin müvafiq olaraq 20 gün ərzində azad olunmasını nəzərdə tutan və iyun qiyamı ilə yarımçıq qalan proses, BMT qətnaməsinin qəbul olunması da bu təsirin nəticələrindən idi.

Əməliyyatların Naxçıvandan başlayacağı ilə bağlı xəbərlərin gündəmə gəlməsi təsadüfi ola bilər. Lakin istənilən halda döyüş əməliyyatlarının başlayacağı halda istisna eləmirəm ki, bu, yalnız Qarabağ cəbhəsi ilə məhdudlaşdırılsın"...

❑ **Kənan RÖVSƏNOĞLU**



# İdentik iddia

Xalid KAZIMLI

**"Hüseyn Çelik iddia edib ki, keçirilən sosioloji sorğular göstərir ki, Rəcəb Tayyib Ərdoğan ilk turda 50 faizdən çox səs toplayacaq və qalib gələcək".**

"Əli Əhmədovun fikrincə, sosioloji sorğuların nəticələri göstərir ki, prezident İlham Əliyev seçkilərin ilk turunda seçicilərin böyük əksəriyyətinin səsini toplayaraq yenidən prezident seçiləcəkdir".

Bu iki iddia arasında yalnız bir neçə kəlməlik fərq var. Türkiyənin hakim partiyasının sözçüsü ilə Azərbaycanın hakim partiyasının təmsilçisinin ritorikası bir-birindən işlədilən sözlərin artıq-əskikliyi ilə fərqlənir, mənası isə birdir. Başqa sözlə, bir niyyət, iki söhbət.

Hər iki ritorika hazırda hakimiyyətdə olan dövlət xadiminin seçkinin **İLK TURUNDA** qalib gələcəyini iddia edir. Sadəcə, birinə seçkidə qalib gəlmək üçün 50+1 faiz səs kifayətdirsə, digərində bu 75 faizdən artıq olmalıdır.

Bizdə hələ müstəqilliyin ilk illərindən 50 faiz səs qaneedici sayılmayıb. Son 22 ildə ölkəmizdə prezident seçilən 4 şəxsin içində yalnız Əbülfəz Elçibəy 50 faizdən bir az artıq seçicinin səsiylə ali dövlət postunda oturmuşdu. Qalanların hamısının qazandığı səs faizi 75-dən çox olub. İlk turda 75 faiz. Vəssalam. Nöqtə.

Avtoritar rejimli bütün ölkələrdə belədir: hakimiyyətdə olan şəxs mütləq seçkilərin birinci turunda qalib gəlməyə məcburdur. İşi şansa buraxmaq olmaz. Kim bilir, seçki ikinci tura qalsa, nə olar, kimlər kimlərlə birləşər və qüvvələr nisbəti necə dəyişər. Ən yaxşısı məsələni ilk turda həll etməkdir - düşüncə budur.

Əlbəttə, diktatura və yarımdemokratik rejimlərdə əldə olan imkanlardan (seçkiyə hiylə qatmaqdan tutmuş inzibati resurslardan, qeyri-bərabər təbliğat üsullarından yararlanmağa qədər) istifadə etməklə 50+1 faiz səsi düzəltmək çətin deyil və günümüzdə bunu müxtəlif ölkələrdə tez-tez tətbiq edirlər.

Ancaq hansı ölkədə avtoritar idarəçilik nə qədər şiddətlidirsə, diktatura nə qədər güclüdürsə, seçilən liderin "qazandığı" (daha dəqiqi, onun adına yazılan) səs faizi o qədər yüksək olur. Bu yüksək səs faizi xalqın liderə rəğbətinin göstəricisi olmalı, onun rəqiblərinə göz dağı verməlidir. Rəqiblər bilməlidirlər ki, "seçilmiş lider" onlardan fərqli olaraq, "xalqın əksəriyyətinin dəstəyi"nə malikdir və ona qalib gəlmək mümkün deyil.

Bununla müqayisədə hansısa liderin qazandığı 50+1 səs faizi sürüşkən görünür. Bu, həm o deməkdir ki, xalqın digər yarısı, 50 faizi bu liderə qarşıdır, həm də siyasi rəqiblərə "bir az artıq səy göstərsək, 1 faiz artıq səs qazanar və hər halda ona qalib gələ bilərik" ümidi yaratmağa qadirdir.

İndilikdə Türkiyədəki hakim partiyanın sözçülərinin durub Ərdoğanın qazanacağı 70-75 faiz səsdən danışmaları absurd görünə bilər. Zatən, Hüseyn Çelikin Ərdoğanın ilk turda qalib gələcəyini iddia etməsi həmin qrafadandır.

Çünki bir neçə ay öncə (martıqn 30-da) keçirilən bələdiyyə seçkiləri göstərdi ki, hakim partiyanın səsi 50 faizə çatmır. Hələ bu səs faizi də AKP-nin ayrı-ayrı nüfuzlu şəxslərinin, xalq arasında olan hörmətləri baş nazirininki ilə identik olmayan, ayrıca yüksək olan məmurların hesabınadır.

Yəni bu, o deməkdir ki, seçkidə hiyləyə əl atılmasa, inzibati resurslardan sui-istifadə edilməsə, halal seçki keçirilsə, Ərdoğan birinci turda seçilməyə bilər. Ən qəribəsi odur ki, seçkilər ikinci tura qalarsa, qüvvələr nisbəti və konsolidasiyası elə dəyişə bilər ki, Ərdoğan ikinci turda ümumiyyətlə, seçilməz.

Hüseyn Çelik və digər sözçülərin baş nazirin ilk turda qalib gələcəyini anons və iddia etməsi Türkiyənin hakim partiyasının niyyətindən xəbər verir. Ərdoğanın komandası nəyin bahasına olursa-olsun, hətta Türkiyənin demokratik imicini zərbə altına qoymaq hesabına olsa da, seçkini ilk turda udmaq istəyəcək.

Zatən, bir neçə nüfuzlu namizədin qatıldığı seçkidən birinin - əlində hakimiyyət olanın öncədən qalib elan edilməsi anti-demokratik hərəkətdir, azad seçim etməyə hazırlaşan xalqın iradəsinə təzyiqdir.

Biz bunu öz ölkəmizdə çox görmüşük. YAP-ın rəhbər şəxsləri seçkilərin nəticələrini öncədən yüzdəyüz dəqiqliklə "proqnozlaşdırmaq" ("bizimki 75 fazi səs alacaq") qabiliyyətlərinə görə fenomendirlər. İndi Türkiyənin AKP-si də YAP gedən yolu gedir.



# Moskva Azərbaycana qorxulu sürpriz edə bilər

**"Azərbaycan son 10 gün ərzində çox ciddi bir sınaq qarşısında idi. Mən həm AŞ PA-nın, həm də ATƏT-in keçirilən toplantılarını nəzərdə tuturam". Politoloq Zəfər Quliyev ATƏT-in Parlament Assambleyasının Bakıda keçirilən toplantısı, burdakı müzakirələr və Rusiya əleyhinə qəbul olunan yekun qətnaməni şərh edərkən bunları söylədi.**

Ekspert rəsmi Bakının üzləşdiyi situasiyanı kifayət qədər ciddi sayır: "Strasburqda keçirilən AŞPA-nın sessiyasında bəlli idi ki, Azərbaycana demokratiya sahəsində ciddi təzyiqlər olacaq. Nəzərə alsaq ki, prezident özü də orda iştirak edib çıxış etmişdi və ciddi suallarla qarşılaşmışdı, Azərbaycan bu sınaqdan nisbətən uğurlu çıxdı. Çünki bütün suallara standart cavab verilmişdi ki, Azərbaycanın heç bir sahədə problemi yoxdur və öz öhdəliklərini yerinə yetirir. Lakin bundan sonra növbəti sessiya - ATƏT-in Parlament Assambleyasının sessiyası - Bakıda keçirildiyinə görə və əvvəlcədən də bəlli idi ki, burada Ukrayna məsələləri ilə bağlı Rusiyaya qarşı ciddi qətnamə qəbul oluna bilər. Bu, Azərbaycan üçün daha ciddi sınaq idi. Gözlənilirdi ki, Azərbaycan bu məsələdə hansısa formada öz mövqeyini pərdələməyə, gizlətməyə çalışacaq. Ona görə ki, BMT Baş Məclisindəki səsvermədən sonra Bakı Moskvanın çox ciddi sərt və neqativ reaksiyası ilə üzləşdi".

**Z.Quliyevin fikrincə, indiki mərhələdə yenidən açıq formada Qərbi bu məsələdə dəstəkləmək rəsmi Bakı üçün çox riskli olardı:** "Bu mənada faktiki olaraq çox uğurlu bəhanə tapıldı. Belə ki, ABŞ-ın təklif etdiyi qətnamədə əsas diqqət Ukrayna-Rusiya münasibətlərinə, Krım məsələsinə verildi. Lakin Qarabağ məsələsi, ümumiyyətlə, bu qətnamədə əksini tapmadı. Bu da Bakıya imkan verdi ki, əsas bu məsələnin bəhanə gətirərək "Qarabağda da Azərbaycanın suverenliyi, ərazi bütövlüyü pozulub, bu məsələyə ikili standartlarla yanaşmaq olmaz" desin. Ona görə də Azərbaycan öz etirazını bildirdi və bu qətnaməni fəal formada dəstəkləmədi. Beləliklə, risklər nisbətən azaldı. Lakin hər halda, Bakı Bəyannaməsi qəbul olunub və tarixə düşüb. Bu bəyannamə Rusiyaya qarşı sərt mövqe əksini tapıb və sammitin yekunu kimi Bakı qrupu da yaradılıb. Bakı qrupunun əsas məqsədi isə Ukraynadakı vəziyyətə nəzarət etmək və Rusiya-Ukrayna münasibətlərindəki problemlərin və Krım məsələsinin hansısa formada həllinə nail olmaqdır. Bu, özü də istər-istəməz Bakını bu hadisələrin içərisində saxlayır, yəni kənarlaşmağa, risklərdən, təhlükələrdən tam canını qurtarmağa imkan vermir. İndiki mərhələdə bu proseslərdən kənarda durmaq rəsmi Bakı üçün çox çətin olacaq. Ona görə ki, Qərblə Rusiya arasında güclənən bu qarşıdurma istər-istəməz Bakını daim seçim qarşısında qoyur".



**Zəfər Quliyev:** "Güclənən Qərb-Rusiya qarşıdurması istər-istəməz Azərbaycanı daim seçim qarşısında qoyur"



**Siyavuş Novruzov:** "Bu sənədin qəbulu Azərbaycanla Rusiya arasında heç bir gərginliyə səbəb ola bilməz"



**Eldar İbrahimov:** "Bildiyimə görə, Azərbaycan Rusiya əleyhinə səsvermədə iştirak etməyib"

Xatırladaq ki, Bakının ev sahibliyi etdiyi ATƏT PA-nın sammitində anti-Rusiya qətnaməsinin qəbul edilməsinə şimal qonşumuzdan sərt təpkilərin veriləcəyi və Moskvanın sürprizlər edəcəyi barədə iddialar səslənir. Düzdür, bu, beynəlxalq tədbirdir və sammitdəki səsvermədə də Bakının ən azı bitərəf qaldığı deyilir. Lakin yenə də Rusiyanın Azərbaycanı bağışlamayacağı barədə fikirlər var. Yeri gəlmişkən, səsvermənin nəticələrinin məxfi saxlanılması da söz-söhbətə səbəb olub.

Sammitdə qəbul olunan Bakı Bəyannaməsində isə ATƏT-ə üzv dövlətlərin sərhədlərinin pozulmamasının və Helsinki Yekun Aktında əksini tapan ərazi bütövlüyü prinsiplərinə əməl edilməsinin vacibliyi vurğulanır. Göründüyü kimi, açıq mətnlə göstərilməsə də, Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanınmasına ciddi işarələr var. Ancaq bəyannamədə Ukrayna böhranına da geniş yer ayrılır və burada kifayət qədər konkret mövqe ifadə olunur.

**"ATƏT Parlament Asambleyasının Rusiyada, Azərbaycan, Gürcüstanda, Baltikyanı ölkələrdə, yaxud Ermənistanda keçirilməsinin fərqi yoxdur. Yəni bu, ATƏT-in toplantısıdır, Azərbaycanın yox. Odur ki, məkanın burda heç bir əhəmiyyəti yoxdur".**

**Bu fikirləri isə YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov bildirdi:** "Yekun qətnamə layihəsi də amerikanlar tərəfindən təqdim olunmuşdu. 5 ölkə əleyhinə, qalanlarsa lehinə olmaqla sənəd qəbul edildi. Bu sənədin qəbulu Azərbaycanla Rusiya arasında heç bir gərginliyə, yaxud münasibətlərin dəyişməsinə səbəb ola bilməz. Rusiya parlamentinin sədri iştirakçılar qarşısında çıxış edib fikirlərini bildirdi, nümayəndə heyəti orda iştirak edirdi. Onların hər biri şahidi oldular ki, hansı dövlətlər Rusiyaya qarşı bu qətnaməni qəbul edib".

**S.Novruzov qeyd etdi ki, NATO PA-nın üzvü olduğundan rəsmi Bakının yekun sənədin lehinə, yoxsa əleyhinə olması ona məlum deyil:** "Bu barədə ATƏT PA-nın üzvlərindən soruşun".

**Milli Məclisin deputatı, ATƏT PA-nın təmsilçisi Eldar İbrahimovun sözlərinə görə, toplantıda Qarabağla bağlı konkret məsələ müzakirə olunmasa da, bura gələn deputatlar Qarabağ məsələsi ilə bağlı məlumatlandırılmışdılar:** "Əgər bura gələnədək onlarda müəyyən tərəddüdlər var idisə, gələndən sonra hər şeyi burada öz gözləri ilə gördülər və mövqelərində ciddi dəyişiklik yarandı. Onlar eyni zamanda Azərbaycanda gedən inkişaf prosesinin də əyani şahidi oldular". **Qarabağ məsələsinin bu sessiyada ciddi qaldırılmamasının səbəbini açıqlayan deputat bildirib ki, bu məsələyə bir az avropasayağı yanaşıblar:** "Buna baxmayaraq, Bakıdakı sessiyada ATƏT regionundakı münaqişələr müzakirə olundu və biz də bu münaqişələr kontekstində Qarabağ problemini qaldırdıq. Amma buna baxmayaraq, ATƏT regionundakı münaqişələrə ikili standart siyasəti özünü bariz formada göstərdi".

**Eldar İbrahimov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, iqtisadiyyat komitəsinin üzvü olduğundan Rusiya əleyhinə amerikan təmsilçinin hazırladığı qətnamə layihəsinə münasibətdə Azərbaycanın hansı mövqedə olmasından dəqiq məlumatlı deyil:** "Amma bildiyimə görə, Azərbaycan Rusiya əleyhinə səsvermədə iştirak etməyib. Bakı Bəyannaməsinə isə Azərbaycan da səs verib". **E.İbrahimov Bakı ilə Moskva arasında problemlərin yaşanacağına inanmır:** "Azərbaycan və Rusiya arasında nə problem olacaq ki?"

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014

# Liviya və Suriya fəlakətlərindən sonra 3-cü batış qapıda!

**Azərbaycanın kürdəsilli oliqarxları təlaş içindədir. Onların İraq Kürdüstanına yatırdıqları sərmayə təhlükə qarşısındadır. Bu sərmayələrə regionda kütləvi terror aktları həyata keçirən İraq Şam İslam Dövləti (İŞİD) böyük təhlükə yaradıb. Bu barədə mötəbər mənbələrdən məlumat daxil olub.**


Bəylər Əyyubov

# Oliqarxlarımızın İraqdakı biznesi təhlükədə - özəl xəbər

## Bəylər Əyyubovun patronajlığı altında olan iş adamları İraq Kürdüstanının hotel və kazino biznesinə, tikinti sektoruna böyük paralar yatırıblar; İraq hökuməti İŞİD-i zərərsizləşdirə bilməsə, azərbaycanlı oliqarxların pulları bata bilər

Mənbənin məlumatına görə, kürdəsilli oliqarxlar, əsasən də prezidentin şəxsi mühafizə xidmətinin rəhbəri Bəylər Əyyubovun patronajlığı altında olan iş adamları İraq Kürdüstanının hotel və kazino biznesinə, eləcə də tikinti sektoruna böyük paralar yatırıblar: "Sərmayələrin əksəriyyəti muxtariyyətin mərkəzi sayılan Ərbilə yatırılıb. Hətta oradakı tikintilərdə çalışmağa da Azərbaycandan böyük bir heyət aparılıb. İndi yaranmış vəziyyətlə əlaqədar həmin sərmayələr təhlükə altındadır. Sərmayələrin həcmi 100 milyon dollar civarında qiymətləndirilir".

Mənbə deyib ki, hazırda Ərbildə sabitlik olsa da, İŞİD-in hədəfindən yayınacağına da təminat yoxdur. Çünki bölgədə şiələr də var. Təxmini hesablamalara görə, muxtariyyət əhalisinin 40 faizini şiələr təşkil edir. Ona görə bölgə terrorçu təşkilatın hədəflərinə daxildir. Əgər İraq hökuməti İŞİD-i zərərsizləşdirə bilməsə, onda azərbaycanlı oliqarxların sərmayə qoyduğu sektorlar darmadağın ola bilər. Hazırda həmin ərazidə digər iri layihələr də dayandırılıb və oliqarxların nümayəndələri ora ezam edilib.

Məlumat üçün deyək ki, İraq Kürdüstanı ölkənin şimalında yerləşir. Muxtariyyətə 3 vilayət - Süleymaniyyə, Ərbil və Dohuk vilayətləri daxildir. Ərazisi 38 min kvadrat kilometr olan muxtariyyətin inzibati mərkəzi Ərbil şəhəridir. Maraqlıdır ki, 1997-ci ildə aparılmış rəsmi siyahıyaalmaya əsasən bölgədə 2,8 milyon nəfər əhali yaşayıb. Cəmi 6 ildən sonra 2003-cü ildə isə bu göstərici təxminən 2 dəfə artıb - 4,6 milyon nəfər. O da maraqlıdır ki, 1997-ci ildə burada şiələr dominantlıq təşkil edib. Ancaq cəmi 6 il sonra nisbət sünni məzhəbinin xeyrinə dəyişib. Təbii ki, bu yalnız sünni məzhəbindən olanların buraya kütləvi şəkildə köçürülməsi hesabına baş verə bilərdi. Görünür, şiələrin burada azlıqda olmasında maraqlı qüvvələr var. Və bu qüvvələrin marağı azlıqda olan şiələri fiziki cəhətdən məhv etməyi qarşısına məqsəd qoyan İŞİD-in marağı ilə uzlaşır. Bu baxımdan da muxtariyyət ərazisinə İŞİD təhlükəsi mövcuddur və bu da azərbaycanlı oliqarxları təşvişə salıb.

Azərbaycandan 48 milyard dollarlıq vəsaitin çıxarılması faktı son 1 ildə dünya və ölkə mediasının gündəmindən düşmür. Ölkə oliqarxlarının qeyri-rəsmi vasitələrlə ölkədən çıxardıqları vəsaitin yatırıldığı ölkələr sırasında öffşor zonalarla yanaşı, ərəb ölkələri də var.

Liviya inqilabı zamanı Azərbaycan iqtidarında təmsil olunan məmur-oliqarxların külli miqdarda sərmayələri batmışdı. Bizim oliqarxların Liviyaya marağı və bu ölkədə biznes qurmaları 2009-cu ildən başlamışdı. Məhz həmin ildə Liviya hökuməti yaxın 10 il üçün ölkədə bütöv yaşayış məntəqələrinin salınmasından tutmuş aeroportlar, məktəblər, xəstəxanalar, hotellər və s. daxil olmaqla, həyati əhəmiyyətli obyektlərin tikintisinə 83 milyard dollara yaxın vəsait xərclənəcəyini elan etmişdi. Bu göstərilən müddət ərzində ölkədə 450 min yeni bina inşa etmək nəzərdə tutulurdu. Habelə kanalizasiya, su kəmərlərinin çəkilişi və digər irimiqyaslı infrastruktur layihələrinə milyardlar xərclənməsi planlaşdırılırdı. Bu tikinti bumu istər ərəb ölkələrindən, istərsə də Rusiya və bəzi Avropa ölkələrindən tikinti şirkətlərinin Liviyaya axınına səbəb olmuşdu. Liviyadakı tikinti bumundan faydalanmaq istəyənlər arasında azərbaycanlı oliqarxlar da yer alırdı. Ancaq Liviya inqilabı bu pulları batırdı.

Azərbaycan oliqarxlarının Suriyadakı biznesi də uğursuzluğa düçar olub. Əsasən ticarət sahəsində olan bu fəaliyyət Suriyadan Azərbaycana, eləcə də Rusiya və MDB-nin başqa ölkələrinə ticarət məhsullarının daşınması və satışını əhatə edib. Eyni zamanda bizə çatan bilgilərə görə, Hələbdə və Suriyanın bir neçə başqa şəhərlərində azərbaycanlı oliqarxların sahib olduğu digər istehsal müəssisələri mövcud olub. Hazırda Hələb şəhəri demək olar ki, xarabalığa çevrilib. Şəhərdəki sənaye müəssisələri dağıdılmış vəziyyətdədir. Azərbaycanlı oliqarxların sərmayələri batıb, bütün obyektləri isə əllərindən çıxıb. İndi oliqarxlarımız eyni aqibətlə İraqda üzləşiblər.

❑ İqtisadiyyat şöbəsi

# ATƏT-in Azərbaycan daimi nümayəndəliyi açıla bilər

## İqtidarın qarşı çıxdığı məsələni müxalifət dəstəkləyir

**Xəbər verildiyi kimi, ATƏT Parlament Assambleyasının Bakıda keçirilən 23-cü sessiyasında qəbul edilən Bəyannamənin 138-ci bəndində Azərbaycanda ATƏT-in daimi nümayəndəliyinin açılması tövsiyə edilib. ATƏT PA-da Azərbaycan nümayəndə heyətinin sədri Bahar Muradova isə buna etiraz edib. O deyib ki, ATƏT-in Azərbaycanda əlaqələndirici ofisi fəaliyyət göstərir və bu bizi qane edir.**


Arif Hacılı

Müxalifət isə ATƏT-in Azərbaycanda daimi nümayəndəliyinin açılmasının tərəfdarıdır. Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ATƏT-in Bakıda daimi nümayəndəliyi var idi. Sadəcə onun bağlanmasına ehtiyac yox idi. Bakı nümayəndəliyinin açılması məsələsinin qaldırılması müsbətdir: "ATƏT-in Varşavada yerləşən Demokratik Təsisatlar və İnsan Haqları büroları Azərbaycanda öz fəaliyyət dairələrini genişləndirməlidir. Bütövlükdə bir sıra aparıcı beynəlxalq təşkilatlar Azərbaycanla bağlı siyasətlərində ciddi yanlışlığa yol verdilər. Onlar Azərbaycanda seçki prosesinin başa çatdığını, artıq Azərbaycan hakimiyyətinin ölkədə normal siyasi proseslərə şərait yaratdığını bəyan edərək Azərbaycanda fəaliyyətlərini dayandırdılar. İstər ATƏT-in Bakı ofisinin, istər ABŞ Milli Demokratiya İnstitutunun Azərbaycan nümayəndəliyinin və digər bir neçə qurumların fəaliyyətinin faktiki olaraq dayandırılması, Soros Fondunun Azərbaycanda fəaliyyətinin dayandırılması, bir sıra digər beynəlxalq qurumların burada fəaliyyət göstərən demokratik təsisatlara dəstəkdən imtina etməsi çox yanlış qərarlar idi".

**A.Hacılı vurğuladı ki, artıq son dövrlərdə beynəlxalq birlik vaxtilə verilmiş bu qərarların yanlış olduğunu dərk edib. AŞPA yenidən Azərbaycan üzrə insan haqları komissarı təyin etmək barədə qərar qəbul edib:** "Təbii ki, təyin olunmuş şəxs heç də bu missiyanın öhdəsindən gələ biləcək şəxs olmasa da qeyd olunan qərarın yenidən qəbul olunması Azərbaycanda siyasi məhbusların olduğunu təsdiqləyən fakt kimi dəyərləndirilməlidir. Eyni zamanda ATƏT-in Bakıda daimi nümayəndəliyinin bərpa olunması məsələsinin ATƏT Parlament Assambleyasının bəyannaməsində qoyulması Azərbaycanda demokratiya, seçki məsələləri ilə bağlı problemlərin ciddiliyinin və ATƏT-in burada fəaliyyətinin zəruriliyinin etirafıdır. Hakimiyyət dairələrini də narahat edən budur".

**Hüquqşünas Erkin Qədrili isə bildirib ki, beynəlxalq təşkilatlar iki cür olur: özəl fondlardan maliyyələşdirilən "Human Rights Watch" təşkilatı kimi QHT-lər və üzvlük haqqı ödəyən dövlətlərarası qurumlar. BMT, ATƏT, Avropa Şurası kimi təşkilatlar siyasi qərarlar qəbul edir, ölkə belə quruma üzv olanda onların qəbul etdiyi qərarları yerinə yetirmək öhdəliyi götürür:** "Bəzən ola bilsin ki, həmin təşkilatın nəzdində məhkəmə sistemi olsun. Bu halda üzv ölkə bu yuridiksiyanı qəbul etməyə bilər. Məsələn, biz BMT-nin üzvüyük, üzvlük haqqı ödəyirik, amma bu qurumun Haaqa Məhkəməsinin yuridiksiyasını öz üzərimizə götürməmişik, ona görə də nə biz orda kimisə məhkəməyə veririk, nə də kimsə bizi Haaqa Məhkəməsinə verə bilər. ATƏT-ə gəlincə, bu qurumun Bakıda ofisinin layihə koordinatorluğuna dəyişməsi öz qərarı idi. Düzdür, Azərbaycan buna israr edirdi, amma yenə də qərarı ATƏT verdi. İndi, görünür, qurum yenidən ofisi bərpa etmək istəyir. Görünən odur ki, Azərbaycan hökuməti bundan narazıdır, amma qərar olsa, əməl etməyə məcbur qalacaq".

❑ E.SEYİDAĞA

# Putin Azərbaycanı Ermənistandan öncə Avrasiya İttifaqına qoşmaq istəyir

## Tanınmış politoloq Ermənistanın qapıda saxlanmasının şok sirrini açdı; Natiq Miri: "Qarabağda hansı ölkənin qoşunları olacaqsa, Qarabağ o ölkənin olacaq..."

**Ermənistanın bu ilin mayında Astanada Rusiya, Qazaxıstan və Belarus tərəfindən təsis olunan Avrasiya İqtisadi İttifaqına iyulun 2-də qoşulacağı elan edilsə də məsələ yenə reallaşmadı. Qazaxıstan xarici işlər naziri Erlan İdrisov bəyan edib ki, Ermənistanın Avrasiya İttifaqına qoşulması barədə müqavilə oktyabrda imzalana bilər. Nazir hətta oktyabrın da dəqiq tarix olmadığını dolayısı ilə ifadə edib.**

Xatırladaq ki, may ayında Ermənistanın "Putin ittifaqı", yaxud "yeni SSRİ" kimi tanınan Avrasiya İqtisadi İttifaqına iyulun 2-də qoşulacağı elan edilmişdi. Astanada Serj Sərkisyan xahiş etmişdi ki, onun ölkəsinin ittifaqa daxil olacağı tarix dəqiqləşsin və rəsmən elan edilsin. Rusiya prezidenti Vladimir Putin də Ermənistanın ittifaqa üzvlüyünün tezliklə baş verəcəyinə ümid etdiyini vurğulamışdı. Ermənistanın Avrasiya İttifaqına üzvlüyünün nəzərdə tutulan vaxtda baş tutmamasının və bu işin payıza təxirə salınmasının səbəbləri rəsmən açıqlanmayıb.


Natiq Miri

**Azərbaycan Milli Strateji Təhqiqatlar Mərkəzinin sədri Natiq Miri isə hesab edir ki, Ermənistanın Avrasiya İttifaqının qapısı ağzında saxlanılması nə Qazaxıstanın, nə də Belarusun siyasi iradəsinin nəticəsi deyil. Bu, birbaşa Rusiyanın istəyinin nəticəsi olaraq ortalığa çıxıb. Bunun isə bilavasitə Azərbaycanla bağlılığı var:** "Qazaxıstan prezidenti Nazarbayevin də Ermənistan qarşısında qoyduğu şərt əvvəlcədən Vladimir Putinlə razılaşdırılmış məsələ kimi görünürdü. Rusiyanın Ermənistanın Avrasiya İttifaqına qəbulunu gecikdirməsində çox ciddi məqsəd var. Rusiya bilir ki, Ermənistanı istənilən an bu quruma daxil etmək asandır. Ermənistan tamamilə Rusiyadan asılı vəziyyətdədir. Rusiyaya hazırda Azərbaycanın Avrasiya İttifaqına daxil olması çox lazımdır. Ona görə də Ermənistandan öncə Azərbaycanın Avrasiya İttifaqına qoşulmasına nail olmaq hədəf götürülüb. Rusiya üçün Azərbaycan daha strateji ölkədir, ona görə də Putin Azərbaycana ən müxtəlif vasitələrlə təsir etməyə çalışır. Azərbaycanın Avrasiya İttifaqına girməsi Rusiyanın gələcəkdə regionda əhəmiyyətli şəkildə güclənməsinə gətirib çıxarda bilər. Eyni zamanda digər Orta Asiya respublikalarının Avrasiya İttifaqına məmnuniyyətlə qoşulmasına rəvac verər. Putin Azərbaycanın strateji əhəmiyyətini çox gözəl anlayır. Digər tərəfdən, Putin Ukrayna itkisini də Azərbaycanla kompensasiya etmək istəyir. Ukraynanın itirildiyi məqamda Azərbaycan Putinə hava-su kimi lazımdır. İndiki şəraitdə Putin Ermənistanı ləngitməklə Azərbaycanı Avrasiya İttifaqına cəlb etmək istəyir. Avrasiya İttifaqına daxil olmamaq üçün Azərbaycanın əlində ən ciddi arqument Ermənistanla bir ittifaqda təmsil olunmağın mümkünsüzlüyüdür. Kreml Ermənistanın Avrasiya İttifaqına daxil olmasını ləngitməklə Azərbaycanın əlindən bu arqumenti almağa çalışır".

**Ekspertin qənaətincə, Kreml Azərbaycanın razılığını almaq üçün Qarabağ kartından və digər təsiredici vasitələrdən yararlanmağa səy edir. Artıq Rusiya mediasında Azərbaycan barədə heç vaxt müşahidə olunmayan dəbdəbəli, tərifli yazılar dərc olunmaqdadır. Rusiya telekanallarında da Azərbaycanla bağlı xoş verilişlər yayınlanmağa başlayıb:** "Hiss olunur ki, Azərbaycan üçün çox ciddi, incə siyasi tələ qurulur. Rusiyanın şirnikləndirici vədlərindən biri Dağlıq Qarabağ ətrafındakı işğal altında olan rayonlardan bir neçəsinin Azərbaycana qaytarılması və bölgədə sülhməramlı adı altında rus qoşunlarını yerləşdirməkdir. Bu, əslində Qarabağın birdəfəlik itirilməsi deməkdir. Bir həqiqəti anlamaq lazımdır ki, Qarabağda hansı ölkənin qoşunları olacaqsa, Qarabağ o ölkənin olacaq. Odur ki, Avrasiya İttifaqına girmək və rus qoşunlarının Qarabağda yerləşdirilməsi ölkəmizə heç nə qazandırmayacaq".

❑ Etibar SEYİDAĞA



# Qlamur ordu

**Zamin HACI**
zaminhaci@mail.ru

**Sağ olsunlar, media qurumlarımız və gülməşəkər jurnalistlərimiz, ekspertlərimiz Müdafiə Nazirliyini, silahlı qüvvələrimizi, generallarımızı pop müğənnilər, baldırı açıq modelyer qızlar kimi bir şeyə çeviriblər. İndi oralardan gələn xəbərlər də "18 plyus" motivində olur, hər cümlədən "şok-şok-şok" etiketi parlayır. Halbuki tam tərsinə olmalı idi, çünki hərb uydurma sevməyən, dəqiqlik, peşəkarlıq tələb edən sahədir. Bir az da qapalı mahiyyətli sahədir.**

Fikir verin, hətta müdafiə nazirinin də geyimləri, salam verəndə əlini papağının harasına qoyması daha çox müzakirə edilməyə başlayıbdır. Yapokratlar Zakir Həsənovun timsalında çox uğurlu kadr siyasəti aparıblar, bunu etiraf edək. Qlamur general kimin ağlına gələrdi? Hətta bir gün o, İbrahim Tatlısəs kimi klip çəkdirsə, təəccüblənmərəm. Üzdən də oxşayırlar. İbrahim bəy də yeri gələndə vurub-tutan oğlan idi, neçə rəqqasəni ayağından güllələmişdi, özü ağır yara alsa belə düşmənə təslim olmamışdı.

Azərbaycan ordusu üçün son illərdə alınan hərbi sursatların, top-tüfəngin siyahısının vaxtaşırı açıqlanması da eynilə "Zaur hər gün efirdə Tolikin qarderobunda" telekanalizasiya verilişi tipindədir. 5 tank almışıq, 6 təyyarə, 7 reaktiv qurğu, bizim hərbi xərclərimiz Ermənistanın dövlət büdcəsindən zad qədər çoxdur, biz bununla şey edəcəyik... Ancaq yenə əsgərimiz öz yoldaşını vurub öldürür. Dəmir parçası ilə. Neyləyək, reaktiv qurğu ilə vurmadığına sevinəkmi?

1992-93-cü illərdə Füzulinin bir kəndində əsgər sevdiyi qızı tankla qaçırtmışdı, camaat bunu danışıb gülürdü. Bəlkə də hərbi gücümüzü o cür praktik məqsədlə, gənclərin ailə səadəti üçün yararlanmaq daha doğru yol idi. Məsələn, çox praktik bir metod təklif edə bilərəm, Sovet dövründə dolu dağıdan toplar var idi, istilik mərmisini buluda atırdılar, nəticədə buz əriyirdi. Bunun nəticəsində kənd təsərrüfatına zərər dəymirdi. İndi bizim Milli Ordunun toplarından dolu dağıtmağa istifadə eləsəydilər günaşırı "Daşkəsəni dolu vurdu, Əhəd Abıyev buzları əlinə yığıb kamera önünə keçdi" tipində xəbərlər eşitməzdik. Yanılmıramsa, "Alazan" mərmisi elə məhz bu dolu dağıtmaq məqsədi üçün istehsal edilirdi.

Yaxud SSRİ-ni lağa qoyurduq ki, tikinti üzrə hərbi qoşunlar - "stroybat" nəyə lazımdır. İndi görünür çox lazım imiş, əsasən də bizim camaat üçün. Zakir Həsənovun rəhbərliyi ilə generalları kartof yığmağa cəlb etsək dövlətimiz udmazmı? Hərbi hissələrdə pomidor, xiyar əkinləri, heyvandarlıq məhsullarının istehsalı da qat-qat faydalı olardı, əsgərlər də bekar qalıb bir-birini öldürməzdi. "Bekarçılıq bütün qəbahətlərin anasıdır" - belə müdrik fikir var.

Azərbaycan son 12 ildə 1000-dən çox raket-artilleriya sistemi alıb. Son günlərin xəbərlərindən biri də bu idi. Sitat: "Rusiyadan 18 ədəd «Msta-S» özüyeriyən haubitsası, 18 ədəd TOS-1A «Solntsepyok» ağır odatanı, 18 ədəd 2S31 «Vena» özüyeriyən haubitsası, 26 ədəd 2S9 «Nona-S» özüyeriyən artilleriyası, 18 ədəd 9A52 «Smerç» reaktiv yaylım atəş sistemi almışıq. Ukraynadan 294 ədəd müxtəlif artilleriya sistemi əldə olunub. 2002-2013-cü illərdə Bakı Ukraynadan 12 ədəd 9 «Smerç» reaktiv yaylım atəş sistemi, 85 ədəd PM-38 minaatanı, 72 ədəd MT-12 topu, 54 ədəd 2S1 «Qvozdika», 16 ədəd 2S3 «Akatsiya» özüyeriyən haubitsalar alıb. İsraildən açıqlanmayan sayda LAR-160, "Lynx Qrad", "Lynx EXTRA", Türkiyədən isə T-107, T-122 "Sakarya" və T-300 "Kasırğa" raket sistemləri alınıb" (APA).

Bu uzun sitatı verməkdə məqsədim var. Elə həmin xəbər çıxan gün mediada başqa bir başlıq da var idi: "Azərbaycan Ermənistana raket atdı". Yuxarıda yazdığım kimi, hansısa modelin sinəsi haqda xəbərə oxşayan bu uydurma xəbəri açıb oxuyanda görürdük ki, sən demə, söhbət... adi siqnal raketindən gedir. Ətrafı işıqlandırmaq üçün olan raketdən. Loru dillə desək, fişəngdən.

O üzdən, orduya "Smerç" raketi-zad almaq mənasızdır, axırda onsuz da fişəng atırıq. Lap yaxşı olar daş, "raqatka" sistemləri *(bazburudlu olsun deyə mütləq sistem də yazılmalıdır)* alaq. Sarkisyanın gözünə lazerlə işıq salaq, şar partladıb qorxudaq, tədbirdə görəndə üstünə tüpürək.



# "Hərənin öz "İhtiyarı" var"

## İqbal Ağazadə: "Güman etmirəm ki, İhsanoğlu Əlirza bəyin tərcih etdiyi namizədlərdəndir"

**Bir neçə gün öncə Ümid Partiyasının sədri İqbal Ağazadənin ABŞ iqtidarına yaxınlığı ilə tanınan Əlirza Bozqurdla görüşü haqqında xəbər vermişdik. Əldə etdiyimiz informasiyaya görə, görüş iyunun 29-da İstanbulda baş tutub. İyulun 3-də İqbal Ağazadə "Yeni Müsavat" qəzetinin qonağı oldu. Həm Azərbaycan gündəmi, həm regiondakı proseslər, həm də dünyanın bugünkü siyasi xəritəsi ilə bağlı geniş söhbət Ümid sədrinin "müthiş türk" adlandırılan Əlirza Bozqurdla görüşünün detalları haqqında suallarla başladı. Müsahibənin birinci hissəsini təqdim edirik.**

***- İqbal bəy, bugünlərdə Türkiyəyə getmişdiz. Birgünlük səfər idi, deyəsən?***

- Yarım günlük.

***- Mən müşahidə etmişəm ildə bir neçə dəfə Türkiyəyə belə qısa səfərləriniz olur. "İhtiyarlarla" görüşəmi gedirsiz?***

- Hər kəsin öz "İhtiyarı" var...

***- Sizinki kimdi?***

- Bizim də dostlar var. Regionu, Güney Qafqazı, dünya siyasətini danışa biləcəyimiz adamlar var. O adamlarla da bəzən görüşlərimiz olur. Bəzən də müxtəlif ölkələrdən gələn insanlar olur. Gedirik, görüşürük, danışırıq.

***- Bu görüşlərin sizə, partiyanıza, regiona faydası olurmu?***

- Hesab edirəm bu görüşlərin mənə də, partiyaya da faydası olur. Yəqin ki, Azərbaycana da faydası var.

***- O görüşlərlə bağlı açıq danışmaq imkanı varmı?***

- Təəssüf ki, yox.

***- Sizin bir dostunuz var. ABŞ onu "müdhiş türk" adlandırır - Əlirza Bozqurd. Onu iqtidarları quran, zamanı gələndə dağıdan biri kimi xarakterizə edirlər. Bugünlərdə biz tamamilə təsadüfən kəşf etdik ki, onunla görüşmüsüz.***

- Bəli, biz Əlirza bəylə görüşdük.

***- Türkiyənin gündəmi ilə bağlı fikirlərini öyrəndinizmi?***

- Təbii, öyrəndim.

***- Müxalifət yeni bir siyasətçi çıxarıb gündəmə - çatı aday Ekmeleddin İhsanoğlu. Əlirza Bozqurdun onunla bağlı fikirləri nədir?***

- Güman etmirəm ki, İhsanoğlu Əlirza bəyin tərcih etdiyi namizədlərdəndir.

***- Yəni iddia edildiyi kimi, İhsanoğlu Əlirza Bozqurdun adamı deyil?***

- Əlirza Bozqurdun seçimi olsaydı, ortada daha çox dini dövlətdən ayrı tutmağa çalışan bir namizəd olardı. Amma Ekmeleddin İhsanoğlunun dinə bağlılığı çox güclüdür. İhsanoğlunun istər elmi fəaliyyəti, istərsə də siyasi-ictimai fəaliyyətinin əsası İslam dini ilə, İslam dünyası ilə bağlıdır. Ona görə hesab etmirəm ki, o, Əlirza bəygilin seçimidir. Ancaq hər halda, Türkiyə cəmiyyəti üçün bu tipli informasiyalar dolaşırsa, bəlkə də bizim də bilmədiyimiz nələrsə var. Ancaq mənim baxışımla görünən budur ki, bu seçim onların deyil.

***- Vaşinqton administrasiyasına yaxın olan bir türkün AKP iqtidarı ilə münasibətləri necədir? Konkret baş nazirlə münasibətləri varmı?***

- Mən bu suallara Əlirza Bozqurdun yerinə cavab verə bilmərəm. Mənə elə gəlir, onlar Türkiyənin daha açıq, daha dünyəvi olmasını, eyni zamanda regionda demokratikləşməyə nümunə ola biləcək ölkəyə çevrilməsini istəyirlər. AKP iqtidarının bu sahədə fəaliyyətini isə yetərli saymırlar. Hər kəs Türkiyənin qanun dövləti olduğunu bilir. Ancaq Türkiyədə şərtlər bir az başqadır.

***- Sizin partiyanın AKP ilə münasibətləri necədir? Ümumiyyətlə, belə bir münasibət varmı?***

- AKP-nin üst düzeyində olan şəxslərlə, o sıradan bir sıra millət vəkilləri ilə münasibətlərimiz var. Bu, illərlə davam edən münasibətlərdi.



## "Əgər iqtidar Rusiyanın yanına gedəcəksə, xalq ayağa qalxacaq"

***- Əlirza Bozqurdun və onun çevrəsindəki insanların, mən ABŞ administrasiyasının mövqeyini dəqiq, zamanında öyrənmək imkanı olan fiqurları nəzərdə tuturam, Azərbaycana, onun siyasətinə, gələcəyinə münasibətləri necədir? İndiki iqtidarla onların ilişkiləri varmı?***

- Azərbaycan hesab edirəm ki, bu gün aşağı-yuxarı strateji anlamda Avropa coğrafiyasındadır. Bütün dəyər və siyasətinə, stratejisinə görə əyər-əskikliklər var. O çatışmazlıqlar Qərbi narahat edir. İnsan haqları sahəsində, Vətəndaş cəmiyyətinin qurulması istiqamətində. Amma Azərbaycan siyasi coğrafiya olaraq Avropanın yanındadır. Bu Qərbi qane etmiş kimi görünür bugünkü mərhələdə. Yenə deyirəm, əyər-əskikliklərin düzəldilməsi istiqamətində davamlı olaraq bəyanatlar, mövqelər səslənsə də bütövlükdə Azərbaycan Qərbin yanındadır. Azərbaycan nə Orta Doğuda yer almır, nə də Rusiyanın cızdığı Avrasiya məkanında. Bu, Qərbi məmnun edir. Bu siyasəti gerçəkləşdirən Azərbaycan iqtidarıdır. Azərbaycan iqtidarının bugünkü siyasətində ümumi problemlər var. Bunu iqtidar özü də bilir, Qərb diplomatiyası da bilir, oradakı hakimiyyətlər də bilir.

***- Niyə islah eləmirlər?***

- Bəzən siyasətdə profilaktikalar olur. Mən hesab edirəm ki, Azərbaycan hakimiyyəti də bir sıra ölkələrdə, o sıradan Ukraynada, Yaxın Şərqdə baş verən hadisələrdə kimlərin önə çıxdığını, hansı şəbəkələrin işləyə biləcəyini, bütün resursları nəzərə alaraq bəzən sərt addımlar atır. İqtidar hesab edir ki, siyasi institutlar və vətəndaş cəmiyyəti institutları nə qədər zəifləsə hakimiyyətinin ömrü bir o qədər uzun olar. Bunu Qərb də zamanında Yaxın Şərqdə gerçəkləşdirib. Yaxın Şərqin bir sıra ölkələrində də bir adam sabitlik yaratmışdı, ancaq sonradan siyasi institutların olmaması ayrı-ayrı dini qrupların, məzhəb qruplarının, bəzi hallarda millətçi qrupların meydana gəlməsinə şərait yaratdı. Bu gün Azərbaycanın Avropa məkanında olması Qərbə ümid verir ki, problemlər çözüləcək.

***- Siz inamla deyirsiz, amma bir çox ekspertlər də deyir, eyni zamanda gələn informasiyalar da təsdiq edir ki, başqa tendensiyalar da var. Məsələn, Rusiya Azərbaycana basqı göstərir, hətta iddialar var ki, Rusiya ilə Azərbaycan arasında Avrasiya ittifaqı ilə bağlı gizli anlaşma da var.***

- Yanlış xəbərlərdir. Azərbaycan iqtisadiyyatının 95 faizi Qərblə birbaşa bağlıdır. Bu iqtisadiyyatın üzünü nədən Rusiyaya çevirsin?

***- Zorla, Ukraynanın durumuna salınmaqla.***

- Gəlin, bir anlıq düşünək. Rusiya heçmi fərqində deyil ki, bu hakimiyyət üzünü Avrasiya İttifaqına çevirəcəyi zaman Qəribin dəstək verə biləcəyi müxalifət Rusiyanı regionda istəməyən xalqla birlikdə Ukrayna modelini gerçəkləşdirə bilər?

***- Xalq olaraq bizə lazımdırmı Ukrayna modeli?***

- Əgər iqtidar Rusiyanın yanına gedəcəksə, xalq ayağa qalxacaq. Bu, birmənalıdır. Bunu Qərb ekspertləri də bilir, yerli ekspertlər də.

***- Kim qaldıracaq o xalqı?***

- Fərqi yoxdur kim, ya müxalifətin hansı kəsimi.

***- Deyirsiz ki, Azərbaycan iqtidarının Rusiya ilə anlaşaraq Avrasiya Birliyinə getməsi kimi bir durum yoxdur?***

- Qətiyyən. Ola bilər, Moskva ilə Bakı bəzi məsələlərdə anlaşsın. Əgər Rusiya ilə anlaşmaya əsasən Azərbaycanın ərazi bütövlüyü təmin olunacaqsa, Qarabağ, digər işğal

## "Qərb strateji olaraq Azərbaycan hakimiyyəti ilə anlaşa bilir"

olunan bölgələr geri qaytarılacaqsa, bu, mümkün ola bilər. Bu gün hər kəsə bəllidir ki, belə bir anlaşma mümkün deyil. Ekspertlər də bilir ki, Rusiya Azərbaycan Avrasiya Birliyinə daxil olsa belə, bunu etməyəcək. Çünki bu gələcəkdə Rusiyanın regiondan çıxması deməkdir. Mən müsahibələrimdə daha öncə də demişəm, bir də deyim, Güney Qafqaz üçün açar dövlət Azərbaycan deyil, Ermənistandır. Bunu Rusiya da bilir, Azərbaycan da bilir. Biz Avrasiyanın, Rusiyanın yanında yer alsaq, Ermənistan dərhal Qərbin yanında yer alacaq. Bunu hər kəs bilir. Dağlıq Qarabağı qaytarmasa, Azərbaycanın nə işi var Avrasiya İttifaqında? O birliyə qoşulmağın nə mənası qalır? Biz birmənalı bilirik ki, Rusiya işğal olunmuş Azərbaycan torpaqlarını qaytarmayacaq. Qaytarsa, Ermənistanı itirəcək. Azərbaycanın isə burada uzun müddət davam gətirəcəyinə inanmır. Çünki bilir ki, istənilən halda növbəti hakimiyyət dəyişikliyində Avrasiyadan çıxma prosesi sürətlənəcək. Gürcüstanı itirib, Azərbaycana güzəştə gedib Qarabağı qaytarsa, Ermənistanı itirir, Azərbaycan da növbəti mərhələdə birlikdən çıxacaq. Ona görə də burada heç bir məntiq yoxdur.

***- Belə çıxır, siz Rusiyadan anlayış gözləyirsiz?***

- Rusiyadan anlayış gözləmirəm, ancaq hesablarını, gəlir-çıxarlarını düzgün hesablayacaqlarını gözləyirəm.

***- Ukraynada hesablaya bilmədi amma...***

- Ukraynada başqa yolu yox idi. Gedə biləcəyi ayrı bir yolu qalmamışdı Rusiyanın. Rusiya imperialist siyasət yeridir. İmperialist siyasətin də gedə biləcəyi yol buna qədərdir.

***- Niyə eyni modeli Azərbaycana tətbiq etməsin?***

- Tətbiq edərsə, Güney Qafqazı, bütövlükdə regionu itirəcək. Bu gün Rusiya Ermənistan vasitəsilə regiondadır. Bunu hər birimiz qəbul edirik. Gəlin baxaq, Ermənistanın maraqlarına zərbə vuraraq Azərbaycanla münasibətləri istiləşdirən Rusiya nələrlə qarşılaşa bilər. Avropada necə güclü erməni diasporu olduğunu bilirsiz. Fransa hər zaman açıq şəkildə bəyan edir ki, Ermənistanın yanındayıq. Fransa prezidenti Fransua Olland bir müddət öncə regiona gəldi. Ermənistanın Avrasiya Birliyində olduğunu, Azərbaycanın isə Avrasiya Birliyində olmadığını bilə-bilə İrəvanda bəyan etdi ki, Fransa hər zaman Ermənistanın yanındadır. Rusiya Ermənistandan əl götürən kimi, Qərb, konkret Fransa Ermənistana əl qoyacaq. Azərbaycanın faktiki olaraq bütün siyasi qüvvələri Rusiyanın əleyhinədir. Azərbaycan müxalifəti bu gün iqtidarın Avrasiya İttifaqına gedəcəyini gözləsə də, iqtidar qəti şəkildə bunun əleyhinədir. Bu da aydın görünür. Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxışlarının birində açıq dedi ki, Azərbaycan Avrasiya İttifaqına qoşulmayacaq. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə deyib ki, Azərbaycan onun dövlət müstəqilliyini təhdid edən heç bir birlikdə təmsil olunmayacaq. Bu gün Azərbaycanın ərazi bütövlüyünü təhdid edən yalnız Avrasiya Birliyidir. Mesaj açıq verilməsə də, buna işarə edilir.

***- O zaman Azərbaycan nədən Avropa istiqamətində addımlar atmır? Avropa Birliyi ilə assosiasiya sazişinin imzalanmamasını nəzərdə tuturam.***

- Azərbaycan da, Qərb də bir şeyi anlayır ki, Azərbaycan nümayişkaranə şəkildə Avropanın yanına gedərsə, Rusiyadan gələn basqıları nə Azərbaycan, nə də Qərb əngəlləyə biləcək. O cümlədən də Rusiyanın yanına gedərsə, Qərbdən gələn dəstək burada heç nəyi dəyişmək gücündə olmayacaq. Ona görə də burada bir qədər balanslı siyasət yürütməyə çalışırlar.

***- Balanslı siyasət bu hökuməti hara aparır?***

- Hələlik baş verənlər Avrasiya məkanındakı proseslərdən çox asılıdır. Ukrayna məsələsinin faktiki taleyi Avrasiyanın yeni şəklini cızacaq. Eyni zamanda Rusiyanın da yeni planlarını ortaya qoyacaq. Nə olacaq, Rusiya hara qədər gedə biləcək? Bu prosesin nə ilə sonuclanacağını gözləmədən hər hansı bir məsələ barədə şərh vermək doğru deyil. Əslinə qalsa, Rusiya da ehtiyatlı davranır. Ukrayna mallarına embarqo tətbiq etmək istəyən Rusiyanın istəklərinə nə Belarus, nə də Qazaxıstan reaksiya verdi. Avrasiya İttifaqının özündə yekdil fikir formalaşdırmaq çox çətindir. Bütün bunlar var ikən, Rusiya da başa düşür ki, mövqelərini möhkəmləndirmək üçün bir nöqtəyə güclü təzyiq etməlidir. Ukrayna cəbhəsinə Rusiyanın ümidi çox idi. Krımın işğalı Rusiya üçün böyük kozır idi. Hesab edirdi ki, sonrakı mərhələdə şərqi Ukraynada ikihakimiyyətlilik yaradacaq, bununla da Ukraynada federallaşma başlayacaq. Ancaq bu gün o ümidlər doğrulmadı. Rusiya gündə 5 yüz milyona yaxın vəsait itirir ki, bu da ayda 15 milyard dollar deməkdir. Düzdür, Rusiyanın ehtiyat fondu 500 milyarda yaxındır. Rusiya düşünür ki, bu qışı Avropanı təhdid edə bilsə, 150-200 milyardı geri qaytara, üstəlik, siyasi prosesləri də öz xeyrinə geriyə hərəkət etdirərək embarqoları götürə bilər. Rusiya bütün siyasətini bunun üzərində qurub. Hara qədər gedə biləcək, bunu demək çətindir. Çünki Avropa və ABŞ savaşsız, iqtisadi dillə danışıla bilən Rusiya ilə daha çox münasibət qurulmasında maraqlıdır. Rusiya hər savaşdan bütövləşmiş və toparlanmış halda çıxır. Qərb bu dəfə Rusiyaya bu şansı vermək istəmir.

***- Niyə o zaman Qərb İlham Əliyev hakimiyyətini sıxışdırır? Məsələn, ATƏT-in Bakıda keçirilən tədbirində Azərbaycanla bağlı yetərincə sərt, tikanlı, təzyiqli çıxışlar oldu. Avropa Şurasının yay sessiyasında da həmçinin. Əgər bu hakimiyyət Avropaya lazımdırsa, Azərbaycan da kəndirbaz kimi kəndirin üzərində oynamağa məcburdursa, o zaman Qərb Azərbaycana "şirə" verməlidir.***

- Mən düşünürəm ki, Qərb hakimiyyətlə yetərincə yumşaq davranır. Bu qədər problemlərin olduğu bir zamanda ortada ayrı-ayrı deputatların sərt çıxışlarından başqa nə var? ATƏT-in son qətnaməsində Azərbaycanla bağlı ciddi bir şey yoxdur. ATƏT-in Bakı ofisinin bərpası ilə bağlı məsələ, bir də Anar Məmmədliyə azadlıq tələb edilməsi Azərbaycan hakimiyyətinin ürəyincə olmaya bilər, ancaq bütövlükdə siyasi məhbus problemindən tutmuş əməkdaşlıq məsələsinə qədər heç bir ciddi basqı yoxdur. Azərbaycanın Avropa Şurasının qarşısında nə qədər öhdəlikləri var , bunların heç biri icra olunmadığı halda Azərbaycana münasibət o qədər də pis deyil. Sizcə, güzəşt nə olmalıdır? İstəyirsiz ki, hər kəs bayraq qaldırıb Azərbaycan hakimiyyətinin yanında dayansın? Yox, onların dəyərləri var, o dəyərlərə uyğun da addımlar atırlar. Qərb strateji olaraq Azərbaycan hakimiyyəti ilə anlaşa bilir. Mənim gördüyüm budur.

***- Dediklərinizdən belə çıxır ki, Azərbaycanda demokratiyanın bərqərar olması, yaxud da bu iqtidarın demokratiya açılımı etməsi hələ uzaqdadır.***

- Əsla. Mən bayaq da dedim ki, Qərb bir şeydən arxayındır ki, Azərbaycan Avrasiya siyasi coğrafiyasında deyil, Yaxın Şərq coğrafiyasında deyil, Avropa coğrafiyasındadır.

***- Bu günü ilə Azərbaycan demokratik Avropanın mənzərəsini korlamırmı?***

- Qərb Belarus üzərində təcrid siyasətini tətbiq etdi. Heç bir nəticə əldə edilmədi. İndi Qərb anlayır ki, dünyanın bu qarışıq düzənində təcrid etməklə, siyasi coğrafiyadan çıxarmaqla avtoritar və avtoritarizmə meylli iqtidarları daha da gücləndirir. Ona görə də siyasətlərini dəyişərək ölkələri daha çox yanlarında saxlamağa, problemləri mərhələli şəkildə çözməyə çalışırlar.

***- Hakimiyyət də bu durumdan sui-istifadə edir.***

- Olur. Azərbaycan hakimiyyətinin sui-istifadəsi ilə bağlı xeyli faktlar var. Amma Elmar Məmmədyarov Avropa Şurası qarşısında çıxış edərək deyirsə ki, bizim demokratikləşmə ilə bağlı 2014-2016-cı illər planlarımız var, bu, hələlik müzakirəyə çıxarılmasa da altyapıda Qərblə hesablaşdıqları, razılaşdıqları deməkdir.

***- Qərbin Azərbaycanla bağlı 2015-2018 planı varmı?***

- Var, əlbəttə.

***- Qərb Azərbaycandan nə istəyir və sizin düşüncənizə görə Azərbaycan iqtidarı Qərbin tələbləri qarşısına nələrə gedə bilər?***

*(ardı gələn sayımızda)*

**❑ Qələmə aldı Aygün MURADXANLI**

## "Ukrayna məsələsinin faktiki taleyi Avrasiyanın yeni şəklini cızacaq"



## "Güney Qafqaz üçün açar dövlət Azərbaycan deyil, Ermənistandır"

# Türkiyədə hakimiyyət qərarını verdi...

**Hüseynbala SƏLİMOV**



**Bəli, bir az yubandı. Əslində bu, bir ay əvvəl olmalı idi. Mayın sonlarında hakimiyyətdəki AKP özünün prezidentliyə namizədini açıqlamalı idi. Amma o vaxt bu, baş tutmadı. Hətta əsas müxalifət partiyaları bu məsələdə hakim partiyanı qabaqladılar- onlar E.İhsanoğlunu özlərinin prezidentliyə namizədi elan etdilər.**

Hakim partiya isə yalnız bugünlərdə özünün namizədini elan etdi- bu, baş nazir R.T. Ərdoğan oldu.

İndi artıq seçkidə qeyri-müəyyənlik qalmayıb. Avqust ayında elektorat özünün istədiyi namizədi seçməlidir. Amma Ərdoğanın şansları haqqında bəzi təhlilçilər bir qədər ehtiyatla danışmağa başlayıblar. Onlar hesab edir ki, müxalifət çox uğurlu namizəd tapıb. Məsələ bundadır ki, Ekmeleddin İhsanoğlu dini dəyərlərə önəm verən elektoratın bir hissəsinin səslərini almağa qadir siyasətçi hesab edilir. Bu hadisənin xüsusən əyalətlərdə baş verəcəyi güman edilir.

Amma bizə elə gəlir ki, təhlilçilər öz nəticələri ilə tələsirlər. Rəcəp Tayyib Ərdoğanın partiyası son bələdiyyə seçkilərində möhtəşəm qələbə qazandı. Bu hadisəyə qədər müəyyən tərəddülər vardı. Amma bələdiyyə seçkisi baş nazir üçün mühüm siyasi test oldu. Seçkidən bir qədər əvvəl o, demişdi ki, partiyası bələdiyyə seçkilərini uduzarsa siyasətdən gedəcək. Amma partiya seçkini nəinki uduzmadı, hətta ciddi qələbə qazandı. Bu, isə o demək oldu ki, ortadakı söz-söhbətə baxmayaraq Rəcəb Tayyib Ərdoğanın və onun partiyasının seçici kütləsi arasında hələ çox böyük nüfuzu var.

Ekmeleddin İhsanoğlunun şanslarını hərtərəfli, ətraflı şəkildə qiymətləndirməyə çətinlik çəkirik. Amma güman edirik ki, o, indiki baş nazirlə bacarmayacaq. R.T. Ərdoğan çox ciddi rəqibdir.

Amma nə bilmək olar? Bu, seçkidir. Bəzən seçici rəğbəti olan adamı yalnız bir statusda, bir rolda görməyə üstünlük verir. Burada bir Türkiyə vətəndaşı ilə ayaqüstü söhbətimiz yada düşür. O, deyirdi ki, biz Ərdoğanı baş nazir kimi görmək istəyirik.

Amma, necə deyərlər, qatar artıq gedib. Partiyasının nizamnaməsi Rəcəb Tayyib Erdoğana bir daha baş nazir olmaq imkanı vermir. Üstəlik, baş nazir də seçimini edib, prezidentliyə namizədliyini irəli sürüb. Görünür, elektorata Rəcəp Tayyib Ərdoğanın prezident olması ilə hesablaşmaq lazım gələcək.

Burada bir məsələni də qeyd etmək lazım gəlir. Prezidentliyə real namizədlərdən biri də indiki prezident Abdullah Gül idi. Amma hələ mayda belə bir şey yazmışdıq ki, Rəcəb Tayyib Ərdoğan prezident olmaq istərsə ona bu faktla hesablaşmaq lazım gələcək. Ona görə ki, baş nazirin partiya daxilində nüfuzu daha böyükdür. Ən azı ona görə ki, bu, onun partiyasıdır və o bu partiyanı hələ heç kimə güzəştə getməyib.

Amma R.T.Ərdoğan prezidentliyə öz namizədliyini irəli sürəndən sonra gələcək siyasi koalisiya haqda söhbətlər çoxalıb. Bir çoxu indiki prezidenti Ərdoğanın gələcək kabinetində baş nazir kimi görür.

Amma Abdullah Gül buna nə deyir? İndiki prezident bir dəfə demişdi ki, o, Rəcəp Tayyib Ərdoğanın Medvedevi olmaq istəməzdi. Amma kim bilir? Vaxt keçir, siyasi planlar dəyişir. Ən azı ona görə ki, bu, siyasətdir, bir çox hallarda hakimiyyət hissi siyasətçiləri öz planlarına yenidən baxmağa sövq edir...

İndiki prezident seçkisinin müəyyən özəllikləri də var. Ötəri olsa da bu haqda da bir cümlə deməyə dəyər. Türkiyə ilk dəfədir ki, ümumi seçki yolu ilə prezident seçməyə hazırlaşır. Əvvəllər prezident parlamentdə seçilirdi. Bunu Türkiyə siyasi həyatının son yeniliklərindən biri kimi qiymətləndirmək olar.

O ki qaldı Abdulla Gülə, o da hələ siyasəti tərk edəcək dərəcədə yaşlı deyil və böyük ehtimlla növbəti siyasi tandem baş tutacaq - Abdullah Gül da Rəcəb Tayyib Ərdoğanın kabinetində yer alacaq.

Əsas odur ki, prezident seçkisi ölkənin siyasi həyatında elə də böyük dəyişikliklər vəd etmir. Artıq qeyd etdiyimiz kimi, Ekmeleddin İhsanoğlu da islami dəyərlərə önəm verən siyasətçidir. Onun xarici siyasət kursunu da təxmin etmək elə də çətinlik törətmir- böyük ehtimalla o, da islam ölkələrilə əməkdaşlığa üstünlük verəcək, çünki onun bu vaxta qədərki siyasi təcrübəsi belə deməyə əsas verir...

Amma bilmək olmaz. Elə bu səbəbdən də tələsməyək...

# Həbsdəki vitse-admiral mafiya babası çıxdı - himayəçilərinin siyahısı

## Bəxtiyar Məmmədov: "Təlim karterini Səfər Əbiyevin istirahət yaxtasına çevirdi"; "Şahin Sultanovu himayə edən məmurlar cəzalandırılsın!"

**Hazırda həbsdə olan Hərbi Dəniz Qüvvələrinin (HDQ) vitse-admiralı Şahin Sultanovun vaxtilə həbs etdirdiyi hüquq müdafiəçisi Bəxtiyar Məmmədov "Yeni Müsavat"a müraciət edib və sensasion məlumatlar verib. Hüquq müdafiəçisi deyir ki, Ş.Sultanov büdcə pullarını mənimsəmək üçün cinayətləri təkbaşına törətməyib. Onun yüksək çinli məmurlardan ibarət korrupsioner dəstəsi olub: "Şahin Sultanov və onun korrupsioner dəstə üzvlərinin qanunazidd və cinayətkar əməllərini davamlı şəkildə ifşa etsəm də, bu günə qədər bir çox günahkar şəxslər cəzadan kənarda qalıblar.**

Ona görə də həmin şəxslərin diqtəsi ilə Şahin Sultanovun vəkili Adəm Məmmədov ictimaiyyətdə çaşqınlıq yaratmağa çalışır.

Mən əlimdə olan faktları açıqlayıram. Qoy Ş.Sultanovun cinayətlərini araşdıran istintaqçılar göstərdiklərimə diqqət ayırsınlar. Bilinsin ki, Şahin Sultanov niyə görə tutulub. Onun vicdanı və əlləri təmiz deyil. Bu adamın rəhbərliyi ilə illərlə HDQ-yə məxsus hərbi gəmilər vasitəsilə qaçaqmalçılıq yolu ilə yanacaq, sürtkü yağları, gəmilərə məxsus qiymətli aparatlar, rəngli metallar Türkmənistan və Qazaxıstana daşınıb".

### Rusiya Müdafiə Nazirliyindəki qohumları...

**Hüquq müdafiəçisi sensasion sayıla biləcək faktlara da toxunub:** "Qaçaqmal daşıyan hərbi gəmilər Rusiya hərbçiləri tərəfindən saxlanıb, lakin Ş.Sultanovun həyat yoldaşının Rusiya Müdafiə Nazirliyində işləyən qohumları işə qarışandan sonra gəmilər sərbəst buraxılıb!

Bundan başqa, Şahin Sultanovun təşkilatçılığı ilə HDQ-yə məxsus gəmilər vasitəsilə Qazaxıstan dövlətinin ölkəmizlə su sərhədində brakonyer dəstələrlə əlbir olaraq balıq satışından milyon manatlarla ölçülən dövlət əmlakı mənimsənilib. Sultanov bu cinayətə tabeçiliyində işləyən şəxsləri də cəlb edib. Şübhəsiz, oğurluq nərə balığından yaxşısını yuxarılara pay ötürülüb. Bu iş müqabilində qonorarlar verilib".

### Özlərinə villalar tikdiriblər!

**Hüquq müdafiəçisi deyir ki, Ş.Sultanov SSRİ dövründən qalan və 2012-ci ilə qədər istismar müddətləri keçmiş bütün gəmiləri doğradaraq "kod 555" ləqəbli E.Hacıyev vasitəsilə Bakı şəhərində yerləşən müxtəlif dəmir qəbulu şirkətlərinə satıb:** "HDQ-yə məxsus istirahət mərkəzinin fəaliyyətini heç bir əsas və səbəb olmadan dayandırıb və "kod 555" ləqəbli E.Hacıyev vasitəsilə həmin müəssisənin binalarının altlarındakı torpaq sahələrini özəlləşdirməklə özününküləşdiriblər. Və həmin ərazidə taladıqları dövlət puluna özlərinə villalar tikdiriblər. Həmin villaların tikintisində isə HDQ-nin əsgər və matrosların əməyindən istifadə ediblər. Bundan başqa, HDQ-yə məxsus və Bayıl qəsəbəsində yerləşən qonaq evini qeyri-rəsmi şəkildə bp şirkətinə və Bayıl qəsəbəsində yerləşən HDQ-nin tarix muzeyini özəl göz klinikalarından birinə icarəyə verib. Mətbuatda bu haqda informasiya gedən kimi göz klinikasını dərhal binadan çıxardılar, indi həmin binada HDQ-yə məxsus bölmələr yerləşir. Məhv edilmiş HDQ tarix muzeyini isə bərpa etmək mümkün deyil".

### Hərbçi vəzifələrinə işə qəbul zamanı rüşvət toplayıb

**Hüquq müdafiəçisi Ş.Sultanovun qohumbazlığından da danışıb:** "Əmisi oğlu olan, HDQ-də manqa komandiri vəzifəsini daşıyan Elçin Sultanov vasitəsilə gizli yolla dəyəri 100 min manatla ölçülən ərzağı oğurlayaraq Bakı şəhərində yerləşən müxtəlif marketlərə paylamaqla külli miqdarda dövlət əmlakını mənimsəyiblər. Elçin Sultanov vasitəsilə HDQ-də rütbələrin, vəzifələrin verilməsini və müddətdən artıq xidmət edən (MAXE) hərbçi vəzifələrinə işə qəbul zamanı rüşvət toplayıb. E.Hacıyev vasitəsilə saxta MMC-lər açmaqla və saxta sənədləşdirmə aparmaqla pul köçürmələri yolu ilə milyon manatlarla dövlət əmlakını mənimsəyiblər. Uzun illər ərzində sayı-hesabı bilinməyən bu MMC-lərdən guya mal alınması göstərilsə də, faktiki olaraq bütün mal-material ya söküntüdən çıxmış material, ya da vergidən gizlədilən əmlak olub. Saxta MMC-lər isə bir neçə ay kağız üzərində fəaliyyətdə olduqdan sonra vergi orqanlarının nəzarətindən yayındırılmaq məqsədilə bağlanıb. Ş.Sultanovun cinayətkar dəstəsi uzun müddət ərzində HDQ-nin sabiq rabitə rəisi Natiq Əsgərov, sabiq MTT rəisi Cabbar Qəmbərov, bölmə rəisi Teymur Əsgərov və başqalarını komissiya üzvü təyin etməklə saxta aktlar tərtib etməklə külli miqdarda dövlət əmlakını mənimsəyiblər. Ş.Sultanov HDQ-yə aid binaların söküntüsündə əldə etdiyi 100 min manatlarla dəyəri olan tikinti materiallarını yalandan sənədləşdirmək yolu ilə guya müxtəlif şirkətlərdən yenidən alınmış material kimi aktlar tərtib etməklə dövlət əmlakını külli miqdarda mənimsəyib. Ş.Sultanov saxta aktlar tərtib etməklə sabiq rabitə rəisi Natiq Əsgərov vasitəsilə 8000 metr kabel almaq adı altında və 16.000 lampa almaq adı ilə dövlət əmlakını külli miqdarda mənimsəyib. Hərbi gəmilərin təmiri zavodunun rəisi Ə. Muradxanovla əlbir olub HDQ-yə aidiyyəti olmayan xarici şirkət gəmilərinin, Azərbaycanın müxtəlif dövlət qurumlarına məxsus gəmilərin təmirini həyata keçiriblər. Bundan qeyri-rəsmi yollarla milyon manatlarla vəsait əldə olunub. Gəmilərə aid dəyəri milyon manatlarla avadanlıqların alınması görüntüsü yaratmaqla özünün saxta MMC-lərdən alınması göstərilməklə və saxta MMC-lərə pul köçürülməsi yolu ilə rəsmiləşdirib külli miqdarda vəsait mənimsənilib. HDQ-yə məxsus emalatxanalardan milyon manatlarla dəyərində dəzgahların yerli və xarici şirkətlərə qanunsuz, qaçaqmalçılıq yolu ilə satılması ilə külli miqdarda dövlət vəsaiti mənimsənilib. Hərbi gəmilərə dəyəri milyon manatlarla ölçülən avadanlıqları xarici ölkələrdən gətirən zaman həmin avadanlıqların Müdafiə Nazirliyinin adına gəlməsini göstərməklə vergi rüsumundan yayınıblar".

### Təlim karterini Səfər Əbiyevin istirahət yaxtasına çevirdi

**B.Məmmədovun dilə gətirdiyi maraqlı məlumatlardan biri də admiralın təlim karterini istirahət yaxtasına çevirməsi ilə bağlıdır:** "Şahin Sultanov Polşa dövlətinin istehsalı olan və Azərbaycan Ali Hərbi Dənizçilik məktəbinin müdavimlərinin şturman təlim-tədris təcrübəsi praktikası üçün keçirməsi nəzərdə tutulan, dəyəri milyon manata yaxın olan katerin bütün tədris otaqlarını sökərək özü, ailəsi və sabiq müdafiə naziri Səfər Əbiyev üçün istirahət otaqlarına, qəbul otaqlarına çevirib. Bu, dövlətə külli miqdarda ziyan vurmaq deyil?!"

### Saxta möhür əldə edərək...

**Hüquq müdafiəçisi deyir ki, Ş.Sultanov HDQ-nin Hidroqrafiya xidmətinin sabiq rəisi Qasım Quliyevlə əlbirliyindən də danışıb:** "Saxta möhür əldə edərək saxta MMC-lərə pul köçürüblər. Qasım Quliyevin bu cinayətini 2013-cü ildə Müdafiə Nazirliyinin inspeksiyası aşkarlayaraq S.Əbiyevə məruzə edib. Bundan sonra sabiq nazir Q.Quliyevin təcili şəkildə ordudan tərxis edilməsinə komanda verib, hətta buna dair əmr də imzalayıb. Lakin cəmisi 1 gün sonra Ş.Sultanov böyük pullar müqabilində cinayət ortağını yenidən iş başına qaytarıb. Sabiq nazir Əbiyevin isə hansı səbəbdən öz əmrini geri oxumasına istintaq aydınlıq gətirməlidir!"

### Dövlətin hesabına pulsuz danışıblar. Özü də illərlə!

**B.Məmmədovun sözlərinə görə, həbsdəki vitse-admiral gözətçi gəmisinin üzərinə bir neçə qurğu və avadanlıqlar quraşdırmaq yolu ilə də külli miqdarda dövlət əmlakını mənimsəyib:** "Gəmilərin təmiri zavodunun direktoru Əsəd Muradxanov vasitəsilə 4-5 il bundan qabaq istismarı dayanmış gəmini fəaliyyətdə olan gəmi kimi qeydiyyatda göstərməklə həmin gəmiyə illər ərzində yanacaq və sürtkü yağlarının verilməsini yazıblar. Aydındır ki, həmin yanacaq və sürtkü yağları dənizə axıdılmayıb. Təsəvvür edin ki, HDQ-nin sabiq rabitə rəisi, ehtiyatda olan II dərəcəli kapitan Natiq Əsgərov Şahin Sultanovun birbaşa göstərişi əsasında 50 min manata yaxın dövlət puluna telefonlar alıb. Həmin telefonlardan Şahin Sultanov və ailə üzvləri, Natiq Əsgərovun özü və yaxınları istifadə ediblər. Bu adamlar bu qədər dövlət vəsaitini mənimsəyib, amma iştahaları dözməyib, üstəlik, dövlətin hesabına pulsuz danışıblar. Özü də illərlə! Şahin Sultanov HDQ-nin əsas bazasının Şıx çimərliyi ərazisində yerləşən inzibati ərazisinə köçmək adı altında yeni kazarmalarının və inzibati binaların təmiri-tikintisi ilə əlaqədar əlavə olaraq 2 milyon, İsraildən korroziya əleyhinə boya alınması adı altında 300 milyon manat dövlət vəsaiti ələ keçirib".

### Sultanovu kimlər himayə edir?

**Hüquq müdafiəçisi vitse-admiralla "Azərenerji"nin prezidenti Etibar Pirverdiyevin də münasibətlərinə toxunub:** "Pirverdiyevin himayədarlığı ilə Şahin Sultanov Bakı şəhəri, Səbail rayonu, A.Quliyev küçəsi 4a və 4b ünvanlarında yaşamış 28 hərbçi ailəsini Nazirlər Kabinetinin köçürülməyə dair Qərarı, Bakı ŞİH başçısının Sərəncamı, məhkəmənin qüvvəyə minmiş və icraya yönəldilmiş qətnaməsi olmadan, əksinə, Səbail rayon və 1 saylı İnzibati İqtisadi Məhkəmələrin söküntünün qadağan olunması və köçürülmənin mümkün olmaması barədə qüvvədə olana qərardadı, eləcə də Bakı ŞİH tərəfindən həmin ünvanlarda söküntünün planlaşdırılmadığı haqda rəsmi məktubu olmasına baxmayaraq, hər ailəyə təhdid altında cədvəl əsasında əlbəəl 10 min manat qanunsuz pul vəsaiti paylatdırıb, köçürülmədən imtina edən və hüquqlarını müdafiə etdiyim 2 yüksək rütbəli hərbçi ailəsini isə qanunazidd şəkildə, kobud şəkildə müdaxilə edərək, zor tətbiq etmək yolu ilə, polis qüvvələrini və icra qurumlarını da cəlb etməklə zorla mənzillərindən çıxarıb. Bu "əməliyyat"dan Sultanov 2 milyon manat qazanıb. Etibar Pirverdiyevlə iş birliyindən irəli gələrək yeni tikilməkdə olan HDQ-nin müasir bazasında aparılan tikinti işlərində də keyfiyyətsiz tikinti materiallarından istifadə edilib. Bu yolla dövlət əmlakının milyon manatlarla mənimsənilməsi faktı vardır. Elə bu səbəbdən də qeyd etdiyim HDQ-nin yeni bazasının SQ-nin 96-cı il dönümü münasibətilə təhvil verilməməsi, açılışın qeyri-müəyyən vaxta təyin olunması sübutdur. Bütün bunlar Şahin Sultanovla Etibar Pirverdiyevin birgə planı və maddi maraqları zəminində baş verib".



### Cinayət işi başlansın!

**Hüquq müdafiəçisi müdafiə naziri Zakir Həsənova səslənib:** "Bildirirəm ki, Sultanov kimiləri Hüquq İdarəsinin rəisi Rauf Kişiyev himayə edir. Onun kimilərdən nə qədər tez qurtulsaz, ordumuz bir o qədər inkişaf edər, qüdrənculuq möhkəmlənər. Cinayətkar dəstəni himayə edən adamdan qanun keşikçisi olmaz.

Əfsuslar olsun ki, sabiq müdafiə naziri Səfər Əbiyev, MN-in keçmiş inspeksiya idarəsinin rəisi Məmməd Beydullayev, HDQ-nin sabiq hüquqşünası mayor Rauf Zeynalov, MN-in hüquq idarəsinin rəisi polkovnik Rauf Kişiyev və "Azərenerji"nin prezidenti Etibar Pirverdiyev bu günə qədər cinayət məsuliyyətindən kənarda qalıblar. Bu şəxslərin cəzasızlığı həbsdə olan Şahin Sultanovun müdafiəçisi Adəm Məmmədovu şirnikləndirir. Ona verilən vədlər əsasında hərbi prokuror Xanlar Vəliyevi və müdafiə naziri Zakir Həsənovu qaralayır. Mən Hərbi Prokurorluqdan təkidlə tələb edirəm ki, bu şəxslər barəsində tutduqları cinayət əməllərinə görə cinayət işi başlansın".

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**İyunun 28-dən iyulun 2-dək Bakıda ATƏT Parlament Assambleyasının (PA) 23-cü illik sessiyası çərçivəsində plenar iclaslar keçirildi. Ölkə və region üçün əhəmiyyət kəsb edən bu iclaslarda əhəmiyyətli çıxışlar, bəyanatlar, mesajlar oldu.**

İclasların birində isə ATƏT-in Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Joao Suareş mühüm mesajlar verib və ATƏT-in regionda fəaliyyətinin artırılmasının vacibliyini vurğulayıb. J.Suares bununla bağlı ATƏT sədrinin yeni planlarını açıqlamasını istəyib: "İstər Rusiyanın maraqları fonunda, istər Ukrayna məsələsinin təsiri baxımından Siz bu regionda hansı siyasəti yürüdəcəksiniz? Bunu bilmək çox vacibdir".

**Onun sualına cavab olaraq ATƏT sədri Didye Burkhalter regionla bağlı planlarını açıqlayıb:** "Bizim tələblərimizə cavab olaraq Ukrayna böhranı ilə bağlı tərəflər atacaqları addımları açıqlayacaqlar. Bundan sonra biz də addımlarımızı bildirəcəyik. Abxaziya məsələsi ilə bağlı tələb edirik ki, orada ATƏT-ə fəaliyyət göstərməsi üçün geniş imkanlar yaradılsın. Rusiya və Gürcüstan arasında dialoq olmalıdır.

Dağlıq Qarabağ münaqişəsinə gəlincə, planımız beledir: növbəti mərhələdə prezidentlər arasında yeni görüş keçirilməlidir. Yeni debatın əsasını qoymaq istəyirik. Çünki bir sıra məsələlərə aydınlıq gətirilməlidir. Hər iki prezidentlə bir neçə həftə bundan əvvəl bunları müzakirə etmişik. ATƏT vasitəçilik tədbirlərini intensiv şəkildə davam etdirmək niyyətindədir. Düşünürük ki, ATƏT-in böyük potensialı var. Sadəcə, mən Sizdən xahiş edirəm, münaqişə barədə 57 dövləti dolğun məlumatlandırasınız ki, yüksək dəstək ifadə olunsun".



# Prezidentlərin növbəti görüşü Parisdə baş tuta bilər

## Politoloqlar Qarabağ danışıqları üçün hansı perspektivlər açıldığını təhlil edirlər

**ATƏT sədri Dağlıq Qarabağ münaqişəsi ilə bağlı planları açıqladı. Suareş qeyd etdi ki, növbəti mərhələdə prezidentlər arasında yeni görüş keçirilməlidir:** "Yeni müzakirələrin əsasını qoymaq istəyirik. Çünki bir sıra məsələlərə aydınlıq gətirilməlidir.

Hər iki prezidentlə bir neçə həftə bundan əvvəl bunları müzakirə etmişik. ATƏT vasitəçilik tədbirlərini intensiv şəkildə davam etdirmək niyyətindədir. Düşünürük ki, ATƏT-in böyük potensialı var. Sadəcə, xahiş edirəm, münaqişə barədə 57 dövləti dolğun məlumatlandırasınız ki, yüksək dəstək ifadə olunsun".

***

ATƏT sədrindən bu bəyanat elə bir ərəfədə gəlib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı regionda proseslər sürətlənib. Rusiyanın Avrasiya İttifaqına qoşulacağımız halda üç rayonun qaytarılacağını vəd etməsi barədə məlumatlarla yanaşı, cəbhə xəttində atəşkəsin intensiv olaraq pozulması, atışmaların qeydə alınması məsələsi var. Belə bir mərhələdə prezidentlərin görüşünün təşkilinin mümkün olub-olmaması və belə bir görüş baş tutarsa bunun münaqişənin həllinə nə verə biləcəyi kimi suallar ortaya çıxır.

**Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin sədri Mübariz Əhmədoğlu hesab edir ki, prezidentlərin görüşü problemin tənzimlənməsində yeni keyfiyyət yarada bilər. Onun sözlərinə görə, Azərbaycan ictimaiyyəti bu keyfiyyət dəyişikliyini əldən buraxmayacaq. Ekspertin fikrincə, prezidentlər görüşü baş tutarsa orada ortaya çıxacaq dəyişikliklər Azərbaycanın xeyrinə olacaq. M.Əhmədoğlu güman edir ki, qarşıdakı günlərdə prezidentlərin görüşünün olub-olmayacağı dəqiqləşəcək:**

"Bir neçə ay əvvəl ATƏT sədri strukturlaşdırılmış danışıqlar təklif etmişdi. Yəni pərakəndə, quru danışıqlar olmasın. Ancaq Ermənistan tərəfi imitasiya ilə məşğuldur. Bu günə qədər olan mərhələ-mərhələ danışıqlar müəyyən mənada konkretlik və praktiklik deməkdir. Amma virtual məkanda danışıqlar olub. Heç bir praktiki addım atılmayıb. Çünki Ermənistan imitasiya xarakterli iş aparır. İrəvan razılıq versə, prezidentlərin görüşü yaxın zamanlarda baş tuta bilər. Əgər belə bir görüş baş tutacaqsa, bunu yaxın 10-15 gün ərzində biləcəyik. Əks halda, prezidentlərin görüşü payıza qala bilər".

**M.Əhmədoğlu deyir ki, ATƏT sədrinin bəyanatından əvvəlcə Rusiya xarici işlər nazirinin çıxışına diqqət yetirmək vacibdir:** "Sergey Lavrovun vacib bəyanatını təhlil etmək lazımdır. Rus nazir həm Bakıda, həm İrəvanda oxşar çıxışla yadda qaldı ki, status-kvo dəyişməlidir. Ancaq münaqişənin həllində dinc yolun vacibliyi terminini işlətmədi. Demədi ki, problem dinc yolla həll edilə bilər. Rusiya həm özünün təşəbbüskarlığını ortaya qoyur, həm Fransanın təşəbbüsünü dəstəkləyir, həm də dinc terminindən imtina edir".

**Siyasi şərhçi üç rayonun qaytarılması təklifi ilə bağlı məlumatları isə blef sayır. Onun dediyinə görə, bu ideya heç bir sənədə söykənmir və müəyyən şəbəkənin dövriyyəyə buraxdığı məlumatlardır:**

"Azərbaycanın müxalifəti, iqtidarı, bütövlükdə cəmiyyət vahid hərəkət etməlidir. Çünki münaqişənin tənzimlənməsi üçün unikal vəziyyət yaranıb. Ancaq üç rayonun qaytarılması cəfəng söhbətdir. Hələ Metyu Brayza demişdi ki, ortaya bir sənəd qoyun ki, orda 5 rayonun qaytarılması məsələsi olsun. Elə bir sənəd yoxdur.

Yalnız yenilənmiş Madrid prinsipləri var. Bu da yeganə sənəddir ki, orada Dağlıq Qarabağ ətrafındakı rayonların qaytarılmalısı qeyd olunub. Deyilməyib ki, neçə rayon qaytarılsın. Bütün rayonların qaytarılması qeyd olunub.

Uorlikin bəyanatı da oldu ki, Laçın dəhlizi qalmalıdır, yeddi rayon qayıtmalıdır. Laçın dəhlizi də ermənilərdə qalmır, beynəlxalq idarəçiliyə verilir. Azərbaycanın Avrasiya İttifaqına girəcəyi şərti ilə üç rayonun qaytarılması fikri boş söhbətdir. Lavrov da Bakıda açıqladı ki, Rusiya Azərbaycanı bu qurumə üzv olmağa dəvət etmir.

Çünki biz müstəqil siyasət aparırıq. Rusiya da Azərbaycana bu siyasətinə görə hörmət edir. Üstəlik, İran, Şimali Qafqaz və Türkiyə siyasətində Azərbaycan Rusiya üçün mühüm rol oynayır. Rusiya Azərbaycanı o baxımdan itirmək istəmir".

***

**Siyasi analitik Qabil Hüseynlinin sözlərinə görə, prezidentlərin görüşü Rusiya və Fransanın birgə səyləri əsasında hazırlanır. Politoloqun fikrincə, bu məsələdə həlledici fiqur Rusiyadır. Q.Hüseynli hesab edir ki, prosesin dondurulmuş şəkildə saxlanmasına dəstək verən Rusiya danışıqların intensivləşməsinə diqqət yetirməyə başlayıb:**

"Söhbət danışıqların intensiv inkişaf kontekstində problemin obyektiv və beynəlxalq hüquq normalarına uyğun tənzimləməsindən gedir. Azərbaycan ərazi bütövlüyünün bərpasını istəyir. Rusiyanın isə öz arzu və tələbləri var. Prezidentlərin görüşündə isə kompromislər axtarmaqda irəliləyiş ola bilər".

**Q.Hüseynli deyir ki, görüş yeri kimi Paris seçilib:** "Vaxt konkretləşməsə də, uzaq olmayan zamanda bəzi nüanslar dəqiqləşəndən sonra belə bir görüş baş tuta bilər. Ermənistanın qeyri-konstruktiv müqaviməti qırıldıqdan və konsensus əldə olunduqdan sonra prezidentlərin Paris görüş baş tuta bilər. Bu görüşdə mühüm qərarlar qəbul edilə bilər.

Üstəlik, Rusiyaya qarşı Qərb sanksiyalarının üçüncü mərhələsində bu ölkənin iqtisadiyyatındakı geriləmə Rusiyanı postsovet məkanındakı konfliktlərə konstruktiv yanaşmağa məcbur edir. Azərbaycan kimi iqtisadi potensiala malik ölkə ilə əməkdaşlıq isə Rusiya üçün səmərəlidir. Ona görə də səy göstərir və prezidentlər səviyyəsindəki danışıqlar prosesində ciddi irəliləyişlərin əsası qoyula bilər. Bu mənada ATƏT sədrinin söylədikləri həqiqətə uyğundur".

**Q.Hüseynli bildirir ki, üç rayonun qaytarılması siyasi konyukturaya uyğun ortaya atılmış fikirdir:** "Azərbaycan ilkin mərhələdə rayonları tələb edir. Dağlıq Qarabağın status məsələsi növbəti raunda qalacaq. Üç rayon ortaya atılmış fikirdir. Sırf siyasi konyuktura xarakteri daşıyır. Bu, Azərbaycanı qane etmir".



# Bakı metrosundakı erməni terrorundan 20 il ötdü

**1994-cü il iyulun 3-də erməni terrorizmi Azərbaycana qarşı növbəti cinayətini həyata keçirib. Bakı metrosunun "28 May" və "Gənclik" stansiyaları arasında qatarda törədilən partlayış nəticəsində 13 nəfər həlak olub, 42 nəfər yaralanıb. Karabakinfo.com-un məlumatına görə, terror aktını törətməkdə şübhəli bilinən Azərbaycan vətəndaşı Azər Aslanov Moskva şəhərində həbs olunub və Azərbaycana ekstradisiya edilib. 1998-ci ildə A.Aslanov öz ifadələrində bildirib ki o, Bakı Metropolitenində terror aktı törətmək göstərişini erməni əsirliyində olarkən, erməni yazıçısı Zori Balayandan alıb.**

Məhkəmənin hökmü ilə Azər Aslanova ömürlük həbs cəzası verilib. İstintaq nəticəsində müəyyən edilib ki, 1994-cü il yanvarın 13-də Qarabağda erməni əsirliyinə düşmüş Azər Aslanov Ermənistanda olarkən erməni xüsusi xidmət orqanları ilə əməkdaşlığa cəlb edilib. Belə ki, onu azad etmək bahanəsi ilə 16 iyun 1994-cü ildə anası Tədjibat Aslanova ermənilər tərəfindən İrəvana dəvət olunur, Azər Aslanova isə anasının girov olduğunu və onun azad olunması üçün Aslanovun Bakı Metropolitenində partlayış təşkil etməli olduğu bildirilir. Bundan sonra 3 iyul 1994-cü ildə, İrəvan-Mineralniye Vodi- Bakı marşrutu ilə A.Aslanov erməni xüsusi xidmət orqanlarının hazırladıqları saxta sənədlərlə Azərbaycana gəlir, terror aktını törədir və Ermənistana qayıdır, yalnız bundan sonra onun girovluqda saxlanan anası azad edilir və onlar Ermənistanı tərk edirlər. Terror aktının təlimatçıları, Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları, polkovnik Karen Baqdasaryan və kapitan Seyran Sarkisyan olublar. A.Aslanovun ifadələri əsasında, məhkəmənin göstərişi ilə Zori Balayana qarşı cinayət işi açılıb, 1999-cu ildə Azərbaycanın Baş Prokurorluğunun təqdimatı əsasında Z.Balayan İnterpolun xətti ilə beynəlxalq axtarışa, sonra isə MDB dövlətlərində beynəlxalq axtarışa verilib. 2001-ci ildə erməni tərəfinin müraciəti əsasında İnterpol Z.Balayanı axtarışda olan şəxslər siyahısından çıxarıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Teymur HƏSƏNLİ

# Ən gəlirli yay biznesləri hansılardır?

## 3 ay bu işlərlə məşğul olub, qışda "kefə baxmaq" mümkündür...

**Yay qapını bir aydır ki, döyüb. Son bir neçə günün sərinliyini nəzərə almasaq, istilər də onunla birgə. Dünya bazarında yay biznesi adlandırılan bir çox sahələr var ki, işbazlar 3-4 ay onunla məşğul olub, böyük pullar qazanırlar. Təbii, ölkələrin iqtisadi, turistik imkanlarını nəzərə alanda "ən gəlirli biznes" anlayışının təyinatı da dəyişir.**

Amma Türkiyənin bir çox cəhətlərinə görə Azərbaycana örnək olduğu - nəzərə alsaq ki, qonşudakı ən populyar biznes növləri ölkəmizə də ayaq açıb - faktını nəzərə alsaq, Türkiyə mətbuatının bu mövzuda hazırladığı araşdırma diqqət çəkir.

"Yeni Müsavat" da iyulun bu ilk günlərində yayı gəlirlə başa vurmaq istəyənlər üçün rentabelli gəliri olan iş imkanlarını təqdim edir. Ən azı, "qonşuda bişər, bizə də düşər" prinsipini nəzərə alanda bu biznes növlərinin yaşama şansı olduğu görünür... Siyahıya diqqət edək:

**Yayın istisini azaldacaq iş fürsətləri:**

**Buz satışı:** Türkiyə saytlarının yazdığına görə, yay aylarında buz satışı da artır. Xüsusən turizm bölgələrində buz satışı artır. Bu iş üçün lazım olan ilkin maliyyə məbləği 2500-10000 manat arasındadır. Gündə 100 paket buz satışından 70 manata yaxın qazanc əldə etmək mümkündür. Türkiyənin turizm bölgələrində bu yay biznesi çox gəlirlidir. Amma Azərbaycanda o qədər də inkişaf etməyib. Halbuki çimərliklərdə, turizm bölgələrində iaşə, turizm obyektləri, habelə sıradan turistlərin də faydalı müştəri olacağını nəzərdən qaçırmaq olmaz.

**Dondurma satışı:** Yayda çox sürətlə yayılan gəlir sahələrindən biri də dondurma satışıdır. Məsələn, Türkiyədə adambaşına dondurma istehlakı 2,5 litrdir. Əslində dondurma ilin dörd fəslində yeyilə biləcək bir qidadır. Ona görə də yaz aylarından etibarən bu sahəyə investisiya qoymaq gəlir deməkdir. Xırda biznes qurmaq istəyənlər bu dondurma tortundan bir pay almaq istəyirlərsə, mütləq dondurma şəbəkələrinə qoşulmalıdır. Səyyar dondurma satışı, ya da şəhərin ən sıx əhali olan yerlərində şöbə açmaq buna misaldır. Orta hesabla 15 kvadrat metr ərazidə 15 min manat investisiya ilə yay boyunca kifayət qədər ciddi gəlir əldə etmək mümkündür.

Türkiyəli mütəxəssislərin hesablamasına görə, bu iş modelində gündəlik 200 ədəd dondurma satışı nəticəsində 3 min manata yaxın gəlir əldə etmək mümkündür.

**Bizimkilərin ağlına gəlməyən (bəlkə də artıq gəlib, sadəcə biz şahid olmamışıq),** amma qonşu Türkiyədə xeyli populyar olan bir dəniz biznesi də yaxta kirayəsidir. Belə ki, hotellərdən bezən, sabit bir yerdə yay tətilini keçirmək istəməyən turistlərə alternativ tətil variantı da yaxta turlarıdır. Yəqin yay tətilini Türkiyədə keçirənlər bunun şahidi olub. Hotellərdə "yaxta tur" adı ilə günün bir neçə saatını fərqli keçirmək şansı təklif edilir. Özü ilə baş-başa qalmaq, heç tanımadığı yerləri gəzib də, tətil keçirmək istəyənlər və ya fərqlilik axtarışında olan geniş ailələr üçün həftəlik yaxta kirayələyərək tətil keçirir.

Son zamanlar yaxta sahibi olan bir çox şəxs öz yaxtasını gündəlik və ya həftəlik kirayəyə verərək, maddi gəlir əldə etmək istəyir. Yaxtalar turistlərlə yanaşı, toy, nişan, şirkət yeməkləri kimi tədbirlər üçün də kirayələnir. Yaxtaların bir günlük kirayəsi 200 avrodan başlanır. Yaxtanın ölçüsü və içindəki bəzi atributlara görə 2 min avroya qədər arta bilər. Bu sahədə də uğun yay bizneslərindən biri yaxtasını kirayə vermək istəyənlərlə əlaqəyə girib, daha ucuz qiymətə yaxtanı yay boyu kirayələmək, daha sonra onu yay boyu müxtəlif tədbirlər çərçivəsində kirayələmək istəyənlərə təqdim etməkdir. Bu halda da rentabelli bir gəlir əldə etmək mümkündür.



Daha bir orijinal təklif isə kiçik qayıqların kirayəsidir. Bazar qiyməti 500-1000 manat arasında olan qayıqlar maliyyə baxımdan digər sahələrə görə daha təvazökar biznes növü sayıla bilər. Bu qayıqları "ikinci əl" bazarından da tapmaq olar.

Gəlir faizi yüksək olan bir başqa yay biznesi də yay aksessuarlarının satışıdır. Məsələn, Türkiyədə yay aksessuarlarının illik bazarı 250 milyon manatdır. Dəbə uyğun olaraq hər zaman özünü yeniləyən yay aksessuarları yaradıcıları da insanların diqqətini hər zaman çəkməyi bacarırlar. Çimərlik geyimlərindən tutmuş, çimərlik çantasına, çəkələklərə, eynəyə qədər bir çox aksessuar yayın "pendir-çörək" kimi tez-tez satılanlarındandır. Bu iş modeli üçün 30-50 kvadrat metr sahəsi olan kiçik bir "toçka" kifayətdir. Xüsusən çimərlik həndəvəri və turistik yerlərdə bu biznesin yüksək potensialı var. Bir mağaza açmaq üçün 25-50 min manat lazımdır. Amma nəzərə almaq lazımdır ki, bu sahədə aylıq 4-5 min manat gəlir var.

**Yay dəllallığı...** Zarafat deyil, yay aylarında bu işlə aktiv məşğul olub, yaxşı gəlir əldə etmək mümkündür. Bağ evlərini və ya rayondakı evlərini kirayə vermək istəyənlərlə sıx münasibət qurub, turistlərə maraqlı təkliflər vermək, həm də yaxşı qazanmaq ən gəlirli yay biznesi ola bilər. Amma bunun üçün 5-10 ev sahibi ilə əlaqə qurmaq yetərli deyil. Bəzən bütün bir qəsəbə və ya rayona bələd olmaq lazımdır.

**Türkiyədə həftəlik, günlük kirayə bazarı da geniş yayılıb.** Bu səbəbdən qonşu ölkədə yay dəllalları mövsümün ən yaxşı qazananları sayılır. Hər kirayədən 10 faiz gəlir əldə etmək isə yayı yağ-bal içində keçirmək anlamına gəlir. Bunun üçün internetdə, sosial şəbəkələrdə ciddi reklamla məşğul olmaq, eləcə də turistlərə ən uyğun təklifləri təqdim etməyi bacarmaq lazımdır.

**Bağ əşyalarının satışı ilə məşğul olmaq** - yayın gəlişi ilə bağ-bağat işləri də artır. Bu isə böyük bir potensial deməkdir. Avropanın məşhur bağça markası Gardena və Dost firmasının ortaqlığıyla qurulan Gardena - Dost firması bir çox ölkələrdə öz şöbələrini açıb. Firma bağça əlcəklərindən tutmuş qayçıya, ot biçmə maşınından, sulama sistemlərinə qədər bir çox sahədə şöbə açmaq şansı verir. Dərman, gübrə, çiçək, ağac, şitil biznesi də əslində bura aiddir və yay aylarında 20-30 faiz gəlir deməkdir.

Kiçik bir küncdə meyvə suyu satışı. Burda söhbət bizdəki kimi qazlı içkilərdən getmir. Türkiyədə, eləcə də Avropada insanlar sağlam yaşayış faktoruna çox əhəmiyyət verdiklərindən "vitamin kafelər" adı altında məkanlar fəaliyyət göstərməyə başlayıb. Səhhətinə ciddi diqqət edənlərə və meyvə suyundan vaz keçə bilməyənlərə vitamin kafelərdə hər cür seçim təqdim edilir. Müxtəlif növ meyvə suları, bitki çayları, vitamin qarışımları, yağsız, bol tərəvəzli salatlar... Bunun üçün bir aparat və kiçik bir stand yetərlidir.

**Outdoor turlar...** Bu biznes növü Azərbaycanda yavaş-yavaş yayılsa da, danışanların dediyinə görə, o qədər də uğurlu deyil. Söhbət Azərbaycanın müxtəlif bölgələrinə həyata keçirilən birgünlük turlardan gedir. Amma dağ, çay, şəlaləsi zəngin olan ölkəmizin bölgələrinə daha az məsrəfli və əyləncəli turlar təşkil etmək mümkündür. Belə ki, bu turlara velosiped turları, raftinq, təbiət gəzintisi, üzmə, paraşüt turu daxildir.

Maraqlıdır ki, bu cür turlara daha çox xarici turistlər maraq göstərirlər.

Sonda yay aylarına özəl stendlərin siyahısını da yazaq:

- **Dondurma stendi**
- **Waffle stendi**
- **Limonad və soyuq içkilər satılan stend**
- **Fast food tərzində tez hazırlanan yeyəcəklər**
- **Yay aksesuarları stendi**
- **Eynək stendi**
- **Açıq bufet səhər yeməyi ərzaqları stendi**
- **Manqal əşyaları və ya manqal kömürü satılan stend**
- **Küp buz satışı.**

Sonda... Yazının girişində də qeyd etdik ki, bu yay biznes növləri barədə material Türkiyə mənbələrindən götürülüb. Azərbaycanda biznesin şərtləri isə hamımıza məlumdur: bir çox yerə görüm-baxım şərtdir. Bu halda həmin bizneslərdən hansının gəlirli olması, yaşama şansının yüksək olması sual doğurur. Biz isə bir çox biznes növlərinin Türkiyədən Azərbaycana transfer etdiyini nəzərə alıb, sizə seçimləri yazdıq. Arzuya, cibinizə uyğun olaraq öz seçiminizi edə bilərsiz.

❑ **Sevinc TELMANQIZI**





# "Nar Mobile" gənc rəssamlara dəstək verməyə davam edir

## Mobil operatorun səyi ilə "Azerbaijan Art Festival" bir ənənəyə çevrilir




**2-30 iyul 2014-cü il tarixləri arasında "Nar Mobile" mobil operatorunun baş sponsorluğu ilə "Baku Creative Center" yaradıcılıq mərkəzi tərəfindən "Azerbaijan Art Festival - 2014" layihəsi reallaşdırılacaq. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə gerçəkləşdiriləcək layihənin açılış mərasimi 1 iyul tarixində Bakı Biznes Mərkəzində keçirilib. Mətbuat konfransında çıxış edən "Baku Creative Center" yaradıcılıq mərkəzi, "Nar Mobile" mobil operatoru və Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri bu genişmiqyaslı tədbirin əhəmiyyətindən bəhs ediblər.**

**Qeyd edək ki, "Nar Mobile" mobil operatorunun səyi nəticəsində ardıcıl olaraq ikinci il keçirilən festival çərçivəsində gənc azərbaycanlı rəssamlar tərəfindən ölkənin müxtəlif bölgələrinə səfərlər edilir, sərgi və ustad dərsləri təşkil olunur, yüksək performans nümayiş etdirilir. Xoş ənənəni davam etdirən gənc rəssamlar bu il ardıcıl olaraq Astara (2-4 iyul), Lerik (4-6 iyul), Yardımlı (6-8 iyul), Lənkəran (8-10 iyul), Bərdə (10-12 iyul), Goranboy (13-15 iyul), Gəncə (15-17 iyul), Şəmkir (17-19 iyul), Qazax (20-22 iyul) və Ağstafada (22-24 iyul) olacaq, sərgi və dərslər təşkil edəcəklər. Bu il festivalın daha interaktiv bir şəraitdə keçirilməsi gözlənilir. Belə ki, ustad dərslərdə sənətə marağı olan hər kəs yaradıcılıq prosesinin şahidi olmaqla yanaşı, həm də dərs zamanı hazırlanan kiçik sənət nümunəsini özü ilə apara biləcək. "Azerbaijan Art Festival" səfərlərinin mütəmadi olaraq təşkil edilməsi rəssamlıq sənətinin bölgələrdə təşviqi baxımından böyük önəm daşıyacaq.**

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan "Nar Mobile" 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində "Nar Mobile" daima sərfəli qiymət siyasətinə sadiq qalaraq, müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təklifləri təqdim etmiş və onların rəğbətini qazanmışdır. Mobil operator münasib danışıq tarifləri ilə yanaşı, müxtəlifliyi və sərfəliliyi ilə seçilən İnternet paketləri və hər zona üzrə vahid qiymət ödənilməsini nəzərdə tutan sadə rouminq təklifləri ilə abunəçilərin etimadını doğrultmuşdur. Xatırladaq ki, "Nar Mobile" mobil operatoru abunəçilərinə bölgələrdə ünsiyyəti daha sərfəli edən "Sənin 3-ün" tarifini də təklif edir. Bu tarifə qoşulan hər bir istifadəçi bölgələrdə bütün Azərbaycanla dəqiqəsi 3 qəpiyə danışmaq imkanı əldə edir.**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- ✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- ✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- ✓ Əla tələffüz və güvənlə danışmaq
- ✓ Real ingiliscə söhbətlər

BONUS English EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014

# "Akkord"da şok korrupsiya faktları...

## Şirkətdə ciddi yoxlamalar başlayıb, bir departamentdə 20 milyon manata yaxın yeyinti aşkar edilib və cinayət işi açılıb

**"Akkord" şirkətində şok korrupsiya faktları barədə redaksiyamıza məlumat daxil olub. Məlumat verən mənbə bildirir ki, 2013-cü ilin oktyabrından şirkətdə işlər qismən dayanıb. Nəticədə maaşların verilməsində fasilələr yaranıb. Şirkətin baş direktoru Xəqani Quluzadə işdən çıxarılıb. Bunu isə onun xaricə təhsil almağa getməsi kimi izah ediblər. "Ancaq onun işdən çıxarılması adi məsələ deyildi, ortada ciddi məsələlər dayanırdı. Belə ki, onun adı "Akkord"da baş vermiş çoxsaylı maliyyə yeyintilərində əsas fiqur olaraq çəkilirdi.**

Şirkətin baş direktorunu işdən çıxarmaq adi məsələ deyil. Bu göstərişi "Akkord"un əsas səhmdarı sayılan İlqar Hacıyev vermişdi. İlqar Hacıyev 2010-cu ildən "Akkord"dan ayrılsa da, əsas səhmdar kimi qalırdı və Almaniyada "Akkord"un nümayəndəliyində oturrurdu. Onun qayıtması və şirkətdə təmizləmə aparması səbəbsiz deyildi".

Məlumatda qeyd edilir ki, Xəqani Quluzadənin "Akkord"a rəhbərlik etdiyi son üç ildə şirkət Azərbaycan Beynəlxalq Bankından yarım milyard manatdan çox kredit götürərək bölgələrdə müxtəlif layihələr başlayıb. Bildirilir ki, kreditlər Xəqani Quluzadə, onun tikinti üzrə müavini Elçin Bədəlov, su-kanalizasiya departamentinin rəhbəri Fariz Cəmili və istehsalat departamentinin direktoru Kamil Hüseynov tərəfindən mənimsənilib. Kreditlərin qaytarılması məsələsi gündəmə gələndə şirkət çətin vəziyyətə düşüb.

**"Krediti qaytarmaq lazımdır, pul isə yoxdur. Krediti qaytarılmamasını görən Beynəlxalq Bank rəhbərliyi üz tutur bankın əsl sahiblərinə. Bunlar isə çox qüdrətli insanlardır və kim olduqlarını xatırlatmağa ehtiyac yoxdur. Məhz bu qüdrətli əlin köməyi ilə "Akkord"un əsas səhmdarı İlqar Hacıyev Almaniyadan gətirilib və ona şirkəti bu günə salmış adamları təmizləmək tapşırığı verilib"**,- deyə məlumatda qeyd edilir.

Qeyd edilir ki, yoxlamalar ilk olaraq kreditin ən çox mənimsənildiyi su-kanalizasiya və istehsalat departamentlərində başlayıb və külli miqdarda yeyinti faktları aşkarlanıb. Təsəvvür edin ki, su-kanalizasiya departamentinin təkcə Şəmkir layihəsinin anbarında 300 min manatlıq material əskikliyi aşkar edilib. Ümumilikdə isə departamentdə 20 milyon manata yaxın yeyinti aşkar edilib. Yoxlamalar təkcə "Akkord"un Audit Departamenti tərəfindən deyil, həm də kənardan dəvət olunmuş audit şirkəti tərəfindən aparılırdı".

**Məlumatda bildirilir ki, Fariz Cəmilinin "Akkord"un bu günə düşməsində "xidmətləri" çoxdur. Belə ki, onun özünün AGE adlı ayrıca şirkəti var və tunel tikintisi ilə məşğuldur. O şirkətin sifarişlərini ayrı-ayrı subpodrat şirkətlərə satıb:** "Şəmkir layihəsinin anbarında dəyəri 75 min avro olan aparatın, çəkisi tonlarla ölçülən armaturun, PVC və dəmir boruların yoxa çıxması da aparılan yoxlamalar zamanı aşkar edilib. Yeyintilərə görə cinayət işi açılıb və cinayət işi Korrupsiyaya Qarşı Mübarizə İdarəsindədir. Hazırda Su Kanalizasiya Departamentinin Sabirabad, Cəlilabad, Agstafa və Şəmkir layihələrində işçilər ixtisara salınıb. Hər layihədə 4-5 nəfər qalıb. Bir sual verən yoxdur ki, yaxşı bəs "Akkord"un öhdəsinə götürdüyü layihələri kim işləyəcək?"

**Mənbə bildirir ki, audit yoxlamalarından sonra tikinti üzrə baş direktorun müavin Elçin Bədəlov, təhqiqat departamentinin direktoru Şahin Məmmədov, su-kanalizasiya departamentinin direktoru Fariz Cəmili, infrastruktur departamentinin direktoru İlqar Budaqov, kadrlar departamentinin direktoru Səbinə Feyzova işdən çıxarılıblar:** "Ancaq indi yenə də şirkətdə kütləvi şəkildə ixtisarlar gedir. Şirkətdə ikili rəhbərlik sistemi mövcuddur. Xəqani Quluzadə gedəndən sonra şirkətə onun müavini işləmiş Göksəl Aybək rəhbərlik edir və o, ancaq öz həmvətənlərini müxtəlif vəzifələrə irəli çəkməklə məşğuldur. Şirkətin Zığ qəsəbəsində yerləşən İnfrstruktur Departamentinə Hüseyn Gümüş adlı təzə direktor gəlib və gələn gündən azərbaycanlı işçilərin 95 faizini ixtisara salıb. Hazırda bu vəziyyət davam edir və nə ilə qurtaracağı bəlli deyil".

Qarşı tərəfin də mövqeyini işıqlandırmağa hazırıq. Şirkətdən bildirildi ki, sözügedən faktlara və iddialara münasibət bildiriləcək.

❑ **R.QURBANLI**

# "A.M.A.Y."ı "Ağ şəhər"in balansına verirlər

## Baxımsız qalan MDB-nin ən böyük ticarət mərkəzi görkəmini dəyişəcək; satıcılar: "Bizə xəbər göndəriblər ki, mağazaları bağlamayın"

**Xətai rayonunda tikilməkdə olan "Ağ şəhər" layihəsi genişləndirilir. "Yeni Müsavat"ın məlumatına görə, MDB-nin ən böyük ticarət mərkəzi olan "A.M.A.Y." bu layihəyə əlavə edilir. Belə ki, ticarət mərkəzi tam yeni görkəm alaraq hazırda tikilməkdə olan "Ağ şəhər" kompleksinə daxil ediləcək. Ötən gün ticarət mərkəzində olub, bu məsələyə aydınlıq gətirməyə çalışdıq.**





Satıcıların sözlərinə görə, ticarət mərkəzinin rəhbəri Abdulla Abdullayevin həbsindən sonra mərkəzdə əl dəyişib. Damət adlı satıcının sözlərinə görə, yeni rəhbərlik onlarla hər hansı bir görüş keçirməyib: "Ticarət mərkəzi boşalıb. "Asan xidmət", "Beynəlxalq bank" və bir neçə geyim mağazasından başqa fəaliyyətdə olan obyekt yoxdur. Yeni rəhbərliklə hər hansı bir görüşümüz olmayıb. Amma bizlərə xəbər göndəriblər ki, mağazaları bağlamayın, yer haqları ilə bağlı endirim olacaq. Mən özüm ayda 800 manat yer pulu verirəm. Amma 6 aydır 1 qəpik belə olsun ödəniş etməmişəm. Çünki alver yoxdur. Qonşuluqdakı bütün mağazalar bağlanıb. Tək-tük fəaliyyət göstərən bir-iki obyekt var. Biz də heç ayda 1-2 paltar sata bilmirik. Maaş verə bilmədiyimizə görə satıcılar da işdən çıxdı. Məcburam səhərdən axşama kimi burda oturub müştəri gözləyəm. İndi də deyirlər ki, buranı "Ağ şəhər"ə əlavə edəcəklər. Bu məqsədlə burda təmir-tikinti işləri aparılacaq".

**Satıcılarla söhbət əsnasında öyrəndik ki, vaxtilə Abdulla Abdullayevə məxsus "Birlikbank"ın balansında olan mağazalara əl qoyulub:** "Abdulla Abdullayev mağazaları girov qoyaraq bankın borclarını bağlamaq üçün pul götürmüşdü. Həmin bank bağlandı, daha sonra Abdullayev həbs olundu. Mağazalarımıza əl qoyulduğundan biz də obyektimizin pulunu alıb çıxa bilmirik. İndi bizə söz veriblər ki, ticarət mərkəzinin yeni sahibi kreditlə satılan mağazalara görə bizlərə ödəniş edəcək. Abdulla Abdullayevin burada mağaza alan 35 sahibkara 577 min manat borcu var idi".

Məlumat üçün bildirək ki, A.Abdullayev bu il aprelin 4-də həbs edilib. Onunla bağlı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

A.Abdullayevin həbsi ilə bağlı Baş Prokurorluğun mətbuat xidmətinin zamanında yaydığı məlumatda qeyd olunurdu ki, ilkin araşdırma zamanı toplanmış sübutlar əsasında Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

### "Ağ şəhər" tamamlanmaq üzrədir

Onu da qeyd edək ki, Xətai rayonunda tikilməkdə olan "Ağ şəhər" layihəsinə daxil olan nəhəng binalar kompleksinin tikintisi tamamlanmaq üzrədir.

Layihə üzrə tikinti sahəsi əvvəlcə 221 hektar olan "Ağ şəhər" layihəsi çərçivəsində yaşayış, iş, istirahət və əyləncə üçün ən yaxşı şərait təqdim edəcək şəhər tipli 10 universal kvartalın yaradılması nəzərdə tutulub. Bakının müasir mərkəzi həm də şəhər nəqliyyatının yeni şəbəkəsinin yaradılması sayəsində universal olacaq. Belə ki, "Ağ şəhər"in mərkəzi meydanına çıxışı olan metro stansiyasının inşa olunması, avtobus nəqliyyatı şəbəkəsinin inkişaf etdirilməsi nəzərdə tutulub. Bütün sahil boyu tramvay xəttinin çəkilməsi də planlaşdırılır. Su nəqliyyatından istifadə edilməsi üçün bulvar xətti boyu dəniz yolunun salınması da nəzərdə tutulub.

"Ağ şəhər" layihəsi üzərində işləmək üçün azərbaycanlı mütəxəssislərlə yanaşı mühəndis dizaynı sahəsində ixtisaslaşan "Atkins" (Böyük Britaniya), "Foster + Rartners" və "F+A Architects" kimi məşhur memarlıq şirkətləri də prosesə cəlb edilib.

❑ **Fərahim İLQAROĞLU**
**Fotolar müəllifindir**




# BP yalan danışır, yoxsa ARDNŞ?

## BP-nin "World Statistical Energy Review 2013" hesabatında 2013-cü ildə Azərbaycanda 46,2 mln. ton neft çıxarıldığı göstərilir, ARDNŞ isə ötən il cəmi 43,5 milyon ton neft hasil edildiyini deyir; qeydiyyata alınmayan 2,7 milyon ton neftin qara bazarda satılması ilə bağlı iddialar var

**Bu yaxınlarda bp-nin "World Statistical Energy Review 2013" hesabatı açıqlanıb. Bir çox analitiklər və şirkətlər bu dərgidən mötəbər və etibarlı mənbə kimi faydalanırlar. Hesabat 1951-ci ildən dərc edilir..**

Hesabatda Azərbaycan üzrə göstəricilər bir qədər mübahisəli görünür. bp-nin məlumatına görə, 2013-cü ildə Azərbaycanda sutkada 931 min barel neft və ya ildə 46,2 mln ton neft çıxarılıb. Ötən illə müqayisədə hasilat sutkada 12 min barel və ya ildə 500 min ton artıb.

"bp-Azerbaijan"in ölkəmizdəki fəaliyyəti barədə hesabatda (13 fevral 2014-cü il) bildirilir ki, 2013-cü ildə AGÇ (Azəri-Günəşli-Cıraq yataqlarında neft hasilatı) çərçivəsində 32,2 milyon ton neft (azalma 700 min ton) çıxarılıb. "Şahdəniz"də kondensat hasilatı 2,4 milyon ton (artım artım 480 min ton) olub. Yəni maye karbohidrogen hasilatı ümumən 2013-cü ildə 220 min ton azalıb.

Azərbaycan neftinin 72 faizi AÇG-də hasil edilir. "Şahdəniz"də kondensat hasilatı nəzərə alınmaqla bp-nin Azərbaycanda neft hasilatında payı 76 faizdir.

Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi məlumatına görə, 2013-cü ildə Azərbaycanda 43 milyon 83 min 300 ton neft və kondensat hasil edilib.

Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) isə bildirir ki, şirkət ötən il ölkədə 43 milyon 483 min 900 ton neft və kondensat hasil edib. Dövlət şirkətinin hesablamalarına görə, 2013-cü ildə ölkədə neft hasilatı 94,1 min ton artıb.

Beləliklə, ARDNŞ-lə Dövlət Statistika Komitəsinin hesabatları arasına 400,6 min ton fərq yaranıb. Burada maraqlı bir detal var. Statistika Komitəsi rəsmi hesabatları aidiyyəti qurumların məlumatları əsasında tərtib edir. Yəni Statistika Komitəsinin ARDNŞ-də hasilatın həcminin hansı səviyyədə olmasını müstəqil şəkildə izləmək və monitorinq aparmaq səlahiyyəti yoxdur. Ona görə də Statistika Komitəsinin hansı mənbəyə əsaslanaraq belə bir ziddiyyətli rəqəm ortaya qoyması anlaşılmır.

Ən ciddi məsələ isə bp-nin hesabatı ilə yerli statistika arasındakı kəskin fərqin yaranmasıdır. bp ötən il Azərbaycanda 46,2 milyon ton, yerli statistika isə təxminən *(ARDNŞ və Statistika Komitəsinin hesabatını ümumiləşdirsək)* 43,5 milyon ton neft çıxarıldığını deyir. Beləliklə də, bp-nin hesabatı ilə yerli hesabat arasında 2,7 milyon ton fərq yaranır. Bu təbii ki, çox ciddi fərqdir - Azərbaycanda rəsmən elan edilən həcmin 6,2 faizinin hara "buxarlanması" sual olaraq qalır.

"Turan" agentliyi bp-yə müraciət edərək bu fərqi izah etməyi xahiş edib. Ancaq aydın cavab alınmayıb. Çünki bp-Azerbaijan təmsilçiləri bu hesabatın hazırlanmasında birbaşa iştirak etməyib. Hesabat hazırlayanlar öz mənbələrinə istinad edirlər.

Burda Azərbaycan tərəfinin də təqsiri var. Son 6-7 ildə əməliyyat şirkətləri üzrə ayrıca hesabat açıqlanmır. Əks təqdirdə, şübhələr qalmazdı: kim haqlıdır - bp, yoxsa Azərbaycan? Digər tərəfdən, xaricdə bir çoxları bp-yə istinad edir.

Neft şirkətindəki mənbələrdən redaksiyamıza verilən məlumata görə, Azərbaycanda neft hasilatı ilə bağlı fərqli rəqəmlərin ortaya çıxması onu göstərir ki, "qara qızıl"ın bir hissəsi elə qara bazarda da satılır: "Çıxarılan neftin bir hissəsi rəsmi qeydiyyatdan keçmədən satılır və vergiyə cəlb edilmir. Gəlir də şirkət və dövlət büdcəsinə yox, ayrı-ayrı şəxslərin cibinə axır".

Bu ziddiyyətli məlumatlara aydınlıq gətirmək üçün ARDNŞ-in mövqeyini dərc etməyə hazırıq.

❑ **İqtisadiyyat şöbəsi**

YENİ MÜSAVAT
N 170 (5879) 4 iyul 2014




Cümə söhbətləri

# Həqiqi oruc üçün bəndəlik şərti

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Bismilləhir-Rahmənir-Rahim! Mübarək Ramazan ayının günlərinin hər birinin önəmli xüsusiyyətləri və cəhətləri var. Bu, Ramazan ayının gündəlik dualarında da özünü göstərir. Ramazan ayının içində çoxlu nemətlərin, fürsət və imkanların yatdığını bildirmişdik. Qeyd etmişdik ki, bu ayda Allah-Təalanın sonsuz nemətlərindən pay apara bilmək bizim özümüzdən asılıdır. Allah bu ayda bizə xüsusi lütflər və bəxşişlər əta edib, nemətlər verib. Şübhəsiz ki, Allah-Təalanın bəndəyə ən böyük lütf və bəxşişlərindən biri də insanın tövbə edə bilməsidir ki, bu ayda Rəbbimiz buna daha çox vurğu edib. Bizim diqqətimizi bir daha bu mövzuya cəlb edib.**

Allah-Təala insana tövbə etmək nəsib etsə, bu, artıq insanın sözün həqiqi mənasında İlahi lütfə yaxınlaşdığı deməkdir. Bu mənada Ramazan ayının beşinci gününün duasında da Allahdan məhz tövbə və istiğfar diləyirik: “Allahım, məni bu gün tövbə və istiğfar edənlərdən qərar ver. Məni dostların sayılan saleh bəndələrindən qərar ver. İlahi, öz məhəbbət və mərhəmətinlə məni bu gün Sənə yaxın olan bəndələrindən qərar ver. Ey mərhəmət edənlərin ən mərhəmətlisi!”

## Bəndəlik şərti...

Tövbə və istiğfar bizim qurtuluşumuzun, xilasımızın, bizim aqibətimiz xeyirli olub-olmamasının istiqamətvericisidir. Ağlı başında olan, düşüncəsi yerində olan, qəflətdən ayılmış bir insan öz əməllərinə, rəftar və davranışlarına baxan zaman görər ki, Allah dərgahında təqdim edə biləcəyi bir şey yoxdur. Namazı namaz deyil, orucu oruc deyil, yaşamağı yaşamaq deyil, davranışları davranış deyil, əxlaqı əxlaq deyil və s. Amma bir ümidi var. O da budur ki, Rəbbi - tövbələri qəbul edən Rəbdir. Allah Təala tövbələri qəbul edəndir. Günahları yuyub aparandır...

**Mübarək Qurani-Kərimin “Şura” surəsinin 25-ci ayəsində bu həqiqəti Rəbbimiz bizlərə özü çatdırır. Ayədə buyurulur:** “Bəndələrinin tövbəsini qəbul edən, günahları bağışlayan və sizin nə etdiyinizi bilən Odur”. Rəbbimiz bizə mühüm bir bilgi verir. Allah-Təala bütün tövbəkarların tövbələrini qəbul edər. Allah-Təala tövbə halına gəlib çata bilən hər bir kəsin tövbəsini qəbul edən Allahdır. Peşman olan, səmimi qəlbdən narahat olan, Allaha tərəf yönəlmək istəyən və keçmiş günahları təkrar etmək istəməyən hər bir kəsin tövbələrini Allah-Təala qəbul edər.



Ayədən belə anlaşılır ki, Allah-Təala öz bəndələrinin tövbələrini qəbul edəndir. Deməli, sən bəndə olsan, Onun dərgahında öz durumunu dərk etsən, bu durumdan peşman olsan, həmin günahları bir daha təkrarlamamaq üçün əzmin olsa, bir bəndə olaraq, artıq doğru yola düzəlməyə, Allaha tərəf yönəlməyə əzmin olsa, o zaman ayədə keçən “bəndələr” ibarəsinin misdaqı və nümunəsi olarsan. Çünki Rəbbimiz bizə Özünü bəndələrinin tövbələrini qəbul edən sifəti ilə tanıdır. Bizə burada düşən budur ki, gərək bəndə olaq, Allah-Təalanın razılığını əldə edək.

## “Əbdullah” olanın xoş halına

Allah-Təalaya bəndə olmaq çox mühüm məsələdir. Dünyada, yaşadığımız həyatda ən uca məqam Allaha bəndə ola bilməkdir. Allah-Təala əziz Peyğəmbərimizi (s) də bizə tanıtdıranda “əbduhu”, - yəni “Onun (Allahın) bəndəsi” sifəti ilə təqdim edir. Yəni Peyğəmbər (s) Allahın bəndəsi olandan sonra, Onun Rəsuludur (s). İbadətə layiq - yalnız Allahdır, itaət olunmağa layiq - yalnız Odur, pərəstişə layiq olan - yalnız odur. Ondan başqası yoxdur. Bir kəs gerçəkdən Allahın bəndəsi olsa, “əbdullah” olsa, xoş o ada~mın halına. Bu baxımdan mübarək Ramazan ayında Allaha bəndə olmaq üçün çox gözəl fürsətlər var. Ay özünün bərəkət və rəhməti ilə gəlir və bizim üçün fürsətlər yaradır ki, Allahın bəndəsi olaq. Bütün əyri-əskiklərimizlə, çatışmazlıqlarımızla, il ərzində içimizdə toplanan bütün o şeytənətlər, iblisvarı hallarımızla imkanımız var ki, tövbə edib, təmizlənək, Allah bəndəsi olaq. Mübarək Ramazan ayının beşinci gününün duasında Allah Təala xüsusi olaraq, belə bir imkanın bu ayda yatdığını bir daha insanın diqqətinə çatdırır.

## Günahın bağışlanmasının müqəddiməsi

Qeyd etdiyimiz ayənin davamında Allah Təala özünü bizlərə günahları bağışlayan kimi təqdim edir. Buyurulur ki, Allah Təala bütün pis işləri bağışlayar. Əgər diqqət etsək, görərik ki, burada Allah-Təalanın bizim pis işlərimizi, günahlarımızı bağışlamasından söhbət gedir. Ayədə deyilmir, bəzi günahlar, deyilir ki, ümumiyyətlə günahları bağışlayar. Amma bunun üçün müqəddimə də verir - bəndə olub, tövbə etmək müqəddiməsi. İnsan bəndə olub, tövbə etsə, günahları nə qədər çox da olsa, Allah-Təala bağışlayar. Mübarək Ramazan ayının bu günündə bu nöqtə keçir. Əslində, 5-ci günün bu duası ilə biz həmin ayədə keçən günahları bağışlanmış kəslərdən olmaq istəyirik. O, hər şeyi bilir, bütün əməllərimiz bilir. Səmimi qəlbdən tövbə etdiyimizi də bilir, etmədiyimizi də. Növbətçi xarakterli tövbə etdiyimizi də bilir, həqiqi tövbəmizi də. Allahdan istəyirik ki, bizə bu inayəti etsin ki, ayədə işarə olunan bəndələrdən olaq. Belə bəndələr olan, həqiqi oruc tutanlardan olar.

## Tövbə günahların bağışlanmasına zəmin yaradır

Ayədən aydın olan bir neçə mətləb var. Biri budur ki, Allah-Təala bəndələrinin tövbələrini qəbul edəndir. Bu ayə bizə bu nəticəni çıxartmağa imkan verir. İkinci mühüm nöqtə bundan ibarətdir ki, tövbənin qəbul olunması və günahların bağışlanması yalnız Allah əlindədir. Yəni Allah-Təaladan başqa tövbə qəbul edən, günahları bağışlayan başqa bir ünvan yoxdur. Bizim aqibətimiz, axitərimiz, günahla bağlı tövbə məsələmiz yalnız Allah-Təaladan asılıdır. Bir mühüm nöqtə də budur ki, tövbə, günahların bağışlanmasına zəmin yaradır. Yəni biz tövbə diləməliyik ki, Allah-Təala bizim günahlarımızı bağışlasın.

## Allahdan qafil olduğumuz hər an - tövbəlik üçün haldır

**Əziz İslam Peyğəmbərinin (s) tövbə barəsində belə buyurduğunu nəql edirlər:** “Tövbə, keçmişdə olanların üstünü örtür”. İnsanlar adətən etdikləri günahları açıq danışırlar. Bu xüsusiyyət dinimiz tərəfindən bəyənilmir. Bizdə adətən iki cür yanaşma var: ya insanlar hansısa qələtlər edib, səhvlər edib, peşman olandan sonra, tövbə edəndən sonra, keçmişlərini yada salmaq istəyirlər. Ya da bəzən deyirlər ki, biz nə etmişik ki, tövbə də edək?! Hər iki yanaşma yanlışdır. Tövbə yalnız, haqq basandan sonra etmirlər ki!... Tövbə yalnız haram içkilərdən olmur ki!... Tövbə yalnız qumar oynamağa düşmür ki!... İnsanın hər gün bir qələtləri, səhvləri olur. Allahdan qafil olduğumuz hər an - əslində, tövbəlik haldır.

## Həqiqi tövbə edən - günah etməyən kimidir

Yenə Əziz Peyğəmbərimizdən (s) buyurulur: “Günahından tövbə etmiş şəxs, günah etməmiş şəxs kimidir”. Bir adam həqiqi tövbə edibsə, Allah deyən kimi olubsa, artıq heç kim onun keçmişini ona xatırlada bilməz. Çünki Allah ona tövbə etməyi nəsib etməklə hədisdə də keçdiyi kimi, onun keçmiş əməllərinin üstünü örtüb. Allah bilər, o adam bilər.

İmam Əlidən (ə) buyurulur: “Tövbə günahları təmizləyər və qəlbi yuyar”. İndi o aydayıq ki, bu ayda günahlar yanaraq aradan gedir, yuyulub paklanaraq aradan gedir. İndi əsl tövbə etmək zamanıdır, əsl bağışlanmaq fürsətidir. Tövbələr bu ayın içində xüsusi nəticələr verər.

**Allahın Peyğəmbəri (s) bir başqa yerdə buyurur:** “Allahın yanında tövbə etmiş mömin kişi və mömin qadından sevimli heç nə yoxdur”. Allah-Təala tövbə edəni sevir. Tövbəkar Allahın sevimlisi olur. Allahın sevimlisi olmağa çalışaq gərək.

Allah Peyğəmbərindən (s) yenə buyurulur: “Həqiqətən Allahın Öz bəndəsinin tövbə etməsindən sevinci uşağı olmayanın uşağı olduqda, bir şeyi itirənin onu tapdıqda və susuz şəxsin su tapan zaman duyduğu sevincdən çoxdur”. Övladı dünyaya gəlməyən insan övladı dünyaya gələndə necə sevinir? Rəbbimiz də biz tövbə edəndə bundan qat-qat çox sevinir.

## Tövbəkarın nişanələri və günahını etiraf edən günahkar

**Əziz Peyğəmbərimiz (s) tövbə etmiş şəxsin nişanələrini verir:** “Tövbə etmiş şəxsin dörd nişanəsi var: əməli yalnız Allaha görə xalisləşdirmək, batili tərk etmək, haqqa bağlı olmaq və yaxşılığa hərislik”.

**İmam Əlidən (ə) nəql edirlər:** “Öz günahını etiraf edən günahkar, öz əməli ilə öyünən itaətkardan daha yaxşıdır”. Öz əməli ilə, itaəti ilə öyünən, “mən namaz qılıram”, “mən oruc tuturam”, “mən filan yerdə filan cür etdim” kimi iddialarla öyünən insandan, öz günahını etiraf edən günahkar daha yaxşıdır. Allah-Təala bizlərə öz günahlarımızı etiraf etmək səadətini nəsib etsin və öz əməllərimizlə öyünmək mərəzindən də bizləri xilas etsin, inşəallah.

**İmam Baqirdən (ə) nəql edirlər:** “Vallah, Allah-Təala insanlardan yalnız iki şey - nemətlərini daha da artırması üçün onlara görə şükür etmələrini və günahlarını bağışlamaq üçün günahlarını etiraf etmələrini istəyib”. Allah nemət əta edib, gərək bunun şükrünü edəsən. Nemətə şükür etmək - o nemətlə şükür halında rəftar etmək deməkdir. Yəni o neməti o yerdə xərcləməlisən ki, orada sərf etməlisən ki, o cür onunla rəftar etməlisən ki, Allah o cür istəyir və onu sənə o cür işlətmək etmək üçün əta edib əslində.

## Tövbəni gecikdirmək

**Tövbəni gecikdirənlərlə bağlı İmam Əlidən (ə) belə nəql edirlər:** “Tövbə işini sabaha saxlayan şəxs, ölümün hücumu ilə böyük təhlükə qarşısındadır”. İnsan hər an ölə bilər. Əcəli müəyyən etmək insanın əlində deyil ki... Biri namaz qılmır, amma deyir ki, başlayaram. Amma ölüm vəfa etmir və ölüb gedir. Biri başqa vacibatları yerinə yetirmir, deyir ki, vaxtı gələndə edərəm, amma ölüm gəlib çatır və heç nə edə bilmir. Əcəl qədər məchul olan ikinci bir şey varmı?! Nə vaxt gedəcəyini bilmirsənsə, deməli, elə indi də gedə bilərsən. Bu, həm namazı başlamayanlara aiddir, həm Allahın başqa vacibatlarını yerinə yetirməyənlərə aiddir, həm də namaz qılıb, başqa vacibatları yerinə yetirib, amma Allah dərgahında səmimi qəlblə öz münasibətini düzəltməyən, tövbə halında olmayan hər bir kəsə aiddir. Hərəyə öz dərəcəsində aiddir. Allah bizləri tövbələrini gecikdirənlər etməsin, inşəallah.

## Günahın yaxşılığa çevrilməsi

**Yekun olaraq bu mövzuda İmam Sadiqdən (ə) nəql olunan hədisə də toxunaq:** “Allah-Təala Davud Peyğəmbərə (ə) vəhy etdi: ”Ey Davud, mömin bəndəm günah etsə və sonra həmin günahdan üz döndərərək, tövbə etsə və onu xatırlayan zaman Məndən həya etsə, onu bağışlayar, həmin günahı əməlləri qoruyub saxlayan mələklərin yadından çıxarar və onu yaxşılığa çevirərəm. Mənim bu işdən heç bir çəkinəcəyim yoxdur. Çünki Mən - mehribanların ən mehribanıyam"". Rəbbimiz belə bir Rəbdir. Bəndə günah iş görür, səhv edir, qələt edir, amma Allah onu günahını etraf etmək şərtilə bağışlayır. Əgər peşman olub, Allahın dərgahında günahı etiraf edirsənsə, həmin günah yadına düşəndə Allahdan həya edib utanırsansa, ilk növbədə Allah Təala səni bağışlayacaq, ikincisi, mələklərin yaddaşından siləcək, üçüncüsü, həmin günahı yaxşı əməllərə çevirər hətta. Allahdan diləyirik ki, bizə bu ayda tövbə etməyi nəsib etsin inşallah.

**Allahım, bu bağışlanma və mərhəmət ayında insan şəklinə düşməyi nəsib et.**

**Allahım, bizlərə bu ayda bağışlamağı nəsib et.**

**Allahım, bizə bu ayda gözlərimiz, dillərimiz və qulaqlarımızın oruc tutmasını nəsib et.**

**Allahım, bu ayda düşüncələrimizin, təfəkkürümüzün oruc tutmasını nəsib et.**

**Allahım, həyatımızın hər çalarında Sənin mərkəzi yer tutmağını nəsib et.**

**Allahım, bizi qəflətdən oyat.**

**Allahım, bizə bu gündə qəflətdən nicat tapmağı, sənsizlikdən uzaq düşməyi, Səninlə olmağı nəsib et.**

**Allahım, səni daim xatırlamağı bizlərə nəsib et.**

**Allahım, zikrinin şirinliyini bizə dadızdır.**

**Allahım, səhv edərkən tövbə etməyi bizlərə nəsib et,**

**Allahım, bizə səhvlərimizi xatırlayanda Səndən həya etməyi nəsib et.**

**Allahım, bizi günahlarımızı etiraf edənlərdən qərar ver.**

**Allahım, Zəmanə Sahibinin (ə.f) zühurunu təcil et və bizi onun (ə.f) zühurunu tezləşdirənlərdən qərar ver, inşəallah. Amin!**



**Braziliyada keçirilən XX dünya çempionatının ən həyəcanlı mərhələsi də gəlib çatdı. 32 komandadan indi yalnız 8-i dünya kuboku uğrunda mübarizəni davam etdirir. İki günlük fasilədən sonra iyunun 4-də Bakı vaxtilə saat 21:00-da 1 /4 finalın ilk oyununda Fransa-Almaniya millilər qarşı-qarşıya gələcəklər. İyunun 5-nə keçən gecə isə saat 01:00-da meydan sahibləri Braziliya millisi Kolumbiya ilə qarşılaşacaq. Buna Cənubi Amerika derbisi də demək olar...**

**"Mundialın 1/4 finalında Fransa Almaniyaya, ev sahibləri isə Kolumbiya millisinə rəqib olacaq; bu oyunda kolumbiyalılar əstəğfürullah, İsa Məsihə belə güzəştə gedənə oxşamırlar...**




# Braziliyanın rəngi bu gecə sarala bilər

***

Fransa bu çempionatda ən stabil oyun göstərən komandadır. Qrup mərhələsində 7 xal toplayan Fransa millisi rəqib qapılarından 7 top keçirərək məhsuldar oyun nümayiş etdirib. Amma zəif Nigeriya ilə 1/8 finalda qələbəyə baxmayaraq (2:0) Didye Deşamın komandası o qədərdə inamlı təsir bağışlamadı. Elə Almaniyada Əlcəzair baryerini o qədərdə asan keçmədi.

Fransa və Almaniya yığmalarının 2013-cü ilin fevralında Sen-Denidə keçirilən son yoldaşlıq görüşündə almanlar qalib gəlsələr (2:1) də, son 25 ildə bu komandaların rəqabətində fransızların aşkar üstünlüyü var: 7 oyun, 5 qələbə, 1 heç-heçə və 1 məğlubiyyət. İndiyə kimi 25 dəfə qarşılaşan rəqiblər 3 dəfə də dünya çempionatlarında qüvvələrini sınayıblar. DÇ-1958-də 3-cü yer uğrunda oyunda 6:3 hesabıyla qalib gələn fransızlar DÇ-1982 və DÇ-1986-nın yarımfinalında isə məğlub olublar: əvvəlcə penaltilər seriyasında 4:5 (əsas və əlavə vaxt - 3:3), dörd il sonra isə 0:2.

Almaniya millisinin qapıçısı Manuel Noyer Fransa ilə oyunöncəsi fikirlərini bölüşüb. Təcrübəli qolkiper Fransanın mundialın ən sabit komandası olduğunu bildirib: "Əlcəzairlə görüşdə əlavə 30 dəqiqə oynamalı olduq. Fransanın Nigeriyanı 90 dəqiqə ərzində 2:0 hesabı ilə məğlub etdiyini düşünündə, narahat olmaya bilmirsən. Fransa dünya çempionatının ən sabit komandasıdır. Bu görüşdə meydana çıxacaq 11 futbolçumuz oyuna tam hazır olmalıdır". Fransa - Almaniya görüşünü isə argentinalı Nestor Pitan idarə edəcək.

Fikrimizcə, bu oyunda komandaların şansları bərabərdir.





***

Braziliyanın bu mundialda öz gücündən aşağı oyun nümayiş etdirdiyi barədə tənqidlərin nə dərəcədə əsaslı olduğunu ev sahiblərinin 1/8 final mərhələsində Çili ilə oyunu bir daha təsdiqlədi. 120 dəqiqəlik mübarizədə Braziliya ənənəvi olaraq qalib gəldiyi Çili millisindən üstün oyun göstərmədi. Penaltilər seriyasında da meydan sahibləri yalnız qapıçı Julio Sezarın rəqibin iki futbolçusunun zərbəsini dəf etməsi sayəsində qalib gələ bildi. Braziliya 1/4 finala "sürünə-sürənə" gəldi və bu oyunla burdan o tərəfə getmək indi daha çətindir. İş penaltilərə qalsa belə...

Braziliyalıların təcrübəli baş məşqçisi Skolarini başa düşmək olar. Onun məsuliyyəti bu çempionatda digər komandaların baş məşqçilərindən ikiqat daha ağırdır. Çili üzərində qələbənin qiymətini onun Neymara sarılaraq ağlaması da göstərdi. Bəli, Çili sıradan bir komanda deyildi. Bu, Skolarinin də etiraf etdiyi kimi "çox yaxşı futbolçulardan təşkil olunmuş, topla əla davranan komandadır". Bəs, Braziliya?

Skolari hələ ilk oyunda Xorvatiya millisinə çətin qələbədən(2:1) sonra da tənqidlərə rəğmən "səhvlərdən nəticə çıxaracaqlarını" demişdi. O, eyni sözləri Çili ilə oyundan sonra keçirilən mətbuat konfransında da dedi: "Səhvləri analiz edəcəyik..."

Çili yığması ilə 120 dəqiqəlik bərbad oyunla "Skolari hələ bütün kartları açmayıb" düşünənləri də məyus etdi. İndi birmənalı demək olar ki, Braziliyadan artığını gözləməyə dəyməz, komandanın oyunu nədirsə elə budur. Burdan o tərəfə isə...

Daniel Alveş, Tiaqo Silva, David Luiz, Marselo, Paulinyo, Oskar, Luis Qustavo, Halk, Fred və Neymar...Heyətə söz demək mümkün deyil, amma komanda... Bu komandanın adı mələn, Haiti olsaydı, bu oyunlarla mundialın "əjdahası" adlanardı. Amma bu axı Braziliyadır. B-ra-zi-li-ya!

Braziliya millisinin həmişə bəxti ulduz oyunçu sarıdan gətirib. Pele, Sokrates, Ziko... Komandada ulduz oyunçu komandanın yarısı, canı deməkdir. Braziliyanın heyətində bu dəfə bir lider var: Neymar.

22 yaşlı bu hücumçunun Kolumbiya ilə oyuna çıxmayacağı ilə bağlı xəbərlər təsdiqlənməyib. Komandanın həkimi deyib ki, gənc hücumçu məşqlərə başlayıb və onun Çili ilə oyunda aldığı zədə ciddi deyil. Xatırladaq ki, Braziliyanın qələbəsi rəsmiləşdikdən sonra Neymar meydançada ağlamışdı. O, çətin qələbəyə çox sevindiyini, amma belində də kəskin ağrılar olduğunu demişdi. Neymarın meydanda olmaması Braziliyanın rəngini daha da "saraldardı". Bəxtləri gətirib...

Bu mundialda sensasion şəkildə çempionluq iddiasını ortaya qoyan və gözəl oyun nümayiş etdirən Kolumbiya millisi ən yaxşı sözləri haqq edir. Qrupda maksimum xal toplayan(3 oyunda 3 qələbə) və rəqib qapısından 9 top keçirərək yalnız Almaniyadan geri qalan(10) Kolumbiya millisi bu mundialda çempionluğa üç ən layiq komanda sıralamasında bu sətirlərin müəllifinin fikrincə, birincidir. Kolumbiyanın oyununda müasir futbolun tələb etdiyi hər şey var: komanda, sürət, texnika və qol!

Kolumbiyanın sıradan komanda olmadığı mundialdan əvvəl də məlum idi. FİFA-nın son reytinq cədvəlində Kolumbiya 8-ci pillədə qərarlaşıb. Braziliyadan 5 pillə aşağıda. Amma bu oyunda kolumbiyalılar əstəğfürullah, İsa Məsihə belə güzəştə gedənə oxşamırlar...Onlar bu gecə Braziliyanı mundialın medalından kənarda qoysalar qarşılarını almaq çox çətin olacaq.

Statistikaya diqqət yetirdikdə Braziliyanın aşkar üstünlüyü var. Braziliya və Kolumbiya milli komandalarının bundan əvvəlki 25 görüşündən dördü son 10 ildə baş tutub və hamısı heç-heçə yekunlaşıb, o cümlədən ilk üçü 0:0 hesabıyla. Rəqiblər sonuncu dəfə 2012-ci ilin noyabrında Nyu-Yorkda 1:1 hesablı bərabərliklə ayrılıblar. Ümumiyyətlə, Kolumbiya tarixi ərzində yalnız iki dəfə Braziliyaya qalib gəlib: 1985-ci ildə 1:0, 1991-ci ildə isə 2:0 hesabıyla. 1957-ci ildə Cənubi Amerika çempionatının final mərhələsində Braziliya kolumbiyalıların qapısında 9 cavabsız top keçirib. Bu oyunlarda ümumilikdə Braziliya Kolumbiya millisin qapısında 76 top keçirib, 25 top isə buraxıb.

Radamel Falkaonun zədə səbəbindən mundiala gələ bilməməsi Kolumbiya millisi üçün ciddi itki oldu. Amma 22 yaşlı Ceyms Rodriqes Falkaonun yoxluğunu unutdurdu.

Ceyms Rodriqes bu çempionatın son nəticəsindən asılı olmayaraq, ən yaxşı oyunçusu olmağa layiqdir. O, hazırda Kolumbiya futbolunun bəlkə də ən istedadlı oyunçusudur. Təsadüfi deyil ki, vətənində onu Kolumbiyanın yeni Valderraması da adlandırırlar. Ceyms Rodriqes mundialda oynadığı 4 qarşılaşmada 5 qol və 4 məhsuldar ötürməylə yadda qalıb. 22 yaşlı bombardir Uruqvayla oyunda 2 top vuraraq komandasının növbəti mərhələyə vəsiqəsinin təmin etdi. Rodriqesdən başqa hücum xətti Teofilo Quterres, Xuan Kuadrado, Viktor İbarbo, Xuan Kamilo Suniqa, Adrian Ramos və Karlos Bakka kimi oyunçular da var ki, onlar istənilən rəqibin qapısına yol tapa bilərlər.

Kolumbiyanın baş məşqçi Xose Pekermanı Braziliya çempionatından əvvəl müdafiə futboluna üstünlük verdiyi üçün çox tənqid edirdilər. Bu iradları komandanın mundial ərəfəsində keçirdiyi üç yoldaşlıq görüşünün 2-sində qeydə alınan heç-heçə də təsdiqləyirdi. Amma Pekerman mundiala sanki başqa komanda gətiribmiş kimi hücum taktikasını seçdi və nəticə göz qabağındadır. Yeri gəlmişkən, Kolumbiya 1/8 finalın taleyini əsas vaxtda həll edən iki komandadan biri(Fransa da Nigeriyaya əsas vaxtda qalib gəlmişdi) oldu.

Bukmeykerlər bu oyunda Braziliyanı üstün görürlər. Amma niyə? Yəqin ki əsasən Braziliyanın ev sahibi olduğu səbəbindən. Amma Kolumbiyada bu mundialda ev sahibi hesab olna bilər. Bu ölkələrin elə şəhərləri var ki, evin divarının o biri üzü ya Braziliya, ya da Kolumbiyadır...Qeyd edək ki, Braziliya - Kolumbiya matçını ispaniyalı Karlos Velasko idarə edəcək.

Mundialin taleyi üçün çox mühüm bir oyun olacaq. Cənubi Amerika derbisi.

**Bəlkə də bu gün uduzan evdə qaldı...**

❑ **Orxan ƏLİYEV**





# YENİ MÜSAVAT

Son səhifə

N 170 (5879) 4 iyul 2014




## Ramazanda nələr yeyilməlidir?

Türkiyəli dietoloq Əsma Birkol daha sağlam və rahat oruc tutmaq üçün nələrin edilməli olduğunu açıqlayıb. O, Ramazan ayında mədə problemləri yaşamamaq və daha rahat oruc tutmaq üçün bir sıra məsləhətlər verib: “Bir çox insanlar gecə imsaka durmadan oruc tuturlar. Amma bu orqanizm üçün bir sıra problemlər yaradır. Ramazanda onsuz da uzun olan aclıq gecə sahurda (imsak) yemək yeyilmədikdə, daha da uzanır və halsızlıq, təzyiq, hipoqlikemiya (şəkərin aşağı düşməsi) və s. kimi problemlər əmələ gətirir. Bu səbəbdən mütləq şəkildə sahurda yemək yeyilməlidir. Amma sahurda ağır yeməklərdən qaçmaq lazımdır. Gecə orqanizmdə maddələr mübadiləsi yavaş getdiyindən orqanizmin yağlanma sürəti artır və çəkinin artması baş verir. Buna görə də sahurda qızartma kimi çox yağlı və xəmirdən hazırlanmış məhsullardan istifadə etməmək məsləhətdir. Tərkibində zülal daha çox olan yumurta, süd, qatıq, pendir kimi ağartı məhsullarından ibarət səhər yeməyi yemək daha üstündür. Bu qidalar mədənin boş qalma vaxtını uzatdığı üçün aclıq hissini gecikdirir. Sahurda meyvə və tərəvəzlərdən istifadə etmək olar. İtirilmiş enerjini bərpa etmək üçün şərbətli məhsullardan istifadə etmək düzgün seçim deyil. Südlü və ya meyvəli yüngül tərkibli şirniyyatlar yeyilməlidir. Çay, kofe kimi kofein tərkibli və eləcə də, qazlı içkilərin çox qəbul edilməsi yuxusuzluq əmələ gətirir, həzm və ürək problemləri yaradır”.

## Cinayətkarlıqdan manikenliyə keçdi

Amerikada terrorçu qruplaşma üzvü olduğu və silah gəzdirdiyi üçün həbs edilən şəxsin şəkli polis şöbəsinin internet saytında yayımlandıqdan sonra populyarlaşıb. Ceremi Meeks adlı məhkum Los-Ancelesdəki Blaze Models adlı manikenlik şirkəti ilə 30 min dollarlıq sövdələşmə imzalayıb. İlk dəfə polis şöbəsinin rəisinin facebook profilində yayımlanan şəkil bu günə qədər 100 min nəfər tərəfindən bəyənilib, 12 min 800 nəfər tərəfindən paylaşılıb və şəklə 26 min 500 nəfər şərh yazıb. Meeks həbsxanadan çıxdıqdan sonra maniken olaraq çalı-



## Rəssamın yatağı 4 milyona satıldı

Dünyanın ən məşhur hərrac evlərindən biri daha bir qeyri-adi satışın şahidi olub. Belə ki, britaniyalı rəssamın dağınıq formada olan yatağı özünə yeni alıcı tapıb. Yığılmamış yatağın qiyməti isə nə az, nə çox - düz 2,4 milyon funt sterlinq (təqribən 4,3 milyon dollar) olub. Treysi Eminin yatağı “Christie’s” hərrac evində satışa çıxarılıb. Rəssam yatağının ətrafını əsl zibilliyə çevirib. Belə ki, dağınıq formadakı yatağın ətrafında kağız, butulka, siqaret kötükləri və sairə var. Rəssamın “Mənim yatağım” adlandırdığı “əl işi” 1998-ci ildə yaradılıb. Onun sözlərinə görə, bu əsər ayrılıqdan sonrakı vəziyyəti əks etdirir. “O zaman mən çox sevdiyim bir adamla ayrılıq ərəfəsində idim. Dörd gün yataqdan çıxmamışdım”.

“Mənim yatağım” ilk dəfə 2000-ci ildə satılıb. O zaman bu işə 150 min funt sterlinq qiymət qoyulmuşdu. İlkin olaraq 51 yaşlı rəssamın yatağı 650 min funt sterlinq dəyərində qiymətləndirilib. Lakin “White Cube” qalereyasının yaradıcısı olan Cey Coplinq ona iki dəfə artıq pul ödəyibmiş.





## Uyğurda oruc tutmaq qadağan edildi

Çinin Sincan Uyğur Özərk bölgəsində dövlət işçilərinin, şagirdlərin və müəllimlərin oruc tutması qadağan edilib. Uyğur bölgəsində bəzi dövlət qurumlarında da oruc qadağan edilib. Hökumət orqanları internetdə elan yayımlayaraq dövlət işçiləri, şagirdlər və tələbələrin oruc tuta, digər dini ayinlərdə iştirak edə bilməyəcəklərini açıqlayıblar. Çinin bəzi bölgələrində isə partiya üzvlərinin və gənclərin Ramazan fəaliyyətlərində iştirak etməsi qadağan edilib. Qəzetlərdə yayılan məlumatlara görə, bəzi şirkətlər xalqa gün ərzində pulsuz yeməklər verməyə başlayıblar.

Məlumat üçün bildirək ki, ölkədə son bir il ərzində 200 nəfər öldürülüb. Ölkə rəhbərliyi insanların ölümündə terror təşkilatlarını günahkar görür. Onların fikrincə, terroristlər radikal İslam partiyalarının üzvləridir. Məhz bu səbəbdən də İslamın ölkədə güclənməsinin qarşısını almağa çalışırlar.




**QOÇ** - Mübarək günlərə təsadüf edən bu təqvimdə bacardığınız qədər savab işlər görün. Ətrafınızda olanların rəğbətini qazanmaq gün ərzində başlıca vəzifənizə çevrilməlidir. Hər hansı səfər uğurlu deyil.

**BUĞA** - İxtiyarınızda olan bu gözəl təqvimdə falçı və ya cadugərlərə üz tutmaqdansa Allaha xoş gedən addımlar atın. Ulduzlar bu gün maddi irəliləyişlə bahəm, maraqlı tanışlıqlardan da xəbər verir.

**ƏKİZLƏR** - Əsas gücünüzü sevgi amilinə yönəldin. Çünki qarşı tərəflə aranızda ciddi anlaşılmazlıqlar var. Ulduzlar səmimi və mehriban olmağı tövsiyə edir. Uzaq səfərə hazırlaşmağa dəyər.

**XƏRÇƏNG** - Göy qübbəsi nahara qədər müəyyən gərginliklə üzləşəcəyinizi bildirir. Yaxşı olar ki, həmin vaxt təmkin göstərib adi işlərlə məşğul olasınız. Sonrakı ərəfə isə çox uğurludur.

**ŞİR** - Ailə-sevgi münasibətlərində olan gərginlik tədricən qaydasına düşəcək. Artıq ünsiyyətdə olduğunuz hər kəs sizi anlamağa başlayacaq. Fəaliyyət zəminində riskli və təhlükəli addım atmayın.

**QIZ** - Xarakterinizə münasib olmayan mənfi enerjili Ay 14:42-yə qədər bürcünüzdə qərar tutsa da, bu gün sizə əlavə enerji verəcək. İstənilən söhbətdə ədalət prinsiplərini qoruyun. Axşama doğru şübhəli qidalardan qaçın.

**TƏRƏZİ** - Yarımçıq işlərinizi yekunlaşdırmaq üçün daxili potensialınız artacaq. Bu istiqamətdə sizə dəstək verənlər də olacaq. Heç də hamıya şübhə ilə yanaşmayın. Şəxsi büdcənizi qoruyun.

**ƏQRƏB** - İradənizə hakim kəsilib dinə zidd hərəkətlərə yol verməyin. Bununla siz ürəyinizdə olan saf arzularınızın gerçəkləşməsini sürətləndirə bilərsiniz. Nahardan sonra səfərə çıxmaq olar.

**OXATAN** - Fəaliyyət müstəvisində çox uğurlu vaxtdır. Aldığınız hər bir təklifə müsbət yanaşın. Bütün mənbələr maddi durumunuzda irəliləyişlər olacağını göstərir. Münasibətlərə fikir verin.

**OĞLAQ** - Proqnozlara görə bu gün hava çox isti olacaq. Bu səbəbdən də günün ilk yarısını daha çox istirahətə həsr etməlisiniz. Sonrakı müddətdə isə iyul planlarınızı bir daha götür-qoy edin.

**SUTÖKƏN** - Başqalarının şəxsi işinə qarışmaq, dedi-qoduya əhəmiyyət vermək, riskli pul yatırımları etmək sizi təhlükəyə ata bilər. Ulduzlar fəaliyyətdə və ünsiyyətdə hər şeyin ürəyinizcə olacağını bildirir.

**BALIQLAR** - Yaxşı olar ki, bu gün kiməsə yalan vədlər verməyəsiniz. Günün ikinci yarısında sizə ehtiyacı olan yaxınlarınıza baş çəkməyə çalışın. Büdcənizdə artım da gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İki sevda çəkən ingilisə unikal cəza




İngiltərədə baş verən hadisə ölkə mediasının ən önəmli mövzularından birinə çevrilib. İki qadınla eyni vaxtda görüşən kişi bir anda biabır olub. Stevan Frazer adlı kiş tərəfindən aldadıldıqlarını anlayan qadınlar ondan intiqam almağa qərar veriblər. Onlar S.Frezerin körpü üzərindən böyük bir rəsmini asıblar. Hər gün minlərlə adamın gördüyü afişada qadınların şəkilləri də yerləşdirilib. Şəkillərin üzərinə isə “hər iki sevgilin aldadıldığını bilir” deyə yazılıb. Xəyalları yıxılan qadınlar kişini biabır edərək ondan intiqamını alıblar. Məsələnin maraqlı tərəfi ondan ibarətdir ki, qadınları ortaq tərəfi yalnız sevgililərin eyni adam olması deyil. Onlar həm də əkiz qədər bir-birilərinə bənzəyirlər.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 6.350